

**“Bu gün müstəqil Azərbaycan dövləti özünün ən şanlı dövrünü yaşayır. Çünki Azərbaycan tarixdə heç vaxt bu qədər güclü olmamışdır. Bu gün bu, həm siyasi gücdür, iqtisadi gücdür, xalq-iqtidar birliyidir, hərbi gücdür və bizim regionda oynadığımız müsbət roldur.”**

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

# AZƏRBAYCAN PROKURORLUĞU

**Təsisçi:**
Azərbaycan Respublikasının
Baş Prokurorluğu

**REDAKSİYA HEYƏTİ**

**Baş redaktor:**
Heydər Məmmədov

**Baş redaktorun müavini:**
Mübariz Əhmədov

**Redaksiya heyətinin üzvləri:**
Elşən Abbasov
Natiq Hüseynov
Aynur Osmanova
Erkin Əlixanov
Elnur Musayev
Vüqar Əliyev
Anar Məmmədov
Şəfahət İmranov

**Məsul katib:**
Günay İsmayılova

**Redaksiyanın ünvanı:**
AZ 1001, Azərbaycan Respublikası,
Bakı şəhəri, S.Tağızadə küçəsi, 78 A.
**Tel. / Faks:** 492 25 17
**www.genprosecutor.gov.az**

***Elmi-praktiki jurnalın 4-cü nömrəsi***

***Oktyabr - Dekabr (2020-ci il)***

"Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq qaydada təsis edilmişdir.

Jurnal 2003-cü ildən etibarən rübdə bir dəfə dövriliklə dərc edilir.

Azərbaycan Respublikası Baş prokurorunun 9 iyul 2020-ci il tarixli, 10/76 nömrəli əmri ilə "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının redaksiya heyətinin yeni tərkibi təsdiq edilmişdir. "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının fəaliyyəti üçün məsul qurum Baş Prokurorluğun Elm-Tədris Mərkəzidir.

Yazılardakı məlumatların doğruluğuna jurnalın redaksiya heyəti məsuliyyət daşımır.

Jurnalda dərc edilmiş məlumatlardan istifadə zamanı jurnala istinad etmək vacibdir.

Azərbaycan Respublikası Baş prokurorunun yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin mətbəəsində səhifələnmiş və çap edilmişdir.

Çapa imzalanmışdır: 19.02.2021
60x84 1/8 formatda 194 səhifə həcmdədir.
Tiraj: 770 nüsxə

© "Azərbaycan Prokurorluğu", 2020

# MÜNDƏRİCAT

## I ÖLKƏDƏ


**5** Prezident İlham Əliyevin xalqa 27 sentyabr 2020-ci il tarixli müraciəti

**7** 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

**8** İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda və Şəhidlər xiyabanında olublar

**11** 2020-ci il noyabrın 8-də Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin xalqa müraciəti

**16** İlham Əliyev və Rusiya Prezidenti Vladimir Putin videokonfrans formatında görüşüblər

**18** İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarında, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərində olublar

**29** İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Ağdam şəhərində olublar

**38** Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

**41** Azərbaycan Respublikasında Anım Gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

**41** Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

**42** Vətən müharibəsi şəhidlərinin xatirəsinin yad edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

**43** İlham Əliyev və birinci xanım Mehriban Əliyeva şəhidlərimizin xatirəsini yad ediblər

**45** İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında iştirak ediblər

**58** İlham Əliyev Qubadlı və Zəngilan rayonlarında olub

**71** Rusiyanın məşhur “Vedomosti” nəşri Prezident İlham Əliyevi “İlin siyasətçisi” seçib

**71** Türk dünyası İlham Əliyevi ilin lideri seçdi


## I BAŞ PROKURORLUQDA


**73** Azərbaycan Respublikası Prokurorluğunun əməkdaşlarına ali xüsusi rütbələrin verilməsi və bir qrup prokurorluq əməkdaşının təltif edilməsi dövlət başçısı cənab İlham Əliyevin prokurorluq orqanlarına göstərdiyi ali diqqət və qayğının təzahürüdür

**74** Azərbaycan Respublikası Prokurorluğunun əməkdaşlarına ali xüsusi rütbələrin verilməsi haqqında

**75** Azərbaycan Respublikası Prokurorluğunun bir qrup əməkdaşının təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

**76** Azərbaycan Respublikası Prokurorluğu orqanları digər dövlət orqanları ilə əlaqəli şəkildə ümumi şanlı qələbəmiz naminə səlahiyyətləri çərçivəsində zəruri olan bütün işlərin həyata keçirilməsində yaxından iştirak etmişdir

**78** Baş prokuror və Hərbi prokuror cəbhə xəttinə gediblər

**79** Ermənistan Silahlı Qüvvələrinin Azərbaycanın mülki əhalisinə qarşı törədilmiş cinayətlərlə bağlı ölkəmizdə akkreditə olunan diplomatik korpusun, yerli və beynəlxalq media qurumlarının nümayəndələri üçün birgə brifinq keçirilib

**81** Ermənistanın dinc mülki əhalimizə qarşı cinayətlər törətməsinə dair birgə brifinq keçirilmişdir

**82** Baş prokuror Kamran Əliyev Rusiyanın məşhur “Rossiya-1” və “Pervıy” telekanallarına müsahibə vermişdir

**83** MDB-nin iştirakçısı olan dövlətlərin Baş prokurorlarının Əlaqələndirmə Şurasının videokonfrans formatında keçirilən 30-cu iclasında Ermənistan dövlətinin müharibə, sülh və insanlıq əleyhinə cinayətləri barədə ətraflı məlumat verilmişdir

**84** Azərbaycan Respublikasının Baş Prokurorluğu adından Bəyanat

**85** Azərbaycan və Rusiyanın Baş prokurorları arasında telefon danışığı olub

**86** Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev və Azərbaycanın Baş prokuroru Kamran Əliyev Gəncəyə getmişlər

**88** Azərbaycan Respublikası Baş prokuroru və Azərbaycan Respublikası Fövqəladə Hallar naziri Gəncədə hadisə yerində olmuşlar

**89** Azərbaycan Respublikası Baş Prokurorluğunun Mətbuat xidmətinin Məlumatı

**90** Baş prokuror Kamran Əliyevlə Türkiyəli həmkarları arasında telefon danışığı baş tutmuşdur

**91** Azərbaycan Respublikası Baş prokuroru və digər vəzifəli şəxslər Bərdə şəhərində hadisə yerində olmuşlar

**93** Ermənistan təcavüzü nəticəsində törədilmiş cinayətlərin istintaqının ilkin nəticələrinə dair brifinq keçirilmişdir

**94** Baş prokuror Kamran Əliyev Türkiyənin “Haber Global” televiziya kanalına müsahibə vermişdir

**94** Baş prokuror Kamran Əliyev Azərbaycanın “Real TV” televiziya kanalına müsahibə vermişdir

**95** Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Böyük Britaniyanın “Reuters” İnformasiya Agentliyinə müsahibə vermişdir

**95** Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev BMT-nin İnsan Hüquqları üzrə Ali komissarı Mişel Baçeletə rəsmi məktub ünvanlamışdır

**96** Vətən müharibəsi ilə əlaqədar qarşıda duran vəzifələrlə bağlı Azərbaycan Respublikası Baş Prokurorluğunun Kollegiya iclası keçirilmişdir

**98** Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində terrorçuluq məqsədilə yaradılmış "VoMa" silahlı birləşməsinə qarşı cinayət işi başlanmışdır

**99** Dağlıq Qarabağ ərazisində Azərbaycan Ordusuna qarşı döyüş əməliyyatlarında iştirak edən "Zouaves Paris" qruplaşmasının lideri barəsində cinayət işi başlanmışdır

**100** Dağlıq Qarabağ ərazisində Azərbaycan Ordusuna qarşı döyüş əməliyyatlarında iştirak edən muzdlu Vaaqn Çaxalyan barəsində istintaq davam etdirilir

**100** Vejnəli qızıl yatağının talanmasına görə 3 nəfər barəsində beynəlxalq axtarış elan edilmişdir

**101** Azərbaycan Respublikasına qarşı Dağlıq Qarabağda vuruşan “Krım könüllüləri birləşməsi” adlı qrupun rəhbəri barəsində cinayət işi başlanmışdır

**103** Baş Prokurorluq tərəfindən "hamımız.com" saxta sayt ilə bağlı araşdırmalara başlanılmışdır

# MÜNDƏRİCAT


**103** Mi-24 hərbi helikopterinin vurulması ilə bağlı Baş Prokurorluqda dərhal araşdırmalara başlanılmışdır

**104** Baş prokuror Kamran Əliyev ilə rusiyalı həmkarı İqor Krasnov arasında helikopterin vurulması hadisəsi ilə bağlı telefon danışığı baş tutmuşdur

**105** Baş prokuror Kamran Əliyev BMT-nin İnsan Hüquqları üzrə Ali komissarı Mişel Baçeletə rəsmi məktub ünvanlamışdır

**106** Baş prokuror Kamran Əliyev "Amnesty International"-a məktub ünvanlamışdır

**106** Baş prokuror Kamran Əliyev "TRT Arabi" telekanalına müsahibə vermişdir

**107** Abxaziyadan gələn bir qrup muzdlu barəsində Baş Prokurorluq tərəfindən cinayət işi başlanmışdır

**108** Argentina Respublikasının Baş prokuroru Kasal Eduardo Ezeqiel Baş prokuror Kamran Əliyevə rəsmi cavab məktubu ünvanlamışdır

**108** Ermənistan tərəfindən muzdlu kimi döyüşən PKK-PYD-YPG terror təşkilatlarının üzvləri barəsində Baş Prokurorluq tərəfindən cinayət işi başlanmışdır

**109** Baş Prokurorluğun Mətbuat xidməti Ermənistan Respublikasının işğalçı mahiyyətinin ifşa edilməsi istiqamətində müxtəlif tədbirlər həyata keçirmişdir

**111** Vətən müharibəsi dövründə prokurorluq işçiləri ölkənin bir sıra aparıcı telekanallarına müsahibələr vermişlər

**113** Azərbaycan Respublikası Baş Prokurorluğunun Mətbuat xidməti Ermənistanın silahlı qüvvələrinin Azərbaycana təcavüzü ilə bağlı müxtəlif dillərdə maarifləndirici videoçarxlar hazırlanmışdır

**115** Azərbaycan Respublikası Baş Prokurorluğunun Mətbuat xidmətinin məlumatı

**116** 2020-ci ilin 27 sentyabr-10 noyabr müddətində Ermənistan tərəfindən döyüşlərdə ağ fosfor tərkibli mərmilərdən istifadə edilməsi faktına görə cinayət işi başlanmışdır

**116** "WarGonzo" layihəsinin müəllifi Semyon Peqovun "Solovyov Live" verilişində təxribat xarakterli ifadələr işlətməsinə görə araşdırmalara başlanılmışdır

**117** Baş Prokurorluq tərəfindən vətəndaşlarımıza Xəbərdarlıq

**118** Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraiyyə Komitəsinin videoformat rejimində keçirilən 50-ci iclası və 25-ci illik umumi yığıncağında tədbir iştirakçıları Qarabağ həqiqətləri barədə ətraflı məlumatlandırılmışlar

**119** Baş prokuror Kamran Əliyev Frans Press Agentliyinə müsahibə vermişdir

**120** Baş Prokurorluqda Ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilmişdir

**123** Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda ümummilli lider Heydər Əliyevin vəfatının 17-ci ildönümü ilə bağlı anım mərasimi keçirilmişdir

**124** Azərbaycan Respublikasının Hərbi prokuroru Xanlar Vəliyev Beynəlxalq Qızıl Xaç Komitəsinin nümayəndələri ilə görüşmüşdür

**125** Azərbaycan Respublikasının Baş Prokurorluğunun Elm-Tədris Mərkəzində Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycan Respublikasındakı nümayəndəliyinin əməkdaşı ilə görüş keçirilmişdir

**126** Baş Prokurorluğun Elm-Tədris Mərkəzində stajorlar üçün hazırlıq kursu təşkil edilib

**128** Baş Prokurorluqda İnsan Hüquqları üzrə Sənədlərin Axtarış Portalı (İHSAP) yaradılıb

**129** Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin müvafiq əmri ilə bir qrup prokurorluq əməkdaşı həvəsləndirilmişlər


## BEYNƏLXALQ ƏLAQƏLƏR


**130** Baş prokuror Kamran Əliyev Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas ilə görüşmüşdür

**132** Şanxay Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Baş prokurorlarının videokonfrans formatında keçirilən 18-ci iclasında Ermənistan hərbi-siyasi rəhbərliyinin göstərişi ilə törədilən sülh və insanlıq əleyhinə cinayətlər barədə ətraflı məlumat verilmişdir

**134** Baş prokuror Kamran Əliyev Türkiyə Respublikasının Baş Ombudsmanı Şərəf Malkoç ilə görüşmüşdür

**136** Baş prokuror Kamran Əliyev Tacikistan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Rustam Soli ilə görüşmüşdür

**138** Baş prokuror Kamran Əliyev Özbəkistan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Bəhrom Əşrəfxanov ilə görüşmüşdür

**140** Baş prokuror Kamran Əliyev Böyük Britaniyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Ceyms Şarp ilə görüşüb

**142** Baş prokuror Kamran Əliyev Türkiyə Böyük Millət Məclisinin İnsan Hüquqları komitəsinin sədri Hakan Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür

**145** Baş prokuror ABŞ-ın ölkəmizdəki səfiri ilə gürüşmüşdür

**147** Prokurorluq əməkdaşı Rusiya Federasiyası İstintaq Komitəsinin Sankt-Peterburq Akademiyası tərəfindən təşkil olunmuş ixtisasartırma kursunda iştirak etmişdir


## PROKURORLUQ VƏ CƏMİYYƏT


**148** Mübariz Əhmədov, Yelena Qasımova – Ermənistanın 27 ildən artıq müddətdə torpaqlarımızı işğal altında saxlaması həmin ərazilərdə urbisid aktlarının törədilməsi ilə nəticələnmişdir

**160** Aynur Osmanova – Mülki məhkəmə icraatında həqiqət məsələləri

**163** Rahim Səfəralıyev – Prokurorluğun maddi-texniki bazasının gücləndirilməsi, bu sahədə innovativ metodların tətbiqi və maliyyə şəffaflığının təmin olunması müasir Azərbaycan Prokurorluğunda həyata keçirilən islahatların prioritet istiqamətlərindən biridir

**165** Talıb Cəfərov – Hərbi münaqişələr zamanı mülki əhalinin qorunması və insan hüquqlarının müdafiəsi

**168** Firad Əliyev – 2020-ci ilin uğurları Prokurorluğu da əhatə etmişdir

**173** Əli Babayev – İnsan hüquqlarının müdafiəsində ictimai nəzarət mexanizmlərinin rolu

**177** Xaçmaz rayonu ərazisində maarifləndirici və profilaktik tədbirlər görülmüşdür


## HƏMKARLARIMIZIN MÜSAHİBƏLƏRİ


**178** Vətən müharibəsində erməni qəsbkarlarının bəşəriyyət əleyhinə törətdikləri cinayətlərin izlərini rəsmiləşdirərək xəsarət alan həmkarımız Ozal Həsənov və Silahlı Qüvvələrimizin peşəkar zabiti kimi bilavasitə döyüş əməliyyatlarında iştirak etmiş həmkarımız Əhməd Babayevin "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalına müsahibələri


## HÜQUQİ AKTLAR


**187** Qanunvericiliyə dəyişikliklər

**194** Prokurorluq üzrə hüquqi aktlar

# Prezident İlham Əliyevin xalqa 27 sentyabr 2020-ci il tarixli müraciəti



– Bu gün səhər Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək bizim yaşayış məntəqələrimizi, eyni zamanda, hərbi mövqelərimizi atəşə tutmuşdur.

Düşmən atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilər, yaralananlar var. Allah şəhidlərimizə rəhmət eləsin! Onların qanı yerdə qalmayacaqdır. Azərbaycan Ordusu hazırda düşmənin hərbi mövqelərinə atəşlər, zərbələr endirir və bu zərbələr nəticəsində düşmənin bir çox hərbi texnikaları sıradan çıxıb. Bu, erməni faşizminin növbəti təzahürüdür.

Son vaxtlar Ermənistanın Azərbaycana qarşı hərbi təxribatları müntəzəm xarakter almışdır. İyul ayında Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində yenə də artilleriya atəşi nəticəsində hərbçilərimiz və bir mülki şəxs həlak olmuşdur. Heç kəsə sirr deyil ki, ilk atəşi, o cümlədən artilleriya atəşini Ermənistan açıbdır və ilk həlak olanlar da məhz Azərbaycan həbçiləri olmuşdur. Azərbaycan düşmənə layiqli cavabını verdi və düşmən bir santimetr irəliyə gedə bilmədi. Düşmən dayandırıldı, ölkəmizin ərazi bütövlüyü qorundu. Sarsıdıcı zərbələr nəticəsində Ermənistan tərəfi məcbur olub acı məğlubiyyətlə razılaşdı. Mən bu barədə demişəm, bir daha demək istəyirəm, əgər bizim istəyimiz olsaydı hərbi döyüşləri Ermənistan ərazisinə keçirə bilərdik. Ancaq bizim Ermənistan ərazisində hərbi hədəflərimiz yoxdur və belə olan halda bir neçə gündən sonra atəş dayandırılmışdır.

Ermənistan bu təxribatı törətməklə hansı məqsədi güdürdü? İlk növbədə Azərbaycan torpaqlarının işğalı onların planındadır və onlar bunu gizlətmirlər. Onların hərbi-siyasi rəhbərliyi Azərbaycanı yeni işğalla hədələməyə çalışırdı, yeni ərazilər uğrunda yeni işğal siyasəti. Budur, bu gün Ermənistan hərbi-siyasi rəhbərliyinin siyasəti. Digər səbəb Ermənistanda mövcud olan çox ciddi sosial, iqtisadi və siyasi məsələlərdən ölkə əhalisinin fikrini yayındırmaq və Azərbaycandan düşmən obrazı yaratmaqdır. Daha bir səbəb isə ondan ibarətdir ki, Ermənistan hər vəchlə çalışır ki, danışıqlar prosesi pozulsun və deyə bilərəm ki, buna nail olub. Məhz Ermənistanın riyakar, qeyri-konstruktiv və yalançı siyasəti nəticəsində hazırda danışıqlar faktiki olaraq dayanıbdır. Növbəti təxribatın törədilməsi məhz bu məqsədləri güdür və bu məqsədlər onlar üçün əsas məqsədlərdir.

İyul ayında Azərbaycan düşmənə layiqli cavabını verdi, öz ərazi bütövlüyünü qorudu və bir daha göstərdi ki, Azərbaycanla hədə-qorxu dili ilə danışan bundan peşman olacaqdır. Əfsuslar ki, bu, onlar üçün dərs olmadı. Halbuki mən iyul təxribatından sonra demişdim ki, Ermənistanın bu acı məğlubiyyəti onlar üçün dərs olmalıdır.

Avqust ayında Ermənistan növbəti hərbi təxribata əl atdı. Bu dəfə Azəbaycana diversiya qrupu göndərilmişdir. Diversiya qrupunun başçısı Azərbaycan hərbçiləri tərəfindən saxlanılmışdır və hazırda ifadələr verir. Bu ifadələrdə açıq-aydın göstərilir ki, bu planlaşdırılmış təxribatçı diversiya qrupu Azərbaycana terror aktları törətmək

üçün gəlmişdir. Mülki əhaliyə və hərbçilərimizə qarşı növbəti hərbi təxribat bu gün Ermənistan tərəfindən törədildi və qeyd etdiyim kimi, bu dəfə də onlar öz cəzasını alıblar və alacaqlar.

Ermənistanın təxribatları, eyni zamanda, Ermənistan rəhbərliyi tərəfindən verilən bəyanatlarda da öz əksini tapır. Ermənistanın baş naziri bir il bundan əvvəl işğal edilmiş torpaqlarda - Xankəndidə demişdir ki, "Qarabağ Ermənistandır və nöqtə". Birincisi bu, yalandır, Qarabağ Azərbaycandır və mən bu məsələ ilə bağlı öz fikirlərimi dəfələrlə bildirmişəm. Qarabağ Azərbaycandır və nida işarəsi. İkincisi, bu təxribat xarakterli bəyanat faktiki olaraq danışıqlar prosesinə vurulan böyük zərbə idi. Əgər Ermənistanın baş naziri deyirsə ki, "Qarabağ Ermənistandır", onda hansı danışıqlardan söhbət gedə bilər?! Bununla paralel olaraq, Ermənistanın rəhbərliyi artıq iki il ərzində dəfələrlə bəyan edir ki, Azərbaycan Ermənistanla yox, qondarma "Dağlıq Qarabağ respublikası" ilə danışıqlar aparmalıdır. Bu da danışıqlar prosesinə vurulan böyük zərbədir. İlk növbədə, Azərbaycan heç vaxt oyuncaq xunta rejimi ilə hər hansı bir danışıqlar aparmayacaq. İkincisi, danışıqlar formatını dəyişdirmək cəhdləri bir daha onu göstərir ki, Ermənistanın əsas məqsədi danışıqları pozmaq və status-kvonu saxlamaqdır. Halbuki ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin dövlət başçıları dəfələrlə bəyan etmişlər ki, status-kvo qəbul edilməzdir və bu, o deməkdir ki, işğala son qoyulmalıdır.

Ermənistanın bizə qarşı təxribatları bu faktlarla bitmir. Bu yaxınlarda bizim qədim Azərbaycanın qədim şəhəri olan Şuşada qondarma kriminal xunta rejiminin başçısının "andiçmə" mərasimi keçirilmişdir. Bu, təxribat deyilmi? Bu, bizə qarşı təhqirdir. Onlar hesab edirdilər ki, biz bu təhqirlə barışacağıq, razılaşacağıq. Onlar bizi şüurlu şəkildə təxribatlara çəkirlər və bunun acı nəticələrini görəcəklər.

Bu yaxınlarda qondarma "Dağlıq Qarabağ respublikası" parlamentinin qədim Azərbaycan şəhəri - Şuşaya köçürülməsi haqqında qərar qəbul edildi. Bu, növbəti təxribatdır. Bu yaxınlarda Ermənistanın baş naziri bəyan etmişdir ki, on minlərlə insanı birləşdirən "könüllü" hərbi birləşmələr yaradılacaqdır. Bu, nə üçün lazımdır? Bunlar kimə qarşı vuruşacaqlar? Bu, Azərbaycana qarşı bu gün törədilən təxribatın hazırlıq mərhələsi idi. Mən artıq bir neçə dəfə demişdim, o cümlədən bu yaxınlarda BMT kürsüsündən demişdim ki, Ermənistan yeni müharibəyə hazırlaşır, Ermənistan dayandırılmalıdır və dayandırılacaqdır.

Ermənistan işğal edilmiş torpaqlarda qanunsuz məskunlaşma siyasəti aparır. Bu yaxınlarda Livan ermənilərindən ibarət bir neçə ailə Dağlıq Qarabağa, o cümlədən Azərbaycanın qədim şəhəri olan Şuşaya yerləşdirildi. Bu, hərbi cinayətdir. Bu, Cenevrə Konvensiyasına tamamilə ziddir. Bu cinayətə görə Ermənistan cavab verəcəkdir. Bu, bizə qarşı növbəti təxribatdır. İşğal edilmiş torpaqlarda məskunlaşma aparmaq cinayət hesab olunur və bu siyasət Ermənistan tərəfindən uzun illər ərzində aparılır. İş burasındadır ki, Ermənistanda mövcud olan ağır iqtisadi, siyasi və sosial vəziyyətə görə ölkə əhalisi azalır. Ermənistanda demoqrafik böhran yaşanır və onlarda insan resursları yoxdur ki, işğal edilmiş torpaqlarda öz adamlarını yerləşdirsinlər. Ona görə xaricdə yaşayan ermənilərə ümid edirlər. Hazırda bu siyasət davam etdirilir. Bununla paralel olaraq, bizdə olan dəqiq məlumata görə, bizim işğal edilmiş bəzi ərazilərimizdə Ermənistan qanunsuz məskunlaşma aparıbdır. Bizim rayonlarımızın, kəndlərimizin adları dəyişdirilir. Azərbaycanlıların tarixi irsi silinir. Bizim tarixi abidələrimiz dağıdılır. Azərbaycan məscidləri dağıdılır, təhqir edilir. Bizim məscidlərimizdə Ermənistan inək, donuz saxlayır. Bu, bütün müsəlman aləminə ən böyük təhqirdir. Bizim əcdadlarımızın qəbirləri traktorla dağıdılır. Bunu edən faşistlərdir, vandallardır, vəhşilərdir.

Eyni zamanda, işğal edilmiş torpaqlarda bu yaxınlarda keçirilmiş hərbi təlimlər bizim üçün Ermənistanın növbəti təxribatı sayılmalıdır. Çünki bu təlimlərin bir məqsədi var: Azərbaycana hücum etmək, mülki əhalini atəşə tutmaq və yeni torpaqları işğal etmək! Sadaladığım bütün faktlar bir daha onu göstərir ki, bu gün regionda təhlükə mənbəyi Ermənistandır və onun çirkin siyasətidir.

Azərbaycan heç bir təxribata əl atmamışdır. Azərbaycan sadəcə olaraq öz maraqlarını müdafiə edir, öz mövqeyini dəstəkləyir və öz siyasətini alnıaçıq aparır. Biz dəfələrlə bəyan etmişik ki, Dağlıq Qarabağ əzəli tarixi Azərbaycan torpağıdır və bu, həqiqətdir. Ermənistanın baş naziri deyəndə "Qarabağ Ermənistandır", bu, yalandır. Mən deyəndə ki, "Qarabağ Azərbaycandır", bu, həqiqətdir. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Tarixi ədalət bizim tərəfimizdədir. Çünki bu, bizim doğma, dədə-baba torpağımızdır. Beynəlxalq hüquq bizim tərəfimizdədir. Bütün beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Bütün ölkələr Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Beynəlxalq təşkilatlar çərçivəsində qəbul edilmiş qərar və qətnamələr Dağlıq Qarabağın Azərbaycana məxsus olduğunu açıq-aydın təsbit edir. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsində deyilir ki, erməni silahlı qüvvələri dərhal, tam və qeyd-şərtsiz işğal edilmiş torpaqlardan çıxarılmalıdır. Otuz ilə yaxındır ki, bu qətnamələr kağız üzərində qalır. Otuz ilə yaxındır ki, Minsk qrupu çərçivəsində danışıqlar aparılır və bunun sonunda Ermənistan müntəzəm olaraq hərbi təxribatlar törətməklə danışıqlar prosesini iflic vəziyyətə salıbdır. BMT-dən başqa bütün digər aparıcı beynəlxalq təşkilatlar bizim haqlı mövqeyimizi müdafiə edir. Qoşulmama Hərəkatı BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisatdır ki, bu gün Azərbaycan bu təsisata sədrlik edir. Onlar münaqişə ilə bağlı ədalətli qətnamə qəbul etmişlər. İslam Əməkdaşlıq Təşkilatı ədalətli qətnamələr qəbul etmişdir. ATƏT-in qərarları, Avropa Parlamentinin qətnamələri bizim mövqeyimizi dəstəkləyir. Bizim mövqeyimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır. Biz öz torpağımızda vuruşuruq. Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?! Heç kəs üçün sirr deyil ki, "Dağlıq Qarabağ ordusu"nun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır.

Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

# 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması ilə bağlı tədbirlər haqqında

2020-ci il sentyabrın 27-də Ermənistan Respublikası silahlı qüvvələrinin ölkəmizə qarşı törətdiyi növbəti hərbi təxribata cavab olaraq, Azərbaycan Respublikasının Silahlı Qüvvələri qətiyyətli əks-hücum əməliyyatlarına başlamış və Azərbaycan Respublikasının bir neçə rayonunu, eləcə də strateji əhəmiyyətli digər ərazilərini işğaldan azad etmişdir. Vətən torpaqlarını işğaldan azad edən rəşadətli və müzəffər Ordumuzun həyata keçirdiyi uğurlu hərbi əməliyyatlar nəticəsində Ermənistan Respublikasının silahlı qüvvələri darmadağın edilərək, canlı qüvvə və texnika sarıdan böyük itkilər verərək geri çəkilməyə məcbur olmuş və döyüş meydanındakı acınacaqlı məğlubiyyətlərinin əvəzini çıxmaq üçün Azərbaycanın münaqişə zonasından və cəbhə xəttindən uzaqda yerləşən şəhər və rayonlarındakı mülki əhalini, eləcə də infrastruktur obyektlərini hədəf seçmiş, müxtəlif növ silahlarla, o cümlədən artilleriya və ballistik raketlərlə atəşə tutaraq insanlıq əleyhinə cinayətlər və müharibə cinayətləri törətmiş, mülki şəxsləri vəhşicəsinə qətlə yetirmiş, insanların əmlakına, infrastruktur obyektlərinə irimiqyaslı zərər vurmuşlar.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsini və aradan qaldırılmasını təmin etmək məqsədilə aşağıdakı tərkibdə Dövlət Komissiyası (bundan sonra – Dövlət Komissiyası) yaradılsın:

***Dövlət Komissiyasının sədri***

**Əli Əsədov** – Azərbaycan Respublikasının Baş naziri

***Dövlət Komissiyasının sədr müavini***

**Şahin Mustafayev** – Azərbaycan Respublikası Baş nazirinin müavini

***Dövlət Komissiyasının üzvləri***

**Anar Ələkbərov** – Azərbaycan Respublikası Prezidentinin köməkçisi

**Zeynal Nağdəliyev** – Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri

**Şahmar Mövsümov** – Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri

**Gündüz Kərimov** – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi

**Xalid Əhədov** – Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi

**Kəmaləddin Heydərov** – Azərbaycan Respublikasının fövqəladə hallar naziri

**Mikayıl Cabbarov** – Azərbaycan Respublikasının iqtisadiyyat naziri

**Samir Şərifov** – Azərbaycan Respublikasının maliyyə naziri

**Ceyhun Bayramov** – Azərbaycan Respublikasının xarici işlər naziri

**Anar Quliyev** – Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri

**Kamran Əliyev** – Azərbaycan Respublikasının Baş prokuroru.

**2. Dövlət Komissiyası:**

**2.1.** 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsini iki ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**2.2.** bu Sərəncamın 2.1-ci bəndində nəzərdə tutulan qiymətləndirmənin nəticələrinə əsasən dəymiş ziyanın aradan qaldırılması, zərər vurulmuş obyektlərin tam bərpası və təmir-tikinti işlərinin həyata keçirilməsi üçün tələb olunan maliyyə vəsaiti barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**2.3.** aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə bu Sərəncamın 2.1-ci bəndində nəzərdə tutulan ziyana və onun aradan qaldırılmasına, o cümlədən zərər vurulmuş obyektlərin tam bərpası və təmir-tikinti işlərinin aparılmasına çəkilmiş xərclərə dair vahid məlumat bazasının yaradılmasını, habelə həmin məlumatların daim yenilənməsini təmin etsin;

**2.4.** görülmüş işlər barədə ictimaiyyətin mütəmadi məlumatlandırılmasını təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 2.3-cü bəndində nəzərdə tutulmuş məlumatların beynəlxalq ictimaiyyətə, o cümlədən beynəlxalq təşkilatlara çatdırılması üçün tədbirlər görsün.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 6 noyabr 2020-ci il.

# İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda və Şəhidlər xiyabanında olublar





2020-ci il noyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda və Şəhidlər xiyabanında olublar.

Dövlətimizin başçısı Şəhidlər xiyabanında Azərbaycan xalqına müraciət edib.

Əvvəlcə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin xatirəsinə ehtiramlarını bildirdilər.

Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin abidəsi önünə əklil qoydu.





Azərbaycanın Dövlət Himni səsləndirildi.

Dövlətimizin başçısı və xanımı görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın xatirəsini də yad etdilər.

Görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə gül dəstələri düzüldü.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şəhidlər xiyabanına gəldilər. Dövlətimizin başçısı və birinci xanım Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad etdilər, məzarları önünə gül dəstələri düzdülər.





Prezident İlham Əliyev "Əbədi məşəl" abidəsinin önünə əklil qoydu.
Azərbaycanın Dövlət Himni səsləndirildi.
Dövlətimizin başçısı Şəhidlər xiyabanında Azərbaycan xalqına müraciət etdi.

# 2020-ci il noyabrın 8-də Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin xalqa müraciəti



– Əziz həmvətənlər, əziz bacılar və qardaşlar!

Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm.

İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür! Bu qələbəni biz döyüş meydanında qazandıq, danışıqlar masası arxasında yox. Mən dəfələrlə demişəm, bütün bəyanatlara rəğmən ki, bu münaqişənin – Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin hərbi həll yolları da vardır və bu gün biz bunu döyüş meydanında sübut edirik. 30 ilə yaxın mənasız danışıqlar bizi heç bir nəticəyə yaxınlaşdırmadı. Əzəli tarixi torpaqlarımız 30 ilə yaxın işğal altında qaldı. Danışıqlar prosesində Ermənistan tərəfi, sadəcə olaraq, vaxt udmaq istəyirdi, sadəcə olaraq, status-kvonu möhkəmləndirmək, əbədi etmək istəyirdi. Bu illər ərzində dəfələrlə Azərbaycana müxtəlif güc mərkəzlərindən göndərilən siqnallar bizi vəziyyətlə barışmağa sövq edib. Ancaq biz qətiyyət, cəsarət, siyasi iradə göstərərək Azərbaycan xalqının maraqlarına cavab verməyən heç bir razılaşmaya getmədik. Mən dəfələrlə bütün beynəlxalq kürsülərdən bəyan etmişdim ki, torpaqlarımızın, ərazi bütövlüyümüzün bərpa edilməsi bizim əsas vəzifəmizdir və biz bu vəzifəni icra edirik. Danışıqlar heç bir nəticə vermədi. Sadəcə olaraq, bizim başımızı aldadırdılar, sadəcə olaraq, məsələni dondurmaq istəyi müşahidə olunurdu. Biz bu Qələbəni döyüş meydanında qazandıq, şəhidlər verərək bu Qələbəni qazandıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Həm birinci Qarabağ, həm ikinci Qarabağ – Vətən müharibəsi adlandırdığımız müharibədə şəhid olmuş bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm, onların yaxınlarına səbir diləyirəm. Yaralı soydaşlarımıza Allahdan şəfa diləyirəm. Biz xalqımızın, əsgərlərimizin, zabitlərimizin canı, qanı bahasına torpaqlarımızı işğalçılardan azad edirik. İşğalçıları torpaqlarımızdan qovuruq və qovacağıq!

Şuşa 28 il yarım işğal altında idi. Şuşanın Azərbaycan tarixində xüsusi yeri vardır. Bu, bizim qədim, tarixi şəhərimizdir. Əsrlərboyu azərbaycanlılar Şuşada yaşayıb, qurub, yaradıb. Şuşa nəinki Azərbaycanın, bütün Qafqazın incisidir. Ancaq mənfur düşmən Şuşanı işğal altında saxlamaqla bizim mədəni irsimizə böyük zərbə vurdu, bizim tarixi abidələrimizi dağıtdı, bizim məscidlərimizi dağıtdı, təhqir etdi. Biz indi Şuşaya qayıtmışıq. Bütün tarixi abidələrimizi bərpa edəcəyik, bütün məscidləri bərpa edəcəyik, 28 ildən sonra Şuşada yenə də azan səsi eşidiləcəkdir. Bir neçə il bundan əvvəl – 2016-cı ilin Aprel döyüşlərindən sonra işğaldan




azad edilmiş Cocuq Mərcanlı qəsəbəsində mənim göstərişimlə tikilmiş məscidin açılışında bəyan etmişdim ki, bu məscid Şuşa məscidinin bənzəridir, ölçülərinə, memarlıq üslubuna görə eynidir. Demişdim ki, gün gələcək biz Şuşa şəhərində erməni vandalları tərəfindən dağıdılmış məscidlərimizi bərpa edəcəyik və bu gün gəlir. Bu gün Azərbaycan bayrağı Şuşada dalğalanır. Bu gün bütün Azərbaycan xalqı qürur hissi ilə bu xoş xəbəri qarşılayır.

Biz güc toplayırıq, məqsədyönlü şəkildə, yorulmadan, bütün təzyiqlərə baxmayaraq, güc toplayırıq və toplamışıq. İqtisadi güc. Əgər iqtisadi gücümüz olmasaydı, bu Qələbəni əldə etmək mümkün olmazdı. İlk növbədə, iqtisadi müstəqillik təmin edilməli idi və təmin edildi. Bu gün Azərbaycan iqtisadi cəhətdən heç kimdən asılı deyil, heç bir ölkədən asılı deyil, heç bir beynəlxalq maliyyə qurumundan asılı deyil. Müstəqilik və bu, bizə imkan verdi ki, ölkəmizi inkişaf etdirək, eyni zamanda, Ordumuzu gücləndirək. Biz Ordumuz üçün lazım olan bütün hərbi texnikanı, silahları xarici bazarlardan alırıq. Əgər bizim iqtisadi imkanlarımız olmasaydı, biz bunları necə əldə edə bilərdik? Biz ölkə daxilində uğurlu siyasət apararaq hesab edirəm ki, ölkəmizdə dünya üçün çox nadir inkişaf modelini yaratdıq. Daxildəki həmrəylik, milli birlik, vahid amal uğrunda birləşməyimiz bizə əlavə güc verdi, imkan vermədi ki, bəzi mənfur xarici dairələr öz çirkin planlarını Azərbaycanda həyata keçirsinlər. Halbuki belə planlar var idi, belə cəhdlər var idi. Biz siyasi iradə göstərərək, birlik göstərərək bu cəhdləri dəf etdik, xalq olaraq, millət olaraq öz qürurumuzu müdafiə etdik, öz müstəqil seçimimizi müdafiə etdik və sübut etdik ki, heç kim bizim işimizə qarışmasın və qarışa bilməz. Əgər bu birlik olmasaydı, milli həmrəylik olmasaydı, biz heç vaxt torpaqlarımızı işğalçılardan

azad edə bilməzdik. Bu illər ərzində bizə qarşı aparılan qara piar kampaniyası, qarayaxma, şər-böhtan kampaniyasının da əsas məqsədi o idi ki, bizi əsas vəzifəmizdən uzaqlaşdırsınlar, biz uzaqlaşaq, daxili problemlər içində boğulaq və işğal edilmiş torpaqlar işğalçıların əlində əbədi qalsın. Güclü siyasi iradə, xalq-iqtidar birliyi bu planları da alt-üst etdi.

Qələbəmizin üçüncü əsas amili beynəlxalq səviyyədəki uğurlarımızdır. Biz bütün dünyaya sübut etdik ki, Qarabağ əzəli Azərbaycan torpağıdır. Sübut etdik ki, əsrlərboyu Azərbaycan xalqı bu torpaqlarda yaşayıb. Sübut etdik ki, erməni əhalisi bu torpaqlara 200 il bundan əvvəl köçürülübdür, necə köçürülübdür, hansı məqsədlərlə köçürülübdür, hamısını biz dünya ictimaiyyətinə təqdim etdik, sübutlarla, faktlarla. Biz sübut etdik ki, Dağlıq Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır və bu məsələ beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalıdır. Dünyanın bütün aparıcı təşkilatları, bütün beynəlxalq təşkilatlar Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli qətnamələr, qərarlar qəbul edibdir. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, BMT Baş Assambleyasının qətnamələri, Qoşulmama Hərəkatının qətnamələri, İslam Əməkdaşlıq Təşkilatının qətnamələri, Avropa Parlamentinin qətnamələri və digər beynəlxalq təşkilatların qərar və qətnamələri birmənalı şəkildə Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıdı. Bu, bizə əlavə güc verdi. Əgər biz bunu etməsəydik, bu gün münaqişənin ətrafında cərəyan edən proseslər bizə böyük problemlər yarada bilərdi. Biz bu illər ərzində bir çox ölkələrlə səmimi, işgüzar, qarşılıqlı hörmət əsasında münasibətlər qura bildik, bir çox ölkələr Azərbaycanı strateji tərəfdaş hesab edir və artıq bu ifadə beynəlxalq sənədlərdə öz əksini tapır. Biz bütün qonşu ölkələrlə səmimi dostluq əsasında münasibətlər qura bildik, qarşılıqlı hörmət, qarşılıqlı inam əsasında. Əgər biz bunu etməsəydik, bu gün münaqişə ətrafında tam başqa proseslər gedə bilərdi.

Şuşa işğal altına düşəndə bizim əsas problemlərimiz həm o idi ki, ordumuz yox idi, rəhbərlik öz vəzifə borcunu yerinə yetirə bilmirdi. Beynəlxalq müstəvidə Azərbaycan demək olar ki, bütün ölkələrlə münasibətləri gərginləşdirmişdi. Biz demək olar ki, təcrid edilmiş vəziyyətdə idik. Ancaq bu gün biz Ermənistanı təcrid edilmiş vəziyyətə saldıq. Bizim transmilli layihələrimiz regionda tamamilə yeni mənzərə yaratdı. Biz regionun enerji xəritəsini, nəqliyyat xəritəsini yenidən tərtib etdik. Bizim təşəbbüsümüzlə reallaşan layihələr təkcə bizim xalqımızın maraqlarını təmin etmir, bir çox ölkələrin maraqlarını təmin edir, o cümlədən region ölkələrinin. Qonşu ölkələrlə bizim həm ikitərəfli, həm üçtərəfli əməkdaşlıq formatlarımız vardır. Bütün bunlar Azərbaycanın beynəlxalq nüfuzunu böyük dərəcədə gücləndirdi. Əgər bu nailiyyətlər olmasaydı, problem dondurulmuş vəziyyətdə qala bilərdi.

Nəhayət və ilk növbədə, ordu quruculuğu. Bu 17 il ərzində mənim işimin əsas hissəsi ordu quruculuğuna həsr edilmişdir ki, biz ordumuzu necə gücləndirək, ordumuzu ən müasir silahlarla təchiz edək. O da asan məsələ deyildi. O silahları almaq üçün təkcə maddi vəsait kifayət etmir. Eyni zamanda, diplomatik, siyasi səylər göstərilməlidir və biz buna da nail olduq. Bu gün Azərbaycan öz hərbi təchizatını bir çox ölkələrdən təmin edir. Eyni zamanda, mənim təşəbbüsümlə Azərbaycanda müdafiə sənayesi yaradıldı. Biz ordumuzun tələbatını böyük dərəcədə daxili istehsal hesabına təmin edirik. Azərbaycanda 1000-dən çox adda hərbi təyinatlı məhsul istehsal edilir, o cümlədən ən müasir məhsullar. Budur bizim fəaliyyətimiz. Ordu quruculuğu, hərbçilərin maddi-məişət problemlərinin həlli, təqaüdə çıxmış hərbçilərin məişət problemlərinin dövlət tərəfindən həll olunması, onlara mənzillərin verilməsi, hərbçilərimizin iş şəraitinin yaxşılaşdırılması. Biz demək olar ki, bütün hərbi şəhərciklərimizi, hərbi bazalarımızı yenidən qurduq və onlar ən yüksək standartlara cavab verir. Əlbəttə, ilk növbədə, döyüş qabiliyyəti. Döyüş qabiliyyəti artdı. Azadlıq meydanında dəfələrlə keçirilmiş hərbi paradlar bütün dünyaya bizim gücümüzü göstərdi.

Döyüş qabiliyyətinin artırılması ordu quruculuğu sahəsində əsas amildir. Biz müasir silahlardan istifadə edirik, texnikadan istifadə edirik, düşmənin texnikasını məhv edirik. Torpaqlarımızı ancaq Azərbaycan əsgəri azad edir, Azərbaycan zabiti azad edir, sinəsini qabağa verərək, heç nədən qorxmayaraq, əlində bayraq, əlində silah düşməni qovan da əsgərdir, düşməni məhv edən də əsgərdir. Eşq olsun bizim əsgərlərimizə!

Bax, belə ordu yaratmışıq biz! Deyirdik işğalçılara, deyirdik, düz yola gəlin, işğala son qoyun, hələ ki, gec deyil. Ona görə bizim bütün dövrlərdəki siyasətimiz birmənalı olub. Demişik ki, əgər məsələ sülh yolu ilə öz həllini tapmasa, hərbi yolla məsələni həll edəcəyik. Mən bunu dəfələrlə demişəm. Buna görə də tənqid olunmuşam bəzi ölkələr tərəfindən. Mən demişəm ki, bəs bizim torpaqlarımız məgər hərbi yolla zəbt edilməyibmi? Ermənistan bizim torpaqlarımızı sülh yolu iləmi zəbt edib? Hər bir ölkənin özünümüdafiə hüququ var. Bu hüququ bizə BMT Nizamnaməsi verir. Mən demişdim, əgər görsəm ki, danışıqlar artıq tamamilə səmərəsizdir, bizim başqa yolumuz qalmayacaq. Bunu hamı bilsin – düşmən, onun havadarları və bu məsələ ilə məşğul olan vasitəçilər. Həmişə sözümün üstündə durmuşam. Azərbaycan xalqına nə demişəmsə, onu da etmişəm. Bu məsələdə də sözümün üstündə durdum və artıq biz Qələbəni qeyd edirik.

Sentyabrın 27-dən bu günə qədər 200-dən çox şəhər, kənd, qəsəbə işğaldan azad edildi. O cümlədən Füzuli şəhəri, tamamilə darmadağın edilmiş, bir dənə də salamat bina qoymayıb mənfur düşmən. Cəbrayıl tamamilə dağıdılmış. Qubadlı, Zəngilan tamamilə dağıdılmış. Kəndlər, şəhərlər. Hadrut qəsəbəsi, Suqovuşan qəsəbəsi və bu gün Şuşa şəhəri.




Bizim zəfər yürüşümüz davam edir. Hələ də işğal altında torpaqlar var, hələ də döyüşlər gedir. Əgər Ermənistan rəhbərliyi mənim tələblərimə cavab verməsə, sona qədər gedəcəyik. Heç kim bizi dayandıra bilməz. Dünyada elə qüvvə yoxdur ki, bizi dayandıra bilsin. Ermənistan artıq öz acı məğlubiyyətini etiraf edib, özünü alçalda-alçalda, xalqını təhqir edə-edə. Ermənistan rəhbərliyi indi dünya ölkələrindən yardım istəyir, hərbi yardım istəyir, silah, texnika istəyir. Bəs, hanı sənin yenilməz ordun? Məhv etmişik onu. Onların bütün sözləri, onların bütün bəyanatları mif idi, yalan idi. Yenilməz ordu Azərbaycan Ordusudur! Bunu döyüş meydanında göstərir, düşməni torpaqlardan təkbaşına qovur. Otuz il ərzində milyardlarla dollar xərclənib oraya, istehkamlar qurulub, mühəndislik qurğuları inşa edilib. Amma hamısını vurub dağıtmışıq – mənəvi ruh, güc hesabına, birlik hesabına!

Bir daha demək istəyirəm ki, bizim zəfər yürüşümüz davam edir. İşğal edilmiş bütün torpaqlardan düşmən qüvvələri çıxarılmalıdır. Bu, bizim tələbimizdir. Beynəlxalq norma və prinsiplər, beynəlxalq təşkilatların qərar, qətnamələri bunu tələb edir.

Əziz bacılar və qardaşlar, bu gün bu müjdəni mən burada – Şəhidlər xiyabanında doğma xalqıma verirəm. Bu, təsadüfi deyil. Bu, təbiidir. Bu gün şəhidlərimizin ruhu qarşısında bir daha baş əyirəm. Bu gün bəyan edirəm ki, şəhidlərimizin qanı yerdə qalmır. Erməni vəhşiliyinin qurbanlarının, Xocalı qurbanlarının qanı yerdə qalmır. İntiqamımızı döyüş meydanında aldıq. Biz mülki vətəndaşlara qarşı heç vaxt müharibə aparmamışıq, bu dəfə də aparmamışıq. Baxmayaraq ki, mənfur düşmən 93 mülki şəxsi namərd atəşlə öldürüb, 400-dən çox mülki şəxs yaralanıb. Amma mən dedim yox, biz azərbaycanlıyıq! Biz intiqamımızı döyüş meydanında alacağıq və alırıq! Onların ordusunu məhv etmişik, texnikasını məhv etmişik, məhv edirik və edəcəyik. Düşməni qovuruq və qovacağıq!

Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!




Mən bu günlərdə dünya azərbaycanlılarından və Azərbaycanda yaşayan insanlardan minlərlə məktub alıram. Hər gün minlərlə məktub. Sadəcə olaraq, heyfsilənirəm ki, bütün bu məktubları oxuya bilmirəm. Sadəcə olaraq, vaxt çatmır. Nə qədər gözəl sözlər, nə qədər böyük dəstək göstərilir. Bu gün biz bir daha bütün dünyaya sübut edirik ki, biz böyük xalqıq, biz məğrur xalqıq! Biz yenilməz xalqıq! Biz döyüş meydanında düşmənə yerini göstəririk!

Bu günlərdə dəfələrlə Azərbaycan xalqına müraciət edərək düşmənə yumruq göstərmişdim, yumruq göstərmişdim. Demişdim ki, bu yumruq elə belə yumruq deyil. Bu, dəmir yumruqdur. Bu dəmir yumruqla düşmənin başını əzirik və əzəcəyik! Eyni zamanda, bu yumruq birliyimizin rəmzidir. Bax, bu gün Azərbaycan xalqı bu yumruq kimi birləşib! Həmişə belə olacaq! Bu birlik əbədi olacaq! Bu birlik bizə gələcəkdə də bütün vəzifələri icra etmək üçün imkan yaradacaq. Mən bütün bu illər ərzində – 17 il ərzində Azərbaycan xalqının dəstəyini hiss etmişəm, görmüşəm, inamını, mənə olan xoş münasibəti görmüşəm. Bu, mənə güc verir. Bu, mənim siyasətim üçün əvəzolunmaz dəstəkdir. Həmişə Azərbaycan xalqını əmin edirdim ki, mən Vətənə, doğma xalqıma ləyaqətlə, sədaqətlə xidmət edəcəyəm. Şadam ki, sözümün üstündə durmuşam. Həmişə olduğu kimi, sözümə sadiq olmuşam.

Bu tarixi bir gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda bəlkə də ən xoşbəxt günlərimdən biridir.

Əziz Şuşa, sən azadsan!

Əziz Şuşa, biz qayıtmışıq!

Əziz Şuşa, biz səni dirçəldəcəyik!

Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

# İlham Əliyev və Rusiya Prezidenti Vladimir Putin videokonfrans formatında görüşüblər



2020-ci il noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin videokonfrans formatında görüşüblər.

**Rusiya Prezidenti Vladimir Putin** dedi:

– Axşamınız xeyir, hörmətli İlham Heydər oğlu.

**Prezident İlham Əliyev:** Axşamınız xeyir, Vladimir Vladimiroviç.

**Prezident Vladimir Putin:** Bu gün biz sizinlə Azərbaycan Respublikası Prezidentinin, Ermənistan Respublikası baş nazirinin və Rusiya Federasiyası Prezidentinin üçtərəfli bəyanatını imzalayırıq.

Mən çox ümid edirəm ki, bizim birgə bəyanatımızda şərh edilmiş bu qərar nəinki Ermənistan ilə Azərbaycan arasında çoxillik qarşıdurmaya son qoyacaq, bu torpaqlarda qan tökülməsinə son qoyacaq, həm də bizim bugünkü bəyanatda təsbit etdiyimiz razılaşmalara etibarlı nəzarət mexanizmi yaradacaq, ən başlıcası, uzunmüddətli tarixi perspektiv üçün, regionda münasibətlərin, ilk növbədə, həm Azərbaycan, həm də erməni xalqlarının mənafeyi naminə Azərbaycan Respublikası ilə Ermənistan arasında dostluq münasibətlərinin inkişafı üçün əlverişli şərait yaradacaq. Təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Sağ olun, hörmətli Vladimir Vladimiroviç. Mən öz tərəfimdən demək istərdim ki, bu gün Ermənistan ilə Azərbaycan arasında çoxillik münaqişənin nizamlanması işinə nöqtə qoyulur, Azərbaycan torpaqlarının işğalına son qoyulur və saatlarla, ümumiyyətlə desək, günlərlə vaxt sərf edib mühüm mövqeləri razılaşdırmaq yolu ilə nizamlamaya nail olduq ki, mənim fikrimcə həm Azərbaycanın, həm də Ermənistanın və region ölkələrinin xalqlarının mənafelərinə cavab verir. Deməliyəm ki, indi bizim gördüyümüz münaqişənin hərbi-siyasi nizamlanması əminəm ki, regionumuzda uzunmüddətli sülhə, həmrəyliyə gətirib çıxaracaq, qarşıdurmaya və qan tökülməsinə son qoyacaq.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi bizim regionda, Avrasiya məkanında ən uzunmüddətli münaqişələrdən biridir və bu gün həmin münaqişənin sona yaxınlaşması tarixi hadisədir, ilk növbədə, çoxillik işğaldan azad olan Azərbaycan xalqı üçün tarixi hadisədir. Bu, həm də beynəlxalq hüququn norma və prinsiplərinin təntənəsi, BMT Təhlükəsizlik Şurasının əfsuslar olsun ki, uzun müddət kağız üzərində qalmış qətnamələrinin implementasiyasıdır.

Vladimir Vladimiroviç, Sizə həm əvvəlki illərdə və xüsusən münaqişənin qaynar fazası dövründə fəal iştirakınıza görə təşəkkürümü bildirmək istərdim. Bu gün üç ölkə rəhbərinin bu sənədi imzalaması bu münaqişənin nizamlanmasında Rusiya Federasiyasının xüsusi roluna dəlalət edir. Əminəm ki, regionda gələcək fəaliyyətdə, o cümlədən münaqişənin nəticələrinin aradan qaldırılması və Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması üçün Rusiya Federasiyasının rolu sanballı olacaq. Bu gün Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib





Ərdoğana da münaqişənin siyasi yolla nizamlanması işində fəal iştirakına görə təşəkkürmü bildirmək istərdim. Bugünkü bəyanatın bəndlərindən biri Rusiya ilə Türkiyənin birgə sülhməramlı missiyasıdır. Beləliklə, biz regionda təkcə münaqişənin nizamlanması çərçivəsində deyil, həm də gələcək inkişaf üçün qarşılıqlı fəaliyyətin tamamilə yeni formatını yaradırıq. Buna görə də bəndlərdən biri də bütün nəqliyyat kommunikasiyalarının açılmasıdır. Bu, bütün region ölkələrinin xeyrinə olacaq. Ona görə də bu gün mən bu sənədi sevinc hissi ilə, qürur hissi ilə imzalayıram və bu tarixi hadisə münasibətilə bütün Azərbaycan xalqını təbrik etmək istərdim. Sağ olun.

**Prezident Vladimir Putin:** Mənim fikrimcə, dediyim kimi, bu, həqiqətən həm erməni, həm də Azərbaycan xalqlarının xeyrinə və onların mənafeyi naminədir. Rusiya öz tərəfindən əlindən gələni edəcək ki, üç tərəf arasında danışıqların gedişində əldə edilmiş mövqelər, bu gün bizim imzaladığımız bəyanat hamısı icra olunsun. Təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Sağ olun, Vladimir Vladimiroviç. İmzalamaya başlayaq.

**Prezident Vladimir Putin:** Bəli.

Prezident İlham Əliyev və Prezident Vladimir Putin bəyanatı imzaladılar.

**Prezident Vladimir Putin:** Sizə təşəkkür edirəm, İlham Heydər oğlu.

**Prezident İlham Əliyev:** Çox sağ olun, Vladimir Vladimiroviç.

**Prezident Vladimir Putin:** Bu ərazilərdə yaşayan bütün insanlara, bütün xalqlara ən xoş arzularımı bildirirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, sizinlə biz xeyirxah iş gördük və bu regiondakı bütün ölkələr arasında münasibətlərin durmadan inkişafı, bu ərazilərdə yaşayan insanların, Azərbaycan və erməni xalqlarının rifahı üçün yaxşı baza şəraiti yaratdıq. Təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Bir daha sağ olun, Vladimir Vladimiroviç. Sizin şəxsi iştirakınıza görə təşəkkür edirəm və əminəm ki, bu gün baş verənlər Rusiya, Azərbaycan və Ermənistan xalqlarının tarixində çox mühüm tarixi gün kimi qalacaq. Bir daha sağ olun.

**Prezident Vladimir Putin:** Sağ olun.

**Prezident İlham Əliyev:** Çox sağ olun.

**Prezident Vladimir Putin:** Xudahafiz.

**Prezident İlham Əliyev:** Xudahafiz.

# İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarında, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərində olublar



2020-ci il noyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarında, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərində olublar.

Prezident İlham Əliyev Füzuli rayonundan Şuşa şəhərinə yol çəkilişi ilə bağlı göstəriş verib. Artıq bu yolun inşasına start verilib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva layihənin icrasının gedişi ilə tanış oldular.

**Prezident İlham Əliyev dedi:**

– Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür, tarixi bir gündür. Bu gün Füzuli-Şuşa avtomobil yolunun təməli qoyulur. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu yolun çox böyük əhəmiyyəti var. Çünki bu yol bizi Qarabağın tacı olan Şuşa şəhərinə aparır.

Son illər ərzində ölkəmizdə bir çox yollar inşa edilib. Deyə bilərəm ki, 2004-cü ildən bu günə qədər 16 min kilometrdən çox avtomobil yolu çəkilibdir və yollar keyfiyyətlidir. Bu göstəriciyə görə Azərbaycan dünyada qabaqcıl yerlərdədir. Ancaq bu yolun xüsusi əhəmiyyəti var. Dediyim kimi, bu yol bizi Şuşaya aparır. Eyni zamanda, bu layihə işğaldan azad edilmiş torpaqlarda icra edilən birinci layihədir.

Şuşa işğaldan azad olunandan sonra artıq düşmən dərk etdi ki, bundan sonra bizə qarşı müqavimət göstərmək heç bir əhəmiyyət kəsb etməyəcək. Şuşa işğaldan azad olunandan bir gün sonra qəhrəman Azərbaycan Ordusu daha 70-dən çox yaşayış məntəqəsini işğalçılardan azad edib və əslində, bu, düşmənə vurulan son zərbə idi. Təsadüfi deyil ki, noyabrın 10-da düşmən faktiki olaraq kapitulyasiya aktını imzalamışdır. Şuşanın işğaldan azad edilməsi bizim gücümüzü göstərdi, Ordumuzun peşəkarlığını, hərbçilə-



rimizin cəsarətini, qəhrəmanlığını göstərdi. Şuşanın götürülməsi çox böyük peşəkarlıq, cəsarət tələb edən əməliyyat idi. Əminəm ki, bu əməliyyat dünya hərb tarixində xüsusi yer tutacaqdır. Çünki bu əməliyyatı yalnız yüngül silahlarla silahlanmış bizim qəhrəman hərbçilərimiz dağlardan, meşələrdən, cığırlardan keçərək icra ediblər. Şuşanın işğaldan azad edilməsi bizim şanlı Qələbəmizdir.

Bu gün artıq biz quruculuq işlərinə başlamışıq. Qələbə günündən 8 gün və Ermənistanın kapitulyasiyasından 6 gün keçəndən sonra artıq bu yerdən – Alxanlı qəsəbəsindən Füzuli-Şuşa avtomobil yolu çəkilir. Bu yol çox rahat və geniş olacaq. Bu yol imkan verəcək ki, Şuşaya rahat gedib-gələ bilək.

İkinci Qarabağ müharibəsi bizim şanlı Qələbəmizdir, işğal edilmiş torpaqlar işğalçılardan azad edilib. Düşmən tərəfindən vurulmuş ziyan hazırda hesablanır və dəqiq hesablanacaq. Zərərçəkmiş bütün insanlar dövlət dəstəyi hesabına öz dədə-baba torpaqlarına qayıdacaqlar. Bu işləri biz planlı şəkildə aparacağıq - ilk növbədə, ziyanın hesablanması, dəqiq uçotun aparılması, ondan sonra bərpa-yenidənqurma işləri.

Bildiyiniz kimi, işğal edilmiş və işğaldan azad olunmuş torpaqlarda düşmən bütün infrastrukturu dağıdıbdır. Bizim şəhərlərimiz demək olar ki, yerləyeksan edilibdir və bu, düşmənin vəhşiliyini bir daha göstərir. İndi bütün dünya bunu görəcək. Bütün dünya görəcək ki, biz hansı vəhşi düşmənlə üz-üzə qalmışdıq.

Hazırda münaqişənin siyasi həlli mərhələsidir. Bu mərhələdə də Azərbaycan istədiyinə nail olur və olacaq. Münaqişənin hərbi mərhələsi başa çatıb. Şuşanın azad edilməsi və noyabrın 9-da daha 70-dən çox yaşayış məntəqəsinin işğaldan azad edilməsi münaqişənin hərbi mərhələsinə son qoyub. Mən münaqişənin və İkinci Qarabağ müharibəsinin əvvəlində demişdim, bu gün də bunu böyük qürur hissi ilə bir daha deyirəm ki, məsələnin hərbi-siyasi həll yolları var idi və Azərbaycan bunu döyüş meydanında sübut edib. Biz düşməni məcbur etdik ki, kapitulyasiya aktına imza atsın və beləliklə, bizim bu günə qədər işğal altında qalan Ağdam, Laçın və Kəlbəcər rayonları da yaxın günlərdə Azərbaycana qayıdır. Amma baxın, görün, mənfur düşmən hansı vəhşiliklər törədir – evləri yandırırlar, məktəbləri yandırırlar, ağacları qırırlar, elektrik xətlərini qırırlar. Bütün dünya bunu görür, bütün aparıcı beynəlxalq kanallar bunu göstərir. Nə vicdan var, nə utanmaq var, nə əxlaq var. Ona görə İkinci Qarabağ müharibəsində qazanılmış qələbə böyük tarixi əhəmiyyətə malikdir. Bu, təkcə Azərbaycanın öz doğma torpaqlarının işğalçılardan azad edilməsi məsələsi deyil. Bu, eyni zamanda, bütün dünyaya, bütün işğalçılara göstərir ki, onların sonu bax, belə ola bilər. İşğalçıların, qəsbkarların sonu belə olacaq.

Bu gün bu gözəl təməlqoyma mərasimi böyük rəmzi məna daşıyır. Biz işğaldan azad edilmiş Füzuli şəhərindən və ona qədər olan kəndlərdən Füzuli şəhərinə qədər və Füzuli şəhərindən Şuşa şəhərinə yeni yol çəkirik. Bu yol heç vaxt olmayıb. Azərbaycan

vətəndaşları yaqin bilirlər ki, Şuşaya sovet vaxtında yol Ağdam ərazisindən gedirdi – Ağdam-Xankəndi-Şuşa yolu. İndi bu yoldan istifadə etmək hələ ki, mümkün deyil.

Bu gözəl hadisə münasibətilə bütün Azərbaycan xalqını bir daha ürəkdən təbrik edirəm. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yol işçiləri ilə xatirə şəkli çəkdirdilər.

***

Qeyd edək ki, Füzuli rayonuna gedən yolun ətrafında bir vaxtlar həyat qaynayıb, bu kəndlərdə insanlar firavan və sülh içində yaşayıblar. Ancaq ermənilər tərəfindən torpaqlarımızın işğala məruz qalmasından sonra azərbaycanlılar öz dədə-baba torpaqlarından qovulublar, erməni vandalları tərəfindən evlər yerləyeksan edilib. Onlar daşı daş üstündə qoymayıblar, azərbaycanlıların tikdiyi evləri vəhşicəsinə dağıdıblar. Bunlar ermənilərin əməllərinin nəticəsidir.

Dövlətimizin başçısı və birinci xanım işğaldan azad olunmuş Füzuli şəhərinə gəldilər.

Prezident İlham Əliyev Füzuli şəhərində şanlı Azərbaycan bayrağını qaldırdı. Bu görüntülər Azərbaycanın müasir tarixinin ən şanlı səhifələrindəndir. Müzəffər Ali Baş Komandan qəhrəman Azərbaycan Ordusunun işğaldan azad etdiyi tarixi torpağımızda üçrəngli bayrağımızı qaldırdı.

Prezident İlham Əliyev dedi:

– Füzuli şəhəri işğalçılardan azad edilib. Füzuli şəhərində Azərbaycan bayrağı qaldırılıb. Biz Füzuliyə qayıtmışıq. Ancaq indi yol boyunca dağıdılmış kəndləri və Füzuli şəhərini dağılmış vəziyyətdə görəndə adamın ürəyi ağrıyır. Vəhşilər bizim şəhərimizi nə günə salıblar?! Dağıdıblar, ev-









idik, qayıtmalı idik. Gəlmişik və qayıtmışıq. Düşməni qovmuşuq torpaqlarımızdan, Azərbaycanın Dövlət Bayrağını ucaltmışıq. Bundan sonra bu torpaqda biz yaşayacağıq, necə ki, əsrlərboyu biz yaşamışıq, bizim xalqımız yaşayıb.

Mənfur düşmən Füzulinin adını da dəyişdirib, bir eybəcər ad qoyubdur. Füzuli bizim dahi, böyük şairimiz Məhəmməd Füzulinin adını daşıyır. Biz bu adı bərpa etmişik. Dağıdılmış Füzuli şəhəri erməni faşizminin canlı şahididir. Bütün dünya bunu görməlidir və səssiz qalmamalıdır,



ləri dağıdıblar, bütün infrastrukturu dağıdıblar, bir dənə də salamat bina yoxdur. Bütün dünya görməlidir erməni vəhşiliyi nə deməkdir və bütün dünyaya biz bunu göstərəcəyik. Təkcə Füzuli yox, Ağdam şəhəri nə gündədir, başqa şəhərlər. Sanki bu torpaqlardan bir vəhşi qəbilə keçib. Hər şeyi dağıdıb, talan edib, bizim mədəni, tarixi, dini irsimizi silmək istəyib, ancaq istədiyinə nail ola bilməyib. Çünki biz gəlməli necə ki, 30 il səssiz qalıb, 30 il biganə qalıb. O biganəlik faktiki olaraq erməni işğalını möhkəmləndirirdi. Bizi sanki bu vəziyyətlə barışmağa sövq edirdilər, sülh yolu ilə məsələ həll olunsun, ildən-ilə, 30 il ərzində biz eyni sözləri eşidirdik – münaqişənin hərbi həlli yoxdur, bu məsələ sülh yolu ilə həll olunmalıdır. Amma biz sübut etdik ki, münaqişənin həlli var, o cümlədən hərbi həlli var. Bi-




zim qəhrəman hərbçilərimizin şücaəti, rəşadəti hesabına, şəhidlərimizin qanı-canı bahasına biz bunu bütün dünyaya sübut etmişik, münaqişənin hərbi həlli var və biz buna nail olmuşuq. Əgər bu hərbi həll olmasaydı, düşmən kapitulyasiya aktını imzalamazdı. Müharibənin ilk günlərindən mən deyirdim, Ermənistan rəhbərliyi, Ermənistanın ali baş komandanı, - əgər o adama, ümumiyyətlə, bu adı aid etmək mümkündürsə, - bəyan etməlisiniz, cədvəl verməlisiniz, nə vaxt hansı rayondan çıxırsınız. Ondan sonra biz müharibəni dayandırarıq. Əks-təqdirdə sona qədər gedəcəyik və getdik də. Füzuli, Hadrut, Cəbrayıl, Zəngilan, Qubadlı, Şuşa və Şuşadan bir gün sonra 70-dən çox kənd azad edildi, bütövlükdə 300-dən çox yaşayış məntəqəsi azad edildi, düşmənin beli qırıldı, düşmən diz çökdü və məcbur oldu noyabrın 10-da o kapitulyasiya aktına imza atdı, məhz bizim gücümüz hesabına. Biz düşməni məcbur etmişik, biz düşmənə yerini göstərmişik, biz Azərbaycan xalqının böyüklüyünü göstərmişik.

Otuz il ərzində həm Ermənistan rəhbərliyi, həm onların havadarları, ermənipərəst, azərbaycanafob qüvvələr tərəfindən ortalığa müxtəlif uydurmalar atılırdı ki, bəli, Ermənistanın güclü ordusu var, erməni xalqı döyüşkən xalqdır, Azərbaycan xalqı döyüşə bilmir. Məhv etmişik bu uydurmanı, göstərmişik ki, kim döyüşkən xalqdır, göstərmişik ki, kim müzəffər xalqdır. Sadəcə olaraq, 1990-cı illərin əvvəllərində Azərbaycanın başında duranlar ordu quruculuğuna fikir verməmişdilər, ölkəmizi xaosa, anarxiyaya sürükləmişdilər. O illərdə bizim torpaqlarımız işğal altına düşəndə ovaxtkı hakimiyyət vətəndaş müharibəsi başlamışdı, AXC-Müsavat cütlüyü öz əsgərlərini əsir götürmüşdü, Gəncəni bombalamışdı. Ona görə tor-




paqlar əldən getdi. İndi bax, Ermənistan əhalisi Azərbaycan əhalisinin yaşadığı illəri - 1992-ci illəri yaşayır.

Azərbaycan xalqı o mənfur hakimiyyəti bir ildən sonra yox etdi, süpürüb atdı. Heydər Əliyev hakimiyyətə gələndən sonra bütün müsbət meyillər inkişaf etməyə başlamışdır. Bu gün bizim ordumuz dünya miqyasında güclü ordular sırasındadır. Biz bütün dünyaya göstərmişik ki, yenilməz xalq Azərbaycan xalqıdır, müzəffər ordu Azərbaycan Ordusudur. Erməni mifini məhv etdik, erməni uydurmalarını məhv etdik, onları yerinə oturtduq, onlar bizim qabağımızda diz çöküblər və onlar bundan sonra bu damğa ilə yaşayacaqlar, rəzalət damğası ilə yaşayacaqlar. Biz isə bundan sonra qürur hissi ilə yaşayacağıq - müzəffər xalq kimi, güclü dövlət kimi, yenilməz ordu kimi, güclü iradə sahibi kimi.

Bu 44 gün ərzində demək olar ki, müntəzəm surətdə müxtəlif mənbələrdən, müxtəlif ünvanlardan müxtəlif təzyiqlər, təhdidlər olurdu, sifarişlər, mesajlar, siqnallar göndərilirdi. Mən demişdim ki, heç kim bizim qabağımızda dura bilməz, sona qədər gedəcəyik. Mənfur düşmən şərtlərimizi qəbul etməlidir, dəqiq tarix göstərməlidir və məcbur olub göstərdi də. Ona görə bu günlərdə Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları möhtəşəm Qələbəmizi böyük qürur hissi ilə qeyd edir. Bu Qələbə bizim xalqımıza yaraşır, igid oğullarımıza yaraşır, dövlətimizə yaraşır və bu Qələbə gücümüzü göstərdi. Onu göstərdi ki, heç vaxt Azərbaycan bu vəziyyətlə barışmayacaq. Mən 17 il ərzində ölkə Prezidenti və Ali Baş Komandan kimi dəfələrlə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı öz sözlərimi demişdim. Demişdim, biz heç vaxt imkan verə bilmərik ki, tarixi Azərbaycan torpağında ikinci erməni dövləti yaradılsın. Demişdim ki, heç vaxt Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu olmayıb və olmayacaq. Demişdim ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Demişdim ki, sülh yolu ilə mümkün olmasa, hərbi yolla bunu bərpa edəcəyik. Mənim çıxışlarım hər yerdə var, dərc edilib. Bu sözləri demişəm və buna əməl etmişəm. Ərazi bütövlüyümüzü bərpa etmişik, işğalçıları işğal edilmiş torpaqlardan qovmuşuq, ikinci erməni dövlətinin yaradılmasına imkan verməmişik, heç bir status haqqında söhbət gedə bilməz. Vahid Azərbaycan dövləti var. Çoxmillətli, çoxkonfessiyalı, mütərəqqi Azərbaycan dövləti var. Bütün Azərbaycan vətəndaşları, bütün xalqların, dinlərin nümayəndələri normal yaşayırlar, mehribanlıq, sülh şəraitində yaşayırlar. Erməni xalqı da belə yaşayacaq. Bizim erməni xalqı ilə işimiz yoxdur. Mən bu 44 gün ərzində çoxsaylı müsahibələrimdə demişəm, onlar bizim vətəndaşlarımızdır və onlar görəcəklər ki, Azərbaycan rəhbərliyi altında onlar yaxşı yaşayacaqlar, onlar kriminal, qorxaq xunta rejimindən öz yaxasını qurtarmalıdırlar. Dağlıq Qarabağın separatçı rəhbərləri qorxaqdırlar. Onların qorxaqlığını orada yaşayan ermənilər görüblər, Ermənistanda yaşayan ermənilər görüblər. Nə qədər adam fərarilik edib. Onların o xunta başçısı bunkerdə gizlənmişdi, burnunu belə bayıra çıxara bilmirdi. Bəs hanı sənin hünərin, cəsarətin?!

Biz Ermənistan ordusunu çökdürdük və eyni zamanda, Ermənistana uzun illər rəhbərlik etmiş cinayət-




karlara da dərs verdik. Paşinyan son iki il ərzində öz ölkəsini məhv edib və indi, sadəcə olaraq, fikirləşir ki, öz canını erməni xalqının qəzəbindən necə qurtarsın?! Biz Koçaryan-Sarkisyan ordusunu məhv etdik. Onlar bizim torpaqlarımızı dağıdıblar. Onlar bu dəfə qorxaqcasına heç burunlarını soxa bilmədilər Dağlıq Qarabağ ərazisinə. Bəs hanı sizin qəhrəmanlığınız? Döşünüzə taxmısınız saxta "qəhrəman" ordenlərini, çıxardın atın eşiyə o dəmir-dümürləri, sizi biz məğlub etmişik. Paşinyan heç kimdir. Koçaryan və Sarkisyan, Azərbaycan xalqının cəlladları, Xocalı cəlladları, sizi biz məğlub etmişik, sizin ordunuzu məhv etmişik. Əgər kapitulyasiya aktı Ermənistan tərəfindən imzalanmasaydı, özləri bilirlər nə ilə qurtaracaqdı bu müharibə. Bax, budur bizim gücümüz, budur bizim birliyimiz. Dəmir yumruq sizin başınızı əzdi və bundan sonra artıq heç kim bizimlə ultimatum dili ilə danışmayacaq. O cümlədən rəzil vəziyyətdə olan Paşinyan, bizə yeddi şərt irəli sürdü, başına vurduq bütün o şərtləri. Nə oldu o şərtlər? Mənim bir şərtim var idi, rədd ol, çıx get və o şərtə əməl edildi. Güc hesabına, birlik hesabına, igidlərimiz hesabına, şəhidlərimiz hesabına. Burada, işğaldan azad edilmiş Füzuli şəhərində bir daha bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm, onların yaxınlarına səbir diləyirəm, onların valideynlərinə təşəkkürümü bildirirəm ki, dövlətimiz üçün, xalqımız üçün belə igidlər yetişdiriblər. Onların xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaq. Bütün yaralı hərbçilərimizə Allahdan şəfa diləyirəm, əminəm ki, onlar tezliklə normal həyata qayıdacaqlar, onlar daim diqqət mərkəzində olacaqlar.

Bizim bütün hərbçilərimiz, Füzuli və işğaldan azad edilmiş başqa torpaqlarda yaşamış sakinlər bilməlidirlər ki, biz bütün bu yerləri bərpa edəcəyik. Mən demişdim,







Füzulidə bir dənə də bina tapılmadı ki, orada Azərbaycan bayrağı ucaldılsın. Amma biz bərpa edəcəyik. İndi müvafiq göstərişlər verildi, planlı şəkildə bunu edəcəyik, beynəlxalq ekspertləri dəvət etmişik, onlar da gələcəklər. Bütün dəymiş ziyanı birlikdə hesablayacağıq. Ondan sonra şəhərsalma üzrə mütəxəssisləri - həm Azərbaycan mütəxəssislərini, həm xarici mütəxəssisləri dəvət edəcəyik. Onlar da gələcəklər, yeni bir şəhərsalma planı qurulacaqdır. Kəndlərin, şəhərlərin, infrastrukturun, ekologiyanın bərpası – bütün bu planlar var. Hamısını icra edəcəyik, İnşallah, hamısını! Allahın köməyi ilə hamısını icra edəcəyik. Necə ki, torpaqlarımızı qaytardıq, düşməni məhv etdik, bu üçrəngli bayrağımızı ucaltdıq, bütün qalan məsələləri də həll edəcəyik. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

***

Dövlətimizin başçısı sükan arxasında yolda gedərkən yol kənarına toplaşan insanları gördü və avtomobili saxlayaraq onlarla görüşdü.

***

Cəbrayıla gedərkən avtomobili özü idarə edən Prezident İlham Əliyev dedi:

– Cəbrayıl rayonu. Gedirik Xudafərin körpüsünün yanına. Xudafərin körpüsü qabaqdadır.

Bu da Azərbaycan vətəndaşlarının vəhşi düşmən tərəfindən dağıdılmış evləridir.

Araz çayı, Azərbaycan-İran sərhədi. Dostluq sərhədidir.

Yol boyunca düşmənin dağıtdığı kəndləri görərkən bir daha şahidi oluruq ki, biz hansı vəhşi düşmənlə üz-üzəyik. Bunları gördükcə bir daha adam əmin olur ki, biz təkcə öz ərazi bütövlüyümüzü bərpa etməmişik, biz yırtıcı düşməni məhv etmişik. Dünyada bir çox müharibələr olub, bu gün də gedir. Bu gün də bəzi yerlərdə işğal davam edir. Am-

ma inanmıram ki, kimsə bu qədər qəddar, bu qədər qeyri-insani bir düşmənlə üz-üzə qalsın.

Bizim tarixi qələbəmiz erməni faşizmi üzərində əldə edilmiş qələbədir. Bizim zəfərimiz haqqın, ədalətin bərpasıdır. Bu gün, noyabrın 16-sı mənim həyatımda xüsusi tarix olaraq qalacaq. Çünki bir neçə dəqiqədən sonra biz qədim memarlıq abidəmiz olan Xudafərin körpüsünə yaxınlaşacağıq.

Bu dağlar artıq bizimdir, həmişə bizim olub. Ancaq 30 ilə yaxın düşmən bu dağlarda, bu torpaqlarda, bizim dədə-baba torpaqlarımızda oturub, bizə meydan oxuyub.

Vəhşi düşmən tərəfindən dağıdılmış evlərin hamısını bərpa edəcəyik.

Bu da Xudafərin su anbarıdır.

Bizdən aşağıda Araz çayıdır. İndi tunelə giririk. O tərəf qonşu dövlət İran İslam Respublikasıdır.

***

Dövlətimizin başçısı və birinci xanım Xudafərin körpüsünə gəldilər. Bu anlar da tariximizin səhifələrinə qızıl hərflərlə yazılacaq.

Prezident İlham Əliyev Xudafərin körpüsündə şanlı Azərbaycan bayrağını qaldırdı. Dövlətimizin başçısının bayrağımızı tarixi Xudafərin körpüsündə qaldırması Azərbaycan xalqı üçün qürur və fəxarətdir. Xalqımızın mənəviyyatında, tarixində dərin iz buraxan Xudafərin həm də milli qürur məsələsi idi.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Araz çayının sahilini gəzdilər, Xudafərin körpüsünün önündə xatirə şəkilləri çəkdirdilər.

Daha sonra dövlətimizin başçısı və birinci xanım Cəbrayıl şəhərinə yola düşdülər.

Cəbrayıl şəhərinə gedən yolun ətrafı da eyni vəziyyətdədir. Budur, erməni işğalçılarının çirkin üzü. Bu, erməni vandallarının əsl mahiyyətini ortaya qoyur, onların kimliyini göstərir.

Prezident İlham Əliyev: Cəbra-









Xalqımızın uzun illər həsrətində olduğu anları yaşadıq. Dövlətimizin başçısı, Ali Baş Komandan Cəbrayıl şəhərində də üçrəngli bayrağımızı qaldırdı.

**Prezident İlham Əliyev:** Cəbrayıl şəhəri işğaldan azad edilib, Azərbaycanın Dövlət Bayrağı ucaldılıb. Bütün Azərbaycan xalqını təbrik edirəm. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

Gedək baxaq bəzi binalara.

Bura düşmənin polis idarəsi olub. İndi Azərbaycan polisi keşik çəkir.

Baxın, mənfur düşmən Cəbrayıl şəhərini nə günə salıb. Bütün dünya bunu görsün. Görsün və bilsin ki, biz hansı yaramaz düşmənlə üzüzəyik. Bütün binaları dağıdıblar, talan ediblər. Onların məqsədi var idi ki, bundan sonra burada heç vaxt azərbaycanlı insanlar yaşamasınlar. Yaşayacağıq, əbədi yaşayacağıq. Hamısını bərpa edəcəyik, hamısını. Baxın nə günə qoyublar. Otuz il ərzində bu barədə hansısa bir beynəlxalq qurum bir məsələ qaldırıbmı? Burada monitorinq aparılıbmı? İndi bütün dünya görəcək Cəbrayıl şəhərini nə günə salıblar.

Bura Cəbrayıl şəhərinin mərkəzidir. Bir dənə də salamat bina yoxdur. Bir dənə də salamat bina qoymayıblar. Yalnız orada özləri üçün hərbi




yıl şəhərinə giririk. Düşmən burada özü üçün hərbi hissələr yaradıb. Şəhərdə hərbi hissələrdən başqa bir şey yoxdur.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 4-də işğaldan azad edilmiş Cəbrayıl şəhərinə gəldilər.

hissə tikiblər. Bütün qalan infrastruktur, evlər, binalar, məktəblər, ictimai binalar - hamısı düşmən tərəfindən sökülüb.

Cavab verəcəklər. Beynəlxalq məhkəmələrdə cavab verəcəklər. Mən demişəm, bir daha demək istəyirəm

ki, beynəlxalq qurumlar gələcək, ekspertlər gələcək, bütün ziyan hesablanacaq. Otuz il ərzində bizə vurulmuş ziyan hesablanacaq. Bu günlərdə Kəlbəcəri dağıdan, meşələri qıran, binaları, məktəbləri yandıran düşmən onun da cavabını verəcək.

Onlar hesab edirdilər ki, bu dağıntılardan sonra Azərbaycan əhalisi heç vaxt buraya qayıtmayacaq. O məqsədlə buranı dağıdıblar. Amma səhv ediblər. Biz qayıtmışıq. Bax, durmuşuq burada, öz doğma torpağımızda, Cəbrayıl şəhərində. Bütün buraları bərpa edəcəyik.



Yeni böyük baş plan tərtib ediləcək. Müvafiq göstərişlər verilib. Hər bir şəhər üçün xüsusi baş plan tərtib ediləcək. Burada bütün inzibati binalar, ictimai binalar, məktəblər, tibb ocaqları yaradılacaq. Bütün infrastruktur yaradılacaq. Küçələr salınacaq, parklar, xiyabanlar salınacaq. Bütün şəhərlərdə qələbə abidələri ucaldılacaq və həyat qayıdacaq.

Yenə də Azərbaycan vətəndaşları burada yaşayacaqlar, quracaqlar, yaradacaqlar. Amma bugünkü tarix heç vaxt silinməyəcək. Erməni vəhşiliyinin canlı şahidləridir, bax, bu dağılmış evlər. Bu evlərdə Azərbaycan vətəndaşları yaşayıb, mülki vətəndaşlar yaşayıb. Mənfur düşmən gəlib onları öz torpaqlarından didərgin salıb, onların binalarını dağıdıb, onların əmlakını mənimsəyib, talayıb. Düşmən oğru, əxlaqsız, vicdansız bir düşməndir. Mən bir daha demək istəyirəm ki, bizim parlaq Qələbəmiz təkcə ölkəmizin ərazi bütövlüyünün bərpası deyil. Bu, şərlə xeyir qüvvələrinin mübarizəsidir. Şər qüvvələri məğlub olub, amma biz qalib gəlmişik. Çünki biz qurub yaradanıq. Ermənilər isə bax, bunları ediblər, dağıdıblar.

Bərpa edəcəyik bunları, hamısını bərpa edəcəyik. Azərbaycan xalqı bir daha öz böyüklüyünü göstərəcək. Bir daha bütün dünyaya sübut edəcəyik ki, biz böyük xalqıq. Biz qayıtmışıq, vuruşa-vuruşa qayıtmışıq. Heç kim bizə bu torpaqları bağışlamayıb. Heç bir beynəlxalq təşkilat təcavüzkara təzyiq göstərməyib. Heç kim onlardan tələb etməyib ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etsin. Sadəcə olaraq, nə hərb, nə sülh, hər şeyi dondurulmuş vəziyyətdə saxlamaq, işğalı əbədiləşdirmək, bizim tarixi torpaqlarımızın tarixi irsini silmək, torpaqlarımızı erməniləşdirmək, şəhərlərimizə, kəndlərimizə eybəcər erməni adları vermək və bu məsələni Azərbaycan xalqının yaddaşından silmək idi onların məqsədi. Amma səhv etdilər. Dəfələrlə demişəm ki, biz bu işğalla heç vaxt barışmayacağıq. Hər bir cəbrayıllı bir arzu ilə yaşayırdı ki, öz dədə-baba torpağına qayıtsın.

Haqq-ədalət zəfər çaldı. Müzəffər Azərbaycan Ordusu zəfər çaldı. Düşmənin beli qırıldı. Düşmən torpaqlarımızdan qovuldu. Azərbaycan bayrağı işğaldan azad edilmiş torpaqlarda qaldırıldı və əbədi dalğalanacaq.

Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

# İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Ağdam şəhərində olublar







2020-ci il noyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Ağdam şəhərində olublar.

Dövlətimizin başçısı Ağdamda Azərbaycanın üçrəngli bayrağını qaldırdı. İyirmi yeddi ildən sonra işğaldan azad olunan Ağdamda indi dövlət bayrağımız qürurla dalğalanır. Bu görüntüləri hər bir azərbaycanlı fəxrlə və böyük sevinclə izləyir.

Bir vaxtlar qaynar həyatın olduğu, əməksevər insanların qurub-yaratdıqları abad şəhərdən əsər-əlamət qalmayıb. Erməni işğalçılar xislətlərinə uyğun olaraq, Ağdamın ağ damlarını xarabalığa çeviriblər, şəhəri darmadağın ediblər.

Sonra dövlətimizin başçısı və birinci xanım Ağdam məscidini ziyarət etdilər. Xocalı soyqırımında sağ qalan xocalıların ümid, pənah yerinə çevrilən qoşa minarəli məscid də yırtıcı düşmən tərəfindən vəhşicəsinə dağıdılıb.

Prezident İlham Əliyev Məkkədən gətirdiyi “Qurani-Kərim”i Ağdam məscidinə bağışladı.

Dövlətimizin başçısı Ağdam məscidinin qarşısında çıxış etdi.

## Prezident İlham Əliyevin çıxışı



– Əziz həmvətənlər.

Bildiyiniz kimi, noyabrın 20-də Ağdam şəhəri və Ağdam rayonunun işğal altında olan hissəsi işğaldan azad edilib. Bu münasibətlə mən Azərbaycan xalqını təbrik etmişdim, ağdamlıları təbrik etmişdim. Bu gün mən buradayam, Ağdam şəhərindəyəm. Ağdam məscidini ziyarət etmişəm, Azərbaycan Dövlət Bayrağını qaldırmışam. Biz Ağdama qayıtmışıq. Bütün ağdamlıları bu tarixi hadisə münasibətilə bir daha təbrik etmək istəyirəm. Bilirəm ki, ağdamlılar bu günü uzun illər ərzində səbirsizliklə gözləyiblər. Həm işğal dövründə - 30 ilə yaxın müddət ərzində, eyni zamanda, İkinci Qarabağ müharibəsi, Vətən müharibəsi dövründə gözləyirdilər ki, Ağdam işğaldan nə vaxt azad ediləcək. Biz öz tarixi missiyamızı şərəflə yerinə yetirdik, işğal olunmuş torpaqları düşməndən azad etdik. Döyüş meydanında əldə edilən qələbə imkan verdi ki, Ağdam rayonu, eyni zamanda, Kəlbəcər və Laçın rayonları bir güllə atmadan, bir şəhid vermədən işğaldan azad edilsin.

Biz bu torpaqlara Azərbaycan xalqının, şəhidlərimizin canı, qanı bahasına, qəhrəmanlarımızın şücaəti hesabına qayıtmışıq. Biz güc toplamalı idik və toplayırdıq. Mən son 17 il ərzində xalqa müraciət edərkən dəfələrlə deyirdim ki, biz daha güclü olmalıyıq, daha qüdrətli ordu qurmalıyıq. Bu gün dünyada güc amili həlledici rol oynayır. Haqq-ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir, güc də bizim tərəfimizdə olmalıdır. Məhz gücümüzün yetərli dərəcədə olmaması nəticəsində Azərbaycan 1990-cı illərin əvvəllərində işğala məruz qalmışdır. Biz güc toplayırdıq, güclənirdik. Mən deyirdim ki, hər gün hər bir Azərbaycan vətəndaşı bu müqəddəs günü, bu zəfər gününü öz əməyi, zəhməti, Vətənə olan sədaqəti ilə yaxınlaşdırmalıdır.

Biz beynəlxalq müstəvidə böyük işlər apardıq və mən öz çıxışlarımda xalqa bu barədə kifayət qədər məlumat vermişdim. Bu gün, müharibə başa çatandan sonra və hətta müharibə dövründə bütün dünya, bütün Azərbaycan xalqı gördü ki, bunun nə qədər böyük əhəmiyyəti var idi. Əgər biz münaqişənin həlli üçün lazımi hüquqi baza yaratmasaydıq, bu gün problemlərlə üzləşə bilərdik. Biz bütün beynəlxalq təşkilatlarda ədaləti, beynəlxalq hüququ tanıyan, əks etdirən qərar və qətnamələr qəbul etdirdik. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi 1993-cü ildə qəbul edilmişdir.



Amma ondan sonra biz BMT Baş Assambleyasının qətnamələrini, İslam Əməkdaşlıq Təşkilatının qətnamələrini, Qoşulmama Hərəkatının, Avropa Parlamentinin, Avropa Şurası Parlament Assambleyasının qərar, qətnamələrini qəbul etdirərək münaqişənin həlli üçün çox möhkəm hüquqi baza yaratdıq. 2003-cü ildən bu günə qədər bütün bu lazımi addımlar atıldı və biz siyasi müstəvidə qələbə qazandıq. Eyni zamanda, iki il bundan əvvəl Avropa İttifaqı ilə Azərbaycan arasında paraflanmış "Tərəfdaşlıq prioritetləri" sənədində də Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və sərhədlərimizin toxunulmazlığı haqqında açıq ifadələr var. Bu, bizim böyük uğurumuzdur. Çünki uzun illər ərzində biz buna nail ola bilməmişdik. Bəzi beynəlxalq təşkilatlar işğalçını öz adı ilə çağırmaq istəmirdilər. Bəzi beynəlxalq təşkilatlar işğalla bağlı qəbul edilmiş sənədlərdə işğalçının kim olduğunu göstərmək istəmirdilər. Hətta BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsində Ermənistan işğalçı dövlət kimi göstərilmədi. Orada "erməni qüvvələri" yazılmışdı.

Biz son 17 il ərzində münaqişənin həlli üçün hüquqi baza yaratdıq. Mən bütün beynəlxalq təmaslarımda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın mövqeyini, tarixi həqiqətləri və mövcud vəziyyəti bütün həmkarlarıma çatdırmışdım. Mənim demək olar ki, bütün ikitərəfli beynəlxalq təmaslarımda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi xüsusi yer alır. Mənim bütün çıxışlarıma baxmaq kifayətdir. Son 17 il ərzində demək olar ki, bütün çıxışlarımda bu məsələ ilə bağlı öz fikrimi bildirmişdim, dünya ictimaiyyətini məlumatlandırmışdım. Çünki əfsuslar olsun ki, 1990-cı



illərin əvvəllərində münaqişə ilə bağlı dünyada dolğun təsəvvür yox idi, təhrif edilmiş məlumat var idi. Erməni lobbisi tərəfindən ortalığa atılmış məlumat var idi. Əks təqdirdə, bizim torpaqlarımız işğal altına düşə-düşə Amerika Konqresi məşhur 907-ci düzəlişi qəbul etməzdi. Azərbaycan torpaqları işğal altına düşürdü, ancaq Amerika Konqresi Azərbaycanı təcavüzkar kimi tanımışdır və bizi humanitar yardımdan məhrum etmişdir. O vaxt erməni lobbisi buna nail oldu. Azərbaycan diplomatiyası, sadəcə olaraq, onların qarşısında adekvat addım ata bilməmişdir.

Biz informasiya müharibəsində qələbə qazandıq. Biz Xocalı soyqırımı haqqında dünyaya dolğun məlumat verdik. Xocalı soyqırımı haqqında dünyada məlumat yox idi. “Xocalıya ədalət!” kampaniyası, 10-dan çox ölkə tərəfindən Xocalı soyqırımının soyqırımı kimi ta-





nınması demək olar ki, münaqişə ilə bağlı həqiqəti əks etdirən mənzərəni yaratdı və dünya ictimaiyyətinə çatdırdı.

Biz - Qoşulmama Hərəkatına sədrlik edən ölkə BMT-dən sonra ikinci böyük təsisat olan Qoşulmama Hərəkatına sədrlik etdiyimiz dövrdə də bu məsələni diqqət mərkəzində saxlamışıq. Bu gün 120 ölkəni birləşdirən təşkilata Azərbaycan sədrlik edir. Keçən il Zirvə görüşü keçirilmişdir. Bu gün Azərbaycan xalqı bir daha görür ki, bunun nə qədər böyük önəmi var idi. Çünki İkinci Qarabağ müharibəsi dövründə BMT-də, BMT Təhlükəsizlik Şurası tərəfindən yeni qətnamənin qəbul edilməsi cəhdləri də baş vermişdir. O qətnamə qəbul edilsəydi, əlbəttə ki, bizi dayandıra bilməzdi, ancaq lazım olmayan bir mənzərə yarada bilərdi. Məhz Qoşulmama Hərəkatına üzv ölkələr o qətnamənin qəbul olunmasına imkan vermədilər, bizi dəstəklədilər. Mən də onlara təşəkkürümü bildirdim və demişdim ki, onlar bizim arxamızda kişi kimi durdular. Baxmayaraq ki, böyük dövlətlər onlara böyük təzyiqlər göstərirdi. Qoşulmama Hərəkatının bir çox üzvləri Azərbaycanı həm müstəqil, həm güclü, həm də onları müdafiə etməyə hazır olan ölkə kimi tanıyır. Biz pandemiya dövründə 30-dan çox ölkəyə humanitar maliyyə yardımı göstərmişik, o cümlədən Ümumdünya Səhiyyə Təşkilatının xətti ilə Qoşulmama Hərəkatına xüsusi bir yardım göstərmişik. Görülmüş bütün bu işlər səmərəsini verdi. Biz bizim üçün əsas məsələ olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ məsələsində lazımi beynəlxalq dəstəyi ala bildik.

Biz bu gün təkcə Qoşulmama Hərəkatına yox, eyni zamanda, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına da sədrlik edirik. Bizim beynəlxalq nüfuzumuz kifayət qədər yüksəkdir və bu, münaqişənin həlli üçün xüsusi rol oynamışdır.

Mən bu 17 il ərzində daim deyirdim ki, biz iqtisadi sahəyə güclü təkan verməliyik, iqtisadi müstəqilliyimizi təmin etməliyik və təmin etdik. Bu gün biz iqtisadi cəhətdən heç kimdən asılı deyilik. Asılı olsaydıq, bizə təzyiqlər edilə bilərdi. Onsuz da edilmişdi, ancaq onların heç bir səmərəsi olmadı. Çünki bizə qarşı iqtisadi amildən istifadə etmək mənasızdır. Biz heç kimdən asılı deyilik, hansısa ölkədən, hansısa beynəlxalq maliyyə qurumundan asılı deyilik. Əksinə, biz özümüz indi donor ölkəyik, biz özümüz indi kreditlər veririk. Bizim kifayət qədər güclü iqtisadi potensialımız və maliyyə resurslarımız imkan verdi ki, iqtisadi müstəqilliyi tam təmin edək. Bu da qələbənin əldə edilməsində xüsusi rol oynayırdı. Çünki əgər biz iqtisadi cəhətdən müstəqil olmasaydıq, biz siyasi müstəqillik əldə edə bilməzdik. Siyasi müstəqillik olmadan torpaqlarımızı düşməndən azad edə bilməzdik. O düşməndən ki, onların arxasında böyük dövlətlər, o dövlətlərin çox nüfuzlu dairələri, erməni lobbi təşkilatları dayanır.

Bu amillər gücümüzü artırdı, qələbəmizi şərtləndirdi. O amillərin arasında birinci nömrəli məsələ hərbi



bizim təcrübəmiz öyrənilir. Bu gün bu məsələ ilə məşğul olan bir çox ekspertlər qeyd edirlər ki, Azərbaycan XXI əsrin müharibəsini aparıb. XXI əsrdə ilk dəfə olaraq, bu miqyasda və bu səmərə ilə qısa müddət ərzində tarixi nailiyyətlər əldə edilib. İndi buraya gələrkən mən ən azı üç müdafiə xəttini gördüm. Amma mənə hərbçilər tərəfindən verilən məlumata görə, beş müdafiə xətti var. Füzulidə də, həmçinin. Biz bu əsgər və zabitlərimizin qəhrəmanlığı, peşəkarlığı sayəsində müdafiə xəttini yarmışıq. Biz texniki cəhətdən ən müasir silahlarla təchiz edilmişik və İkinci Qarabağ müharibəsi bunu göstərdi, o videogörüntülər var. İndi onlar bir çox ölkələrdə öyrənilir və öyrəniləcək, hərbi kitablara salınacaq.

Eyni zamanda, biz ordumuzun döyüş potensialını gücləndirirdik. Çünki tam aydın idi ki, təkcə silahlarla qələbə qazanmaq mümkün deyil. Bayrağı qaldıran, bayrağı düşmənin mövqeyinə sancan, azad edilmiş torpaqlara sancan əsgərdir, zabitdir. Bizim əsgər və zabitlərimiz aslan kimi vuruşdular. Şəhidlər verdik. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Onların valideynlərinə Allah səbir versin! Yaralı hərbçilərimiz var, onlar da sağalırlar. Onların bir çoxu artıq sağalıb. Allah onlara şəfa versin! Biz qəhrəman əsgər və zabitlərimiz hesabına qələbə qazanmışıq. Təkcə Şuşanın işğaldan azad edilməsi əməliyyatı, əminəm ki, tarixdə əbədi qalacaq. Demək olar ki, yüngül silahlarla dərədən, meşələrdən, dağlardan keçərək əlbəyaxa döyüşdə düşməni məhv etdik, Qarabağın tacı olan Şuşanı azad etdik.

Bax, bütün bu amillər bizim qələbəmizi şərtləndirdi. Mən bir daha qeyd etmək istəyirəm ki, ağdamlılar bu günü uzun illər ərzində - 30 ilə yaxın idi gözləyirdilər. Eyni zamanda, İkinci Qarabağ müharibəsi zamanı da gözləyirdilər. Mən bilirəm və hiss edirəm ki, bizim şəhərlərimiz, rayonlarımız, kəndlərimiz işğaldan azad olunduqca ağdamlılar da fikirləşirdilər ki, nə vaxt onların kəndləri, Ağdam şəhəri azad olunacaq. Cəbrayıl azad olundu, Füzuli azad olundu, Hadrut azad olundu, Zəngilan, Qubadlı, Suqovuşan, Şuşa azad olundu və yəqin ki, ağdamlılar fikirləşirdilər ki, nə üçün Ağdam azad olunmur? İndi mən bunu deyə bilərəm. Amma mən istəyirdim, bunu hansısa formada ağdamlılara çatdırım, amma onlar da başa düşürlər ki, müharibə dövründə bunu edə bilməzdim. Burada beş müdafiə

gücümüzdür. Mən dəfələrlə demişdim ki, bizim üçün hərbi gücümüzün möhkəmləndirilməsi birinci məsələdir. Təsadüfi deyil ki, mənim prezidentlik dövrümdə bizim hərbi xərclərimiz hər il büdcə xərcləri arasında birinci yerdə idi. Mən deyirdim və ya vətəndaşlara izah edirdim ki, bəli, bizim çoxlu başqa məsələlərimiz var, həllini gözləyən problemlər var. Ancaq bizim əsas problemimiz torpaqlarımızın işğal altında olmasıdır. Ona görə bizim xərclərimiz arasında birinci yerdə hərbi xərclər dayanır. Biz lazım olan texnikanı aldıq. Bu texnikanı, müasir silahları Azadlıq meydanında dəfələrlə keçirilmiş paradlarda nümayiş etdirirdik. Biz ordumuzu inkişaf etdirərkən ən qabaqcıl meyilləri nəzərdən keçirmişdik. Biz o silahları alırdıq ki, bu silahlar bizim üstünlüyümüzü təmin etsin və İkinci Qarabağ müharibəsi bunu göstərdi.

Bu gün bir çox ölkələrdə, inkişaf etmiş ölkələrdə

xətti var. Düşmən bizi buradan gözləyirdi. Biz imkan verə bilməzdik ki, düşmənin gözlədiyi yerdən hücuma keçək. Biz bu istiqamətdə kifayət qədər böyük hərbi birləşmə saxlamışdıq ki, düşmənin hərbi qüvvələri də burada qalsın, başqa yerə getməsin. Füzulini, Hadrutu, Xocavənd rayonunun böyük hissəsini və Şuşanı azad edəndən sonra təbii ki, biz artıq Ağdam şəhərinə istiqamət götürmüşdük və əmr verilmişdi ki, növbəti istiqamət Ağdamdır. Düşmən də bilir və artıq etiraf edir ki, əgər onlar torpaqlarımızın azad edilməsi ilə bağlı mənim şərtlərimi qəbul etməsəydilər, burada məhv olacaqdılar. Çünki biz Ağdama gəlirdik.

Müharibənin bütün sirlərini açmaq hələ ki, tezdir. Vaxt gələcək çox maraqlı məsələlər üzə çıxacaq. Ancaq bu gün tam rahat deyə bilərəm ki, Ağdam əməliyyatı planlaşdırılırdı. Biz Ağdamı onsuz da alacaqdıq. Amma itkilər olacaqdı, özü də böyük sayda. Ona görə Şuşanı və noyabrın 9-da 70-dən çox kəndimizi azad edəndən sonra düşmənin beli qırıldı, təslim oldu, ağ bayraq qaldırdı, mənim şərtlərimə əməl etdi və öz məğlubiyyətini etiraf etdi.

Mən, demək olar ki, müharibənin ilk günlərindən çoxsaylı müsahibələrimdə və xalqa müraciətlərimdə demişdim ki, - bütün bunları qaldırmaq olar, hər şey sənədləşdirilib, - bizə tarix versin. Dedim, Paşinyan, sən özün, sənin xarici işlər nazirin, yaxud müdafiə nazirin yox, hansılar ki, bu məğlubiyyətə görə işdən qovuldular, sən özün, Paşinyan, bizə tarix verməlisən, özün deməlisən və buna nail oldum.

Əgər mənim sözümə qulaq assaydı, indi belə rəzil durumda olmazdı. Tam qətiyyətlə deyə bilərəm, biz işğal olunmuş torpaqlarımızı onsuz da azad edəcəkdik. Ancaq düşmən hesab edirdi ki, ona kimsə kömək edəcək. Hesab edirdi ki, onun bütün havadarları gəlib onun yerinə bizimlə vuruşacaq. Səhv etdi, böyük səhv etdi. Füzuli, Cəbrayıl, Hadrut, Zəngilan, Qubadlı, Şuşa, Suqovuşan, Xocavənd rayonunun böyük hissəsi döyüş meydanında işğaldan azad olunandan sonra düşmən diz çökdü və bu gün diz üstədir. Biz düşmənin belini qırdıq, biz şanlı Qələbə qazandıq. Biz bütün dünyaya sübut etdik ki, onların əfsanələri, onların mifləri hamısı boş şeydir. On mindən çox fərari var Ermənistan ordusunda və daha da çox olacaqdı. Əgər biz Ağdama planlaşdırdığımız əməliyyatı həyata keçirsəydik, bax, burada minlərlə erməni hərbçisi ya fərari olacaqdı, ya da məhv olacaqdı. Biz göstərdik ki, döyüşkən xalq Azərbaycan xalqıdır. Biz göstərdik ki, heç vaxt bu işğalla barışmayacağıq. Açsınlar baxsınlar mənim çıxışlarıma, mən son 17 il ərzində bəlkə də min dəfə demişəm, biz bu işğalla barışmayacağıq. Hesab edirdilər ki, bizim torpaqlarımızı işğal altında əbədi saxlayacaqlar. Çünki bu qədər xərc qoyan, burada, Füzulidə, Cəbrayılda bu qədər istehkam quranlar onu da istəyirdilər. Cəbrayıl rayonunun Soltanlı kəndi uğrunda bir neçə gün şiddətli döyüşlər gedirdi. Orada elə istehkamlar qurmuşdular ki, bəlkə də heç dünyada belə istehkamlar olmayıb. Nə üçün? Çıxmaq istəmirdilər. Hesab edirdilər ki, orada əbədi oturacaqlar. Erməniləşdirmək istəyirdilər. Bax, bütün Ağdam şəhəri dağıdılıb. Oranı onlar 1990-cı illərdə dağıdıblar ki, əgər sülh müqaviləsi imzalansa, Azərbaycan xalqı gəlib burada yaşaya bilməsin. Hər tərəf minalanıb. Ən çox minalar məhz buradadır. Amma səhv etdilər. Biz bütün bu illər ərzində bir amalla, bir arzu ilə yaşamışıq ki, bu torpaqlara qayıdaq və qayıtmışıq. Ermənistan ordusunu məhv etmişik. Ermənistan ordusu demək olar ki, yoxdur. Hərbi cinayətkarları məhv etmişik, onların tör-töküntülərini məhv etmişik. Mən Füzuli şəhərində demişəm, bir daha demək istəyirəm, biz Koçaryan, Sarkisyan ordusunu məhv etmişik. Biz Koçaryana, Sarkisyana qarşı qüdrətimizi göstərmişik. Biz onları məğlub etmişik. Paşinyan kimdir, mən indi onun haqqında danışmaq istəmirəm, nə lazımsa demişəm. Koçaryan, Sarkisyan, siz diz çökdünüz bizim qabağımızda, siz buranı, işğal edilmiş bütün torpaqları bax, bu günə saldınız. Siz bu məscidi dağıtdınız. İkinci Qarabağ müharibəsi dövründə qaçıb gizləndilər. Döyüş bölgəsinə burunlarını da belə soxa bilmədilər. Bəs, haradadır sizin qəhrəmanlığınız? Dedim ki, çıxarın dəmir-dümürləri, onun qiyməti yoxdur. Qəhrəman ordenləri taxmısınız döşünüzə. Yalançı qəhrəmandırlar bunlar. Bax, mən burada durmuşam, dağıtdığınız məscidin önündə, dağıtdığınız Ağdam şəhərində, öz ordumla buraya gəlmişəm. Qalib kimi gəlmişəm. Siz isə öz miskin həyatınızın sonuna qədər məğlub edilmiş, qorxaq damğası ilə yaşayacaqsınız. Nə gizlənirsiniz orada siçan kimi?! Koçaryan, Sarkisyan, mən sizə deyirəm. Paşinyan heç kimdir. İndi onun dərdi, azarı hakimiyyətdə qalmaqdır. Buna görə də bütün müxalifəti tutdurur. Qərb də susur buna, susur, ağzına su alıb. Görmür ki, nələr baş verir orada?! Hərbi cinayətkarlar, Xocalı qatilləri, sizi məhv etmişik. Azərbaycan əsgəri, Azərbaycan zabiti sizi məhv edib. Əcəb də eləyib!

Bu gün Ağdam şəhərini dağılmış vəziyyətdə görmək çox ağrılıdır. Amma mən bir neçə il bundan əvvəl bu bölgədə olarkən, bizim səngərlərdə olarkən, o binanı binoklla görmüşəm. Bu hissləri sözlə ifadə etmək çətindir, mümkün deyil. Öz torpağımızda öz şəhərimizi, bax, o binanı binoklla uzaqdan görmək, buraya gələ bilməmək nə qədər ağrılı idi. Dəfələrlə təmas xəttində olarkən, səngərlərdə olarkən, fikirləşirdim ki, gün gələcək biz qayıdacağıq, biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik.

Bu gün mən Ağdam məscidinə Məkkədən gətirdiyim "Qurani-Kərim"i bağışladım. Mən xoşbəxt adamam ki, dörd dəfə Məkkə ziyarətində olmuşam. Bir dəfə



rəhmətlik atamla, üç dəfə isə Prezident kimi. Xoşbəxtəm ki, mən ailə üzvlərimlə bərabər müqəddəs Kəbənin içində dualar etmişəm. Hər bir insanın ürəyində nə varsa, mənim ürəyimdə də eyni duyğulardır. Etdiyim duaların arasında birinci duam torpaqlarımızın işğaldan azad edilməsi idi. Allahdan xahiş edirdim, mənə güc versin ki, biz torpaqları işğalçılardan azad edək, o xoşbəxtliyi bizə nəsib etsin, biz yenə də dədə-baba torpağımıza qayıdaq.

Bu gün burada, vandallar tərəfindən dağılmış məscidin önündə deyirəm ki, xoşbəxt adamam. Bir daha Allaha şükür edirəm ki, mənim dualarımı eşidib, bu gücü mənə verib. Biz gücümüzü səfərbər edərək bax, bu tarixi günləri yaşayırıq. Bu, həqiqətən də tarixi günlərdir. Bəlkə də çoxəsrlik Azərbaycan tarixində buna bənzər şərəfli və qürurlu günlər olmayıb. Biz bunu birliyimiz sayəsində qazanmışıq, gücümüz sayəsində qazanmışıq. Heç kim bizə kömək etməyib. Əksinə, ancaq maneçilik törədib. Gün gələcək bu barədə də ətraflı danışacağam.

Bu 44 gün ərzində bizə mənəvi və siyasi dəstək verən Türkiyə Cümhuriyyəti olub, mənim qardaşım Prezident Rəcəb Tayyib Ərdoğan olub və bir neçə digər müsəlman və qeyri-müsəlman ölkələrin rəhbərləri olub. Biz bu Qələbəni birlik, əzm, iradə və güc hesabına əldə etdik. Bu gün, müharibə başa çatandan sonra artıq Qərb dairələrindən bəzi Qərb liderləri məsələ qaldırırlar ki, bəs, Azərbaycanın nəzarətinə keçən azad edilmiş torpaqlarda xristian məbədləri necə olacaq? Həm mənimlə söhbət zamanı, həm rəsmi bəyanatlarda narahatlıq ifadə edirlər. Heç kim narahat olmasın, xüsusilə Qərb dövlətlərinin liderləri, hansılar ki, islamofob hissləri alovlandırırlar. Hansılar ki, İslam müqəddəslərinin təhqirlərinə göz yumurlar və hətta onları təhqir edənlərə bəraət qazandırırlar. Onların haqqı yoxdur bu barədə danışmağa, bu, birincisi. İkincisi, bizim ərazimizdə olan bütün məbədlər tarixi sərvətimizdir. Azərbaycanda hər il Bakı Humanitar Forumu, ya da ki, Mədəniyyətlərarası Dialoq Forumu keçirilir. Azərbaycanda dünya dinlərinin liderlərinin Zirvə görüşləri keçirilib. Baxın, görün, nələr deyilib bizim haqqımızda. İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanda İslam dininə olan münasibəti örnək kimi göstərir. Rusiya Pravoslav Kilsəsinin patriarxı Kiril Bakıda olarkən Azərbaycanda bu sahədə görülmüş işlərə yüksək qiymət verib, Pravoslav kilsələrində olub. Roma Papası Fransisk Bakıda olarkən rəsmi çıxışında Azərbaycanda tolerantlıq, dini dözümlülük, multikulturalizm haqqında danışıb. Kim bizə irad tuta bilər? Məscidləri bağlayan? Yaxud da ki, müsəlman məscidlərinə öldürülmüş donuzların başlarını atan bizə dərs deyəcək, narahatlıq ifadə edəcək? Bizə heç



bir narahatlıq ifadə etmək lazım deyil. Bizim bütün tarixi abidələrimiz dövlət tərəfindən qorunur. Mənim göstərişimlə və dövlət vəsaiti hesabına hazırda iki pravoslav kilsəsi təmir edilir, üçüncü kilsə isə təmir olunub. İnzibati bina tikilir. Müharibə dövründə udi qardaşlarımızın kilsəsi Heydər Əliyev Fondu tərəfindən təmir olunaraq istifadəyə verilib. Bizim Qafqaz Albaniyası kilsələri milli sərvətimizdir. Gürcü kilsələrimiz, erməni kilsəsi. Vəhşi düşmən bax bu məsciddə inək saxlayıb, donuz saxlayıb. Bu şəkillər var internetdə. Azad edilmiş Zəngilan məscidində, Cəbrayıl məscidində donuz saxlayıb.

Biz UNESCO ilə çox sıx əməkdaşlıq edirik. Amma gəlib xristian məbədlərinə baş çəkmək istəsə, buraya gəlsin. Gəlsin və desin vəhşi erməni neyləyib burada. Bir də ki, bir neçə il bundan əvvəl Minsk qrupunun həmsədr ölkələrinin səfirləri bu məsciddə, burada olublar. Onlar iki dəfə faktaraşdırıcı missiyalar keçiriblər və mənə deyiblər ki, Ağdam məscidində olublar. Niyə məsələ qaldırmayıblar? Niyə bu, bəzi Qərb liderlərində narahatlıq yaratmayıb? Deməli, müsəlman məscidlərini təhqir etmək olar, inək, donuz saxlamaq olar, dağıtmaq olar. Belədirsə, belə də desinlər və getsinlər öz ölkələrində problemlərlə məşğul olsunlar, bizim işimizə burunlarını soxmasınlar. Heç kim bizim işimizə qarışmasın. Biz özümüz gəlmişik buraya. Bütün o ölkələrin səylərinə rəğmən gəlmişik, bütün təxribatlara rəğmən gəlmişik, qan tökə-tökə gəlmişik və durmuşuq bizim torpağımızda. Hərə getsin öz işi ilə məşğul olsun. Bizim işimizə qarışmaq istəyənin cavabını vermişik və verəcəyik.

Bu gün tarixi bir gündür. Biz şanlı Qələbəmizi qeyd edirik. Dağılmış Ağdam şəhəri erməni vəhşiliyinin şahididir. Biz Ağdam şəhərini bərpa edəcəyik, bütün kəndləri bərpa edəcəyik. Heç kimdə bu haqda şübhə olmasın. Bu, böyük iş olacaqdır. Əlbəttə ki, böyük zəhmət tələb edəcək. Amma necə ki, biz 44 gün ərzində birlik göstərmişik, əminəm ki, azad edilmiş torpaqlarımızın bərpası işində də birlik, əzmkarlıq göstərəcəyik. Bütün şəhərlərimizi bərpa edəcəyik, daha da gözəl şəhərlər olacaqdır. Şəhərlərimizdə qalan tarixi abidələri bərpa edəcəyik və bir daha gücümüzü göstərəcəyik.

Biz Qələbəmizi dəmir yumruq hesabına, düşməni qova-qova qazanmışıq və indi durmuşuq öz torpağımızda.

Eşq olsun Azərbaycan xalqına! Eşq olsun Azərbaycan əsgərinə, Azərbaycan zabitinə! Ağdam bizimdir! Qarabağ Azərbaycandır!

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

## Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının yaradılması haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin, Ermənistan Respublikası Baş nazirinin və Rusiya Federasiyası Prezidentinin 2020-ci il noyabrın 10-da imzaladıqları Bəyanatda nəzərdə tutulmuş müddəaların icrasından irəli gələn, habelə Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin həlli, eləcə də bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə aşağıdakı tərkibdə Əlaqələndirmə Qərargahı (bundan sonra – Qərargah) yaradılsın:

**Qərargahın rəhbəri**

**Samir Nuriyev** – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri

**Qərargahın üzvləri**

**Zeynal Nağdəliyev** – Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri

**Şahmar Mövsümov** – Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri

**Hikmət Hacıyev** – Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri

**Fuad Ələsgərov** – Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri

**Anar Ələkbərov** – Azərbaycan Respublikası Prezidentinin köməkçisi

**Gündüz Kərimov** – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi

**Elçin Əmirbəyov** – Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi

**Xalid Əhədov** – Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi

| | |
|---|---|
| **Emin Hüseynov** | – Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi |
| **Kamran Əliyev** | – Azərbayan Respublikasının Baş prokuroru |
| **Vilayət Eyvazov** | – Azərbaycan Respublikasının daxili işlər naziri |
| **Muxtar Babayev** | – Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri |
| **Fikrət Məmmədov** | – Azərbaycan Respublikasının ədliyyə naziri |
| **Sahil Babayev** | – Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri |
| **Kəmaləddin Heydərov** | – Azərbaycan Respublikasının fövqəladə hallar naziri |
| **Ceyhun Bayramov** | – Azərbaycan Respublikasının xarici işlər naziri |
| **Mikayıl Cabbarov** | – Azərbaycan Respublikasının iqtisadiyyat naziri |
| **İnam Kərimov** | – Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri |
| **Samir Şərifov** | – Azərbaycan Respublikasının maliyyə naziri |
| **Zakir Həsənov** | – Azərbaycan Respublikasının müdafiə naziri |
| **Ramin Quluzadə** | – Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri |
| **Oqtay Şirəliyev** | – Azərbaycan Respublikasının səhiyyə naziri |
| **Emin Əmrullayev** | – Azərbaycan Respublikasının təhsil naziri |
| **Anar Quliyev** | – Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri |
| **Rövşən Rzayev** | – Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri |
| **Elçin Quliyev** | – Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin rəisi |
| **Əli Nağıyev** | – Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi |
| **Orxan Sultanov** | – Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinin rəisi |
| **Anar Kərimov** | – Azərbaycan Respublikasının mədəniyyət nazirinin birinci müavini |
| **Rəşad Nəbiyev** | – “Azərkosmos” Açıq Səhmdar Cəmiyyətinin sədri |

**2.** Qərargahın nəzdində katiblik və kommunikasiya funksiyasının yerinə yetirilməsi və zəruri analitik-təşkilati dəstək göstərilməsi məqsədilə İdarələrarası Mərkəz yaradılsın.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 24 noyabr 2020-ci il.



**Şəhidlərimizi ehtiramla yad edirik!**

Hörmətlə anırıq!
04.12.2020
Saat 12:00

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

## Azərbaycan Respublikasında Anım Gününün təsis edilməsi haqqında

Ermənistanın Azərbaycana qarşı 2020-ci il sentyabrın 27-dən başlayan növbəti hərbi təcavüzünə cavab olaraq, Azərbaycan xalqı işğal altındakı torpaqlarımızın azad edilməsi məqsədilə Vətən müharibəsinə başlamışdır.

Haqq və Şərəf işimiz olan, Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə qəhrəmanlıq göstərən əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki insanlarımız, bütövlükdə xalqımız əzm və iradə, bir yumruq kimi birlik və həmrəylik nümayiş etdirərək, düşmənə sarsıdıcı zərbələr endirmişdir.

Azərbaycan Ordusunun zəfər yürüşünə dözə bilməyən düşmən təxribatlara əl ataraq, günahsız mülki insanları hədəfə almaqla müharibə cinayətləri törətmişdir.

Həmvətənlərimizin bir çoxu şəhid olmuş, itkin düşmüş, yaralanaraq sağlamlığını itirmişdir. Torpaqlarımız qəhrəman şəhidlərimizin, əsgər və zabitlərimizin, qazilərimizin qanı və canı bahasına işğaldan azad edilmişdir. Müzəffər Ordumuzun bu gün yazdığı tarix sabah daha da güclü inkişaf edəcək, çiçəklənəcək Azərbaycan üçün möhkəm bünövrədir. Bu, eyni zamanda, regionda dayanıqlı və uzunmüddətli sülhü, əmin-amanlığı və təhlükəsizliyi təmin edən mühüm amildir.

Azərbaycan hər zaman mübariz oğul və qızlarının şücaətini yüksək qiymətləndirir, bütün şəhidlərimizin ruhuna ehtiram göstərir, xatirəsini uca tutur. Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, **qərara alıram:**

**1.** Hər il sentyabrın 27-si Azərbaycan Respublikasında Anım Günü kimi qeyd edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 2 dekabr 2020-ci il.

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

## Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında

XX əsrin 80-ci illərinin sonları-90-cı illərinin əvvəllərində Ermənistan Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları ilə çıxış etmiş və ölkəmizə qarşı hərbi təcavüzə başlamışdır. Həmin dövrdə Azərbaycanda hökm sürən hərc-mərclikdən istifadə edən Ermənistan torpaqlarımızın 20%-ni işğal etmiş, Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma yurd-yuvasından didərgin düşmüşdür.

Azərbaycana qarşı hərbi təcavüzün nəticələrinin aradan qaldırılması və BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin həyata keçirilməsi üzrə 30 ilə yaxın davam edən danışıqlar prosesi Ermənistanın destruktiv mövqeyinə görə nəticə verməmişdir.

2019-cu ildən etibarən isə Ermənistan hərbi-siyasi rəhbərliyinin bir-birinin ardınca verdiyi təxribatçı bəyanatlar və atdığı addımlar danışıqlar prosesini məqsədyönlü şəkildə tamamilə pozmuşdur. Bununla Ermənistan bir daha özünün əsl məqsədinin mövcud status-kvonu möhkəmləndirməkdən və Azərbaycan ərazilərini ilhaq etməkdən ibarət olduğunu nümayiş etdirmişdir.

Ermənistanın qəbul etdiyi təcavüzkar və hücum xarakterli milli təhlükəsizlik strategiyası və hərbi doktrina, işğal edilmiş ərazilərdə qeyri-qanuni məskunlaşdırma siyasətini genişləndirməsi, "yeni ərazilər uğrunda yeni müharibə" çağırışı, mülki şəxslərdən ibarət "könüllü dəstələri" yaratmaq qərarı, 2020-ci il iyulun 12-də Ermənistan – Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində təxribat tö-

rətməsi, eyni zamanda bütövlükdə qoşunların təmas xəttində gərginliyi artırması, cəbhə xəttinə yaxın ərazilərdə qoşunlarını cəmləşdirməsi, böyük həcmdə silah-sursat toplaması Ermənistanın genişmiqyaslı hücuma hazırlaşdığını göstərirdi.

Azərbaycan dəfələrlə bəyan etmişdi ki, Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdə qanunsuz mövcudluğu regionda sülh və təhlükəsizlik üçün əsas təhdiddir və hər zaman vəziyyətin gərginləşməsinə səbəb ola bilər.

Ermənistanın təxribatına və növbəti hərbi təcavüzünə cavab olaraq, Azərbaycan xalqı torpaqlarımızın işğaldan qurtarılması, Ermənistanın sülhə məcbur edilməsi, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin tələblərinin yerinə yetirilməsi, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması və ədalətin bərpası üçün Vətən müharibəsinə başladı. Bu müqəddəs amal uğrunda bütün Azərbaycan xalqı səfərbər və həmrəy oldu.

44 gün sürən hərbi əməliyyatlar nəticəsində müzəffər Azərbaycan Ordusu Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, Azərbaycan xalqının tarixində, mədəniyyətində və qəlbində xüsusi yeri olan, Qarabağın tacı sayılan Şuşa şəhərini, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndlərini, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla ümumilikdə 300-dən çox yaşayış məntəqəsini, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri işğaldan azad etdi.

Rəşadətli Azərbaycan əsgər və zabitləri addım-addım irəliləyərək, Ermənistanın uzun illər ərzində qurduğu mühəndis-istehkam sistemlərini yarıb keçdilər, torpaqlarımız qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı və canı bahasına azad edildi.

Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə Şuşanın düşmən əsarətindən qurtarılması müharibənin taleyində həlledici rol oynadı, Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və kapitulyasiyası ilə nəticələndi, Ermənistanı Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana qaytarmağa məcbur etdi.

Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin qələbəsini təmin edən mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə **qərara alıram:**

**1.** Hər il noyabrın 8-i Azərbaycan Respublikasında Zəfər Günü kimi təntənəli şəkildə qeyd edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 3 dekabr 2020-ci il.

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

## Vətən müharibəsi şəhidlərinin xatirəsinin yad edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, canlarını Azərbaycan Respublikasının ərazi bütövlüyü yolunda qurban vermiş Vətən müharibəsi şəhidlərinin əziz xatirəsini yad etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasında Vətən müharibəsi şəhidlərinin xatirəsini yad etmək məqsədilə 2020-ci il dekabrın 4-də saat 12:00-da bir dəqiqəlik sükut elan edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 3 dekabr 2020-ci il.

# İlham Əliyev və birinci xanım Mehriban Əliyeva şəhidlərimizin xatirəsini yad ediblər











2020-ci il dekabrın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şəhidlər xiyabanında olub və şəhidlərimizin əziz xatirəsini dərin ehtiramla yad ediblər.

Dövlətimizin başçısı "Əbədi məşəl" abidəsinin önünə əklil, birinci xanım Mehriban Əliyeva gül dəstəsi qoydular.

Azərbaycanın dövlət himni səsləndirildi.

Qeyd edək ki, Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş Vətən müharibəsinin qəhrəman şəhidlərinin əziz xatirəsi ölkəmizin hər yerində, məscidlərdə, kilsələrdə, sinaqoqlarda dərin ehtiram hissi ilə yad edilib.

Allah şəhidlərimizə rəhmət eləsin!

# İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında iştirak ediblər



2020-ci il dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradı keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan Zəfər paradında iştirak ediblər.

"Dəmir yumruq" əməliyyatında - Azərbaycanın Vətən müharibəsində möhtəşəm Qələbəyə həsr olunmuş Zəfər paradına müdafiə nazirinin müavini, "Zəfər" ordenli general-leytenant Kərim Vəliyev komandanlıq edib.

Paradda 3000 nəfərdən artıq şəxsi heyətin, 150-dək hərbi texnikanın, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnikanın, raket və artilleriya qurğularının, hava hücumundan müdafiə sistemlərinin, eləcə də hərbi gəmi və katerlərin nümayişi oldu. Paradda, həmçinin Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun darmadağın etdiyi düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi də nümayiş etdirildi.

Hərbi orkestr "Azərbaycan fanfarası"nı ifa etdi.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevə və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana raport verdi.

Dövlət başçıları əsgərləri salamladılar.

Hərbi orkestr Azərbaycanın və Türkiyənin dövlət himnlərini ifa etdi.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev paradda çıxış etdi.

# Prezident İlham Əliyevin çıxışı



– Hörmətli Türkiyə Cümhuriyyətinin Prezidenti, əziz qardaşım Rəcəb Tayyib Ərdoğan.

Əziz hərbçilər.

Hörmətli qonaqlar.

Xanımlar və cənablar.

İlk növbədə, xahiş edirəm ki, Vətən müharibəsində həlak olmuş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilsin.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

Bu gün tarixi bir gündür. Bu gün Azadlıq meydanında Zəfər paradı keçirilir. Mən çox şadam ki, bu paradda mənim dəvətimi qəbul edərək Türkiyə Cümhuriyyətinin Cümhurbaşqanı, əziz qardaşım Rəcəb Tayyib Ərdoğan iştirak edir. Eyni zamanda, Türkiyədən gəlmiş böyük nümayəndə heyəti, türk əsgər və zabitləri iştirak edirlər. Bu, bir daha bizim birliyimizi, dostluğumuzu və qardaşlığımızı göstərir.

Vətən müharibəsinin ilk günlərindən, daha doğrusu, ilk saatlarından biz Türkiyənin dəstəyini hiss edirdik. Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan ilk saatlardan Azərbaycanın haqq işinə öz dəstəyini verdi. Onun açıq, birmənalı və sərt açıqlamaları Azərbaycan xalqını çox sevindirdi. Mənim qardaşım demişdir ki, bu müharibədə Azərbaycan haqlıdır, demişdir ki, Azərbaycan tək deyil və Türkiyə hər zaman Azərbaycanın yanındadır. Bu, birliyimizin, qardaşlığımızın təzahürüdür. Türkiyənin Azərbaycana verdiyi siyasi və mənəvi dəstək hər bir Azərbaycan vətəndaşını qürurlandırır, sevindirir. Bu gün biz birlikdə Zəfər paradında iştirak edərkən, bir daha bizim birliyimizi həm xalqlarımıza, eyni zamanda, bütün dünyaya göstəririk.

Azərbaycan 44 gün ərzində parlaq qələbə qazanaraq Ermənistanı məğlub etdi, işğala son qoydu. Bu 44 günün hər günü bizim şanlı tariximizdir. Hər gün Azərbaycan Ordusu irəli gedirdi, hər gün yeni şəhərlər, kəndlər, qəsəbələr, yüksəkliklər azad edilirdi. Azərbaycan əsgəri, Azərbaycan zabiti bir amalla vuruşurdu ki, bu işğala son qoyulsun, bu haqsızlığa son qoyulsun, ədalət zəfər çalsın, tarixi ədalət zəfər çalsın və buna nail olduq.

Azərbaycan əraziləri 30 ilə yaxın işğal altında idi. 1990-cı illərin əvvəllərində Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti torpaqlarımızın işğal altına düşməsinə səbəb olmuşdu. Əslində, Ermənistanın təcavüzkar siyasəti hələ 1980-ci illərin sonlarından başlamışdı. O vaxt indiki Ermənistan Respublikasında yaşamış 100 minlərlə azərbaycanlı öz dədə-baba torpaqlarından didərgin salındı. Zəngəzur, Göyçə, İrəvan mahalı bizim tarixi torpaqlarımızdır. Bizim xalqımız bu torpaqlarda əsrlərboyu yaşayıb, ancaq Ermənistan rəhbərliyi o vaxt 100 minlərlə azərbaycanlını öz doğma torpaqlarından didərgin salmışdır. Ondan sonra Dağlıq Qarabağda eyni mənzərə müşahidə olunurdu, Ermənistan tərəfi zor gücü ilə Azərbaycanın dinc

əhalisinə qarşı hərbi cinayət törətmişdir, Xocalı soyqırımını törətmişdir. Ondan sonra 1992-ci ilin may ayında Şuşa şəhərinin və Laçın şəhərinin işğala məruz qalması Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi bağlantı yaratmışdı. 1993-cü ilin aprel ayında Kəlbəcər rayonunun işğal altına düşməsi bizim vəziyyətimizi daha da ağırlaşdırdı və faktiki olaraq sonrakı işğalçılıq siyasətinin davam etdirilməsinə səbəb oldu.

Biz uzun illər bütün beynəlxalq tədbirlərdə bu məsələ ilə bağlı həqiqətləri çatdırırdıq, böyük iş aparılmışdır və bu işin səmərəsi oldu. Baxmayaraq ki, biz ərazi bütövlüyümüzü döyüş meydanında qazandıq, hesab edirəm ki, son illər ərzində apardığımız siyasi və diplomatik səylər öz bəhrəsini verdi, bütün aparıcı beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıdı və bunu dəstəklədi. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, BMT Baş Assambleyasının qətnamələri, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Avropa Parlamenti və digər təşkilatlar Azərbaycanın haqq işini dəstəklədi. Beləliklə münaqişənin həlli üçün hüquqi zəmin yaradılmışdır. Eyni zamanda, bizim məqsədyönlü səylərimiz nəticəsində münaqişə ilə bağlı, Qarabağın tarixi ilə bağlı dünya ictimaiyyətinə dolğun məlumat çatdırıldı, Ermənistanın yalançı təbliğatına son qoyuldu və bütün dünya gördü ki, Qarabağ bizim əzəli tarixi torpağımızdır. Azərbaycan xalqı əsrlərboyu bu torpaqlarda yaşayıb, qurub-yaradıb, eyni zamanda, bütün dünya görüb ki, beynəlxalq hüquq baxımından Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir.

Biz bu illər ərzində güc toplayırdıq, həm siyasi müstəvidə, beynəlxalq təşkilatlar çərçivəsində, həm də ölkə daxilində iqtisadiyyatımızı gücləndirirdik, biz ordumuzu gücləndirirdik. Bunun nəticəsində Azərbaycan son illər ərzində çox uğurlu inkişaf yolu keçmişdir və ildən-ilə bizim üstünlüyümüz özünü daha qabarıq şəkildə büruzə verirdi. Ermənistan bizimlə rəqabət apara bilmədi. Mən son 17 il ərzində dəfələrlə demişdim ki, Ermənistan öz xoşu ilə bizim torpaqlarımızdan işğalçı qüvvələrini çıxarmasa, biz bu məsələni hərbi yollarla həll edəcəyik. Mən 2003-cü ildə Prezident vəzifəsinə seçiləndə Konstitusiyamıza və müqəddəs Qurani-Kərimə əl basaraq and içmişdim ki, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Bu gün böyük qürur hissi ilə deyə bilərəm ki, Azərbaycan öz istədiyinə nail oldu, tarixi ədaləti, beynəlxalq hüququ bərpa etdi.

Biz dünyada gedən prosesləri diqqətlə izləyirdik və görürdük ki, son illərdə beynəlxalq hüquq və prinsiplər kobudcasına pozulur. Bəzi ölkələr güc tətbiq edərək öz məqsədlərinə çatırlar, beynəlxalq hüquq kağızda qalır, BMT Təhlükəsizlik Şurasının qətnamələri kağızda qalır. Belə olan halda münaqişənin hərbi yollarla həll edilməsi qaçılmaz idi. Bundan əlavə, son illər ərzində, xüsusilə son 2 il ərzində Ermənistanın təxribatçı addımları, bəyanatları, hərəkətləri müharibəni qaçılmaz etmişdi. Ermənistan rəhbərliyinin çox zərərli və təhlükəli bəyanatları demək olar ki, danışıqlara son qoymuşdu. "Qarabağ Ermənistandır" deməklə Ermənistan rəhbərliyi danışıqlara son qoymuşdu. Bizim tarixi torpaqlarımızda xaricdən gətirilmiş ermənilərı məskunlaşdırmaq hərbi cinayətdir, beynəlxalq konvensiyalara ziddir. Bu, faktiki olaraq danışıqlara son qoyurdu, danışıqları mənasız edirdi və biz bunu görürdük, hiss edirdik və öz sözümüzü beynəlxalq kürsülərdən dünya ictimaiyyətinə çatdırırdıq. Bu ilin sentyabr ayında, müharibəyə 3 gün qalmış mən BMT Baş Assambleyasının kürsüsündən demişdim ki, Ermənistan yeni müharibəyə hazırlaşır, Ermənistan dayandırılmalıdır. Belə də oldu və bu il bizə qarşı 3 dəfə hərbi təxribat törədildi. İyul ayında Ermənistan-Azərbaycan dövlət sərhədində hərbi təxribat törədildi və Ermənistan bizim torpaqlarımızı işğal etmək istədi. Amma biz layiqli cavab verərək onları yerinə oturtduq. Avqust ayında Azərbaycana diversiya qrupu göndərildi. O diversiya qrupu da zərərsizləşdirildi. Nəhayət sentyabrın 27-də bizim kəndlərimiz, hərbi mövqelərimiz artilleriya atəşinə məruz qalmışdır, mülki şəxslər, hərbçilər arasında itkilər olmuşdur. Biz dedik yetər artıq, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır. Mən Ali Baş Komandan kimi əmr verdim ki, Azərbaycan əsgəri irəli, torpağımızı azad etməliyik, işğala son qoymalıyıq, işğalçını cəzalandırmalıyıq və belə də oldu. Azərbaycan 44 gün ərzində istədiyinə nail oldu, ədaləti bərpa etdi.

Bu 44 günün hər günü bizim şanlı tariximizdir, hər gün Azərbaycan irəli gedirdi. Bu 44 gün ərzində bir gün də olmamışdır ki, biz geri çəkilək. Biz Ermənistanın 30 ilə yaxın müddət ərzində qurduğu istehkamları yararaq keçmişik. Bu istehkamlar elə qurulmuşdu ki, Azərbaycan oradan keçə bilməsin, əsgərimiz oradan keçə bilməsin. Eyni zamanda, Dağlıq Qarabağ ərazisinin coğrafi relyefi də Ermənistan tərəfi üçün daha əlverişli idi. Azərbaycan əsgər və zabitləri böyük qəhrəmanlıq, şücaət göstərərək şərəfli missiyanı yerinə yetirdi və öz doğma torpaqlarını işğalçılardan azad etdi. Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı rayonları, eyni zamanda, Suqovuşan qəsəbəsi, Hadrut qəsəbəsi, Xocalı rayonunun bir hissəsi, Kəlbəcər rayonunun bir hissəsi, Murovdağ silsiləsi, Laçın rayonunun cənub hissəsi, strateji yüksəkliklər döyüş meydanında düşməndən azad edildi, orada Azərbaycan bayrağı qaldırıldı. Şanlı müharibəmizə Şuşa şəhərində yekun vuruldu. Noyabrın 8-də Şuşa şəhərinin azad edilməsi tarixi nailiyyətimizdir. Şuşa işğal altına düşmüş birinci şəhərimiz idi və işğaldan azad edilən sonuncu şəhər oldu. Şuşa işğaldan azad ediləndən

sonra düşmənin beli qırıldı, düşmən təslim olmağa məcbur qaldı. Şuşanın azad edilməsi tarixi hadisədir. Bizim Ordumuz, qəhrəman övladlarımız dağlardan, dərələrdən, meşələrdən, cığırlardan keçərək, sıldırım qayaları qət edərək, qayalara dırmaşa-dırmaşa Şuşaya qalxaraq orada əlbəyaxa döyüşdə düşməni məhv etdi, Azərbaycan bayrağını Şuşada qaldırdı. Ondan bir gün sonra daha 70 kənd işğalçılardan azad edildi və Ermənistan artıq təslim oldu, ağ bayraq qaldırdı, diz çökdü, öz layiqli cəzasını aldı və imdad dilədi. Biz Ermənistanı döyüş meydanında məhv etdik. Biz ermənilərin uzun illər yaratdıqları mifi darmadağın etdik. Onlar öz ordusu haqqında yalan məlumat ötürərək mif yaratmışdılar, guya Ermənistan ordusu yenilməz ordudur. Cəmi 44 gün ərzində Ermənistan ordusu məhv edildi, hərbi texnikası məhv edildi, canlı qüvvəsi məhv edildi və Azərbaycan öz gücünü, öz qüdrətini göstərdi.

Mən demişəm ki, biz güc toplayırıq və bu gücü toplamışıq. Biz bu qələbəni həm peşəkarlıq, qəhrəmanlıq hesabına, eyni zamanda, milli ruh hesabına qazanmışıq. Biz haqlı idik, haqq-ədalət bizim tərəfimizdə idi. Bizim əsgər və zabitlərimiz hücuma keçəndə bir amalla yaşayırdı ki, öz doğma torpaqlarını işğalçılardan azad etsinlər. Noyabrın 10-da Ermənistan məcbur olub kapitulyasiya aktına imza atıb. Bu kapitulyasiya aktına görə, bir güllə atmadan Kəlbəcər, Laçın və Ağdam rayonları Azərbaycana qaytarıldı, Azərbaycan bayrağı orada qaldırıldı. Bu, onu göstərir ki, biz müharibəni həm döyüş meydanında, həm siyasi müstəvidə qazanmışıq. Halbuki bir çoxları, xüsusilə bu məsələ ilə məşğul olan vasitəçilər dəfələrlə demişdilər ki, münaqişənin hərbi həlli yoxdur. Amma biz sübut etdik ki, münaqişənin hərbi həlli var. Əks-təqdirdə, bu nə hərb, nə sülh vəziyyəti bundan sonra da 30 il davam edə bilərdi. Biz buna nə qədər dözə bilərdik? Biz nə qədər səbir göstərə bilərdik? Mən dəfələrlə demişdim ki, Azərbaycan xalqının səbri tükənib və əgər Ermənistan işğal edilmiş torpaqlardan öz xoşu ilə çıxmasa, biz onları oradan qovacağıq, onlar rədd olmalıdırlar bizim torpaqlarımızdan! Mən bunu müharibədən əvvəl və müharibə dövründə demişəm, xalqa müraciətlərimdə demişəm, xarici mətbu orqanlara verdiyim müsahibələrdə demişəm. Demişəm ki, Ermənistan bizim torpaqlarımızdan öz xoşu ilə rədd olmalıdır, etiraf etməlidir və çıxmalıdır. Əks-təqdirdə sona qədər gedəcəyik və sona qədər getdik. Ona görə biz döyüş meydanında qələbə qazandıq. Ondan sonra, siyasi müstəvidə qələbə qazandıq, düşməni məcbur etdik ki, Kəlbəcər, Laçın və Ağdam rayonlarını azad etsin və bizim torpaqlarımızı tərk etsin.

Bu zəfər tarixi zəfərdir. Azərbaycan xalqı bu günü 30 ilə yaxın müddət ərzində gözləyirdi, 30 ilə yaxın müddət ərzində Ali Baş Komandanın əmrini gözləyirdi. Mən dəfələrlə Azərbaycan xalqına müraciət edərkən deyirdim ki, biz daha güclü olmalıyıq və nəyi nə vaxt, necə etmək lazımdır, biz bilirik. Həyat göstərdi ki, vaxtında addımlar atdıq, bütün gücümüzü səfərbər edərək bir dəmir yumruq yaradıb düşmənin başını əzdik. Müharibə dövründə mən deyirdim ki, bizim dəmir yumruğumuz həm birliyimizi, həm də gücümüzü təcəssüm etdirir. Bu dəmir yumruq düşmənin belini qırdı, düşmənin başını əzdi. Bu gün biz qəhrəman xalq kimi bu bayramı qeyd edirik. Azərbaycanın müzəffər Ordusu öz tarixi missiyasını yerinə yetirdi, Ermənistanı məğlub etdi. Ermənistan ordusu demək olar ki, yoxdur, məhv edilib. Bundan sonra əgər erməni faşizmi bir daha baş qaldırsa, nəticə eyni olacaq. Yenə Azərbaycanın dəmir yumruğu onların belini qıracaq.

İndi isə bizim üçün yeni dövr başlayır – quruculuq dövrü. Mənfur düşmən işğal edilmiş bütün torpaqları yerlə-yeksan edib. Bu məlumat artıq hər kəsdə var, videogörüntülər var. Azad edilmiş ərazilərə mənim səfərlərim bunu göstərir. Bütün binalar, bütün tarixi abidələr, məscidlər, qəbirlər, məzarlıqlar mənfur düşmən tərəfindən dağıdılıb. Biz onların hamısını bərpa edəcəyik. Artıq bərpa işləri başlanmışdır.

Mən bir daha Azərbaycan xalqının qəhrəmanlığını dilə gətirmək istəyirəm. Mənfur düşmən döyüş meydanında məğlubiyyətə uğrayarkən mülki əhaliyə qarşı hərbi cinayətlər törədib, bizim şəhərlərimizi ballistik raketlərlə, fosforlu bombalarla, kasetli bombalarla atəşə tutub. Bu namərd atəş nəticəsində 100-ə yaxın mülki vətəndaş, onların arasında uşaqlar, qadınlar həlak olublar. Dörd yüzdən çox mülki vətəndaş yaralanıb, beş mindən çox ev dağıdılıb, ya da ki, o evlərə ziyan vurulub. Ancaq Azərbaycan vətəndaşı öz torpağından bir addım geri atmayıb. Deyirdilər ki, öldü var, döndü yoxdur, sona qədər gedəcəyik. Müharibə dövründə Ermənistan ordusunda 10 mindən çox fərari olub. Azərbaycan Ordusunda bir dənə də fərari olmayıb. Yaralı əsgər və zabitlərimiz hərbi hospitallarda, xəstəxanalarda həkimlərdən xahiş edirdilər ki, bizi tezliklə sağaldın, biz qayıdaq döyüş meydanına, biz öz missiyamızı başa vurmalıyıq. Azərbaycan xalqı öz böyüklüyünü göstərdi, yüksək mənəvi ruhunu göstərdi. Bu Qələbənin səbəbkarı da Azərbaycan xalqıdır. Biz birlik, iradə, əzmkarlıq, milli ruh göstərərək tarixi missiyamızı yerinə yetirdik.

Bundan sonra Azərbaycan yalnız inkişaf edəcək. Bizim azad edilmiş torpaqlara bundan sonra həyat qayıdacaq. Mən demişəm ki, bizim hər birimiz bu işdə fəal olmalıyıq. Biz düşmən tərəfindən dağıdılmış şəhər və kəndlərimizi birlikdə bərpa edəcəyik. Bizim iradəmiz də var, imkanlarımız da var.

Azadlıq meydanında paradlar çox keçirilib. Ancaq

bu paradın xüsusi önəmi var. Bu, Zəfər paradıdır. Bu, tarixi hadisədir. Paradların birində mən demişdim ki, parada 2016-cı ildə Lələtəpə yüksəkliyində qaldırılmış bayraq gətiriləcək. Demişdim ki, gün gələcək və bu gün işğaldan azad edilən torpaqlarda qaldırılan Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və bu gün gəldi. Bu tarixi günün şahidi bizik, Azərbaycan xalqıdır. Biz bundan sonra ancaq və ancaq irəli gedəcəyik.

Öz çıxışımı məşhur kəlamla yekunlaşdırmaq istərdim. Hər kəs bilir ki, Ermənistan rəhbərliyi bir il bundan əvvəl demişdi ki, "Qarabağ Ermənistandır və nöqtə". Mən isə demişdim ki, "Qarabağ Azərbaycandır və nida". Bu gün bütün dünya görür ki, Qarabağ Azərbaycandır! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan Ordusuna! Yaşasın Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı! Yaşasın Azərbaycan əsgəri!

***

Sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış etdi.

## Prezident Rəcəb Tayyib Ərdoğanın çıxışı



– Hörmətli cənab Prezident, əziz Qardaşım.

Azərbaycan Silahlı Qüvvələrinin qəhrəman şəxsi heyəti.

Azərbaycanlı can qardaşlarım.

Sizləri ən səmimi hisslərimlə, məhəbbətlə, hörmətlə salamlayıram.

Bu Zəfər Gününüzdə sizlərlə birlikdə olmaqdan böyük məmnunluq duyuruq.

Qardaşım İlham Əliyevə bu yüksək dəvəti və qonaqpərvərliyi üçün təşəkkürümü bildirirəm.

Azərbaycanın 44 gün davam edən şanlı mübarizəsində şəhid olan igidlərə Uca Allahdan rəhmət, qazilərimizə tezliklə sağalmalarını arzulayıram.

Şair Bəxtiyar Vahabzadənin dediyi kimi:

Hardan sənin oldu bizim Qarabağ?
Adı sahibini demirmi aşkar?
Xoşluqla verməzlər torpağı, ancaq
Qanla möhürləyib, zorla alarlar.

***

İsa bulağının zümzüməsini,
Cabbarın, Seyidin, Xanın səsini,
Dalğalı Qarabağ şikəstəsini,
Babək türbəsini necə pay verim?

Qarabağı otuz illik həsrətdən sonra Ana Vətən ilə qovuşduran Azərbaycan Ordusunun şəxsi heyətini təbrik edir, onları dualarla cəbhəyə göndərən anaların əllərindən öpürəm.

20 Yanvarda şəhidlərin məzarları üzərinə qoyulan qərənfillər müstəqilliyi necə xatırladırsa, indi də Dağlıq Qarabağ bölgəsinə xas olan Xarı Bülbül Azərbaycan torpaqlarının azadlığının rəmzinə çevrilmişdir.

Azərbaycanın həm hərbi, həm də diplomatiya sahəsində əldə etdiyi bu uğurda ən böyük paylardan biri şübhəsiz ki, əziz qardaşım cənab Prezident İlham Əliyevə aiddir. Qardaşım İlham Əliyev bununla mərhum Heydər Əliyevin ona vəsiyyət olaraq etdiyi arzusunu da yerinə yetirmişdir. Fürsətdən istifadə edərək güclü Azərbaycanın əsasını qoyan ümummilli lider Heydər Əliyevi də burada rəhmətlə yad edirəm. Azərbaycan qardaşım İlham Əliyevin qətiyyətli rəhbərliyi ilə, inşallah, dastan yazmaqda davam edəcək.

Hörmətli Qardaşım, əziz Azərbaycan xalqı. Türkiyə Azərbaycanın apardığı mübarizəyə ilk günlərdən bütün qurum və təşkilatları ilə dəstək vermiş, bütün imkanları ilə azərbaycanlı qardaşlarının yanında olmuşdur. Türkiyə olaraq Azərbaycan ilə münasibətlərimizdə özümüzə hər zaman böyük lider Heydər Əliyevin "Bir millət, iki dövlət" şüarını rəhbər tutduq. Qazi Mustafa Kamal Atatürkün dəqiq ifadəsi ilə Azərbaycanın kədərini kədərimiz, sevincini sevincimiz bildik. Bu anlayışla Qarabağı otuz il boyunca sinəmizdə yara etdik. Bu gün də bu yaranın sağalmasının sevincini paylaşmaq, bu şanlı zəfəri birlikdə qeyd etmək üçün aranızdayıq.

Azərbaycanın torpaqlarını işğaldan azad etməsi heç də mübarizənin başa çatması demək deyildir. Bu günə qədər siyasi və hərbi sahələrdə davam etdirilən mübarizə bundan sonra çox fərqli cəbhələrdə davam edəcəkdir. Otuz illik işğal müddətində bu bölgələrin viranəyə çevrildiyini, daş üstündə daş qalmadığını hamımız birlikdə gördük. Qardaşım İlham Əliyevin dediyi kimi, Füzuli şəhərində bayraq asmağa belə bina tapılmamışdır. Bütün şəhərlər tarmar edilmiş, bütün kəndlər yerlə-yeksan olunmuş, məzarlıqlar belə dağıdılmışdır. Məscidlər dağıdılmış, minarələr eynilə tarmar olmuşdur. Ermənilər hər şeyi məhv etdikləri kimi, tarixi və mədəni abidələri də, təbii sərvətləri də qarət etdilər. Bütün bu ziyanın hesabı sorulmalıdır.

Müharibə zamanı Gəncə, Tərtər, Ağdam, Bərdə, Ağcabədi kimi Azərbaycan torpaqları da hədəfə alınmışdır. Yüz məsum mülki şəxs şəhid edilib, analar balasız, uşaqlar atasız-anasız qalmışdır. Hücumlar nəticəsində 416 qardaşımız da yaralanmışdır. Müharibə qanunları kobud şəkildə pozulub, insanlıq şərəfi ayaqlar altına atılıb. Bunları görməzliyə vuranların gözləri kimi vicdanları da kor olmuşdur. Hər məcrada bunun hesabını sormalıyıq.

İllərdir doğulduqları yerlərdən uzaq qalaraq, yurd həsrəti ilə alışıb yanan bir milyon qaçqın və məcburi köçkün qardaşımız doğulduqları torpaqlara qayıdacaqlarını səbirsizliklə gözləyir. İnşallah, bu qardaşlarımızın həsrətinin ən qısa vaxtda sona çatacağına inanırıq.

Əziz qardaşlarım, Dağlıq Qarabağa fəlakət, qətliam və göz yaşından başqa heç nə gətirməyənlər də artıq ağıllarını başlarına toplamalıdırlar. Ermənistan rəhbərləri xalqın sərvətlərini Azərbaycanın torpaqlarını işğal atında saxlamaq üçün sərf etmişlər. Halbuki bu potensial mənasız müdafiə xətlərinə, silahlara, gözlərini kin və qan tutmuş rəhbərlərin ehtiraslarına sərf edilməsəydi, bu gün mənzərə çox fərqli olardı. Erməni siyasətçilərin bunu çox yaxşı təhlil edib, sülh və sabitlik əsasında gələcəyi qurmaq məsələsində cəsarətli addımlar atmalarını arzu edirik.

Ermənistan xalqının da özlərini keçmişin yalanları ilə ovunduraraq yoxsulluğa məhkum edən diasporun əsarətindən qurtulmasını diləyirik. Qərb imperialistlərinin təhriki ilə bir yerə çatmağın mümkün olmayacağını görməli, düşmənçilik əvəzinə mehriban qonşuluğa əsaslanan əlaqələr yenidən nəzərdən keçirilməlidir. Ermənistan xalqı Qarabağda yaşananlardan dərs götürərsə, bu, bölgədə yeni bir dövrün başlanğıcı olacaqdır.

Qardaşım İlham Əliyev Azərbaycan xalqının yaşadığı bu qədər faciəyə baxmayaraq, dayanıqlı sabitlik üçün təqdirəlayiq bir mövqe ortaya qoymaqdadır. Cənab Prezidentin bu xoşniyyətli cəhdlərini biz də dəstəkləyir, həmsöhbətləri tərəfindən dəyərləndirilməsini arzu edirik.

Şəhidlərimizin fədakarlığı sayəsində Azərbaycan ərazi bütövlüyünü, şükür olsun, yenidən təmin etmişdir. Artıq Azərbaycan torpaqları illərdir həsrət qaldığı Tərtər çayının sularına qovuşmuşdur. Şuşanın dağlarının başındakı duman artıq dərdli deyil. Girov qalmış Xarı Bülbül artıq azaddır və daha gözəl açacaqdır. Köndələnçay artıq daha coşqun axacaq. Araz nəğməsini daha güclü oxuyacaq. Qarabağ şikəstəsini oxuyan nəfəslər daha yüksək, daha güclü olacaqdır.

Arazı ayırdılar,
Lil ilə doyurdular.
Mən səndən ayrılmazdım
Zülm ilə ayırdılar.

Ay Laçın, can Laçın,
Mən sənə qurban, Laçın.

Gözəlliyinə qurban olduğumuz Laçın artıq azaddır. Laçın kimi, Şuşa kimi Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Ağdam və Kəlbəcər də artıq azaddır.

Bu gün Azərbaycanın milli şairi, böyük mücahid Əhməd Cavad bəyin ruhunun şad olduğu gündür. Bu gün Nuru paşanın, Ənvər paşanın, Qafqaz İslam Or-

dusunun igid əsgərlərinin ruhunun şad olduğu gündür. Bu gün Azərbaycan şəhidlərinin sərdarı Mübariz İbrahimovun ruhunun şad olduğu gündür. Bu gün hamımız üçün, bütün türk dünyası üçün zəfər və qürur günüdür.

Rəbbimə bizlərə bu günləri yaşatdığı üçün sonsuz şükür edirəm. Bu gün burada bütün qəlbimlə bir daha təkrarlamaq istəyirəm: Qarabağ Azərbaycandır! Qarabağ artıq Ana Vətəninə qovuşmuş, otuz illik həsrət sona çatmışdır. Türkiyə və Azərbaycan olaraq bundan sonrakı hədəfimiz bu torpaqları daha abad, daha inkişaf etmiş, uşaqlarımızın daha yaxşı yaşayacağı bir yerə çevirmək üçün mübarizə aparmaqdır. Türkiyə və Azərbaycan kürək-kürəyə verdikcə Allahın izni ilə çətinliklərin öhdəsindən gəlməyə, uğurdan-uğura çatmağa davam edəcəkdir. Allah köməyimiz olsun!

Bu düşüncələrlə çıxışımı yekunlaşdırarkən bütün Azərbaycan xalqını, əziz qardaşım Prezident İlham Əliyevi və şanlı Azərbaycan Ordusunu, Türk Ordusunu ürəkdən təbrik edirəm. Əziz şəhidlərimizi bir daha rəhmətlə yad edir, qazilərimizə tezliklə sağalmalarını arzu edirəm. Sağ olun, var olun, Allaha əmanət olun!

***

Dövlət başçılarının çıxışlarından sonra Zəfər paradı başladı. Silahlı Qüvvələrimizin şəxsi heyəti Azərbaycan Respublikasının Dövlət bayrağı və şanlı hərb tariximizə qızıl hərflərlə yazılmış 44 günlük Vətən müharibəsinin Zəfər bayrağı altında tribunaya doğru irəlilədi. Dövlət bayrağı və Zəfər bayrağının ardınca Azərbaycan Ordusunun qoşun növlərinin bayraqları Azadlıq meydanına gətirildi.

Vətən Müharibəsi Qəhrəmanı general-mayor Zaur Məmmədovun başçılıq etdiyi döyüş bayraqdarları qrupu Böyük Qələbənin qazanılmasında müstəsna xidmətləri olan hərbi hissələrin döyüş bayraqlarını Azadlıq meydanına gətirdi.

Sonra Vətən müharibəsində müqəddəs döyüşlərdə əsl qəhrəmanlıq, şücaət, rəşadət və yüksək peşəkarlıq nümunələri göstərərək xalqımıza Böyük Qələbənin sevincini yaşadan Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin hərbi qulluqçuları tribunanın önündən keçdilər. Üç kolondan ibarət parad heyətinə Xüsusi Təyinatlı Qüvvələrin komandanı, Vətən Müharibəsi Qəhrəmanı general-leytenant Hikmət Mirzəyev başçılıq edir.

Ardınca Hərbi Dəniz Qüvvələrinin dəniz piyadaları birinci dərəcəli kapitan Zaur Quliyevin başçılığı ilə tribuna önündən keçdilər.

Sonra Xarici Kəşfiyyat Xidmətinin və Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşlarından ibarət parad heyətləri tribunanın önündən addımladılar. Dövlət Təhlükəsizliyi Xidmətinin parad heyətinə general-mayor Rövşən Muxtarov başçılıq edirdi.

Daha sonra polkovnik Səid İsayevin başçılığı ilə Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlıları, polkovnik Taleh Məşədiyevin rəhbərliyi ilə Birinci Ordu Korpusunun döyüşçüləri, polkovnik Nemət Müseyibovun








başçılığı ilə İkinci Ordu Korpusunun, polkovnik-leytenant Kamran Ağabalayevin rəhbərliyi ilə Üçüncü Ordu Korpusunun, polkovnik İlham Məmmədovun başçılığı ilə Dördüncü Ordu Korpusunun və polkovnik-leytenant Dəyanət Müslümovun rəhbərliyi ilə Altıncı Ordu Korpusunun hərbi qulluqçuları tribuna önündən keçdilər.

Raket və Artilleriya Qoşunlarının hərbi qulluqçuları da tribuna önündən mətin addımlarla irəlilədilər.





Parad heyətinə polkovnik İsmixan Məmmədov başçılıq edirdi.

Zəfər paradında qardaş Türkiyə Respublikası Silahlı Qüvvələrini təmsil edən hərbi qulluqçular minbaşı Harun Ergenin rəhbərliyi ilə tribuna önündən keçdilər.

Dövlət Sərhəd Xidmətinin parad heyətləri general-mayor Rəsul Tağıyevin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının parad heyəti general-mayor İnqilab Muradovun, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin Milli Qvardiyasının hərbi








qulluqçularından ibarət parad heyəti isə mayor Eldar Quliyevin rəhbərliyi ilə mətin addımlarla Azadlıq meydanına daxil oldular.

Sonra general-mayor Füzuli Salahovun rəhbərliyi ilə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin parad heyəti, general-mayor Bəkir Orucovun başçılığı ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursant və zabitlərinin keçidi oldu.

Naxçıvan Muxtar Respublikasındakı Heydər Əliyev adına Hərbi Liseyin kursantları ilk dəfə olaraq Azadlıq meydanında keçirilən paradda iştirak edirdilər. Parad heyəti general-mayor Məhəmməd Həsənovun başçılığı ilə tribuna önündən keçdilər.

Vətən müharibəsində Böyük Qələbəyə həsr olunmuş Zəfər paradını Əməkdar incəsənət xadimi polkovnik-leytenant Rüfət Axundzadənin dirijorluğu ilə birləşmiş hərbi orkestr müşayiət edirdi.

Daha sonra hərbi texnikaların keçidi başladı.

Vətən müharibəsində Qələbəyə həsr olunan Zəfər paradına Hərbi Dəniz Qüvvələrinin və Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin döyüş gəmiləri və katerləri dənizdən dəstək verdi. Dənizdə fəxri keçid edən hərbi gəmilərimiz yüksək döyüş hazırlığı nümayiş etdirdi.

"Dəmir yumruq" əməliyyatının – Vətən müharibəsinin qazilərinin Zəfər paradında tribuna önündən keçidi oldu.

Azadlıq meydanına 44 günlük Vətən müharibəsində düşməndən qənimət götürülmüş hərbi texnikaların bir qismi gətirildi. Vətən müharibəsi zamanı Azərbaycan Silahlı Qüvvələrinin işğaldan azad olunan ərazilərdə ermənilərdən qənimət götürdüyü və sıradan çıxardığı 2 mindən çox avtomobilin nömrə nişanlarından hazırlanan kompozisiya paradda nümayiş olundu. Dağlıq Qarabağ ərazisinin əzəli Azərbaycan torpağı olduğu kompozisiyanın üzərinə həkk olunan "Qarabağ Azərbaycandır!" şüarı ilə bir daha bəyan edilib.

Döyüşlərdə qənimət götürülmüş istifadəyə yararlı texnikalar - "KamAZ" markalı avtomobilin qoşqusunda D-30, "Ural" markalı avtomobilin qoşqusunda D-20 topları, qoşqu üzərində zenit qurğuları, "ŞİLKA", "OSA-1T", "KUB" zenit-raket kompleksləri, piyadaların döyüş maşınları (PDM), "T-72" tankları, eləcə də istifadəyə yararsız texnikalar - zirehli "UAZ Patriot", "UAZ Hunter" minik, "ZİL-131", "Ural", "KamAZ" markalı yük avtomobilləri, 122 millimetrlik "Qvozdika" özüyeriyən artilleriya qurğusu, BM-21 "Qrad" qurğuları, PDM-1 və PDM-2



texnikaları, T-72 tankları qəhrəman Azərbaycan Ordusunun düşmənə sarsıdıcı zərbələr vurduğunun əyani təsdiqidir.

Bundan sonra xüsusi təyinatlı avtomobil, zirehli texnika və silah sistemləri kolonu Azadlıq meydanına daxil oldu. Kolona "Qarabağ" ordenli general-leytenant Nizam Osmanov başçılıq edirdi.

Azadlıq meydanında keçid edən, üzərində 12,7 millimetrlik NSV pulemyotları, tank əleyhinə idarə olunan "SPIKE-ER", "NLOS", "LAHAT" raketləri, 120 millimetrlik "SPEAR" minaatanlar quraşdırılan "SandCat-Stormer" zirehli idarəetmə, çevik hərəkət maşınları, piyada daşıyan zirehli maşınlar, "Kobra" və "BTR-82A" zirehli transportyorları, PDM-2 və PDM-3 texnikaları, "T-72", "T-90S" tankları Azərbaycan Ordusunun hərbi qüdrətini nümayiş etdirdi.

Daha sonra Azadlıq meydanında Hava Hücumundan Müdafiə silahları sistemləri kolonunun keçidi oldu. Kolona müdafiə nazirinin müavini – Hərbi Hava Qüvvələrinin komandanı, "Zəfər" ordenli general-leytenant Ramiz Tahirov başçılıq edirdi. Tribuna önündən modernləşdirilmiş "OSA-1T", "S-125 TM", "BUK-MB", "İldırım" zenit-raket komplekslərinin, "S-300 Favorit" sistemlərinin keçidi oldu. Ardınca Vətən müharibəsində Qələbənin əldə edilməsində çox mühüm rol oynayan "Orbiter-1KM" - "İti qovan", "Orbiter-2B", "Orbiter-3B", "Orbiter-4", "Aerostar–BP", "Heron" pilotsuz uçuş aparatları (PUA), eləcə də ən müasir PUA-lar - "Bayraktar-TB2", habelə "Hermes-450", "Hermes-










900", "Quzğun" və "Harop" PUA-ları nümayiş olundu.

Ardınca Azadlıq meydanına artilleriya silahları sistemlərinin kolonu daxil oldu. Kolona "Zəfər" ordenli general-mayor Ağamir Sultanov başçılıq edirdi. Meydanda özüyeriyən haubitsa və artilleriya qurğuları - 152 millimetrlik "Akasiya", 152 millimetrlik "MSTA-S", 203 millimetrlik "Pion", eləcə də 220 millimetrlik "TOS-1A" ağır odsaçan, tank əleyhinə "Xrizantema-S" kompleksləri, "DANA" özüyeriyən top-haubitsaları, "Qrad", "RM-70/85", "BM-21", "Smerç" yaylım atəşli reaktiv sistemləri, "TR-300 Qasırğa", "Ekstra" taktiki, "Polonez" və "LORA" əməliyyat-taktiki raket sistemlərinin keçidi oldu.

Bundan sonra Azadlıq meydanı üzərində Azərbaycan Hərbi Hava Qüvvələrinə məxsus döyüş təyyarələrinin və helikopterlərin uçuşu başladı. "Qarabağ" ordenli polkovnik Həsən Əlövsətovun rəhbərlik etdiyi "Mİ-17" hərbi nəqliyyat-desant helikopterləri cütlüyü Azərbaycan və Türkiyə respublikalarının dövlət bayraqları ilə Bakı buxtasının üzərindən uçaraq Zəfər paradının iştirakçılarını salamladı. Bunun ardınca Vətən Müharibəsi Qəhrəmanı polkovnik-leytenant Rəşad Nadirovun başçılığı ilə "Mİ-35" hücum helikopterləri qrupunun uçuşu oldu. Polkovnik-leytenant Rəhim Quluzadənin başçılığı ilə "LAHAT" və "SPAYK" uzunmənzilli raketləri ilə silahlanmış "Mİ-17" helikopterlərinin və "Qarabağ" ordenli polkovnik Zaur Rüstəmovun rəhbərliyi ilə "MİQ-29" çoxməqsədli qırıcı təyyarələr qruplarının uçuşları da maraqla qarşılandı. Zəfər paradında döyüş təyyarə və helikopterlərinin çıxışını müasir silahlarla təchiz olunmuş "Su-25" hücum və hava dəstək təyyarələr qrupu tamamladı. Vətən Müharibəsi Qəhrəmanı general-mayor Namiq İslamzadənin başçılıq etdiyi qrupun səmada Azərbaycan Respublikasının dövlət bayrağının təsvirini yaratması üçrəngli şanlı bayrağımızın daim yüksəklərdə dalğalanacağını təcəssüm etdirdi.

Vətən müharibəsinin iştirakçısı, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbaninin aparıcısı olduğu Zəfər paradı 44 günlük müharibədə Azərbaycan Ordusunun Böyük Qələbəsini bütün dünyaya təntənəli şəkildə nümayiş etdirdi. "Dəmir yumruq" əməliyyatı adı ilə Azərbaycanın yeni tarixinə yazılan






Vətən müharibəsində Rəşadətli Ordumuzun Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazandığı Böyük Qələbə müasir müstəqil Azərbaycan dövlətinin hərbi qüdrətinin, iqtisadi gücünün nümayişi ilə yanaşı, xalqımızın qələbə əzminin də əyani təsdiqidir.

Yaşasın, müstəqil Azərbaycan Respublikası! Yaşasın, müzəffər Azərbaycan Ordusu! Yaşasın, sarsılmaz və əbədi Azərbaycan-Türkiyə qardaşlığı!



# İlham Əliyev Qubadlı və Zəngilan rayonlarında olub

2020-ci il dekabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Qubadlı və Zəngilan rayonlarında olublar.



Qubadlıya gedən yolda avtomobili özü idarə edən Prezident İlham Əliyev dedi:

– Cəbrayıl rayonunun ərazisindəyik. Azad edilmiş torpaqlardayıq. Sağ tərəfdə ermənilər tərəfindən dağıdılmış kəndlərimizdir. Gedirik Qubadlı rayonuna.



Dağıdılmış üzüm bağları. Bütün kəndlər dağıdılıb. Yolun sol və sağ tərəflərində olan dirəklər torpaqlar işğaldan azad olunandan sonra qısa müddət ərzində qoyulmuşdur.

Bütün kəndlər dağıdılıb. Düşmən bu cinayətlərə görə cavab verəcək. Bütün kəndlərimiz, tarixi abidələrimiz, dini abidələrimiz düşmən tərəfindən dağıdılıb. Bütün dünya bunu görməlidir.

Sovet vaxtından qalan abidə. İkinci Dünya müharibəsinə həsr edilmiş abidədir. Onu da dağıdıblar.

Növbəti dağıdılmış kənd.

**Birinci xanım Mehriban Əliyeva:** Kəndin adı nədir?

**Prezident İlham Əliyev:** Göyərçin Veysəlli kəndi. Erməni faşistlər tərəfindən dağıdılıb. Heç İkinci Dünya müharibəsi zamanı faşistlər belə vəhşilik törətməyib. Görün, biz hansı vəhşi düşmənlə üz-üzə idik, biz hansı şər qüvvələri məğlub etdik?! Bölgəmizi, Qafqazı faşistlərdən azad etdik. Bütün bu kəndləri bərpa edəcəyik. Ancaq, ilk növbədə, bütün kəndlər, o dağıntılar sənədləşdiriləcək, uçota alınacaq.

Zəngilan rayonunun ərazisindən keçirik.

Babaylı kəndi. Bu da dağıdılıb.

Bir dənə də salamat bina yoxdur. Baxın, bütün binalar dağıdılıb. Köhnə qəbiristanlıq.

Zəngilan rayonunun gözəl mənzərəsi, səfalı məkan. Hamısını bərpa edəcəyik. Bu da Üçüncü Ağalı kəndi. Görünür burada ermənilər yaşayıblar. Amma görün nə gündə yaşayıblar. Mən deyəndə ki, işğal edilmiş





torpaqlarda ermənilər səfalət içində yaşayırlar, bax, budur bunun sübutu. Bizim kəndimizə gəliblər, kəndimizin böyük hissəsini dağıdıblar.

Ermənilərin zəbt etdikləri evlərimiz. İndi Üçüncü Ağalı kəndinin sakinləri yəqin ki, tanıyar bu ev kimindir. Gələsən, başqasının torpağını zəbt edəsən, insanları evsiz-eşiksiz qoyasan, onların evində yaşayasan, xarabalığa çevirəsən, sonra da deyəsən ki, bu, qədim erməni torpağıdır. Saxtakarlar, oğrular, yalançılar, vəhşilər bizim torpaqlarımızı 30 ilə yaxın müddət ərzində işğal altında saxlayıblar. Bütün bu videosənədlər hüquqi müstəvidə bizim təzminat davamız üçün əşyayi-dəlil olacaq.

Birinci Ağalı kəndi. Bura da dağıdılıb. Amma bəzi evlər qalıb. Ermənilər bizim evlərimizdə yaşayıblar. Bundan sonra özümüz yaşayacağıq öz evlərimizdə. Onlar da getsinlər öz vətənlərində yaşasınlar.

Sələli kəndi. Bu kənd də dağıdılıb. Görün nə günə qoyublar. Mən hələ müharibədən əvvəl deyirdim ki, bizim bütün kəndlərimiz, şəhərlərimiz talan edilib. Ermənilər dam örtüklərini, pəncərə çərçivələrini, hər şeyi aparıblar. Açıq-aşkar oğurluq ediblər, bizim torpaqlarımızı istismar ediblər.

Evin yarısını söküb, o biri tərəfdə yaşayıb. Baxın, nə günə qoyublar. Talançılar!

Vəhşi düşmən keçib bu torpaqlardan, dağıdıb ki, heç vaxt Azərbaycan əhalisi buraya qayıtmasın. İnşallah, hamımız qayıdacağıq. Hər şey dağıdılıb.

**Birinci xanım Mehriban Əliyeva:** Yəqin ora hərbi hissədir.

**Prezident İlham Əliyev:** Orada artıq Azərbaycan bayrağı ucaldılıb. Hərbi hissələr tikiblər ki, torpaqlarımızı əbədi işğal altında saxlasınlar, amma rədd etdik onları, qovduq torpaqlarımızdan. Torpaqların sahibləri qayıdır.

Baxın, ağacları necə qırıblar. Baxın, vəhşi düşmən neyləyib, bütün ağacları kəsib. Zəngilanın çox zəngin təbiəti var, nadir meşələri var. Çinar ağacları. Baxın, neyləyib düşmən. Baxsın bütün dünya, ermənipərəst qüvvələr bu günə qədər kimi müdafiə edirlər? Bizə





qarşı qətnamələr qəbul edən ölkələr baxsınlar, gözlərini açsınlar. Riyakar siyasətçilər açın gözlərinizi, baxın. Sizin parlamentləriniz qətnamələr qəbul edib. Bizim üçün o qətnamələrin heç bir əhəmiyyəti yoxdur, bir kağız parçasıdır. Amma iş ondadır ki, bizə qarşı yenə əsassız ittihamlar irəli sürülür. Fransa parlamentinin deputatları, Belçika, Hollandiya parlamentlərinin deputatları, baxın, sizin sevimli ermənilər nələr ediblər bu torpaqlarda? Açın xəritəyə baxın, ensiklopediyaya baxın, görün Zəngilan rayonu, Qubadlı rayonu hansı ölkənin tərkib hissəsidir. Qətnamələr qəbul edirsiniz. Başınıza dəysin bu qətnamələr. Azərbaycanı ittiham edirlər.

Qubadlının Xanlıq kəndi. Xanlıq kəndi uğrunda şiddətli döyüşlər gedirdi. Ermənilər bizim bu tarixi, qədim kəndimizə eybəcər ad veriblər. Xanlıq kəndi Qubadlı rayonunun ərazisində yerləşir. Biz indi Qubadlı rayonunun ərazisindəyik. Ermənilər Xanlıq kəndində özləri üçün hərbi istehkam, hərbi baza qurmuşdular. Xanlıq kəndində qanunsuz məskunlaşma aparılmışdı. Xaricdən gətirilən ermənilər burada qanunsuz yollarla yerləşdirilmişdilər. Bu da hərbi cinayət sayılır. Cenevrə



konvensiyalarına görə işğal edilmiş torpaqlarda qanunsuz məskunlaşma aparan ölkə cinayət törətmiş olur. Baxın, xaricdən gələn ermənilər üçün xaricdə yaşayan ermənilərin pulu ilə Xanlıqda qəsəbə salınıb.

Kənd təsərrüfatı texnikası. XX əsrin 50-ci illərində istehsal olunub. Xaricdə yaşayan ermənilər cinayət törədiblər. Xaricdən erməniləri gətirib bizim torpaqlarımızda məskunlaşdırıblar. Xanlıq qəsəbəsində azərbaycanlıların evlərini söküb sonra ermənilər üçün evlər tikiblər. Bu da ermənilərin maşını. Bax, bu maşınları sürürdülər onlar. Bu da bizim qəhrəman əsgərlərimizin adları. Öz adlarını yazıblar bu evlərin üzərində. Biləsuvar, Şabran, Sabirabad, Şuşa, Oğuz. Bax, qanunsuz məskunlaşma budur. Bu da ermənilərin növbəti maşınları, baxın.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ermənistanın qanunsuz məskunlaşma apardığı Qubadlının Xanlıq kəndinə gəldilər, burada hərbçilərlə görüşdülər.

**Prezident İlham Əliyev:** Salam uşaqlar.

**Əsgərlər:** Sağ olun!

**Prezident İlham Əliyev:** Nə var, nə yox, necəsiniz?

**Əsgərlər:** Çox sağ olun!

**Prezident İlham Əliyev:** Xidmət necə keçir?

**Əsgərlər:** Əla. Hər şey yaxşıdır.

**Prezident İlham Əliyev:** Çox yaxşı. Bu, ermənilərin bizim qədim kəndimizdə saldığı bir qəsəbədir. Bizim evlərimizi söküb, ondan sonra da xaricdən gələn ermənilərin pulu ilə bu qəsəbə salınıb. İndi biz burada yaşayırıq. Siz burada məskunlaşmısınız, xidmət göstərirsiniz. Biz öz doğma torpaqlarımıza qayıtmışıq. Bu torpaqları döyüş meydanında azad etmişik. Düşməni öz torpaqlarımızdan qovmuşuq, bax, sizin kimi əsgərlərin sayəsində. Bütün dünya gördü ki, Azərbaycan əsgəri, Azərbaycan zabiti nəyə qadirdir.

Gəlin uşaqlar, gəlin.

**Əsgərlər:** Xoş gəlmisiniz, cənab Prezident.

**Prezident İlham Əliyev:** Xoş gördük. Bu, bizim qədim torpağımızdır. Əsrlərboyu xalqımız bu torpaqlarda yaşayıb.

**Əsgər:** Ay maşallah, igiddir, əsl igid.

**Prezident İlham Əliyev:** Salam, salam. Sonra şəkil çəkdirək.

Döyüş meydanında gücümüzü göstərdik. Erməniləri torpaqlarımızdan qovduq. Azərbaycan Bayrağını torpaqlarımızda ucaltdıq. Azərbaycan xalqının ən böyük arzusunu yerinə yetirdik, döyüş meydanında, danışıqlar yolu ilə yox. Bizim başımızı aldadırdılar. Bu 27 il







ərzində ermənilər burada özləri üçün qəsəbə salıblar, xaricdən erməniləri gətiriblər. Xanlıq qəsəbəsinə bir eybəcər erməni adı veriblər.

**Əsgərlər:** "Onları iti qovan kimi qovduq" sözləriniz şüarımızdır.

**Prezident İlham Əliyev:** Gördülər bizim gücümüzü. Hesab edirdilər ki, bizim torpaqlarımızda əbədi oturacaqlar, bizə meydan oxuyacaqlar. Səbrimiz tükəndi, dedim irəli.

**Əsgərlər:** Var olun, var olun, var olsun Azərbaycan! Allah Sizi bizim başımızın üstündən əskik etməsin!

**Prezident İlham Əliyev:** Qəhrəman Azərbaycan əsgəri öz gücünü bütün dünyaya göstərdi. Mənə məlumat verilir ki, indi dünyanın aparıcı ölkələrinin ali hərbi məktəblərində bizim döyüş taktikamız öyrənilir. Bu, bir yenilikdir, XXI əsrin müharibəsidir. Həm peşəkarlıq, həm iradə, milli ruh, qəhrəmanlıq hesabına torpaqlarımızı işğalçılardan azad etmişik.

**Əsgərlər:** Sizin başçılığınız və iradəniz sayəsində.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Əsgərlər:** Biz sizinlə fəxr edirik. Yaşasın Azərbaycan! Yaşasın Azərbaycan əsgəri! Qarabağ Azərbaycandır!

**Prezident İlham Əliyev:** Gəlin, şəkil çəkdirək.

**Əsgər:** Ad gününüz mübarək, yüz yaşayın, Allah ömrünüzü uzun eləsin!

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qubadlı şəhərinə yola düşdülər.

**Prezident İlham Əliyev:** Qubadlı rayonunun ərazisindən iki böyük çay keçir: Həkəri çayı və Bazarçay. Onlardan biri də budur, baxın. Çox güman ki, bu, Həkəri çayıdır. Bura isə Aşağı Mollu kəndidir. Şəhidimiz Əsgərov Rüfətin şəkli. Allah rəhmət eləsin! Bütün şəhidlərimizə Allah rəhmət eləsin!

**Birinci xanım Mehriban Əliyeva:** Allah rəhmət eləsin!

**Prezident İlham Əliyev:** Qubadlı rayonunun gözəl mənzərəsi. Yenə də dağıdılmış kənd. Hər şeyi yenidən quracağıq, yolları da, bütün infrastrukturu da. Gözəl mənzərədir.

Bu da yəqin ki, Bazarçaydır. Çünki Qubadlının bir tərəfindən Həkəri çayı axır, digər tərəfindən Bazarçay, bax, buradan görünür. Ona Bərgüşad çayı da deyirlər. Qəzyan kəndi. Bax, ermənicə nəsə yazıblar orada.

Diləlimüskənli kəndi. Bu kənd də dağıdılıb. Bütün evlər dağıdılıb. Bir-iki ev qalıb, orada da düşmən yaşayıb. Bu da Saray kəndidir. Saray kəndi Qubadlı şəhərinin yaxınlığında yerləşir. Bu kənd də dağıdılıb.

Baxın, Qubadlı şəhərini düşmən nə günə qoyub.





Bütün binalar dağıdılıb. Ancaq özləri üçün hərbi hissə tikiblər. Bu da Qubadlı şəhəri. Bu, yəqin ki, onların anbarları olub. Bu ev də sökülüb. Qubadlı şəhərinin girəcəyində ermənilər hərbi baza tikiblər. Gün də çıxdı. Təbiət də bizi alqışlayır, salamlayır. Sahibləri gəlib bu torpağa. Gör nə gündədir Qubadlı şəhəri? Nə günə qoyub düşmən bizim şəhərimizi?

Prezident İlham Əliyev Qubadlıda Azərbaycan bayrağını ucaltdı.

Dövlətimizin başçısı burada çıxış etdi.

## Prezident İlham Əliyevin çıxışı

– Bu gün səhərdən yağış yağırdı, biz Qubadlıya çatanda gün çıxdı. Təbiət də bizi salamlayır, bizi alqışlayır. Qubadlıya öz sahibləri qayıdıb. Qubadlının işğaldan azad edilməsi tarixi hadisə idi. Oktyabrın 25-də Qubadlı şəhərinin azad edilməsi bizim qələbəmizi yaxınlaşdırdı. Qubadlı uğrunda şiddətli döyüşlər gedirdi, şəhidlər vermişik. Onların arasında Qubadlı rayonundan olan Milli Qəhrəman Şükür Həmidov öz doğma diyarı uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olmuşdur. Şükür Həmidova mən Milli Qəhrəman adını Aprel döyüşlərindən sonra verdim, göstərdiyi qəhrəmanlığa görə. Allah ona rəhmət eləsin! Allah bütün şəhidlərimizə rəhmət eləsin! Azərbaycan hərbçiləri, o cümlədən Şükür Həmidov dövlət tərəfindən yüksək döyüş ordenləri ilə təltif edilmişdir.

Qubadlı rayonunun azad edilməsi əməliyyatı bir neçə gün çəkdi. Zəngilan şəhəri oktyabrın 20-də azad olunandan sonra təbii ki, bizim növbəti istiqamətimiz Qubadlı rayonu idi və şəhərdə ermənilər güclü istehkam qurmuşdular. İndi şəhərdən əsər-əlamət qalmayıb, bütün binalar dağıdılıb, sökülüb və yol boyunca Cəbrayıl, Zəngilan, Qubadlı rayonlarının bütün kəndləri, qəsəbələri dağıdılıb. Ancaq burada, şəhərin girəcəyində düşmən hərbi baza yaratmışdı. Bu yüksəkliklərdə düşmənin hərbi birləşmələri yerləşmişdi. Ona görə Qubadlı şəhərini azad etmək o qədər də asan məsələ deyildi. Gərək, ilk növbədə, ermənilərin istehkamları məhv ediləydi, onlardan biri Xanlıq qəsəbəsində yerləşirdi. Orada güclü istehkam qurmuşdular və Xanlıq qəsəbəsini onlar özləri üçün bir baza kimi yaratmışdılar. Xaricdə yaşayan ermənilər orada qəsəbə salmışdılar. İndi bu qəsəbədə Azərbaycan əsgərləri yerləşib. Xaricdə yaşayan ermənilərin pulu ilə xaricdən ermənilər gətirilib və qanunsuz şəkildə Qubadlıda yerləşdirilib. Bu, özlüyündə hərbi cinayətdir. Bu cinayətə və bütün digər cinayətlərə görə Ermənistan dövləti cavab verəcəkdir.

Qubadlını azad etmək üçün, ilk növbədə, biz bu yüksəklikləri götürməli idik. Çünki düşmən bu yüksəkliklərdən müntəzəm olaraq hərbçilərimizə atəş açırdı. Eyni zamanda, Ermənistan ərazisindən bizə atəş açılırdı. Nəzərə alsaq ki, Azərbaycan Ermənistan ərazisinə keçmək fikrində deyildi və mən bunu müharibə zamanı dəfələrlə bildirmişdim. Onlar hesab edirdilər ki, bu imkanlardan istifadə edib, bizim hücumumuzun qarşısını ala bilərlər. Buradan, Qubadlı şəhərindən Ermənistan sərhədinə, bax, o istiqamətdən 5 kilometr məsafədir. Həm oradan ağır artilleriya ilə, həm də bu yüksəkliklərdən müxtəlif növ silahlardan istifadə edərək bizim əsgərlərimizi, hərbçilərimizi atəşə tutmuşlar. Ona görə Qubadlı əməliyyatı xüsusi peşəkarlıq və fədakarlıq tələb edirdi. Azərbaycan Or-



dusu da bu peşəkarlığı, fədakarlığı göstərib. İlk növbədə, şəhərə hakim olan yüksəkliklər götürüldü, ətrafda yerləşən kəndlər, o cümlədən Xanlıq qəsəbəsi, Padar, Sarıyataq, Mahmudlu kəndləri götürüldü və strateji yüksəkliklər ələ keçirildi. Ondan sonra Azərbaycan Silahlı Qüvvələri şəhərə girib, buranı da düşməndən təmizləyiblər.

Qubadlı rayonunun və Qubadlı şəhərinin azad edilməsi bizə böyük strateji üstünlük təmin edirdi. Çünki Qubadlıdan sonra növbəti istiqamət Laçın rayonu idi. Hər gün döyüş əməliyyatı planları mənim tərəfimdən təsdiq edilirdi və hər gün görülmüş işlərə yekun vurularaq məsələ təhlil edilirdi - gün ərzində görülmüş işlər bizim planlarımıza hansı dərəcədə uyğundur və biz hansı nailiyyətlərə çata bilmişik. Qubadlıdan Laçın rayonunun cənub hissəsinə gedən yol daim atəş altında idi. Çünki Laçın rayonuna gedən yol düz Ermənistanın dövlət sərhədinin yanı ilə keçir, orada məsafə bəlkə də 10-20 metrdir və Ermənistan daim o tərəfdən atəş açırdı. Ona görə bizim hərbi birləşmələrimiz digər müxtəlif yollarla, cığırlarla dağları aşaraq Laçın rayonunun strateji yüksəkliklərində yerləşmişdir. Beləliklə, Laçın rayonunun cənub hissəsində yerləşən Güləbird kəndi, Səfiyan kəndi, Türklər kəndi azad edilib və eyni zamanda, strateji yüksəkliklər ələ keçiriləndən sonra bu, bizə imkan verdi ki, Laçın dəhlizi artıq atəş altına düşsün.

Düşmən bizi bu tərəfdən gözləyirdi. Çünki təbii ki, düşmən bilirdi Şuşa azad edilməmiş müharibə dayana bilməz. Düşmən hesab edirdi ki, biz Laçın rayonunun cənub hissəsini götürəndən sonra bu tərəfdən Şuşaya gedəcəyik. Biz də bilirdik ki, düşmən bizi orada gözləyir. Biz Şuşaya başqa yolla getdik, onların gözləmədiyi yoldan keçdik. Bu günə qədər də onlar inana bilmirlər ki, bizim qəhrəman əsgər və zabitlərimiz o dağlardan, dərələrdən, meşələrdən necə keçərək Şuşaya yaxınlaşıb və Şuşanı işğaldan azad ediblər. Onlar bizi buradan gözləyirdilər, eyni zamanda, Xocavənd rayonunun Qırmızıbazar qəsəbəsi istiqamətində gözləyirdilər. Biz isə Şuşaya başqa yolla getdik. Şuşaya yaxınlaşaraq bir neçə kəndi azad etdik, o cümlədən Sığnaq, Çanaxçı və Daşaltı kəndini azad etdik. Qubadlı əməliyyatının çox böyük əhəmiyyəti var idi. Çünki Qubadlıdan sonra biz Şuşa şəhərini işğaldan azad etdik. Oktyabrın 25-də Qubadlı azad olundu və noyabrın 8-də Şuşa şəhəri azad edildi. Beləliklə, düşmən təslim olmağa məcbur oldu.

Müharibə zamanı gördüyümüz işlər bu gün aparıcı ölkələrin ali hərbi məktəblərində öyrənilir. Bu haqda məndə dəqiq məlumat var. Bizim xarici tərəfdaşlarımız bu məlumatı bizə çatdırıblar ki, ən inkişaf etmiş ölkələrin ali hərbi məktəblərində Azərbaycanın döyüş taktikası, bizim əməliyyatlar öyrənilir və bu, müasir döyüş taktikasıdır. Bizə qədər dünyada heç kim bu taktikadan istifadə etməyib. Burada bütün vacib amillər bir məqsədi güdürdü ki, az itkilərlə düşmənə sarsıdıcı zərbələr vuraraq, düşmənin ordusunu faktiki olaraq məhv edərək hədəfə çataq və belə də oldu.

Biz sentyabrın 27-də əks-hücum əməliyyatına başlayaraq, sonra hücum əməliyyatına keçdik. Çünki biz torpaqlarımızı azad etməli idik. Ermənistanın təxribatlarına son qoyulmalı idi. Günahsız insanların həlak olmasına son qoyulmalı idi və əks-hücumdan sonra hücum edən tərəf, adətən, daha çox itki verir. Ancaq bizim itkilərimiz müharibənin miqyasına görə həddindən çox aşağıdır. Hər bir şəhidimiz əvəzolunmazdır, hər bir insanın həlak olması böyük faciədir, onun özü üçün, yaxınları üçün, qohumları üçün, xalq üçün. Ancaq onu da bildirməliyik ki, biz istədiyimizə az itkilərlə nail olduq. Məhz buna görə ola bilər bəziləri hesab edir ki, bu məsələ daha da tez həll oluna bilərdi. Halbuki 44 gün ərzində bu ərazini işğaldan azad etmək və düşməni məhv etmək, düşmən ordusunu məhv etmək, düşməni təslim olmağa məcbur etmək böyük qəhrəmanlıqdır.

Biz çalışırdıq, öz taktikamızı elə quraq ki, itkilər az olsun. Eyni zamanda, bizim taktikamızda gözlənilməz addımlar da kifayət qədər çox idi. İstifadə etdiyimiz taktiki üsullar dünya hərb elmi üçün yenilikdir. Vaxt keçdikcə bu məsələ ilə bağlı daha geniş məlumat veriləcək. Ancaq bu gün də artıq xarici mətbuata sızılan məlumatlar da onu göstərir ki, bu müharibə hərbi ekspertlər tərəfindən çox ciddi təhlil edilirdi və edilir. Peşəkarlıq, qəhrəmanlıq, planlaşdırma, güclü iradə, milli ruh, texniki təchizat – bütün bu amillər birlikdə və xalq-iqtidar birliyi bizim Qələbəmizi şərtləndirdi.

Hər gün biz irəliyə gedirdik, 44 gün ərzində bir gün də olmayıb ki, biz geri çəkilək. Bir gün də olmayıb ki, hansısa məsələni biz həll etməyək. Hər gün səhər mənim tərəfimdən hər günün döyüş-əməliyyat planı təsdiq edilirdi, günün sonunda da təhlil olunurdu. Biz bunun nəticəsində qısa müddət ərzində böyük Qələbə qazana bilmişik, öz doğma torpaqlarımızı düşməndən azad edə bilmişik. Düşmənə elə sarsıdıcı zərbələr endirmişik ki, bu günə qədər özünə gələ bilmir.

Noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanat faktiki olaraq Ermənistan dövlətinin kapitulyasiyası idi. Ermənistan təslim oldu, ağ bayraq qaldırdı, diz çökdü. Ondan sonra Ağdam, Laçın, Kəlbəcər rayonları bir güllə atmadan bizə qaytarıldı. Bu gün Azərbaycan əsgəri bu rayonlarda xidmət göstərir. Bu da böyük nailiyyətdir. Biz mütləq o bölgələri də, o rayonları da döyüşərək alacaqdıq. Amma çox itkilər verə bilərdik, xüsusilə Ağdam istiqamətində, hər tərəf minalanmışdı və bir neçə müdafiə xətti var idi. Eyni zamanda, xüsusilə hava şəraitini nəzərə alsaq, Kəlbəcər, Laçın rayonlarının döyüşlə azad edilməsi də böyük itkilərə gətirib çıxaracaqdı. Artıq qış başlamışdı, yolları buz bağlamışdı. Kəlbəcərə Göygöl rayonundan keçmək üçün saatlarla vaxt lazımdır.

Ona görə noyabrın 10-da imzalanmış Bəyanatın çox böyük əhəmiyyəti var. Təbii ki, əgər biz o günə qədər böyük ərazini işğalçılardan azad etməsəydik, düşmənin belini qırmasaydıq, düşmən ordusunun məhv edilməsində istədiyimizə nail olmasaydıq, əlbəttə, düşmən onun üçün bu alçaldıcı sənədə qol qoymazdı. Biz onu məcbur etdik, torpaqlarımızdan qovduq və mən verdiyim sözə həmişə olduğu kimi sadiq qaldım. Müharibənin ilk günlərindən demişdim, Ermənistan rəhbərliyi açıq-aşkar bəyan etməlidir ki, nə vaxt, hansı tarixdə bizim torpaqlarımızdan çıxır. Tarix verməlidir bizə. Əgər bu olarsa, biz müharibəni dayandırarıq. Amma bizə tarix verilmədi. Çalışırdılar ki, müxtəlif yollarla xarici ölkələri bu işlərə qoşaraq öz çirkin əməllərini davam etdirsinlər, işğalı davam etdirsinlər. Əgər Ermənistan rəhbərliyi o vaxt mənim sözümə baxıb düzgün addım atsaydı, belə alçaldıcı vəziyyətə düşməzdi. Mən demişdim ki, axıra qədər gedəcəyik və axıra qədər də getdik, lazım olan anda dayandıq, üç rayonu bir güllə atmadan, bir itki vermədən qaytardıq, ərazi bütövlüyümüzü bərpa etdik.

Bu gün vaxtilə işğal edilmiş torpaqlarda Azərbaycan Bayrağı dalğalanır. Bu gün Ali Baş Komandan kimi, mən azad edilmiş bu torpaqlarda əsgərlərlə görüşürəm. Artıq bu bölgənin, Qarabağ bölgəsinin bərpası ilə bağlı konkret addımlar atılır, ilkin kontraktlar imzalanmışdır. Mənfur düşmən hər şeyi dağıdıb. Yol boyunca Cəbrayıl rayonundan, azad edilmiş torpaqlardan başlayaraq, bax, Qubadlıya qədər hər tərəf dağıdılıb. Bir dənə də salamat bina yoxdur. Təkcə Qubadlıda bir neçə bina qalıb ki, burada hərbçilər və onların ailə üzvləri yaşayıblar. Bütün binalar, bütün evlər, tarixi abidələrimiz, məscidlərimiz, qəbirlərimiz mənfur düşmən tərəfindən dağıdılıb. Bu cinayətlərin hamısı sənədləşdirilir.

Mən azad edilmiş bu bölgələrdə olarkən, ermənilər tərəfindən törədilmiş vəhşiliyi görərkən bir daha əmin oluram ki, biz nəinki özümüz üçün, bölgəmiz üçün böyük iş görmüşük. Biz erməni faşizminin başını əzdik. Bizim torpaqlarımızı erməni faşizmi bu günə saldı. Biz Ermənistan faşist dövlətinin, terror dövlətinin belini qırdıq və bu gün məcbur olub, bizim qabağımızda diz çöküb və düzgün nəticə çıxarmalıdır. Ermənistan cəmiyyəti düzgün nəticə çıxarmalıdır. Revanş hissi ilə yaşayacaqlarsa, onların axırı pis olacaq. Əgər o tərəfdən buraya bir güllə atılsa, - 5 kilometrdir buradan Ermənistan sərhədinə, - onları elə günə salarıq ki, ümumiyyətlə, öz adlarını unudarlar.

Biz öz istəyimizə nail olduq. Dekabrın 10-da Zəfər paradı keçirildi. Zəfər paradında biz düşmənin məhv edilmiş və qənimət götürülmüş texnikasını nümayiş etdirdik və öz hərbi potensialımızı nümayiş etdirdik. Biz bundan sonra da ordumuzu gücləndirəcəyik. İndi gələn ilin büdcəsi müzakirə olunur. Mənim

təşəbbüsümlə hərbi xərclər artırılır. İlk növbədə, ona görə ki, müharibə zamanı biz bir çox silah-sursatdan istifadə etdik, onları bərpa etmək lazımdır. Eyni zamanda, müasir texnikanın bundan sonra da alınması nəzərdə tutulur. Bundan sonra da ordumuzun müasirləşdirilməsi, ordumuzun döyüş potensialı, ordumuzun peşəkarlığı daim diqqət mərkəzində olacaqdır.

Biz Qələbə qazanmışıq, düşməni torpaqlarımızdan qovmuşuq. Amma heç kim təminat verə bilməz ki, bir neçə ildən sonra erməni faşizmi yenə baş qaldırmasın. Ona görə Azərbaycan dövləti həmişə güclü olmalıdır. Azərbaycan dövlətinin həmişə güclü ordusu olmalıdır. Biz gücümüzü bilirik. Dünya da bizim gücümüzü bilir. Biz nəinki öz ərazimizdə, istəsəydik Ermənistan ərazisində istənilən hərbi əməliyyatı tamamilə yerinə yetirə bilərdik. Bu gün də yerinə yetirə bilərik. Ermənistan tərəfi də bunu bilir. Sadəcə olaraq, biz həmişə beynəlxalq hüquqa hörmətlə yanaşmışıq və həmişə demişəm ki, bizim başqa ölkələrin torpaqları ilə işimiz yoxdur. Biz öz torpağımızda yaşamalıyıq, yaşayacağıq, düşməni öz torpağımızdan qovmuşuq, bütün bu bölgəni bərpa edəcəyik.

Qubadlı rayonu ölkəmizin ən gözəl rayonlarından biridir və qısa müddət ərzində lazım olan bütün bərpa işləri də nəzərdə tutulur. Xarici ekspertlər cəlb olunub, dəvət edilib, onlar bütün qiymətləndirmə işlərini aparacaqlar. Videosənədlər, fotosənədlər toplanır, bütün dəymiş ziyan hesablanacaq. Bizim torpaqlarımız istismar edilirdi, təbii ehtiyatlarımız istismar edilirdi. Zəngilan rayonunda qızıl yatağı istismar edilirdi. Azad edilmiş digər ərazilərdə də, həmçinin. Bütün bunların hesabını Ermənistan dövləti verəcək. Bununla paralel olaraq bütün bərpa işləri təmin ediləcək və biz bütün şəhər və qəsəbələrimizi, kəndlərimizi bərpa edəcəyik, insanlar buraya qayıdacaq və biz öz torpağımızda bundan sonra əbədi yaşayacağıq. Bundan sonra heç kim bizi öz torpağımızdan çıxara bilməz.

Mən müharibədən əvvəl dəfələrlə Azərbaycan xalqına müraciət edərək deyirdim ki, bu gün Azərbaycan güclü ölkədir və tarixdə heç vaxt indiki qədər güclü olmamışdır. Mən o vaxt təkcə iqtisadi yox, o cümlədən hərbi potensialımızı da nəzərdə tuturdum. Tarix və müharibənin nəticələri onu göstərdi ki, mən haqlı idim. Azərbaycan tarixdə heç vaxt belə parlaq Zəfər əldə etməmişdir, tarixdə heç vaxt indiki qədər güclü olmamışdır. Bizim gücümüz birliyimizdədir. Biz birlik nümayiş etdirmişik, əzmkarlıq nümayiş etdirmişik, qəhrəmanlıq nümayiş etdirmişik və bunun nəticəsində dəmir yumruqla düşmənin başını əzib öz doğma torpaqlarımızı azad etmişik. Qarabağ Azərbaycandır! Yaşasın Azərbaycan əsgəri! Yaşasın Azərbaycan!

***

Sonra dövlətimizin başçısı və birinci xanım işğaldan azad olunmuş Zəngilan rayonuna yola düşdülər.

**Prezident İlham Əliyev:** Zəngilan. Zəngilan şəhərinə az qalıb.

Düşmən Zəngilanda da hər şeyi dağıdıb. Baxın, dağılmış evlər. Baxın, bu evi nə günə qoyublar.







Prezident İlham Əliyev Zəngilanda Azərbaycan bayrağını ucaltdı.

Daha sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilanda mənfur düşmən tərəfindən dağıdılan məscidə gəldilər.

Məscidin qarşısında çıxış edən **Prezident İlham Əliyev** dedi:

– Görün mənfur düşmən məscidi nə günə salıb. Bizim bütün dini abidələrimiz düşmən tərəfindən dağıdılıb. Dünya 30 il ərzində buna səssiz qalıb. Biz








bu məsələni dəfələrlə qaldırmışdıq, beynəlxalq kürsülərdən qaldırmışdıq, tarixi-dini abidələrimiz dağıdılıb, təhqir edilib. Biz o videoları dəfələrlə göstərirdik. Ağdam məscidini, Şuşa məscidlərini, o vaxt işğal altında olan digər məscidlərin vəziyyətini göstərərək deyirdik ki, mənfur düşmən bizim dini abidələrimizi dağıdıb, təhqir edib.

Zəngilan işğaldan azad olunandan sonra rayonda





yerləşən məscidlərin birində donuzların saxlanması ilə bağlı videokadrlar nümayiş etdirilmişdir. Düşmən bizim dinimizi təhqir edib, bütün müsəlmanları təhqir edib. Bax, burada məscid olub, indi yoxdur, dağıdıblar. İndi bəziləri azad edilmiş torpaqlarda erməni xalqının dini irsi haqqında məsələ qaldırırlar. Bəs, bizim milli-dini irsimiz haqqında niyə heç kim məsələ qaldırmayıb? Bu yaxınlarda UNESCO-nun bir məmuru əsassız bir ifadə işlədib ki, guya bizə müraciət olunub, Azərbaycan isə səssiz qalıb. Biz 30 il ərzində dəfələrlə UNESCO-ya müraciət etmişik, dəfələrlə bildirmişik ki, bizim məscidlərimiz dağıdılıb, tarixi abidələrimiz dağıdılıb, bizim tarixi abidələrimiz erməniləşdirilir, bir dəfə missiya göndərildimi? Bir dəfə bizim müraciətimizə cavab verildimi? Elə müharibə qurtaran kimi başlayıblar ki, erməni xalqının abidələri gərək qorunsun. Biz



bütün abidələri qoruyuruq, bütün xalqların abidələrini qoruyuruq və dünya bunu bilir. Amma baxın, görün, məscid olub bura, UNESCO, buraya gəl, gəl gör. Avropa Şurası səssiz qalma, gəl gör buranı! Bütün məscidlər dağıdılıb. Yaxşı, məscidi dağıtmaq olar? Məscidi dağıtmaq, deməli, cinayət deyil? Bu ədalətsizlik nə qədər davam edəcək? Bu riyakarlıq nə qədər davam edəcək? Bu ikili standartlar nə qədər davam edəcək? Bu islamofobiya nə qədər davam edəcək? Bunu dağıdan erməni olub. Özündən mədəni millət obrazı yaratmağa çalışan və bəzi xarici himayədarları tərəfindən belə qəbul edilən mədəni adam bunu edər? Mədəni adam məsciddə donuz saxlayar? Bütün dünya bunu görsün! O cümlədən dünya müsəlmanları görsünlər və müsəlman ölkələrinin xalqları görsünlər. Bunu törədən ölkə ilə hansı dostluqdan söhbət gedə bilər? Əfsuslar olsun, biz bunu bu günə qədər eşidirik ki, bəzi müsəlman ölkələri Ermənistana dost ölkə deyirlər. Bu “dost ölkəyə” 20 il rəhbərlik etmiş cəlladlar bunu dağıdıblar. Onlar gəlib dağıdıblar bizim məscidimizi, təhqir ediblər. Bütün dünya bunu görməlidir. Əgər bizə qarşı hər hansı bir irad irəli sürüləcəksə, cavabını verəcəyik. İstənilən beynəlxalq təşkilat gəlsin, bunu görsün, öz hesabatında bunu əks etdirsin, qınasın işğalçı dövləti və görsün ki, biz hansı bəlaya qarşı mübarizə aparmışıq, biz kimi qovmuşuq torpaqlarımızdan, rədd etmişik onları buradan. Görün şəhərlərimizi nə günə salıblar. Bir dənə də salamat bina yoxdur. Cəbrayıldan başlayaraq ta Qubadlıya qədər, Zəngilana qədər azad edilmiş torpaqlardan gəlmişəm. Bir dənə də salamat bina yoxdur. Bütün binalar sökülüb, dağıdılıb, kəndlərimizin adları dəyişdirilib, eybəcər adlar verilib, məscidimiz bax, bu günə düşüb. Cavabını verəcək Ermənistan, cavabını verəcək! Veribdir, qovmuşuq torpaqlarımızdan, məhv etmişik onları, onların ordusunu. Əminəm ki, bu görüntülərdən sonra bizə irad tutmağa çalışan “beynəlxalq məmurlar” öz dillərini qarınlarına qoyacaqlar. Biz isə bu məscidi bərpa edəcəyik və bizim vətəndaşlar gəlib burada ibadət edəcəklər, buradan azan səsi gələcək, bu torpaqlara həyat qayıdacaq.

***

**Prezident İlham Əliyev:** İndi isə Zəngilandan Bakıya qayıdırıq. Yolboyu Zəngilanın gözəl təbiətini seyr edirik. Görün, necə gözəl yerlərdir. Qubadlı, Zəngilan rayonlarında olarkən bir daha gördük ki, vəhşi düşmən bizim şəhər və kəndlərimizi nə günə qoyub. Otuz il ərzində işğal altında olan torpaqlar öz sahiblərinə qayıdıb. Biz qayıtmışıq. Düşməni məhv edərək, zəfər çalaraq qayıtmışıq. Bir müddət sonra bu bölgəyə həyat tam qayıdacaq, İnşallah.

İndi istiqamət Bakı şəhəridir. Çəkilişi aparan Mehriban xanıma da təşəkkürümü bildirirəm. Xahiş edirəm özünü də çəksin.

**Birinci xanım Mehriban Əliyeva:** Dərin hörmət və məhəbbətlə sizin Mehriban.

**Prezident İlham Əliyev:** Sağ olun, əziz bacı və qardaşlar. Qarabağ Azərbaycandır!

# Rusiyanın məşhur “Vedomosti” nəşri Prezident İlham Əliyevi “İlin siyasətçisi” seçib



Rusiyanın məşhur “Vedomosti” nəşri altı nominasiya üzrə ilin personası ilə bağlı illik xüsusi layihəsinin nəticələrini dərc edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev nəşrin oxucuları arasındakı səsvermədə “İlin siyasətçisi” seçilib.

Nəşr yazır: “İlham Əliyevi haqlı olaraq ordusu 2020-ci ildə inamlı hərbi qələbə qazanan, region miqyasına görə isə əsl triumf əldə edən yeganə lider adlandırmaq olar”.

Qeyd edilməlidir ki, “İlin siyasətçiləri” nominasiyasının namizədləri siyahısında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Rusiya Prezidenti Vladimir Putin, Belarus Prezidenti Aleksandr Lukaşenko da olub.

ABŞ-ın yeni seçilmiş Prezidenti Co Bayden isə redaksiya seçimi əsasında “İlin siyasətçisi” elan edilib.

# Türk dünyası İlham Əliyevi ilin lideri seçdi



Türk Dünyası Yazıçılar və Sənətçilər Vəqfi (TÜRKSAV) bu il "19 May Türk Dünyası Diriliş Mükafatı" nı Azərbaycan Prezidenti İlham Əliyevə verib.

Vəqfin İdarə Heyətinin sədri Yahya Akengin Türkiyə mətbuatına açıqlama verərək, 1919-cu ildə Mustafa Kamal Atatürkün başlatdığı Türk dünyasının dirçəliş hərəkatının, Qafqazda işğalçı Ermənistana qarşı davam etdiyini deyib.

"2020-ci ildə Azərbaycan, türk xalqı İlham Əliyevin liderliyi ilə işğalçı erməni zehniyyətinə qarşı zəfər qazandı. Bu türk dünyasının ortaq zəfəridir. Zəfərə liderlik edən İlham Əliyevə bu mükafatı təqdim edəcəyimizdən şərəf duyacağıq", – deyə Yahya Akengin qeyd edib.



# Azərbaycan Respublikası Prokurorluğunun əməkdaşlarına ali xüsusi rütbələrin verilməsi və bir qrup prokurorluq əməkdaşının təltif edilməsi dövlət başçısı cənab İlham Əliyevin prokurorluq orqanlarına göstərdiyi ali diqqət və qayğının təzahürüdür

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı, dövlət başçısı cənab İlham Əliyevin rəhbər göstərişlərindən və müdrik tövsiyələrindən irəli gələrək, prokurorluq orqanları tərəfindən xalqımızın Vətən müharibəsi üçün səfərbər olunduğu həssas və çətin dönəmdə üzərlərinə düşən vəzifələrin layiqincə yerinə yetirilməsi, ordumuza və dinc əhaliyə qarşı cinayətlər törətmiş təxribatçı erməni birləşmələrinin hərbi qulluqçularının beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb edilmələri üçün bütün imkanlardan istifadə olunmaqla lazımi tədbirlərin görülməsi üçün zəruri işlər görülməkdədir.

Vətən müharibəsinin davam etdiyi 44 gündə, eləcə də sonrakı dövrdə də prokurorluq orqanları tərəfindən aidiyyəti dövlət orqanları ilə əlaqəli şəkildə erməni quldur dəstələrinin mülki əhaliyə və hərbi qulluqçularımıza qarşı törədilən cinayətlərin vaxtında aşkar edilməsi, təxirəsalınmaz istintaq hərəkətlərinin operativ qaydada və keyfiyyətlə icra edilməsi, ən təhlükəli şəraitdə zəruri sübutların toplanılması, təqsirkar şəxslərin barəsində bütün, o cümlədən beynəlxalq cinayət-hüquqi tədbirlərin görülməsi, ən əsas da beynəlxalq insan hüquqları təşkilatları, diplomatik korpus nümayəndələrinin və nüfuzlu xarici kütləvi informasiya vasitələrinin xalqımıza qarşı törədilən sülh və insanlıq əleyhinə cinayətlər barədə məlumatlandırılması istiqamətində mühüm addımlar atılmışdır.

Ermənistan silahlı qüvvələri tərəfindən beynəlxalq humanitar hüququn norma və prinsiplərinin kobud şəkildə pozularaq cəbhəboyu və ondan kənar ərazilərdə yaşayan mülki şəxslərin qəsdən öldürülməsi, qəsdən öldürülməsinə cəhd edilməsi və əmlakının qəsdən məhv edilməsi ilə bağlı başlanmış cinayət işləri üzrə bütün istintaq-əməliyyat tədbirlərinin, o cümlədən istintaq hərəkətlərinin aparılması, müvafiq ekspertizaların təyin edilməsi və digər təxirəsalınmaz istintaq və prosessual hərəkətlərin həyata keçirilməsi, törədilmiş müharibə və insanlıq əleyhinə cinayətlərlə bağlı kütləvi informasiya vasitələrində mütəmadi məlumatların işıqlandırılması, ölkəmizdə qanunçuluq və hüquq qaydasının möhkəmlədirilməsi, korrupsiyaya qarşı səmərəli mübarizənin aparılması, dövlət ittihamının müdafiəsi, prokurorluğun beynəlxalq əlaqələrinin genişləndirilməsi və mərkəzləşdirilmiş informasiya-kommunikasiya sisteminin yaradılması ilə bağlı xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Prezidentinin 17 dekabr 2020-ci il tarixli 2351 nömrəli Sərəncamına əsasən 5 prokurorluq əməkdaşına III dərəcəli dövlət ədliyyə müşaviri ali xüsusi rütbəsi verilmiş, 30 dekabr 2020-ci il tarixli 2404 nömrəli Sərəncama əsasən isə Azərbaycan Respublikası Prokurorluğunun 38 işçisi, o cümlədən 1 nəfər 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə, 19 nəfər “Vətən uğrunda” medalı ilə, 3 nəfər “Tərəqqi” medalı ilə, 15 nəfər “Dövlət qulluğunda fərqlənməyə görə” medalı ilə təltif edilmişdir. Onlardan 17 nəfər Baş Prokurorluğun, 1 nəfər Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin, 4 nəfər Azərbaycan Respublikasının Hərbi Prokurorluğunun, 1 nəfər Bakı şəhər prokurorluğunun, 10 nəfər rayon (şəhər) prokurorluğunun, 5 nəfər ərazi hərbi prokurorluğunun əməkdaşıdır.

Ali xüsusi rütbə verilən əməkdaşlarımızdan 3 nəfər Baş prokurorun müavini, 2 nəfər isə Baş Prokurorluqda idarə rəisi vəzifəsində işləyir.

Təltif olunanlardan 1 nəfər Baş prokurorun xüsusi tapşırıqlar üzrə böyük köməkçisi, 7 nəfər Baş Prokurorluğun idarə rəisi, 2 nəfər şöbə rəisi, 1 nəfər Mətbuat xidmətinin rəhbəri, 1 nəfər xüsusilə mühüm işlər üzrə böyük müstəntiq, 2 nəfər xüsusilə mühüm işlər üzrə müstəntiq, 3 nəfər şöbə prokuroru, 1 nəfər Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəis müavini, 2 nəfər Respublika Hərbi prokurorunun müavini, 2 nəfər Respublika Hərbi Prokurorluğunun idarə rəisi, 1 nəfər Bakı şəhər prokurorluğunun şöbə rəisi, 8 nəfər rayon prokuroru, 1 nəfər ərazi hərbi prokuroru, 1 nəfər rayon prokurorunun böyük köməkçisi, 1 nəfər şəhər prokurorluğunun böyük müstəntiqi, 4 nəfər ərazi hərbi prokurorluğunun böyük müstəntiqi vəzifəsində işləyir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən prokurorluq işçilərinə ali xüsusi rütbələrin verilməsi və onların təltif edilməsi ölkə başçısı tərəfindən prokurorluq orqanlarına göstərilən yüksək etimadın və dövlət qayğısının nəticəsidir.

Xidməti fəaliyyətlə yanaşı vətən uğrunda könüllü olaraq döyüş əməliyyatlarına qatılan və vətən uğrunda canından keçən Azərbaycan Respublikasının Prokurorluğunun əməkdaşı, Gəncə şəhər prokurorluğunun mütəxəssisi Yüksəl Əlizadə xüsusi vurğulanmalıdır. Belə ki, Yüksəl Əlizadə 2020-ci ilin iyul ayında baş verən Tovuz döyüşlərində sonra SHXÇDX-nin Gəncə Şəhər Kəpəz Rayon şöbəsinə müraciət etmiş və sentyabrın 21-də təlimlərə yollanmışdır. Azərbaycan Ordusunun əsgəri kimi o, 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşmış, noyabrın 9-da Xocavənd döyüşləri zamanı şəhid olmuşdur. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Yüksəl Əlizadə ölümündən sonra "Vətən uğrunda" medalı ilə, döyüş tapşırıqlarını yerinə yetirən zaman cəsarət və fədakarlıq göstərdiyinə, habelə təşəbbüskar və qətiyyətli addımlar nümayiş etdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 18.12.2020-ci il tarixli Sərəncamına əsasən "Döyüşdə fərqlənməyə görə"medalı ilə, Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

**AZƏRBAYCAN RESPUBLİKASI REZİDENTİNİN SƏRƏNCAMI**

## Azərbaycan Respublikası Prokurorluğunun əməkdaşlarına ali xüsusi rütbələrin verilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prokurorluğunun aşağıdakı əməkdaşlarına III dərəcəli dövlət ədliyyə müşaviri ali xüsusi rütbəsi verilsin:

**Məmmədov Elçin Məmmədbağır oğlu** – Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini

**Camalov Elmar Heybət oğlu** – Azərbaycan Respublikası Baş prokurorunun müavini

**Məmmədov Heydər Vidadi oğlu** – Azərbaycan Respublikası Baş prokurorunun müavini

**Həsənalıyev Fazil Əsgər oğlu** – AzərbaycanRespublikası Baş Prokurorluğunun Prokurorluqda istintaqa nəzarət idarəsinin rəisi

**Abdullayev Natiq Saleh oğlu** – AzərbaycanRespublikası Baş Prokurorluğunun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəisi.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 17 dekabr 2020-ci il.
№ 2351

**AZƏRBAYCAN RESPUBLİKASI REZİDENTİNİN SƏRƏNCAMI**

## Azərbaycan Respublikası Prokurorluğunun bir qrup əməkdaşının təltif edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Prokurorluğunun aşağıdakı əməkdaşları təltif edilsinlər:

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Həsənov Ozal Mübariz oğlu

**"Vətən uğrunda" medalı ilə**

Alməmmədov Şıxəli Sahib oğlu (ölümündən sonra)
Bayramov Elmar Aydın oğlu
Əhmədov Bəhruz Vidadi oğlu
Ələsgərov Elvin Əvəz oğlu
Əliyev Mətləb İsrayıl oğlu
Hacıyev Elçin Süleyman oğlu
Haqverdiyev Tural Oqtay oğlu
Həsənov Natiq Xansuvar oğlu
Kazımov Rasim Sadıq oğlu
Qasımov Emin Səlim oğlu
Qasımov Rüstəm Sabir oğlu
Məmmədov Fuad Kamil oğlu
Məmmədov Kamran Nazim oğlu
Məmmədov Şahin Asif oğlu
Nuriyev Tural Ənvər oğlu
Rüstəmov Elnur Rəşid oğlu
Səfərov Əli Məmməd oğlu
Süleymanov Vasif Səlim oğlu
Talıbov Kamal Hüseyn oğlu

**"Tərəqqi" medalı ilə**

Hüseynov Natiq Əlabbas oğlu
Qılıcov Kamal Sayad oğlu
Mürsəliyev Emin Ramiz oğlu

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**

Aslanov Tural Çingiz oğlu
Dadaşov Murad Natiq oğlu
Əhmədov Mübariz Hüseyn oğlu
Əlixanov Erkin Hüseynağa oğlu
Əliyev Rövşən Əli oğlu
Əvəzov Nemət Yusif oğlu
Həsənov Binnət Rafiq oğlu
Hətəmov Azər Abuzər oğlu
Hümbətov Ceyhun Eldar oğlu
Mirzəyev Nadir Şahmərdan oğlu
Nemətli Firdovsi İlyas oğlu
Pənahov Fəxrəddin Pənah oğlu
Seyidov Kənan Mir Yəhya oğlu
Səlimzadə Günay Elşən qızı
Sultanov Eldar Aslan oğlu.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 dekabr 2020-ci il.

# Azərbaycan Respublikası Prokurorluğu orqanları digər dövlət orqanları ilə əlaqəli şəkildə ümumi şanlı qələbəmiz naminə səlahiyyətləri çərçivəsində zəruri olan bütün işlərin həyata keçirilməsində yaxından iştirak etmişdir



Dahi Sərkərdəmiz – Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında Müzəffər Ordumuz tərəfindən 27 sentyabr 2020-ci il tarixdən zəfər yürüşünə başlandığı vaxtdan Azərbaycan Respublikası Prokurorluğu orqanları digər dövlət orqanları ilə əlaqəli şəkildə ümumi şanlı qələbəmiz naminə səlahiyyətləri çərçivəsində zəruri olan bütün işlərin həyata keçirilməsində yaxından iştirak etmişdir.

Prokurorluq orqanlarının əsas məqsədi Ermənistan hərbi və siyasi rəhbərliyinin, erməni quldur dəstələrinin mülki əhaliyə və hərbi qulluqçularımıza qarşı törədilən sülh və insanlıq əleyhinə, şəxsiyyət əleyhinə, habelə digər cinayətlərin vaxtında aşkar edilərək, təsbit edilməsi, təxirəsalınmaz istintaq hərəkətlərinin operativ qaydada icra edilməsi, ən çətin şəraitdə zəruri və təkzibolunmaz sübutların toplanılması, təqsirkar şəxslərin cinayət məsuliyyətinə cəlb edilməklə, onlar barəsində beynəlxalq cinayət-hüquqi tədbirlərin görülməsi, beynəlxalq insan hüquqları təşkilatlarının, xarici ölkələrin səlahiyyətli qurumlarının, kütləvi informasiya vasitələrinin bu cinayətlər barəsində məlumatlandırılması və sair əhəmiyyətli tədbirlərin həyata keçirilməsi olmuşdur.

İlk gündən başlayaraq, prokurorluğun ən təcrübəli və peşəkar müstəntiqləri, prokuror-kriminalistləri bu işlərə cəlb edilmişlər. Belə ki, cəbhə bölgəsində fəaliyyət göstərən prokurorluq orqanlarında döyüş şəraitində bütün istintaq əməliyyat tədbirlərinin həyata keçirilməsində, o cümlədən hadisə yerlərinə baxış və götürmə istintaq hərəkətlərinin keçirilməsi, müvafiq ekspertizaların təyin edilməsi, dindirmələrin aparılması və digər təxirəsalınmaz istintaq və prosessual hərəkətlərin icra edilməsi məqsədilə Azərbaycan Respublikası Baş prokurorunun müvafiq əmrləri ilə Sabirabad, Saatlı, İmişli, Samux, İsmayıllı, Ucar, Kürdəmir, Bərdə, Yevlax, Ağdaş, Balakən, Biləsuvar, Ağsu, Cəlilabad, Şamaxı, Zaqatala, Oğuz, Salyan rayon prokurorluqlarının, Mingəçevir və Sumqayıt şəhər, Bakı şəhəri Səbail, Yasamal və Nizami rayon prokurorluqlarının əməkdaşları cəbhəyanı zonalarda yerləşən Füzuli, Goranboy, Tərtər, Ağcabədi, Bərdə və Ağdam rayon prokurorluqlarına ezam olunmuşlar.

Qeyd olunan əməkdaşlarla yanaşı, müharibə zamanı Gəncə və Bərdə şəhərlərində dinc əhaliyə qarşı törədilmiş cinayətlərin daha çevik istintaq edilməsi məqsədilə Baş Prokurorluğunun Kriminalistika və informasiya texnologiyaları idarəsinin Kriminalistika şöbəsinin rəisi-idarə rəisinin müavini Kamal Talıbov Goranboy, Tovuz, Tərtər rayonları və Gəncə şəhərinə, Baş Prokurorluğun İstintaq idarəsinin iki əməkdaşı Ağdam rayonuna, bir əməkdaşı Ağcabədi rayonuna, iki əməkdaşı Goranboy və Füzuli rayonlarına, iki əməkdaşı Tərtər rayonuna, beş əməkdaşı Gəncə şəhərinə, iki əməkdaşı Zəngilan rayonuna, iki əməkdaşı Cəbrayıl və Füzuli rayonlarına, iki əməkdaşı isə Qubadlı rayonuna ezam edilmişlər.

Həmin əməkdaşlar ən çətin döyüş şəraitində, bilavasitə həyat və sağlamlığına təhdidlər olduğu vəziyyətdə öz xidməti vəzifələrini nümunəvi icra etməyi bacarmış, hətta əməkdaşlardan biri (Tərtər rayon prokurorluğuna ezam olunmuş Sumqayıt şəhər prokurorluğunun böyük müstəntiqi Həsənov Ozal Mübariz oğlu) xidməti vəzifələrinin icrası zamanı yaralanmışdır. Prokurorluqda erməni quldur dəstələrinin fəal üzvləri, onların havadarları, xarici muzdlular, işğal olunmuş ərazilərimizin qanunsuz talanmasında, orada qanunsuz iqtisadi fəaliyyətdə iştirak edən şəxslər barəsində ümumilikdə 62 cinayət işi başlanmış, bir çox təqsirkar şəxs beynəlxalq axtarışa verilmişdir.

Eyni zamanda, bu kateqoriyaya aid cinayətlər üzrə Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətində istintaq edilən müvafiq cinayət işləri üzrə ibtidai istintaqa prosessual rəhbərlik qaydasında zəruri əməli köməklik göstərilməsi təmin edilir.

Prokurorluğun digər prioritet istiqaməti Ermənistan Respublikasının işğalçı mahiyyətinin beynəlxalq müstəvidə ifşa edilməsi, erməni cinayətləri və Qarabağ həqiqətləri barədə nüfuzlu beynəlxalq təşkilatların, xarici ölkələrin səlahiyyətli qurumlarının, diplomatik korpusun nümayəndələrinin, geniş auditoriyası olan kütləvi informasiya vasitələrinin məlumatlandırılması, müvafiq brifinqlərin keçirilməsi, habelə bu qəbildən olan digər tədbirlərin həyata keçirilməsi olmuşdur. Bu istiqamətdə zəruri tədbirlər davam etdirilir.

Eyni zamanda, Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində dəymiş ziyanın qiymətləndirilməsini və aradan qaldırılmasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 6 noyabr 2020-ci il tarixli Sərəncamından irəli gələn vəzifələrin icrası məqsədilə Baş Prokurorluq tərəfindən digər dövlət orqanları ilə əlaqəli zəruri işlər yerinə yetirilir.

Bundan əlavə, 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatda nəzərdə tutulmuş müddəaların icrasından irəli gələn, habelə Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin həlli, eləcə də bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 24 noyabr 2020-ci il tarixli Sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahının fəaliyyətinin təmin olunması üçün prokurorluq orqanları qarşısında qoyulan vəzifələrin icrası məqsədilə bütün tədbirlər həyata keçirilməkdədir.

# Baş prokuror və Hərbi prokuror cəbhə xəttinə gediblər

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən Azərbaycan Respublikasının Baş prokuroru II dərəcəli dövlət ədliyyə müşaviri Kamran Əliyev, Respublika Hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev və Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev 2020-ci il sentyabrın 26-da cəbhəboyu zonada yerləşən hərbi hissələrdə olublar.

Əvvəlcə Aprel şəhidlərinin xatirəsinə ucaldılmış abidə ziyarət edilib, önünə gül dəstələri qoyulub, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin xatirəsi hörmət və ehtiramla yad edilib.








Müdafiənin ön xəttində döyüş növbətçiliyi aparan şəxsi heyətlə görüşlərdə döyüş hazırlığı və mənəvi-psixoloji vəziyyətin daha da yaxşılaşdırılması, hərbi kollektivlərdə münasibətlərin qanunvericilikdə nəzərdə tutulan tələblər və nizamnamələr çərçivəsində qurulması, şəxsi heyətin vətənpərvərlik ruhunda tərbiyə olunması, nizam-intizamın və hüquq qaydalarının möhkəmləndirilməsi, o cümlədən digər məsələlər barədə söhbətlər aparılıb.



Hərbi qulluqçularla görüşlər zamanı Silahlı Qüvvələrin Ali Baş Komandanının ordu qarşısında qoyduğu tapşırıqlar bir daha şəxsi heyətin diqqətinə çatdırılıb, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diqqəti, qayğısı və birbaşa rəhbərliyi nəticəsində Azərbaycan Ordusunun inkişafı və ölkənin hərbi qüdrətinin artırılması sahəsində əldə olunan nailiyyətlərdən danışılıb.

K.Əliyev hərbi xidmətdə fərqlənən hərbi qulluqçulara qiymətli hədiyyələr təqdim edib.

Sonra hərbi qulluqçularla birgə nahar edilib və çay süfrəsi arxasında onları maraqlandıran suallar cavablandırılıb.

# Ermənistan Silahlı Qüvvələrinin Azərbaycanın mülki əhalisinə qarşı törədilmiş cinayətlərlə bağlı ölkəmizdə akkreditə olunan diplomatik korpusun, yerli və beynəlxalq media qurumlarının nümayəndələri üçün birgə brifinq keçirilib




3 oktyabr 2020-ci il tarixdə Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev və Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici Əlaqələr şöbəsinin müdiri Hikmət Hacıyev tərəfindən Ermənistan silahlı qüvvələrinin Azərbaycanın mülki əhalisinə qarşı törədilmiş cinayətlərlə bağlı ölkəmizdə akkreditə olunan diplomatik korpusun, yerli və beynəlxalq media qurumlarının nümayəndələri üçün birgə brifinq keçirilib.

Hikmət Hacıyev bildirib ki, Ermənistan özü də mülki əhaliyə hücum etməklə hansısa məqsədə nail olmaq istədiyini etiraf edir. Ermənistan həm təmas xətti boyunca yerləşən yaşayış məntəqələrini, həm də təmas xəttindən uzaqlıqda yerləşən yaşayış məntəqələrini atəşə tutur. Əgər Ermənistan bu əməllərini davam etdirəcəksə, Azərbaycan beynəlxalq hüquqa uyğun olaraq cavab tədbirləri görəcək. Daha sonra o, çıxışında Azərbaycan Respublikasının Ermənistan silahlı qüvvələri ilə mübarizə apardığını, mülki əhalini hədəfə almadığını qeyd edib.

Brifinq iştirakçılarının nəzərinə çatdırılmışdır ki, Ermənistan silahlı qüvvələrinin dinc əhaliyə qarşı törətdiyi cinayətlərlə bağlı Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən 12 cinayət işi başlanıb. Bu günədək 19 mülki şəxs həlak olub. Təəssüf doğurucu hal ondan ibarətdir ki, həlak olan şəxslər arasında qadınlar və uşaqlar da var. Üç qadın və iki azyaşlı uşaq Ermənistan silahlı qüvvələrinin atəşi nəticəsində öldürülüb.

Baş prokuror bildirib ki, Ermənistan silahlı qüvvələrinin hərbi birləşmələrinin artilleriya silahlarından atdığı mərmi nəticəsində Naftalan şəhərinin Qaşaltı Qaraqoyunlu kənd sakini Qurbanov Elbrus İsa oğlu və ailəsinin dörd üzvü – anası, həyat yoldaşı və övladları həlak olub. Həmin faktlarla bağlı Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 120.2.1-ci (cinayətkar birlik–təşkilat tərəfindən qəsdən adam öldürmə), 120.2.4-cü (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən xuliqanlıq niyyəti ilə xüsusi amansızlıqla qəsdən adam öldürmə), 120.2.7-ci (iki və ya daha çox şəxsi qəsdən öldürmə), 120.2.12-ci (milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə qəsdən adam öldürmə), 100.2-ci (təcavüzkar müharibəni aparma) və digər maddələri ilə cinayət işi başlanıb.

Kamran Əliyev diqqətə çatdırıb ki, bu müddət ərzində dinc əhaliyə qarşı törədilən cinayətlərlə bağlı başlanan 12 cinayət işinin 1-i Goranboy, 5-i Tərtər, 3-ü Ağdam, 2-si Füzuli, 1-i isə Cəbrayıl rayonu üzrə başlanıb.

Ümumilikdə, sentyabrın 27-dən etibarən Ermənistan silahlı qüvvələri tərəfindən yaşayış məntəqələrimizin atəşə tutulması nəticəsində 19 mülki şəxs həlak olub, 63 dinc sakin müxtəlif dərəcəli bədən xəsarətləri alaraq



xəstəxanalara yerləşdirilib. Yaralanan şəxslərdən 26-sı Tərtər, 10-u Ağcabədi, 14-u Ağdam, 6-sı Füzuli, 2-si Goranboy, 2-si Bərdə, 1-i Daşkəsən, 1-i Xocalı, 1-i isə Cəbrayıl rayonlarının sakinləridir. Xəsarət alanlardan 56-sı kişi, 6-sı qadın, 1-i isə uşaqdır. Bundan başqa, Ermənistan silahlı qüvvələrinin dinc əhalini atəşə tutması nəticəsində 181 ev və 44 mülki obyekt yararsız vəziyyətə düşüb.

Habelə Kamran Əliyev bildirib ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərində törətdiyi təxribatlar həm də hərbi cinayətlərdir. Bu cinayətlərlə bağlı hazırda Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda beş cinayət işi başlanıb və istintaq davam etdirilir.

Qeyd edilib ki, Ermənistan mülki əhalimizə qarşı cinayətlər törətməklə yanaşı, işğal etdiyi ərazilərdə Azərbaycanın sərvətlərini talamaqla məşğuldur. Ermənistanın 1994-cü ildən bu günədək ölkəmizə qarşı təcavüzü davam edir. İşğal olunmuş ərazilərimizdə iqtisadi fəaliyyətlə məşğul olduğu üçün 12 nəfər beynəlxalq axtarışa verilib.

Kamran Əliyev vurğulayıb ki, bundan başqa, Ermənistan silahlı qüvvələrinin diversiya-kəşfiyyat qrupunun komandiri Qurqen Alaverdyan barəsində cinayət işinin istintaqı davam edir. O, iki nəfərlə birlikdə Azərbaycan ərazisinə daxil olaraq strateji baxımdan əhəmiyyətli yerləri öyrənmək istəyib. Bu fakt sübut edir ki, Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ və digər ərazilərində birbaşa Ermənistan silahlı birləşmələrinin, Ermənistan Müdafiə Nazirliyinin əməkdaşları xidmət edirlər.

Baş prokuror qeyd edib ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın dinc əhalisinə qarşı təxribat törətməkdə məqsədləri mülki əhali arasında qorxu və panika yaratmaqdır. Ermənistan Azərbaycanın ərazilərinə təcavüz edib. Ermənistan rəhbərliyi təcavüzkar siyasətindən əl çəkmir. Erməni silahlı birləşmələri dinc azərbaycanlı əhalinin öz torpaqlarını qoyub getməsini istəyirlər. Onlar hər zaman olduğu kimi, Azərbaycana və vətəndaşlarımıza qarşı təcavüzkar siyasətlərini davam etdirirlər.

Diqqətə çatdırılıb ki, 1994-cü ildən bu günədək Azərbaycan vətəndaşlarına qarşı təxribat törədənlər sırasında Ermənistan vətəndaşları olan ermənilər də var. Bu da onu göstərir ki, Ermənistan vətəndaşları başqa ölkə əhalisinə qarşı hücumlar edir. Bununla da onlar Azərbaycan əhalisinin həyatına təhlükələr yaradıb. Ermənistan tərəfi heç vaxt atəşkəs rejiminə riayət etməyib, onlar hər zaman mülki şəxslərə və hərbçilərimizə qarşı cinayətlər törədib. 1994-cü ildə atəşkəs elan olunsa da həmin vaxtdan bu günə qədər yaşayış məntəqələrini və mülki əhalimizi hədəfə alıb.

Atəşkəs imzalanandan – 1994-cü il mayın 12-dən indiyə qədər 398 nəfər Azərbaycan hərbçisi, 31 nəfər mülki şəxs isə qətlə yetirilib. Atəşkəs sazişinin imzalanmasından indiyədək 1038 hərbçi, 69 mülki şəxs yaralanıb. İndiyədək ermənilərin törətdikləri cinayətlərlə bağlı 287 cinayət işi qəsdən adam öldürmə, 625 cinayət işi isə qəsdən adam öldürməyə cəhdlə bağlıdır. 2015-2018-ci illərdə bu cinayətləri törətməkdə təqsirləndirilən iki nəfər Ermənistan vətəndaşı həbs edilib. Onlar uzunmüddətli azadlıqdan məhrumetmə cəzasına məhkum ediliblər. Həmin işlər üzrə yeddi nəfər axtarışa verilib. Bütün bu faktlarla bağlı prokurorluq orqanları tərəfindən müvafiq cinayət işləri başlanılıb.

Kamran Əliyev əlavə edib ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın mülki əhalisini hədəfə alaraq cinayətlər törətməsi əvvəllər də olub. 2016-cı ilin Aprel döyüşləri zamanı Ermənistan silahlı qüvvələri tərəfindən altı mülki şəxs qətlə yetirilib, 26 nəfər xəsarət alıb. Həmçinin 300-dən çox ev və mülki yaşayış sahəsi yararsız hala salınıb.

# Ermənistanın dinc mülki əhalimizə qarşı cinayətlər törətməsinə dair birgə brifinq keçirilmişdir






5 oktyabr 2020-ci il tarixdə Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev və Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici Əlaqələr şö-

bəsinin müdiri Hikmət Hacıyev tərəfindən Ermənistanın hərbi-siyasi rəhbərliyinin göstərişi ilə dinc mülki əhalimizin ağır artilleriyadan atəşə tutularaq onlara qarşı müxtəlif cinayətlərin törədilməsinə dair birgə brifinq keçirilmişdir.

Brifinqdə 30-a yaxın səfir və müavinləri, 19 nəfər diplomatik korpusunun digər əməkdaşları, eyni zamanda yerli və xarici medianın 30-dan artıq nümayəndələri də iştirak etmişdir. Baş prokuror brifinqdə çıxış edərək 2020-ci ilin sentyabr ayının 27-dən Ermənistan Respublikası tərəfindən Cenevrə konvensiyasının tələbləri pozularaq Azərbaycan Respublikasına qarşı başlanmış təcavüzün davam etdiyini, 4 oktyabr 2020-ci il tarixdən etibarən döyüş bölgəsindən xeyli uzaqda yerləşən Azərbaycan Respublikasının ikinci böyük şəhəri, 500 mindən çox əhalisi olan Gəncə şəhərinin və sənaye əhəmiyyətli Mingəçevir şəhərinin, 5 oktyabr 2020-ci il tarixdən isə Goranboy, Göygöl, Beyləqan, Bərdə, Tərtər, Zərdab rayonlarının dinc əhalisinin sıx yaşadığı məntəqələrin raket və top mərmilərindən atəşə tutulduğunu, nəticədə mülki əhali arasında həlak olan və xəsarət alanların olmasını, mülki infrastruktura külli miqdarda ziyan dəyməsini tədbir iştirakçılarının nəzərinə çatdırmışdır. Baş prokuror Kamran Əliyev və Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev media nümayəndələrin çoxsaylı suallarını cavablandırmışlar.

# Baş prokuror Kamran Əliyev Rusiyanın məşhur "Rossiya-1" və "Pervıy" telekanallarına müsahibə vermişdir




Baş prokuror Kamran Əliyev 5 oktyabr 2020-ci il tarixdə keçirilən brifinqdən sonra Rusiyanın məşhur "Rossiya-1 və "Pervıy" telekanallarına müsahibə vermişdir. Kamran Əliyev öz müsahibələrində Ermənistanın hərbi təcavüzü, işğalçı dövlətin Silahlı Qüvvələri tərəfindən törədilən müharibə, sülh və insanlıq əleyhinə cinayətləri barədə ətraflı məlumat vermiş, artıq öz məğlubiyyətini görən Ermənistanın yalnız Dağlıq Qarabağ, ətraf rayonlar, sərhəd rayonlarında olan mülki əhalini deyil, həmçinin bu ərazilərdən çox-çox uzaqda olan sənaye əhəmiyyətli şəhərləri, mülki əhalini hədəfə almağını xüsusi vurğulamışdır.

# MDB-nin iştirakçısı olan dövlətlərin Baş prokurorlarının Əlaqələndirmə Şurasının videokonfrans formatında keçirilən 30-cu iclasında Ermənistan dövlətinin müharibə, sülh və insanlıq əleyhinə cinayətləri barədə ətraflı məlumat verilmişdir



2020-ci il oktyabrın 8-də Müstəqil Dövlətlər Birliyi (MDB) İştirakçı Dövlətlərinin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının (BPƏŞ) videokonfrans formatında 30-cu yubiley iclası keçirilmişdir.

MDB prokurorluq orqanlarının və Beynəlxalq Prokurorlar Assosiasiyası rəhbərlərinin iştirak etdiyi iclasda ölkəmizi Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil etmişdir.

İclasda çıxış edən Azərbaycan Respublikasının Baş prokuroru Əlaqələndirmə Şurasının yaradılmasının 25 illiyi münasibəti ilə tədbir iştirakçılarını, o cümlədən Rusiya, Belarus və Moldova Baş prokurorlarını vəzifəyə təyin olunmaları ilə əlaqədar təbrik edərək onlara gələcək fəaliyyətlərində uğurlar arzu etmişdir.

Bildirilmişdir ki, Azərbaycan Respublikasının prokurorluq orqanlarının cəmiyyətdə formalaşan yeni çağırışlara adekvat uyğunlaşması və fəaliyyətində şəffaflığın təmin edilməsi, işin çevikliyinin və səmərəliliyinin artırılması, müasir dövrün tələblərinə cavab verən peşəkarların formalaşdırılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 10 iyun 2020-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Baş Prokurorluğunun yeni strukturu təsdiq edilmişdir. Sərəncamla Baş Prokurorluğun strukturu mahiyyətcə tamamilə yenidən qurularaq daha çevik, mobil və dinamik idarəetməyə malik idarələr yaradılmış, idarə və şöbələrin sayı 15-dən 18-ə çatdırılmışdır. İslahatlar çərçivəsində Baş Prokurorluğun İstintaq və Prokurorluqda istintaqa nəzarət idarələrinin funksiyaları, habelə ibtidai araşdırmaya prosessual nəzarətin həyata keçirilməsi sahəsində mütərəqqi yeniliklər barədə məlumat verilmişdir.

Beynəlxalq tədbirdə iclas iştirakçılarının nəzərinə çatdırılmışdır ki, 2020-ci il sentyabrın 27-dən başlayaraq təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi öz təxribatçı əməllərini davam etdirərək, Cenevrə Konvensiyaları və ümumilikdə beynəlxalq hüquqdan irəli gələn öhdəliklərini kobud şəkildə pozmaqla dinc Azərbaycan əhalisinin sıx yaşadığı əraziləri, hətta döyüş bölgələrindən kənarda yerləşən Gəncə, ərazilərində strateji obyektlər yerləşən və keçən Mingəçevir (Su Elektrik Stansiyası) və Yevlax (Bakı-Tbilisi-Ceyhan neft kəməri) şəhərləri, Abşeron və Xızı rayonlarını ağır silahlardan atəşə tutmuşdur.

Baş prokuror qeyd etmişdir ki, hazırda qeyd olunan faktlar üzrə Azərbaycan Respublikası Baş Prokurorluğu tərəfindən 26 cinayət işi başlanmış, hazırda ərazidə həyati təhlükə olmasına baxmayaraq prokuror və müstəntiqlər tərəfindən müvafiq əməliyyat-istintaq tədbirləri həyata keçirilir. Bildirilmişdir ki, 27 sentyabr tarixindən bugünədək Ermənistanın hərbi təcavüzü nəticəsində 3-ü uşaq, 9-u qadın olmaqla 31 mülki şəxs həlak olmuş, 148 mülki vətəndaş ağır yaralanmış, ümumilikdə 778 yaşayış evi, 117 mülki obyekt dağıdılmışdır.

Məsələyə dair Özbəkistan Respublikasının Baş prokuroru Niqmatilla Yuldaşev və Rusiya Federasiyasının Baş prokuroru İqor Krasnov çıxış edərək Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları, o cümlədən BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinin tələbləri çərçivəsində və sülh yolu ilə həll olunmasının vacibliyini qeyd etmişlər.

Daha sonra təşkilati məsələlər müzakirə edilərək əməkdaşlıq haqqında müvafiq sənədlər imzalanmışdır. Rusiya Federasiyasının Baş prokuroru İqor Krasnov BPƏŞ-in növbəti il üçün sədri seçilmiş, həmçinin Şuranın 31-ci iclasının 2021-ci ildə Qazaxıstanda keçirilməsi qərara alınmışdır.

# AZƏRBAYCAN RESPUBLIKASININ BAŞ PROKURORLUĞU ADINDAN

# B Ə Y A N A T

*Ermənistanın Azərbaycan Respublikasının mülki əhalisinə qarşı müxtəlif cinayətlər törətməsi və həmin cinayətlərdə xarici ölkələrdən gətirilmiş muzdluların iştirak etməsinə dair Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən mötəbər sübutlar əldə edilmişdir. Baş vermiş hadisələrlə bağlı Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev tərəfindən həmkarlarına həm birbaşa, həm də diplomatik kanallarla rəsmi müraciət edilmişdir. Bəyanatın mətni təqdim olunur:*

*Bakı şəhəri, 9 oktyabr 2020-ci il*

Məlum olduğu kimi, 2020-ci il sentyabrın 27-dən etibarən təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi öz təxribatçı əməllərini davam etdirərək, Cenevrə Konvensiyaları və ümumilikdə beynəlxalq hüquqdan irəli gələn müvafiq öhdəliklərini kobud şəkildə pozmaqla dinc Azərbaycan əhalisinin sıx yaşadığı əraziləri, hətta döyüş bölgələrindən kənarda yerləşən Gəncə, ərazilərində strateji obyektlər yerləşən və keçən Mingəçevir (Su Elektrik Stansiyası) və Yevlax (Bakı-Tbilisi-Ceyhan neft kəməri) şəhərlərini, Abşeron və Xızı rayonlarını ağır silahlardan atəşə tutmağa davam edir. Bugünədək Ermənistanın hərbi təcavüzü nəticəsində 3-ü uşaq, 9-u qadın olmaqla 31 mülki şəxs həlak olmuş, 164 mülki vətəndaş ağır yaralanmış, ümumilikdə 1054 yaşayış evi, 142 mülki obyekt, 45 çoxmənzilli bina dağıdılmışdır. Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən erməni təcavüzünün qarşısını almaq və mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə beynəlxalq humanitar hüquqa tam riayət etməklə səmərəli əks-hücum və adekvat cavab tədbirləri həyata keçirilməkdədir.

Azərbaycan Ordusunun təsirli cavab tədbirləri nəticəsində Ermənistan silahlı qüvvələri əhəmiyyətli sayda canlı qüvvə itkisi ilə üzləşdiyinə görə ölkənin hərbi-siyasi rəhbərliyinin çağırışı əsasında xarici ölkələrdə yaşayan erməni diasporası tərəfindən muzdluların Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə qarşı döyüşmək məqsədilə Dağlıq Qarabağa göndərilməsi təşkil olunur. Bu hərəkətlər beynəlxalq hüquq normalarına zidd olmaqla, eyni zamanda Azərbaycanın və xarici dövlətlərin qanunvericiliyə əsasən cinayət hesab olunur və beynəlxalq təhlükəsizliyin pozulmasına şərait yaradan təhlükəli amildir.

Bildirirəm ki, artıq 2 faktla bağlı Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanmış, hazırda istintaq əməliyyat tədbirləri davam etdirilməklə həmin şəxslərin vətəndaşı olduqları ölkələrin səlahiyyətli qurumlarına hüquqi yardım haqqında sorğular göndərilmişdir.

Bundan başqa, Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən ölkəmizin işğal olunmuş ərazilərində qanunsuz iqtisadi və digər fəaliyyətlə məşğul olan fiziki və hüquqi şəxslərə qarşı kəsərli cinayət-hüquqi tədbirlərinin tətbiqi davam etdirilir.

Qeyd olunanları nəzərə alaraq, Azərbaycan Respublikasının Baş Prokurorluğu adından bir daha bəyan və xəbərdar edirəm ki, Ermənistanın hərbi-siyasi rəhbərliyi, silahlı qüvvələrinin, xaricdə fəaliyyət göstərən diaspora təşkilatlarının, habelə qondarma rejimin çağırışları əsasında Dağlıq Qarabağa gəlib döyüşlərdə iştirak edən muzdlulara, həmçinin Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində qanunsuz iqtisadi və digər fəaliyyətlə məşğul olan fiziki və hüquqi şəxslər barəsində beynəlxalq hüquq normaları və Azərbaycan Respublikasının qüvvədə olan cinayət qanunvericiliyi çərçivəsində kəsərli tədbirlərin görülməsi təmin ediləcəkdir.

Bu cür qanunsuz əməllərin qarşısının alınması məqsədlə xarici dövlətlərin səlahiyyətli orqanlarını təsirli, preventiv və təxirəsalınmaz tədbirlərin görülməsinə qətiyyətlə çağırıram.

# Azərbaycan və Rusiyanın Baş prokurorları arasında telefon danışığı olub





2020-ci il oktyabrın 12-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev ilə Rusiya Federasiyasının Baş prokuroru İqor Krasnov arasında telefon danışığı olub.

Danışıq zamanı tərəflər iki ölkə arasında hüquqi əlaqələrin səviyyəsindən məmnunluq ifadə edərək cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım və ekstradisiya sahəsində əməkdaşlığı yüksək qiymətləndiriblər.

Baş prokuror Kamran Əliyev oktyabrın 11-də gecə saatlarında Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın ikinci böyük şəhəri olan, döyüş bölgəsinə aidiyyəti olmayan və xeyli uzaqda yerləşən Gəncəyə və onun dinc sakinlərinə qarşı törədilən terror aktı barədə rusiyalı həmkarını məlumatlandırıb.

İqor Krasnov yaranmış vəziyyətlə bağlı narahatlığını ifadə edib, münaqişənin qısa zamanda beynəlxalq hüquq normaları çərçivəsində həllinin vacibliyini vurğulayaraq xalqımıza sülh və əmin-amanlıq arzulayıb.

Baş prokurorlar gələcək əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğulayaraq bu haqda fikir mübadiləsi aparıblar.

# Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev və Azərbaycanın Baş prokuroru Kamran Əliyev Gəncəyə getmişlər





Ermənistan silahlı qüvvələrinin 2020-ci il oktyabrın 11-də gecə saat 2 radələrində cəbhə zonasından kənarda yerləşən, Azərbaycan Respublikasının ikinci böyük şəhəri olan Gəncənin mərkəzi hissəsində yerləşən çoxmənzilli yaşayış binalarını raket atəşinə tutması nəticəsində 3-ü qadın olmaqla 9 nəfər həlak olub, 16 qadın, 6-sı azyaşlı olmaqla 34 nəfər yaralanıb. Həmçinin 10-dan artıq çoxmənzilli binaya və 100-dən çox müxtəlif təyinatlı obyektə ziyan dəyib.

Düşmənin silahlı qüvvələri 11.10.2020-ci il tarixdə gecə saat 4 radələrində Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyası olan Azərbaycan İstilik Elektrik Stansiyasını hədəfə almaqla cəbhə zonasından 100 km-dən artıq uzaqlıqda yerləşən, iri sənaye şəhəri Mingəçevirə raketlər atmışdır.

Raketlər Ordumuzun hərbi hava hücumundan müdafiə qüvvələri tərəfindən zərərsizləşdirilmişdir.

Hadisə yerində olan prokurorluq əməkdaşları tərəfindən zərərçəkmiş şəxslərin və zərər dəymiş mülki infrastruktur obyektlərin siyahısının də-



qiqləşdirilməsi ilə bağlı istintaq-əməliyyat tədbirləri həyata keçirilir.

Baş vermiş terror hadisəsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev və Azərbaycanın Baş prokuroru Kamran Əliyev Gəncəyə getmişlər. Gəncə Şəhər Prokurorluğunun inzibati binasında yerli və xarici media nümayəndələri üçün təşkil olunan mətbuat konfransında ermənilərin həyata keçirdiyi terror aktı ilə bağlı yerli və dünya mediasına açıqlamalar vermiş, Ermənistanın Gəncəni vurmasını vandallıq aktı kimi dəyərləndirilmişdir.



## Azərbaycan Respublikası Baş prokuroru və Azərbaycan Respublikası Fövqəladə hallar naziri Gəncədə hadisə yerində olmuşlar










Ermənistan silahlı qüvvələrinin 17 oktyabr 2020-ci il tarixdə gecə saat 1 radələrində cəbhə zonasından kənarda yerləşən, Azərbaycan Respublikasının ikinci böyük şəhəri olan Gəncənin mərkəzi hissəsini raket atəşinə tutması nəticəsində 13 nəfər həlak olmuş, 45-dən artıq şəxs yaralanmış, çoxsaylı mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəymişdir.

Baş vermiş cinayət hadisəsi ilə bağlı olaraq Azərbaycan Respublikası Baş prokuroru Kamran Əliyev və Fövqəladə hallar naziri Kəmaləddin Heydərov Ermənistan silahlı qüvvələri tərəfindən sayca 3-cü dəfə raket zərbəsi endirilən Gəncə şəhərinə gəlmiş, baş verənlərlə yerində tanış olmuşlar.

Azərbaycan Respublikası Baş prokuroru Kamran Əliyev ermənilərin Gəncədə törətdiyi qanlı cinayətlə bağlı "Reuters" agentliyinə müsahibə vermiş, müsahibəsində gecə saatlarında şəhərin müxtəlif istiqamətlərinə raket zərbələrinin endirilməsi, çox sayda insanın həlak olması və yaralanması ilə nəticələnən barbar hücumdan danışmışdır.

# Azərbaycan Respublikası Baş Prokurorluğunun Mətbuat xidmətinin MƏLUMATI



ZƏNGİLANIN DOĞMA PROKURORLARI

Qürurla bildiririk ki, 20 oktyabr 2020-ci il tarixdə kütləvi informasiya vasitələri və sosial şəbəkələrdə Zəngilan şəhəri və ətraf əraziləri işğaldan azad olunaraq Azərbaycan bayrağının Zəngilanda qaldıran hərbçilərimizin Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevə video müraciəti yayımlanmışdır.

Azərbaycan Respublikası Baş Prokurorluğunda aparılmış araşdırmalarla müəyyən olunmuşdur ki, önündə müqəddəs bayrağımızın dalğalandırıldığı inzibati bina Zəngilan rayon prokurorluğunun inzibati binası kimi 1991-ci ildə tikilərək istifadəyə verilmişdir.

Həmin binada fəaliyyət göstərmiş prokurorluq əməkdaşları, o cümlədən veteranlar fərəh və sevinc hissi ilə binanın Zəngilan rayon prokurorluğunun inzibati binası olduğunu təsdiq etmişlər.

Azərbaycan Respublikası Prokurorluğunun əməkdaşları bütün torpaqlarımızın Ali Baş Komandanın rəhbərliyi altında işğaldan azad olunacağına inanır, işğaldan azad olunmuş şəhər və rayonlarımızda fəaliyyətlərini davam etdirəcəkləri günü səbrsizliklə gözləyir.

Yaşasın Azərbaycan! Yaşasın Ali Baş Komandan! Qarabağ Azərbaycandır!

# Baş prokuror Kamran Əliyevlə Türkiyəli həmkarları arasında telefon danışığı baş tutmuşdur






2020-ci ilin oktyabrın 29-da Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevlə Türkiyə Respublikasının Ədliyyə naziri Abdulhamit Gül, Baş prokuroru Bekir Şahin və Ali Məhkəməsinin sədri Mehmet Akarca arasında telefon danışığı baş tutmuşdur.

Kamran Əliyev Türkiyə Respublikasının milli bayramı – Cümhuriyyətin elan olunmasının 97-ci ildönümü münasibətilə həmkarlarını təbrik etmiş, onlara firavanlıq arzularını çatdırmışdır.

Baş prokuror tarixən xalqlarımızın milli köklərə söykənən münasibətlərinin siyasi, iqtisadi, mədəni və digər sahələrdə də dinamik inkişaf etdirildiyini bildirərək bu əlaqələrin Türk xalqının dahi şəxsiyyəti Mustafa Kamal Atatürkün “Azərbaycanın kədəri – kədərimiz, sevinci – sevincimiz” və Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin “bir millət, iki dövlət” kəlamları ilə ifadə edildiyini, hər iki dövlətin prezidentləri İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın ciddi səyləri, apardıqları uzaqgörən xarici siyasət nəticəsində Azərbaycan-Türkiyə əlaqələrinin etibarlı strateji əməkdaşlıq səviyyəsinə qalxmaqla dostluq və qardaşlıq prinsiplərinə əsaslandığını xüsusi vurğulamışdır.

Kamran Əliyev Azərbaycan-Türkiyə dostluğu və qardaşlığının xalqlarımızın ortaq milli, mənəvi dəyərlərindən və ənənələrindən güc almaqla dünya ölkələrinə bir nümunə olduğunu vurğulamış, qardaş Türkiyənin Ermənistan-Azərbaycan münaqişəsində ölkəmizin haqlı mövqeyini müdafiə etməsi və Vətən müharibəsi dönəmində ən yüksək mənəvi dəstəyinin xalqımız üçün olan əhəmiyyətindən söz açmışdır.

Baş prokuror Ermənistan Respublikasının rəhbərliyinin göstərişi ilə düşmənin silahlı qüvvələrinin dinc əhalimizə qarşı törətdiyi cinayətlər,o cümlədən 27 və 28 oktyabr 2020-ci il tarixlərində mülki əhalinin sıx yaşadığı Azərbaycanın Bərdə şəhərinə raketlərin atıldığını və nəticədə 25 nəfərin həlak olduğunu, 82 nəfərin yaralanması, çoxsaylı yaşayış evləri və mülki infrastruktur obyektlərinə külli miqdarda ziyan dəyməsi barədə həmkarlarını məlumatlandırmışdır.

Türkiyəli həmkarları öz növbəsində Ermənistanın Azərbaycana yönəlmiş terror əməlləri ilə əlaqədar həlak olanların ailələrinə və Azərbaycan xalqına dərin hüznlə başsağlığı verərək yaralananlara Allahdan şəfa diləmişlər.

Ermənistanın Azərbaycana yönəlmiş terrorçu hücumlarına görə cavab verməli olduğunu bildirən həmkarlar Ermənistanın 2020-ci il oktyabrın 27-i və 28-i tarixlərində Bərdə şəhərinin dinc sakinlərini hədəfə alaraq raket zərbələri endirməsini kəskin pisləmiş, Türkiyənin daim Azərbaycanın yanında olacağını nəzərə çatdırmışdır.

Kamran Əliyev və Türkiyəli həmkarları Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinin bundan sonra da bütün istiqamətlərdə uğurla inkişaf edəcəyinə əmin olduqlarını bildiriblər.

# Azərbaycan Respublikası Baş prokuroru və digər vəzifəli şəxslər Bərdə şəhərində hadisə yerində olmuşlar






Ermənistanın təcavüzkar siyasətinin davamı olaraq, 2020-ci il oktyabrın 28-də saat 13 radələrində düşmənin silahlı birləşmələri tərəfindən Bərdə şəhərinin dinc sakinlərin sıx hərəkətdə olduğu və ticarət obyektlərinin kompakt yerləşdiyi əraziyə hər birinin içərisində 72 ədəd 9N235 saylı, ümumilikdə

144 bombacıq olan “Smerç” tipli əməliyyat-taktiki təyinatlı 9M525 qəlpəli böyük dağıdıcı qüvvəyə malik ballistik “claster” tipli 2 ədəd raket zərbələrinin endirilməsi nəticəsində 5-i qadın olmaqla, 21 nəfər həlak olmuş, 8-i uşaq, 15-i qadın olmaqla 70 şəxs isə müxtəlif dərəcəli bədən xəsarətləri almışdır.

Bundan başqa, raket zərbələrinin təsirindən 30-dan artıq mülki infrastruktur obyektinə, dinc sakinlərə məxsus 20-dən artıq fərdi yaşayış evlərinə və 22 nəqliyyat vasitəsinə xüsusilə külli miqdarda ziyan dəymişdir.



Diplomatlar və hərbi attaşelər Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Birinci vitse-prezidentin köməkçisi Elçin Əmirbəyov, Baş prokuror Kamran Əliyev və başqalarının müşayiəti ilə cəbhə zonasından kənarda yerləşən, 100 min əhalisi olan Bərdədə Ermənistan silahlı qüvvələrinin raket hücumlarının səbəb olduğu cinayət izləricə cari vəziyyətlə yerində tanış olmuşlar.



Hadisə yerində olan Baş prokuror Kamran Əliyev Türkiyənin “Haber Global” televiziya kanalına müsahibə verərək Bərdə şəhərinə raket atılması, habelə erməni işğalçılarının mülki şəxslərə yönəlmiş cinayətləri barədə ətraflı məlumat vermişdir.





# Ermənistan təcavüzü nəticəsində törədilmiş cinayətlərin istintaqının ilkin nəticələrinə dair brifinq keçirilmişdir



Dinc mülki əhalimizə qarşı Ermənistan təcavüzü nəticəsində törədilmiş cinayətlərin istintaqının ilkin nəticələrinə dair Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Birinci vitse-prezidentin köməkçisi Elçin Əmirbəyov, Baş prokuror Kamran Əliyev  və digər vəzifəli şəxslərin iştirakı ilə 30.10.2020-ci il tarixdə brifinq keçirilmişdir.



Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev  bildirmişdir ki, "həmişə bunu hüquqşünaslar da qeyd edirlər ki, Holokost o zaman Holokost oldu ki, Nürnberq məhkəməsində öz hüquqi qiymətini aldı", bu gün də Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi bu kimi cinayət əməlləri Avropa İnsan Hüquqları Məhkəməsində bir epizodda, yəni "Çıraqov Ermənistana qarşı" işi üzrə aparılan iş çərçivəsində öz ilk hüquqi qiymətini almışdı. Amma bütün bu əməllərin kompleks şəkildə qiymətləndirilməsi üçün beynəlxalq məhkəmə mexanizmlərinin və hərbi tribunalların yaradılmasına ehtiyac var ki, Ermənistanın siyasi-hərbi rəhbərliyində bu gün təmsil olunan şəxslər, həmçinin əvvəlki dövrlərdə də Azərbaycan xalqına qarşı cinayət əməllərini və insanlıq əleyhinə qarşı cinayət əməllərini törətmiş insanlar qanun qarşısında, yəni beynəlxalq ədalət mühakiməsi qarşısında cavablarını vermiş olsunlar. Bu, heç bir halda qisas deyil, bu, ədalətin təntənəsidir". Brifinqdə çıxış edən Birinci vitse-prezidentin köməkçisi Elçin Əmirbəyov Azərbaycanın münaqişənin






sülh yolu ilə nizamlanmasına tərəfdar olmasını, onun əsas məqsədinin Azərbaycan Respublikasının ərazi bütövlüyünün beynəlxalq səviyyədə tanınan sərhədləri çərçivəsində tezliklə bərpasının olmasını vurğulamışdır. Baş prokuror Kamran Əliyev isə Ermənistan hərbi-siyasi rəhbərliyinin göstərişi ilə düşmən ölkənin silahlı qüvvələrinin Azərbaycanın dinc əhalisinə qarşı törətdiyi cinayətlərlə bağlı 52 cinayət işi başlanmasının bildirmişdir. Qeyd olunan cinayət işlərindən 39-u dinc əhaliyə hücumlar, 5 cinayət işi muzdluların döyüşməsi, 1 cinayət işi vurulmuş zərərlə bağlı olmuş, həmçinin DTX və Hərbi Prokurorluqda da əlavə cinayət işləri başlanılmışdır. Ermənistanın Azərbaycanın mülki əhalisinə qarşı hücumları nəticəsində sentyabrın 27-dən bu günədək 91 nəfər həlak olmuş, 400 nəfər isə yaralanmışdır.

Onun sözlərinə görə, yararsız vəziyyətə düşmüş mülki obyektlərin sayı 428, çoxmənzilli yaşayış binalarının sayı 92, yaşayış evlərinin sayı isə 2 442 olmuş-dur. Ermənistan hərbi-siyasi rəhbərliyinin göstərişi ilə düşmən ölkənin silahlı qüvvələrinin Azərbaycanın dinc əhalisinə qarşı hücumları nəticəsində 7 ailə həlak olmuş, 4 uşaq hər iki valideynini itirib.Hücumlar nəticəsində Gəncədə 26, Goranboyda 22, Ağdamda 7, Bərdədə 27, Füzulidə 3, Beyləqanda 2, Ağcabədidə 1 mülki şəxs həlak olmuşdur.

Ermənistan ərazisindən Azərbaycanın döyüş zonasından uzaqda yerləşən yaşayış yerlərinin atəşə tutulmasının xəritədə təsviri




## Baş prokuror Kamran Əliyev Türkiyənin “Haber Global” televiziya kanalına müsahibə vermişdir




30 oktyabr 2020-ci il tarixində Ermənistan tərəfindən Azərbaycana qarşı törədilmiş müharibə cinayətləri ilə bağlı Baş prokuror Kamran Əliyev Türkiyənin “Haber Global” televiziya kanalına müsahibə vermişdir.

Müsahibəsində Kamran Əliyev Ermənistan dövlətinin silahlı qüvvələrinin Azərbaycanın dinc əhalisinə qarşı törətdiyi əməllər, o cümlədən Ermənistan tərəfindən Gəncə və Bərdə şəhərlərinin mülki əhalisinə qarşı törədilmiş cinayətlər, habelə həmin cinayətlərlə bağlı aparılan araşdırmalarla bağlı geniş məlumat vermişdir.

## Baş prokuror Kamran Əliyev Azərbaycanın “Real TV” televiziya kanalına müsahibə vermişdir




Baş prokuror Kamran Əliyev 30 oktyabr 2020-ci il tarixində Azərbaycanın “Real TV” televiziya kanalına verdiyi müsahibəsində ölkəmizə qarşı törədilmiş müharibə cinayətləri ilə bağlı geniş məlumat vermişdir. Müharibə cinayətləri ilə yanaşı, Kamran Əliyev Ermənistan dövlətinin silahlı qüvvələri tərəfindən Azərbaycanın dinc əhalisinə qarşı törədilmiş cinayətlər, habelə həmin cinayətlərlə bağlı aparılan araşdırmalarla əlaqədar ictimaiyyətə geniş açıqlama vermişdir.

## Azərbaycan Respublikasının Baş prokuroru Böyük Britaniyanın "Reuters" İnformasiya Agentliyinə müsahibə vermişdir



3 noyabr 2020-ci il tarixində Azərbaycan Respublikası Baş prokuroru Kamran Əliyev Böyük Britaniyanın "Reuters" İnformasiya Agentliyinə müsahibə vermişdir. Müsahibəsində o, 27 sentyabr 2020-cil tarixdən başlayaraq Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycana qarşı törədilmiş cinayət əməlləri barədə danışmışdır. Bununla yanaşı, Kamran Əliyev Ermənistan tərəfində xarici ölkələrdən cəlb edilmiş muzdlu döyüşçülərin döyüş əməliyyatlarına cəlb edilməsi barədə ətraflı məlumat vermişdir.

## Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev BMT-nin İnsan Hüquqları üzrə Ali komissarı Mişel Baçeletə rəsmi məktub ünvanlamışdır

UNHRC

Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev BMT-nin İnsan Hüquqları üzrə Ali komissarı Mişel Baçeletə rəsmi məktub ünvanlamışdır.

Baş prokuror, Ermənistan təcavüzü nəticəsində Azərbaycan Respublikasının ərazisində insan hüquqları və beynəlxalq humanitar hüququn normalarının kobud şəkildə pozulması, həmçinin Bərdə rayonunun mülki əhali üçün istifadəsi beynəlxalq hüquqla qadağan edilmiş "claster" bombaları ilə atəşə tutulması nəticəsində xeyli sayda insanların həlak olması və yaralanması faktlarına 02.11.2020-ci il tarixli bəyanatında diqqət yetirdiyinə görə təşəkkürünü bildirmişdir.

Bununla yanaşı diqqətə çatdırılmışdır ki, Ermənistan silahlı qüvvələri tərəfindən yarım milyon əhalisi olan, münaqişə zonasından 100 km-dən artıq məsafədə yerləşən Azərbaycanın ikinci böyük şəhəri Gəncənin 4, 5, 8, 11 və 17 oktyabr 2020-ci il tarixlərində Ermənistan ərazisindən ballistik raket atəşinə məruz qalması nəticəsində 6-sı uşaq, 10-u qadın olmaqla 26 mülki şəxs həlak olmuş, 32-i uşaq, 57-si qadın olmaqla 142 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri almışdır.

Həmçinin qeyd edilmişdir ki, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın strateji obyektləri olan Mingəçevir Su və İstilik Elektrik Stansiyaları, Bakı-Tbilisi-Ceyhan və Bakı-Novorossiysk neft kəmərləri, Oğuz-Qəbələ-Bakı su kəməri hədəfə alınmaqla müxtəlif tarixlərdə raket atəşlərinə məruz qalmışdır.

Eyni zamanda, bəyanatda qeyd edilən iki erməni hərbçisinin guya Azərbaycan hərbi qulluqçuları tərəfindən qeyri-insani rəftara məruz qalmaqla öldürülməsi barədə yayılmış videomateriallar əsasında Baş Prokurorluqda araşdırmanın aparılması və həmin videoların saxta olmasının müəyyən edilməsi barədə də məlumat verilmişdir.

Göstərilən hadisələr bəyanatda yer almadığı üçün narahatlığını ifadə edən Baş prokuror, gələcək bəyanat və hesabatlarda Gəncə şəhərində mülki əhalimizə qarşı törədilmiş cinayət faktlarının və digər zəruri məlumatların qeyd edilməsini xahiş etməklə bununla bağlı ətraflı materialları təqdim etmişdir.

# Vətən müharibəsi ilə əlaqədar qarşıda duran vəzifələrlə bağlı Azərbaycan Respublikası Baş Prokurorluğunun Kollegiya iclası keçirilmişdir




2020-ci il noyabrın 6-da Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə mövcud şəraitdə prokurorluq orqanlarının, o cümlədən işğaldan azad edilmiş rayonların prokurorluqlarının fəaliyyətinin gücləndirilməsi, prokurorluq orqanlarında başlanmış və istintaq aparılan cinayət işlərinə və işin təşkilinə dair digər məsələlərə həsr olunmuş Kollegiya iclası keçirilmişdir.

İclasdan öncə vətən torpaqlarının azadlığı uğrunda şəhid olmuş hərbi qulluqçularımızın və mülki vətəndaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş, döyüşlərdə yaralananlara və xəsarət almış şəxslərə şəfa dilənmişdir.

İclasda 2020-ci il 27 sentyabr tarixində erməni hərbi birləşmələrinin genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrimizi intensiv atəşə məruz qoymalarına cavab olaraq Ali Baş Komandan cənab İlham Əliyevin əmrilə işğalçı Ermənistana qarşı bütün cəbhə boyu genişmiqyaslı əks-hücum əməliyyatına başlanmaqla qısa müddət ərzində qəhrəman ordumuzun əzmi və şücaəti nəticəsində Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı şəhərləri və Hadrut qəsəbəsi də daxil olmaqla ümumilikdə 200-dən artıq yaşayış məntəqələrinin işğaldan azad edilməsi, döyüş əməliyyatlarının gedişində düşmən ordusuna endirilən sarsıdıcı zərbələr nəticəsində, düşmənin çox sayda canlı qüvvə və texnika itirərək geri çəkilmək məcburiyyətində qalması vurğulanmışdır.

Dövlət başçısının müvafiq fərmanı ilə ölkəmizdə hərbi vəziyyət elan olunması ilə əlaqədar prokurorluq orqanlarının qarşısında duran vəzifələrin önəmi diqqətə çatdırılmaqla Ermənistan silahlı birləşmə-





lərinin beynəlxalq hüquqla qəbul edilmiş normaları kobudcasına pozaraq münaqişə zonasından kənarda yerləşən yaşayış məntəqələrimizi atəşə tutması, dinc mülki əhaliyə qarşı törədilmiş sülh və insanlıq əleyhinə, müharibə, eləcə də digər cinayətlərlə əlaqədar başlanmış 51 cinayət işi üzrə təqsirli şəxslərin məsuliyyətə cəlb olunmaları üçün mümkün olan zəruri tədbirlərin görülməsinin, aidiyyəti qurumlarla birlikdə bütün hüquqi mexanizmlərdən istifadə edilməklə beynəlxalq təşkilatlara müraciətlər olunmasının vacibliyi qeyd edilmişdir.

Eyni zamanda, ölkə başçısının "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" 29 oktyabr 2020-ci il tarixli Fərmanından irəli gələn vəzifələrin icrasının təmin olunması məqsədilə Baş Prokurorluğun İstintaq idarəsində başlanmış cinayət işi üzrə aidiyyəti qurumlarla birlikdə erməni vandalizmi nəticəsində planlı şəkildə talan edilmiş, dağıdılmış tarixi, dini-mədəni abidələrə və digər əmlaklara dəymiş ziyanın müəyyən edilməsi məqsədilə zəruri göstərişlər verilmişdir.

İclasda işğal olunmuş ərazilərdə erməni silahlı qüvvələrinin tərkibində digər ölkələrdən cəlb edilmiş muzdlu şəxslərin döyüş əməliyyatlarında iştirak etmələri, həmçinin xarici ölkələrin konkret şirkətlərinin ekologiya və yerin təkinin istismarı qaydalarının kobud şəkildə pozulması ilə nəticələnən qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olmaları faktları ilə bağlı cinayət işləri üzrə hərtərəfli və intensiv istintaq-əməliyyat hərəkətlərinin yerinə yetirilməsinə dair tapşırıqlar verilmişdir.

Bundan başqa, Ermənistan silahlı qüvvələrinin və qanunsuz erməni hərbi birləşmələrinin ordumuza qarşı törətdiyi cinayətlərlə əlaqədar Hərbi Prokurorluğun İstintaq idarəsində başlanmış 4 cinayət işi üzrə döyüş şəraitində mümkün olan bütün zəruri istintaq hərəkətlərinin aparılmasının zəruriliyi vurğulanmışdır.

İclasda həmçinin, silahlı qüvvələrimizin apardığı əməliyyatlarla bərabər vətəndaşlarımızın sağlamlığının qorunması məqsədilə yeni növ koronavirus (COVID-19) infeksiyasının Azərbaycan Respublikası ərazisində yaratdığı təhlükələrin qarşısının alınması ilə bağlı prokurorluq orqanları tərəfindən həyata keçirilən cinayət təqibi və digər tədbirlər müzakirə edilməklə müvafiq göstərişlər verilmişdir.

Aparılmış müzakirələr ətrafında Baş prokurorun birinci müavini Elçin Məmmədov, Baş prokurorun müavini - Azərbaycan Respublikasının Hərbi prokuroru  Xanlar Vəliyev, Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyev, Baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbov, Bakı şəhər prokuroru İlqar Abbasov və digər Kollegiya üzvləri çıxış edərək gündəlikdə duran məsələlərə dair təkliflərini bildirmişlər.

Kollegiya iclasında qeyd edilənlərlə yanaşı işin təşkilinə dair digər məsələlər üzrə də faydalı müzakirələr aparılmaqla müvafiq qərarlar qəbul edilmişdir.

İclasa yekun vuran Baş prokuror Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusunun qazandığı uğurların ölkə başçısının həm siyasi, hərbi, diplomatik, həm də iqtisadi sahədə apardığı məqsədyönlü fəaliyyətinin nəticələri olduğunu diqqətə çatdırmaqla prokurorluq orqanlarının üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəyinə əminliyini ifadə etmişdir.

# Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində terrorçuluq məqsədilə yaradılmış "VoMa" silahlı birləşməsinə qarşı cinayət işi başlanmışdır

Ermənistan Respublikasının işğalçı mahiyyətinin beynəlxalq müstəvidə bir daha ifşa edilməsi üçün Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən digər dövlət qurumları ilə birgə zəruri tədbirlərin görülməsi davam etdirilir.

Həyata keçirilən bu tədbirlərin davamı kimi, Ermənistan Respublikasının vətəndaşı Vladimir Vartanov və qeyrilərinin Ermənistan Respublikasından kənarda yaşayan müxtəlif millətlərdən olan digər ölkə vətəndaşlarını cəlb edərək, həmin şəxslərdən ibarət “VoMa” ("Voxj Mnalu Arvest" - sağ qalmaq sənəti) adı altında Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmayan silahlı birləşmə yaratmaları, birləşmə üzvlərinə terrorçuluq məqsədilə təlim keçmələri, həmin silahlı birləşmə tərkibində Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində terrorçuluq əməllərini törətmələri və sair cinayət əməllərinə dair Dövlət Təhlükəsizliyi Xidmətindən daxil olmuş materiallar əsasında Baş Prokurorluğun İstintaq İdarəsində araşdırma aparılmışdır.

Araşdırmalarla, Vladimir Vartanov və digərlərinin Azərbaycan Respublikasına və vətəndaşlarına qarşı terror aktları törətmək məqsədilə 2014-cü ildə Ermənistan Respublikası ərazisində “VoMa” adlı hərbiləşdirilmiş təşkilat  təsis edərək internet resurslarından istifadə etməklə xarici ölkələrin erməni əsilli vətəndaşlarını, eləcə də “Asala”, “PKK” və digər terror təşkilatlarının üzvlərini "VoMa"nın üzvülüyünə cəlb edib hərbi təlimlərdə iştiraklarını təşkil edərək "Dağ-atıcı ehtiyat batalyonu"nun ("VoMA batalyonu")  tərkibində cinayətkar birlik halında birləşmələri müəyyən edilmişdir.

Həmçinin, qeyd olunan şəxslərin Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış dövlət sərhədini müəyyən edilmiş sənədlər olmadan və dövlət sərhədinin nəzarət-buraxılış məntəqələrindən kənarda, yəni Ermənistan ərazisindən qanunsuz keçərək Xankəndi şəhəri və işğal altında olan digər yaşayış məntəqələrinə gəlmələri, “Dağlıq Qarabağ Respublikası” adı altında fəaliyyət göstərən qanunsuz rejimin dəstəklənməsi məqsədilə, Azərbaycan Respublikasının dinc vətəndaşlarına və antiterror əməliyyatlarını həyata keçirən silahlı qüvvələrinə qarşı Ermənistanın siyasi-hərbi rejimi tərəfindən muzdlu kimi istifadə edilmələri müəyyən edilmişdir.

Bundan başqa, həmin təşkilat üzvlərinin döyüş sursatlarından, hərbi texnikadan istifadə edib atəşlər açaraq xüsusi amansızlıq və ümumi təhlükəli üsulla, milli düşmənçilik niyyəti ilə, habelə terrorçuluq əlaqədar Azərbaycan Respublikasının ayrı-ayrı rayonlarında yaşayan hərbi əməliyyatlarda iştirak etməyən dinc sakinlərinə qarşı çoxsaylı cinayət əməllərinə yol vermələri, ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və ya digər hərəkətlər törətmələri, habelə həmin məqsədlərlə bu cür hərəkətlərin törədiləcəyi ilə hədələməklə Azərbaycan Respublikası vətəndaşlarına qarşı terrorçuluq fəaliyyətində iştirak etmələri aşkar edilmişdir.

Faktla bağlı Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 100.2 (təcavüzkar müharibəni aparma), 120.2.1 (cinayətkar birlik–təşkilat tərəfindən qəsdən adam öldürmə), 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri yaratma), 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) və digər maddələri ilə cinayət işi başlanılmış və istintaqın aparılması Baş Prokurorluğun İstintaq İdarəsinə həvalə edilmişdir.

Eyni zamanda, xəbər verildiyi kimi, Ermənistan Respublikasının vətəndaşı Vladimir Vartanov və qeyrilərinin müxtəlif ölkələrin vətəndaşları olan erməni əsilli və digər şəxslərdən ibarət “VoMa” ("Voxj Mnalu Arvest" – sağ qalmaq sənəti) adı altında Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmayan silahlı birləşmə yaratmaları, birləşmə üzvlərinə terrorçuluq məqsədilə təlim keçmələri, işğal olunmuş ərazilərimizdə terrorçuluq əməllərini törətmələrinə dair Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən başlanmış cinayət işi üzrə Vladimir Vartanov Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilmiş, məhkəmənin qərarı ilə barəsində qiyabi həbs seçilməklə istintaq orqanı tərəfindən beynəlxalq axtarış elan edilmişdir.

Dövlət səviyyəsində terroru dəstəkləyərək, terrorçuluğu təcavüzkar siyasətinin əsas vasitələrindən birinə çevirmiş Ermənistan Respublikasının öz işğalçı  ordusuna muzdluları və terrorçuları cəlb etməsi beynəlxalq qanunvericiliyə zidd olduğundan, Azərbaycan Respublikası Baş Prokurorluğu beynəlxalq təşkilatlar tərəfindən işğalçı dövlətə qarşı beynəlxalq hüquqla nəzərdə tutulmuş sanksiyaların tətbiq olunması üçün bütün lazımi tədbirlərin görülməsi təmin edilir.

# Dağlıq Qarabağ ərazisində Azərbaycan Ordusuna qarşı döyüş əməliyyatlarında iştirak edən "Zouaves Paris" qruplaşmasının lideri barəsində cinayət işi başlanmışdır




Dövlət səviyyəsində terroru dəstəkləyərək, terrorçuluğu təcavüzkar siyasətinin əsas vasitələrindən birinə çevirmiş Ermənistan Respublikasının Ermənistan Respublikasının işğalçı mahiyyətinin beynəlxalq müstəvidə bir daha ifşa edilməsi üçün Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən təxirəsalınmaz tədbirlərin görülməsi davam etdirilir.

Həyata keçirilən bu tədbirlərin davamı kimi, Fransa Respublikasının vətəndaşı, Parisdə zorakılığın əsas təhrikçisi olan Fransanın ekstremist "Zouaves Paris" (ZVP) qruplaşmasının lideri, özünü sosial şəbəkələrdə faşist adlandıran və terrorçu qruplaşma olan "SS" faşist təşkilatının simvolikasından istifadə edən Marc de Cacqeray-Valmenier-in (Mark De Kakkere-Valmenirin) və digərlərinin Azərbaycan Respublikasının ərazisində törətdiyi cinayət əməllərinə dair toplanmış materiallar, habelə kütləvi informasiya vasitələri və sosial media səhifələrində aşkar edilmiş məlumatlar üzrə Azərbaycan Respublikası Baş Prokurorluğunda araşdırma aparılmışdır.

Araşdırmalarla qeyd olunan cinayətkar birlik və üzvlərinin 2020-ci ilin oktyabr ayında Ermənistanın aidiyyəti dövlət qurumlarının təşkilatçılığı və dəstəyi ilə Ermənistana gələrək Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində olan digər şəxslərlə cinayət əlaqəsinə girib cinayətkar birlik halında Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış dövlət sərhədini müəyyən edilmiş sənədlər olmadan və dövlət sərhədinin nəzarət-buraxılış məntəqələrindən kənarda, yəni Ermənistan ərazisindən qanunsuz keçərək Xankəndi şəhəri və işğal altında olan digər yaşayış məntəqələrinə gəlmələri, Azərbaycan Respublikasının dinc vətəndaşlarına və antiterror əməliyyatlarını həyata keçirən silahlı qüvvələrinə qarşı Ermənistanın siyasi-hərbi rejimi tərəfindən muzdlu kimi istifadə edilmələri müəyyən edilmişdir.

Bundan başqa, cinayətkar birlik üzvlərinin döyüş sursatlarından, hərbi texnikadan istifadə edib atəşlər açaraq xüsusi amansızlıq və ümumi təhlükəli üsulla, milli düşmənçilik niyyəti ilə, habelə döyüş əməliyyatlarında iştirak etməyən dinc sakinlərə qarşı çoxsaylı cinayət əməllərinə yol vermələri, ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və ya digər hərəkətlər törətməklə Azərbaycan Respublikası vətəndaşlarına qarşı terrorçuluq fəaliyyətində iştirak etmələri aşkar edilmişdir.

Faktla bağlı Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 100.2 (təcavüzkar müharibəni aparma), 120.2.1 (cinayətkar birlik–təşkilat tərəfindən qəsdən adam öldürmə), 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) və digər maddələri ilə cinayət işi başlanılmış və istintaqın aparılması Baş Prokurorluğun İstintaq İdarəsinə həvalə edilmişdir.

Qeyd edilən cinayət işi ilə əlaqədar Baş Prokurorluq tərəfindən Fransanın aidiyyəti dövlət qurumlarına hüquqi yardımın göstərilməsi haqqında vəsatət göndərilmişdir.

# Dağlıq Qarabağ ərazisində Azərbaycan Ordusuna qarşı döyüş əməliyyatlarında iştirak edən muzdlu Vaaqn Çaxalyan barəsində istintaq davam etdirilir

Gürcüstan vətəndaşı Vaaqn Çaxalyanın Azərbaycan Respublikasının ərazisində törətdiyi cinayət əməllərinə dair yerli və xarici kütləvi informasiya vasitələrində yayılmış çoxsaylı məlumatlar əsasında Azərbaycan Respublikası Baş Prokurorluğunda araşdırma aparılmış və faktla bağlı Cinayət Məcəlləsinin 100.2 (təcavüzkar müharibəni aparma), 114 (muzdluluq), 29, 120.2.1 (cinayətkar birlik–təşkilat tərəfindən qəsdən adam öldürməyə cəhd), 29, 120.2.4 (xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla qəsdən adam öldürməyə cəhd), 279.3-cü (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri yaratma) və digər maddələri ilə cinayət işi başlanılmaqla istintaqın aparılması Baş Prokurorluğun İstintaq İdarəsinə tapşırılmışdır.

İstintaq zamanı Dağlıq Qarabağ ərazisində Azərbaycan Ordusuna qarşı döyüş əməliyyatlarında iştirak edən muzdlu Vaaqn Çaxalyan Cinayət Məcəlləsinin qeyd edilən maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunmuş və barəsində rayon məhkəməsi tərəfindən qiyabı olaraq həbs qətimkan tədbiri seçilməklə istintaq orqanı tərəfindən beynəlxalq axtarış elan edilmişdir.

Bəzi kütləvi informasiya vasitələrində Vaaqn Caxalyanın döyüş əməliyyatları zamanı öldürülməsi, habelə Gürcüstan Respublikasının vətəndaşlığından məhrum edilməsi ilə bağlı məlumatlar yayılmışdır.

Bununla bağlı aparılan araşdırma zamanı Gürcüstan Baş Prokurorluğundan alınmış şifahi məlumata əsasən məlum olmuşdur ki, Vaaqn Çaxalyan 2019-cu ilin sonunda Ermənistan Respublikasının vətəndaşlığını qəbul etmiş, bu səbəbdən 2020-ci ilin əvvəllərində Gürcüstan həmin şəxsin vətəndaşlığına xitam vermişdir. Daha sonra Vaaqn Çaxalyan Gürcüstanın müvafiq dövlət qurumlarına müraciət edərək həmin ölkənin vətəndaşlığının bərpa edilməsini xahiş etmiş, lakin 2020-ci ilin iyun ayında onun müraciətinə mahiyyəti üzrə baxılmaqla imtina edilmişdir.

Vaaqn Çaxalyanın öldürülməsi ilə bağlı 25.10.2020-ci il tarixdə Gürcüstan media səhifələrində yayılmış məlumatla bağlı Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Gürcüstan Baş Prokurorluğu tərəfindən aparılmış araşdırma nəticəsində həmin məlumat öz təsdiqini tapmamışdır.

Hətta bundan bir neçə gün sonra V.Çaxalyanın "Facebook" sosial şəbəkəsindəki hesabında döyüş əməliyyatlarında iştirakını davam etdirməsinə dair informasiya yerləşdirilmişdir.

Odur ki, Vaaqn Çaxalyanla əlaqədar istintaq edilən cinayət işi üzrə Gürcüstan Baş Prokurorluğuna hüquqi yardım haqqında rəsmi vəsatət verilmiş və vəsatətin icrası ilə bağlı Gürcüstan Baş Prokurorluğu ilə mütəmadi olaraq əlaqə saxlanılır.

Hazırda Vaaqn Çaxalyan beynəlxalq axtarışda olmaqla Baş Prokurorluğun İstintaq idarəsi tərəfindən cinayət işi üzrə istintaq davam etdirilir.

# Vejnəli qızıl yatağının talanmasına görə 3 nəfər barəsində beynəlxalq axtarış elan edilmişdir

Azərbaycan Respublikasının işğal olunmuş Laçın, Kəlbəcər və digər işğal olunmuş rayonların ərazilərində erməni əsilli xarici dövlətlərin vətəndaşları olan şəxslərin ekologiya və yerin təkinin istismarı qaydalarının kobud şəkildə pozulması ilə nəticələnən qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olmaları faktları üzrə Azərbaycan Respublikası Baş Prokurorluğunun İstintaq idarəsində 21.10.2015 və 30.03.2018-ci il tarixlərdə Cinayət Məcəlləsinin 192.2.3 (qanunsuz sahibkarlıq) və 318.2-ci maddələri ilə (dövlət sərhədini qanunsuz keçmə) cinayət işləri başlanmışdır.

Həmin cinayət işlərindən biri – işğal olunmuş, lakin Milli Ordumuzun uğurlu əməliyyatları nəticəsində son günlərdə işğaldan azad olunmuş Zəngilan rayonunun Vejnəli kəndi ilə bağlı olmuşdur.

Belə ki, istintaq zamanı Baş Prokurorluğun İstintaq idarəsinin qərarı əsasında Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən müəyyən edilmişdir ki, Zəngilan rayonu Vejnəli kəndində əlvan metal yataqlarından qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olaraq gəlir əldə edən İsveçrə Konfederasiyasında rəsmi qeydiyyatdan keçmiş "Vallex Group" şirkətlər qrupunun filialı olan «Base Metals» Qapalı Səhmdar Cəmiyyəti 2009-2017-ci illər ərzində cəmi 301 milyon 918 min manat məbləğində qanunsuz gəlir əldə etmişdir.

Qeyd edilən cinayət faktları ilə əlaqədar "Vallex



Group" şirkətlər qrupunun maliyyə investoru, İsveçrə Konfederasiyasının vətəndaşı Vartan Sirmakes və rəhbəri Valeriy Mejlumyan, o cümlədən həmin şirkətlər qrupuna daxil olan "Base Metals" QSC-nin icraçı direktoru Artur Mkrtumyan Cinayət Məcəlləsinin qeyd edilən maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilmiş, barələrində məhkəmənin müvafiq qərarları ilə qiyabi həbs seçilməklə istintaq orqanı tərəfindən beynəlxalq axtarış elan edilmişdir.

Həmin cinayət işi üzrə prokurorluq əməkdaşları tərəfindən Azərbaycan dövlətinə və vətəndaşlarına dəymiş ziyanın məbləğinin dəqiqləşdirilməsi və digər istintaq üçün əhəmiyyət kəsb edən halların müəyyən edilməsi məqsədi ilə işğaldan azad olunmuş Vejnəli kəndində yerləşən uzun illər ərzində istismara məruz qalmış qızıl yataqlarının yerləşdiyi əraziyə hadisə yerinə baxış da daxil olmaqla digər zəruri istintaq hərəkətləri həyata keçirilir.

Həmçinin, cinayət işi üzrə Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən zəruri istintaq hərəkətlərinin icrası məqsədi ilə İsveçrə Konfederasiyasının səlahiyyətli dövlət orqanlarına beynəlxalq hüquqi yardımın göstərilməsi haqqında vəsatətlə müraciət olunmuşdur.

Azərbaycan Respublikasının Baş Prokurorluğu bəyan edir ki, Ermənistan tərəfindən Azərbaycan Respublikasının işğal olunmuş və artıq işğaldan azad edilmiş ərazilərimizdə qanunsuz iqtisadi və digər fəaliyyətlə məşğul olan fiziki və hüquqi şəxslərin milli və beynəlxalq qanunvericilik əsasında məsuliyyətə cəlb olunmaqla sanksiyaların tətbiq edilməsi məqsədi ilə beynəlxalq hüquq normaları çərçivəsində bütün mümkün olan tədbirlərin görülməsi təmin ediləcəkdir.

## Azərbaycan Respublikasına qarşı Dağlıq Qarabağda vuruşan "Krım könüllüləri birləşməsi" adlı qrupun rəhbəri barəsində cinayət işi başlanmışdır

Dövlət səviyyəsində terroru dəstəkləyərək, terrorçuluğu təcavüzkar siyasətinin əsas vasitələrindən birinə çevirmiş Ermənistan Respublikasının işğalçı mahiyyətinin beynəlxalq müstəvidə ifşa edilməsi üçün Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən zəruri tədbirlərin görülməsi davam etdirilir.

Həyata keçirilən bu tədbirlərin davamı kimi, "Krım könüllüləri birləşməsi" adlı qrupun rəhbəri olan Martoyan Armen Hamletoviç (Samvel) və digərlərinin Azərbaycan Respublikasına qarşı törətdiyi cinayət əməllərinə dair Azərbaycan Respublikası Baş Prokurorluğunda toplanmış material üzrə araşdırma aparılmışdır.

Araşdırmalarla qeyd olunan "Krım könüllüləri birləşməsi" adlı qrupun rəhbəri olan Rusiya Federasiyasının vətəndaşı Martoyan Armen Hamletoviç (Samvel ləqəbli) və həmin qruplaşmanın digər üzvlərinin







2020-ci ilin oktyabr ayında Ermənistanda və Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində olan şəxslərlə, həmçinin qondarma “Dağlıq Qarabağ” rejiminin rəhbər şəxsləri ilə görüşüb döyüş əməliyyatlarında iştiraklarına dair müzakirələr aparmaqla cinayət əlaqəsinə girmələri, Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış dövlət sərhədini müəyyən edilmiş sənədlər olmadan və dövlət sərhədinin nəzarət-buraxılış məntəqələrindən kənarda, yəni Ermənistan ərazisindən qanunsuz keçərək Xankəndi şəhəri və işğal altında olan digər yaşayış məntəqələrinə gəlmələri, Azərbaycan Respublikasının dinc vətəndaşlarına və antiterror əməliyyatlarını həyata keçirən silahlı qüvvələrinə qarşı Ermənistanın rəhbərliyi tərəfindən muzdlu kimi istifadə edilmələri müəyyən edilmişdir.

Bundan başqa, cinayətkar birlik üzvlərinin döyüş sursatlarından, hərbi texnikadan istifadə edib atəşlər açaraq xüsusi amansızlıq və ümumi təhlükəli üsulla, milli düşmənçilik niyyəti ilə, döyüş əməliyyatlarında iştirak etməyən dinc sakinlərinə qarşı çoxsaylı cinayət əməllərinə yol verməlri, ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və ya digər hərəkətlər törətməklə Azərbaycan Respublikası vətəndaşlarına qarşı terrorçuluq fəaliyyətində iştirak etmələri aşkar edilmişdir.

Faktla bağlı Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 100.2 (təcavüzkar müharibəni aparma), 120.2.1 (cinayətkar birlik–təşkilat tərəfindən qəsdən adam öldürmə), 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) və digər maddələri ilə cinayət işi başlanılmış və istintaqın aparılması Baş Prokurorluğun İstintaq İdarəsinə həvalə edilmişdir.

Qeyd edilən cinayət işi ilə əlaqədar Baş Prokurorluq tərəfindən Rusiya Federasiyasının aidiyyəti dövlət qurumlarına hüquqi yardımın göstərilməsi haqqında vəsatət göndərilmişdir.

Baş Prokurorluq bəyan edir ki, qeyd edilən və bu kimi digər cinayət faktlarına görə təqsirkar şəxslərin beynəlxalq hüquq normalarına əsasən məsuliyyətə cəlb edilməsindən ötrü mümkün olan bütün tədbirlər görülməklə beynəlxalq təşkilatlara müraciət edilməsi təmin ediləcəkdir.

# Baş Prokurorluq tərəfindən "hamımız.com" saxta sayt ilə bağlı araşdırmalara başlanılmışdır




Döyüş meydanında Azərbaycan Ordusu qarşısında məğlub olan düşmən sosial media və digər rəqəmsal platformalarda müxtəlif saxta səhifələr, o cümlədən saytlar yaradıb cəbhəboyu zonadakı vəziyyət, xüsusilə də hərbi-siyasi və əməliyyat şəraiti, hərbi texnika və onun hərəkəti haqqında, eləcə də silah-sursat barədə saxta xəbərlər ictimailəşdirməklə vətəndaşlarımızda çaşqınlıq yaratmağa cəhd edir.

Azərbaycan Ordusunun uğurlarının Ermənistan əhalisindən gizlədilməsinə, vətəndaşlarımızda təşviş yaratmağa yönələn bu cəhdlər ifşa olunmaqdadır.

Ermənistan tərəfindən həyata keçirilmiş növbəti təxribatlardan biri də “hamimiz.com” adlı saxta saytın yaradılmasıdır.

Həmin “fake” saytda guya şəhid olmuş və itkin düşmüş hərbi qulluqçuların siyahısına mülki şəxslərin,o cümlədən qadınların da adları daxil edilmişdir.

Bununla da, qeyd olunan saytın düşmənin maraqlarına xidmət etməsi,əhalimiz arasında təşviş yaratmaq məqsədi daşıması müəyyən edilmişdir.

Hər kəsi vətəndaş məsuliyyətini dərindən dərk etməyə, ayıq-sayıq olmağa, bu kimi saxta saytlarda və digər informasiya daşıyıcılarında olan təxribat xarakterli məlumatlara inanmamağa çağırır, şübhəli hər hansı saxta platforma ilə qarşılaşan zaman hüquq-mühafizə orqanlarına dərhal məlumat verilməsi xahiş olunur.

Hazırda qeyd edilən saxta saytla bağlı Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən araşdırmalara başlanılmışdır.

# Mi-24 hərbi helikopterinin vurulması ilə bağlı Baş Prokurorluqda dərhal araşdırmalara başlanılmışdır

2020-ci il noyabrın 9-da saat 18.30-da Ermənistan-Azərbaycan sərhədinin Naxçıvan hissəsində Rusiya Federasiyasına məxsus Mi-24 hərbi helikopterinin vurulması ilə bağlı Azərbaycan Respublikasının Baş Prokurorluğunda dərhal araşdırmalara başlanılmış, nəticəsindən asılı olaraq qanuni və obyektiv qərarın qəbul edilməsi təmin ediləcəkdir.

Qeyd olunan məsələ ilə bağlı Azərbaycan Respublikasının Baş Prokurorluğu öz dərin təəssüfünü bildirməklə, həlak olan ekipaj üzvlərinin ailələrinə başsağlığı verir, xəsarət alanlara Allahdan şəfa diləyir.

# Baş prokuror Kamran Əliyev ilə rusiyalı həmkarı İqor Krasnov arasında helikopterin vurulması hadisəsi ilə bağlı telefon danışığı baş tutmuşdur





2020-ci il noyabrın 9-da saat 18.30-da Ermənistan-Azərbaycan sərhədinin Naxçıvan hissəsində Rusiya Federasiyasına məxsus Mi-24 hərbi helikopteri vurulması nəticəsində 2 hərbi qulluqçu həlak olmuş, 1 nəfər isə yaralanmışdır.

Həmin faktla bağlı Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən dərhal araşdırmalara başlanılmış və baş vermiş hadisənin təfərrüatlarının hərtərəfli, tam və obyektiv araşdırılması məqsədilə Baş prokuror tərəfindən 09.11.2020-ci il tarixdə Cinayət Məcəlləsinin 342.2-ci (qulluğa səhlənkar yanaşma – ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda, habelə müharibə vaxtı və ya döyüş şəraitində törədildikdə) maddəsi ilə cinayət işi başlanılmış və istintaqın aparılması Naxçıvan Muxtar Respublikasının Hərbi Prokurorluğuna həvalə edilmişdir.

Cinayət işi üzrə prokurorluq əməkdaşları tərəfindən hərbi mütəxəssislərin iştirakı ilə raketin atıldığı qurğuya, habelə informasiya sistemlərinə baxış keçirilmiş, raketin atıldığı hərbi hissənin hərbi qulluqçuları dindirilmiş, zəruri olan sənədlər götürülmüş və digər lazimi istintaq hərəkətləri həyata keçirilmişdir.

Qeyd edilən fakta görə təqsirkar şəxs və ya şəxslərin müəyyən edilərək məsuliyyətə cəlb edilməsi istiqamətində intensiv istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Həmin cinayət faktı ilə əlaqədar Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Rusiya Federasiyasının Baş prokuroru İqor Krasnova rəsmi məktub ünvanlamış, eyni zamanda aralarında telefon danışığı baş tutmuşdur.

Telefon əlaqəsi zamanı Baş prokuror hadisə nəticəsində həlak olanlarla bağlı rusiyalı həmkarına baş sağlığı verməklə yaralı hərbi qulluqçuya şəfa diləmiş, həmçinin başlanmış cinayət işi üzrə həyata keçirilmiş ilkin istintaq hərəkətləri barədə həmkarını məlumatlandırmaqla, tam, obyektiv və hərtərəfli istintaq aparılmasında əmin etmişdir.

Rusiya Federasiyasının Baş prokuroru öz növbəsində həmin faktla bağlı tərəflərindən də cinayət işinin başlanaraq istintaq aparılmasını və Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə istintaqın əlaqəli şəkildə aparılmasının işin səmərəliliyin artırılmasına xidmət edəcəyini qeyd etmişdir.

İqor Krasnov Azərbaycan tərəfinin hadisə ilə bağlı təxirəsalınmaz reaksiya verərək zəruri tədbirlərin görülməsinə görə öz təşəkkürünü bildirmişdir.

Bundan başqa, Rusiya Federasiyasının Baş prokuroru imzalanmış 10.11.2020-ci il tarixli üçtərəfli bəyanatla bağlı öz məmnunluğunu ifadə edərək bəyanatda əks etdirilmiş müddəaların icrasının tərəflərin, o cümlədən Azərbaycan xalqının maraqlarına xidmət edəcəyini qeyd etməklə, sülhməramlı qüvvələrin regionda yerləşdirilməsinin sülh və əminamanlığın bərqərar olmasında səmərəli rol oynayacağına ümidvar olduğunu xüsusilə vurğulamışdır.

Kamran Əliyev və rusiyalı həmkarı ölkələrimizin prokurorluqları arasında olan sıx əməkdaşlıq və dostluq münasibətlərinin bütün istiqamətlərdə bundan sonra da uğurla inkişaf edəcəyinə əmin olduqlarını bildirmişlər.

# Baş prokuror Kamran Əliyev BMT-nin İnsan Hüquqları üzrə Ali komissarı Mişel Baçeletə rəsmi məktub ünvanlamışdır

Baş prokuror bildirmişdir ki, Ermənistan tərəfindən insan hüquqları və beynəlxalq humanitar hüququn normalarının, eləcə də BMT-nin Konvensiyalarının müddəalarının kobud şəkildə pozularaq Ermənistanın hərbi siyasi rəhbərliyi və diasporası tərəfindən xarici ölkələrin vətəndaşları olan erməni əsilli "könüllülər"in Azərbaycan Respublikasının ərazisində döyüş əməliyyatlarında iştirak etmələri üçün dəvət edilməsi və maliyyələşdirməsi müəyyən edilmişdir.

Həmçinin diqqətə çatdırılmışdır ki, qanunsuz silahlı birləşmələrin və qrupların yaradılması bir çox xarici ölkələrin qanunvericiliyində olduğu kimi, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində də cinayət əməlləri kimi qiymətləndirilir.

Bununla bağlı, Azərbaycan Respublikasına qarşı döyüş əməliyyatlarında Ermənistan tərəfindən tək və ya qrup şəklində iştirak edən bəzi muzdluların ad və soyadları, vətəndaşları olduqları ölkələrin siyahısı açıqlanmışdır.

Belə ki, Fransa vətəndaşları-Artur Ohanisyan, ASALA terror təşkilatının üzvü Gilbert Minasyan (onunla birlikdə adları istintaqa məlum olmayan 15 nəfər şəxs); "Zouaves Paris" ekstremist qrupunun lideri Mark de Kakkerey – Valmenir; Gürcüstan vətəndaşlığından artıq məhrum edilmiş Vaaqn Çaxalyan, İran İslam Respublikasının vətəndaşı Harmik Hovsepiyan, Belarusiya vətəndaşı Serov Sergey Valeriyeviç, ABŞ vətəndaşı Aruşan Badasyan və digərlərinin muzdlu kimi döyüş əməliyyatlarında iştirak etmələri məlum olmuşdur.

Həmçinin, Ermənistan işğalından azad edilmiş ərazilərə baxış keçirilən zaman aşkar edilmiş 2 meyit üzərində muzdluların etnik mənşəyini sübut edən işarələr aşkar edilmişdir ki, bu və qeyd edilən digər faktlar muzdluların iştirakını bir daha təsdiq etmişdir.

Göstərilən faktlarla bağlı Baş Prokurorluq tərəfindən Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanmış və hazırda həmin işlər üzrə istintaq davam etdirilir.

Eyni zamanda, Baş prokuror Ermənistan silahlı qüvvələri tərəfindən qəsdən mülki əhalimizin hədəfə alınması və qadağan edilmiş fosfor bombalarından istifadə edilməsini xüsusilə qeyd etmişdir.

Həmçinin, diqqətə çatdırılmışdır ki, hazırki vaxtadək "Skad" və "Smerç" raket qurğularından yalnız döyüş meydanında deyil, eləcə də mülki şəxslərə qarşı istifadə edilmiş, həmin faktlar "Human Rights Watch" və "Amnesty İnternational" nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən qeydə alınmaqla həmin əməllər "qəddar və ağlasığmaz" kimi qiymətləndirilmişdir.

2020-ci il noyabrın 7-də 16 yaşlı Şahmalı Rəhimovun Bərdə rayonuna növbəti mərmi atılması nəticəsində həlak olması və bununla da, həlak olan mülki şəxslərin sayının 93 nəfərə çatması vurğulanmışdır.

Qeyd edilmişdir ki, Ermənistan həm döyüş meydanında, həm də münaqişə zonasından kənarda yerləşən Tərtər, Ağcabədi və Goranboy rayonlarını qadağan edilmiş və son dərəcə təhlükəli olan fosfor bombalarından 5 dəfə istifadə etməklə müxtəlif vaxtlarda atəşə tutmuşdur.

Baş prokuror, həmin halları sübut edən ətraflı foto və videomaterialları təqdim etməklə, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarından göstərilən faktların gələcək bəyanat və hesabatlarında qeyd edilməsini və törədilmiş cinayətlərlə bağlı səlahiyyət çərçivəsində Ermənistan rəhbərliyinə qarşı tədbir görülməsini xahiş etmişdir.

# Baş prokuror Kamran Əliyev “Amnesty İnternational”-a məktub ünvanlamışdır

AMNESTY INTERNATIONAL

5 noyabr 2020-ci il tarixdə insan hüquqları sahəsində dünyanın aparıcı təşkilatlarından olan “Amnesty İnternational”ın Şərqi Avropa və Mərkəzi Asiya Regional İdarəsinin direktoru xanım Marie Struthers Azərbaycan Respublikasının Baş prokuroruna rəsmi məktub ünvanlamışdır.

Marie Struthers, Baş prokuror Kamran Əliyevin “Amnesty İnternational”ın "Ermənista /Azərbaycan: Mülki əhali qadağan edilmiş kaset bombalarının istifadəsindən qorunmalıdır" hesabatında Ermənistan silahlı qüvvələri tərəfindən törədilmiş cinayət hadisələrinin tam əks olunmaması ilə bağlı 5 oktyabr 2020-ci il tarixli məktubunda ifadə etdiyi narahatlığa və təşkilatın fəaliyyətini yaxından izlədiyinə görə öz təşəkkürünü bildirmişdir.

Eyni zamanda, “Amnesty İnternational” təşkilatı tərəfindən həqiqətən də Gəncə şəhər sakinlərinə qarşı ballistik raketlərdən və raket artilleriya yaylım atəş sistemlərindən, Bərdə rayonunun isə “claster” (kaset) bombalarından istifadə edilməklə müxtəlif tarixlərdə atəşə tutulması faktlarının da qeydə alınması məktubda göstərilmişdir.

Xanım Marie Struthers vurğulamışdır ki, “Amnesty İnternational” silahlı münaqişənin qərərzsiz izlənməsini təmin etmək üçün hər cür səy göstərərək iştirak edən bütün tərəfləri beynəlxalq humanitar hüquqa tam riayət etməyə və mülki insanları qorumağa çağırır.

9 noyabr 2020-ci il tarixdə Baş prokuror “Amnesty İnternational” təşkilatına növbəti dəfə məktub ünvanlayaraq Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar 5 oktyabr 2020-ci il tarixdən sonra qeydə alınmış cinayət faktlarını xanım Marie Struthersin diqqətinə çatdırmışdır.

Belə ki, Baş prokuror Ermənistanın hərbi siyasi rəhbərliyi və diasporası tərəfindən xarici ölkələrin vətəndaşları olan erməni əsilli, özlərini “könüllülər” adlandıran muzdluların Azərbaycan Respublikasının ərazisində döyüş əməliyyatlarında iştirak etmələri üçün dəvət edilməsi və maliyyələşdirməsinin müəyyən edilməsi, həmin faktlarla bağlı Baş Prokurorluğun İstintaq İdarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işlərinin başlanılması barədə məlumatlandırmaqla, həmin muzdluların adlı siyahısını məktuba əlavə etmişdir.

Həmçinin, diqqətə çatdırılmışdır ki, hazırki vaxtadək “Skad” və “Smerç” raket qurğularından yalnız döyüş meydanında deyil, eləcə də mülki şəxslərə qarşı istifadə edilmiş, həmin faktlar “Human Rights Watch” və “Amnesty İnternational” təşkilatları tərəfindən də qeydə alınmaqla “qəddar və ağılasığmaz” kimi qiymətləndirilmişdir.

Belə ki, “Skad” raket qurğusundan Azərbaycanın ikinci böyük şəhəri, yarım milyon əhalisi olan və münaqişə zonasından 100 km-dən artıq məsafədə yerləşən Gəncə şəhəri gecə vaxtı 5, 8, 11 və 17 oktyabr 2020-ci il tarixlərində atəşə tutulmuş və nəticədə 26 nəfər mülki şəxs həlak olmuş, 143 nəfər isə yaralanmışdır.

27 və 28 oktyabr 2020-ci il tarixlərində Ermənistan silahlı qüvvələri tərəfindən “Smerç” tipli ballistik raket qurğularından münaqişə zonasından kənarda yerləşən və 30 min əhalisi olan Bərdə şəhərinin atəşə tutulması nəticəsində ümumilikdə 26 nəfər şəxsin həlak olması, aralarında Qızıl Aypara Cəmiyyətinin könüllüsü də daxil olmaqla 90 nəfərin yaralanması barədə də xanım Marie Struthers məlumatlandırılmışdır.

2020-ci il noyabrın 7-də 16 yaşlı Şahmalı Rəhimovun Bərdə rayonuna növbəti mərmi atılması nəticəsində həlak olması və bununla da, həlak olan mülki şəxslərin sayının 93 nəfərə çatması vurğulanmışdır.

Qeyd edilmişdir ki, Ermənistan həm döyüş meydanında, həm də münaqişə zonasından kənarda yerləşən Tərtər, Ağcabədi və Goranboy rayonlarını qadağan edilmiş və son dərəcə təhlükəli olan fosfor bombalarından 5 dəfə istifadə etməklə müxtəlif vaxtlarda atəşə tutmuşdur.

Xüsusilə vurğulanmışdır ki, Azərbaycan Ordusu tərəfindən heç bir vaxt mülki dinc əhali hədəfə alınmamışdır.

Baş prokuror, sözü gedən cinayət əməllərinə dair ətraflı foto və videomaterialları təqdim etməklə, göstərilən faktların “Amnesty İnternational” təşkilatının gələcək bəyanat və hesabatlarında qeyd edilməsini xahiş etmişdir.

# Baş prokuror Kamran Əliyev "TRT Arabi" telekanalına müsahibə vermişdir



Baş prokuror Kamran Əliyev 17.11.2020-ci il tarixdə "TRT Arabi" telekanalına xarici dövlətlərin vətəndaşları olan "könüllülər" adı altında fəaliyyət göstərən muzdluların Azərbaycan Respublikasına qarşı döyüş əməliyyatlarında iştirak etmələri və bununla bağlı cinayət işlərinin başlanması barədə geniş müsahibə vermişdir.

# Abxaziyadan gələn bir qrup muzdlu barəsində Baş Prokurorluq tərəfindən cinayət işi başlanmışdır

Ermənistan Respublikasının işğalçı mahiyyətinin beynəlxalq müstəvidə bir daha ifşa edilməsi üçün Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən təxirəsalınmaz tədbirlərin görülməsi davam etdirilir.

Həyata keçirilən bu tədbirlərin davamı kimi, Gürcüstanın Abxaziya ərazisində yaşayan bir qrup şəxsin Azərbaycan Respublikasına qarşı törətdikləri cinayət əməllərinə dair Azərbaycan Respublikası Baş Prokurorluğunda toplanmış material üzrə araşdırma aparılmışdır.






Araşdırmalarla Gürcüstanın Abxaziya ərazisində yaşayan Seyran Kocamanyan, Qalust Trapizonyan və qeyrilərinin çağırışı və rəhbərliyi altında 20-dən çox şəxsin 2020-ci ilin oktyabr ayında qondarma "Dağlıq Qarabağ" rejiminin rəhbər şəxsləri ilə görüşüb döyüş əməliyyatlarında iştiraklarına dair müzakirələr aparmaqla cinayət əlaqəsinə girmələri, Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış dövlət sərhədini müəyyən edilmiş sənədlər olmadan və dövlət sərhədinin nəzarət-buraxılış məntəqələrindən kənarda, yəni Ermənistan ərazisindən qanunsuz keçərək Xankəndi şəhəri və işğal altında olmuş digər yaşayış məntəqələrinə gəlmələri, Azərbaycan Respublikasının dinc vətəndaşlarına və antiterror əməliyyatlarını həyata keçirən silahlı qüvvələrinə qarşı Ermənistanın rəhbərliyi tərəfindən muzdlu kimi istifadə edilmələri müəyyən edilmişdir.

Bundan başqa, cinayətkar birlik üzvlərinin döyüş sursatlarından, hərbi texnikadan istifadə edib atəşlər açaraq xüsusi amansızlıq və ümumi təhlükəli üsulla, milli düşmənçilik niyyəti ilə, hərbi əməliyyatlarda iştirak etməyən dinc sakinlərinə qarşı çoxsaylı cinayət əməllərinə yol verməsi, ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və ya digər hərəkətlər törətməklə Azərbaycan Respublikası vətəndaşlarına qarşı terrorçuluq fəaliyyətində iştirak etmələri aşkar edilmişdir.

Faktla bağlı Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 100.2, 120.2.1, 318.2-ci və digər maddələri ilə cinayət işi başlanılmış və istintaqın aparılması Baş Prokurorluğun İstintaq İdarəsinə həvalə edilmişdir.

Baş Prokurorluq bəyan edir ki, qeyd edilən və bu kimi digər cinayət faktlarına görə təqsirkar şəxslərin beynəlxalq hüquq normalarına əsasən məsuliyyətə cəlb edilməsindən ötrü mümkün olan bütün tədbirlər görülməklə beynəlxalq təşkilatlara müraciət edilməsi təmin ediləcəkdir.

# Argentina Respublikasının Baş prokuroru Kasal Eduardo Ezeqiel Baş prokuror Kamran Əliyevə rəsmi cavab məktubu ünvanlamışdır

4 oktyabr 2020-ci il tarixdə Azərbaycan Respublikası Baş prokuroru Kamran Əliyev Argentina Respublikasının Baş prokuroru Kasal Eduardo Ezeqielə rəsmi məktub ünvanlayaraq Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycana qarşı döyüş əməliyyatlarına və mülki dinc əhalimizə qarşı terror aktlarının törədilməsinə xarici ölkələrdən xeyli sayda muzdlu şəxslərin cəlb edilməsi barədə məlumatlandıraraq həmin terroçuluq fəaliyyətinin Ermənistanın hərbi-siyasi rəhbərliyi və bir çox ölkədə olan erməni diasporlarının hesabına maliyyələşdirilməsini bildirmişdir.

Argentina Respublikasının Baş prokuroru öz növbəsində 29.10.2020-ci il tarixdə rəsmi cavab məktubu ünvanlamaqla Baş prokuror Kamran Əliyevə Dağlıq Qarabağ münaqişəsi ətrafında baş vermiş hadisələrlə bağlı məlumatladırılması ilə əlaqədar öz təşəkkürünü bildirərək, münaqişə zamanı mülki şəxslərin həlak olması ilə bağlı öz dərin kədərini ifadə etmişdir.

Qeyd edilmişdir ki, terrorçuluq və terrorçuluğun maliyyələşdirilməsi ilə mübarizə Argentina Respublikasının prioritet məsələlərindən biridir və bu sahədə mübarizənin gücləndirilməsi məqsədilə Baş Prokuroluğun tərkibində ixtisaslaşmış qurum - Terrorizmin Hərtərəfli Təhlili Katibliyi (SAİT) yaradılmışdır.

Argentina Respublikasının Baş prokuroru, terrorçuluq və terrorçuluğun maliyyələşdirilməsi ilə mübarizə daim diqqətdə saxlanılmaqla, prokurorluğun bütün fəaliyyət istiqamətləri üzrə sıx əməkdaşlıq və dostluq münasibətlərinin bundan sonra da uğurla inkişaf edəcəyinə əmin olduğunu qeyd etmişdir.

# Ermənistan tərəfindən muzdlu kimi döyüşən PKK-PYD-YPG terror təşkilatlarının üzvləri barəsində Baş Prokurorluq tərəfindən cinayət işi başlanmışdır

Ermənistan Respublikasının işğalçı mahiyyətinin beynəlxalq müstəvidə bir daha ifşa edilməsi üçün Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən təxirəsalınmaz tədbirlərin görülməsi davam etdirilir.

Həyata keçirilən bu tədbirlərin davamı kimi, İraq Respublikasının müxtəlif ərazilərində yaşayan PKK-PYD-YPG terror təşkilatlarına aid şəxslərin, eləcə də Livan Respublikasının vətəndaşı Vartkes adlı şəxsin və digərlərinin Azərbaycan Respublikasına qarşı törətdikləri cinayət əməllərinə dair Azərbaycan Respublikası Baş Prokurorluğunda toplanmış material əsasında araşdırma aparılmışdır.

Araşdırmalarla Aslan Murad Vartanyan, Bese Hozat və qeyrilərinin çağırışı, Livan Karadağ, Hemaran Kervaçian, Sərvət Bagopşinin rəhbərliyi altında Suriya, Livan, İraq Respublikasının müxtəlif ərazilərində yaşayan "PKK-PYD-YPG" terror təşkilatlarına aid bir qrup şəxslərin 2016-cı ilin mart-aprel və 2020-ci ilin sentyabr-noyabr aylarında, Livan Respublikasının vətəndaşı Vartkes adlı şəxs və digərlərinin isə 2020-ci ilin oktyabr ayında Ermənistan Respublikasında və Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində olan şəxslərlə cinayət əlaqəsinə girib cinayətkar birlik halında Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış dövlət sərhədini müəyyən edilmiş sənədlər olmadan və dövlət sərhədinin nəzarət-buraxılış məntəqələrindən kənarda, yəni Ermənistan ərazisindən qanunsuz keçərək Xankəndi şəhəri və işğal altında olmuş digər yaşayış məntəqələrinə gəlmələri, Azərbaycan Respublikasının dinc vətəndaşlarına və antiterror əməliyyatlarını həyata keçirən silahlı qüvvələrinə qarşı Ermənistanın siyasi-hərbi rejimi tərəfindən muzdlu kimi istifadə edilmələri müəyyən edilmişdir.

Bundan başqa, həmin cinayətkar birlik üzvlərinin döyüş sursatlarından, hərbi texnikadan istifadə edib atəşlər açaraq xüsusi amansızlıq və ümumi təhlükəli üsulla, milli düşmənçilik niyyəti ilə hərbi əməliyyatlarda iştirak etməyən dinc sakinlərinə qarşı çoxsaylı cinayət əməllərinə yol vermələri, ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və ya digər hərəkətlər törətməklə Azərbaycan Respublikası vətəndaşlarına qarşı terrorçuluq fəaliyyətində iştirak etmələri aşkar edilmişdir.

Qeyd edilən faktlarla bağlı Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 100.2 (təcavüzkar müharibəni aparma), 120.2.1 (cinayətkar birlik–təşkilat tərəfindən qəsdən adam öldürmə), 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) və digər maddələri ilə cinayət işləri başlanılmış və istintaqın aparılması Baş Prokurorluğun İstintaq İdarəsinə həvalə edilmişdir.

Hazırda hər iki cinayət işi üzrə intensiv istintaq-əməliyyat tədbirləri həyata keçirilir.

# Baş Prokurorluğun Mətbuat xidməti Ermənistan Respublikasının işğalçı mahiyyətinin ifşa edilməsi istiqamətində müxtəlif tədbirlər həyata keçirmişdir



Ölkəmiz üçün çətin dönəmdə Azərbaycan Respublikasının Baş Prokurorluğunun Mətbuat xidməti mütəmadi olaraq Ermənistan Respublikasının işğalçı mahiyyətinin beynəlxalq müstəvidə ifşa edilməsi, erməni cinayətləri və Qarabağ həqiqətlərinin istər beynəlxalq aləmə, istərsə də cəmiyyətə vaxtında, dəqiq və müfəssəl çatdırması məqsədilə geniş auditoriyası olan kütləvi informasiya vasitələrini məlumatlandırmış, habelə müvafiq brifinqlər, habelə bu qəbildən olan digər tədbirləri həyata keçirmişdir.



Belə ki, Baş Prokurorluğun Mətbuat xidmətinin rəhbəri Günay Səlimzadə 29.09.2020-ci il tarixdə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi ilə birgə keçirilmiş brifinqdə Azərbaycanın dinc mülki əhalisinə qarşı törədilmiş cinayətlər və zərərçəkmiş şəxslərlə bağlı çıxış etmişdir. Eyni zamanda, Azərbaycan Xarici İşlər Nazirliyi və Baş Prokurorluğu Ermənistanın Azərbaycana qarşı yeni təcavüz aktı ilə bağlı birgə bəyanat yaymış, bəyanatda təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyinin beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq dinc əhaliyə qarşı terror əməllərini davam etdirilməsinin qeyd edilməsi ilə yanaşı, Ermənistan tərəfinin məsuliyyət daşıdığı bu müharibə cinayətləri qətiyyətlə qınanılmış, mülki şəxslərin atəşə tutulması və bu yolla dinc əhalinin qorxu içində saxlanılması cəhdinə son verilməsi tələb edilmişdir. Habelə beynəlxalq ictimaiyyət Ermənistanın Azərbaycana qarşı yeni təcavüzünü, Azərbaycanlı mülki şəxsləri və infrastrukturu atəşə tutmasını kəskin qınamağa və Ermənistan tərəfindən beynəlxalq hüquq, o cümlədən beynəlxalq humanitar hüquq öhdəliklərinə əməl olunmasını təmin etməyə çağırılmışdır.

5.10.2020-ci il tarixində Azərbaycan Respublikası Baş Prokurorluğu, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Ombudsman







Aparatı ilə birgə keçirilmiş brifinqdə Mətbuat xidmətinin rəhbəri Günay Səlimzadə Azərbaycanın dinc mülki əhalisinə qarşı törədilmiş cinayətlər və zərərçəkmiş şəxslərlə bağlı, o cümlədən 4 oktyabr 2020-ci il tarixdə Gəncə şəhərinin raket atəşinə tutulması və hadisə nəticəsində həlak olan, xəsarət alan mülki şəxslərlə bağlı çıxış etmişdir.




Qeyd olunanlarla yanaşı, Azərbaycan Respublikası Baş Prokurorluğunun Mətbuat xidmətinin rəhbəri Günay Səlimzadə 08.10.2020-ci il tarixdə münaqişə zonasından kənarda yerləşən rayon və şəhərlərinin, o cümlədən Bərdə rayonunun atəşə tutulması ilə bağlı “Rossiya 1” və “Perviy” telekanalına, 21.10.2020-ci il tarixdə münaqişə zonasından kənarda yerləşən rayon və şəhərlərinin, o cümlədən Tərtər rayonunun atəşə tutulması ilə bağlı “Rossiya 24” telekanalına, 25.10.2020-ci il tarixdə münaqişə zonasından kənarda yerləşən rayon və şəhərlərinin, o cümlədən Goranboy rayonunun raket atəşinə tutulması ilə bağlı “Rossiya 1” telekanalına, 08.11.2020-ci il tarixdə isə "Muzdluların Azərbaycana qarşı döyüşlərdə iştiraklarına dair cinayət işlərinin başlanması" barədə “Rossiya 1” kanalına ətraflı müsahibələr vermişdir.

31.10.2020-ci il tarixdə Hərbi İnformasiya Mərkəzində keçirilmiş brifinqdə isə Baş Prokurorluğun Mətbuat xidmətinin rəhbəri Günay Səlimzadə Azərbaycanın dinc mülki əhalisinə qarşı törədilmiş cinayətlər və zərərçəkmiş şəxslərlə bağlı, o cümlədən Gəncə və Bərdə şəhərlərinin raket atəşlərinə tutulması və qeyd edilən hadisələr nəticəsində həlak olan, xəsarət alan mülki şəxslərlə bağlı çıxış etmişdir.

# Vətən müharibəsi dövründə prokurorluq işçiləri ölkənin bir sıra aparıcı telekanallarına müsahibələr vermişlər

**Dahi Sərkərdə – Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə 27 sentyabr 2020-ci il tarixdən başlayan və Şanlı Qələbə ilə yekunlaşan 44 günlük Vətən müharibəsi dövründə Azərbaycan Respublikasının Prokurorluğu səlahiyyətləri çərçivəsində digər dövlət orqanları ilə əlaqəli şəkildə erməni hərbi birləşmələrinin beynəlxalq humanitar hüququ pozaraq dinc əhalini atəşə tutması, muzdluların iştirakı, terrorizm, işğal olunmuş ərazilərdə xarici ölkələrin konkret şirkətlərinin ekologiya və yerin təkinin istismarı qaydalarının kobud şəkildə pozulması ilə nəticələnən qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olmaları və sair cinayət faktlarının hər biri üzrə dərhal cinayət işlərinin başlanması, döyüş əməliyyatları şəraitində hadisə yerlərinin müayinəsi, maddi sübutların götürülməsi istiqamətində zəruri tədbirlər görməklə yanaşı, prokurorluq işçiləri ölkənin bir sıra aparıcı telekanallarına müsahibələr vermişdir.**



Belə ki, Baş Prokurorluğun Prokurorluqda istintaq nəzarət idarəsinin rəisi **Fazil Həsənəliyev** "İctimai Televiziya"da dəvət olunduğu verilişdəki çıxışında işğalçı erməni silahlı birləşmələrinin beynəlxalq hüquq normalarını, 1949-cu il Cenevrə konvensiyası və onun əlavə protokollarının tələblərini pozub mülki əhalini hədəf seçərək cəbhə zonasından kənarda yerləşən Gəncə və digər Azərbaycan şəhərlərini atəşə tutması nəticəsində dinc əhaliyə qarşı törətdiyi terror aktları ilə bağlı istintaqın çevikliyinin təmin edilməsi məqsədilə Vətən müharibəsinin başladığı ilk gündən etibarən bir sıra prokurorluq əməkdaşlarının həmin bölgələrdə yerləşən prokurorluqlara ezam olunaraq döyüş şəraitində mühüm əhəmiyyət kəsb edən istintaq və prosessual hərəkətlərin həyata keçirilməsində fəallıq nümayiş etdirdiyini, hətta ermənilərin törətdiyi bu əməllər nəticəsində bir prokurorluq əməkdaşının xəsarət aldığını bildirmişdir.

Fazil Həsənəliyev Gəncədə törədilən terrorla bağlı Baş Prokurorluq tərəfindən cinayət işi başlandığını da qeyd edərək həmin cinayətin təşkilatçısı, qondarma rejimin rəhbəri Araik Aratunyanın məsuliyyətə cəlb olunaraq məhkəmə qarşısına çıxarılması üçün prokurorluq orqanları tərəfindən zəruri tədbirlərin həyata keçirildiyini vurğulamış və Ermənistan-Azərbaycan arasındakı münaqişənin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınan sərhədlərinin toxunulmazlığı prinsiplərinə uyğun beynəlxalq hüquq müstəvisində həll olunması üçün Ermənistana müvafiq üsul və vasitələrilə təsir göstərilməsi barədə beynəlxalq təşkilatlara Azərbaycan Respublikası Baş prokuroru tərəfindən müraciət ünvanladığını qeyd etmişdir.



Baş prokurorun xüsusi tapşırıqlar üzrə böyük köməkçisi **Tural Aslanov** Azərbaycan Dövlət Televiziyasında qatıldığı "Hədəf" verilişində Ermənistan, xüsusilə separatçı "Dağlıq Qarabağ" rejimi tərəfindən beynəlxalq hüquq normalarının tələblərinin kobud şəkildə pozularaq törədilən cinayətlər nəticəsində dinc əhali və mülki obyektlərə vurulan ziyanla bağlı statistik məlumatları ictimaiyyətin nəzərinə çatdırmaqla yanaşı, dəyən ziyanın məbləğinin müəyyən edilməsi istiqamətində Baş Prokurorluğun istintaq qrupu tərəfindən zəruri istintaq hərəkətlərinin keçirildiyini, həmçinin qondarma rejiminin rəhbəri Araik Aratunyan barəsində Cinayət Məcəlləsinin 15 maddəsi ilə başlanmış cinayət işi üzrə adı çəkilən şəxsdən savayı, həmin cinayətləri törətməkdə təqsirli olan digər şəxslərin məsuliyyətə cəlb edilməsi üçün müvafiq tədbirlərin təmin ediləcəyini bildirmişdir.

Eyni zamanda müsahib çıxışında Ermənistanın təcavüzkar siyasəti, törətdiyi müharibə cinayətləri, sülh və insanlıq əleyhinə olan cinayətlərlə bağlı məsuliyyətə cəlb edilməsi üçün prokurorluq orqanları tərəfindən döyüş şəraitində mümkün olan bütün

istintaq tədbirlərinin həyata keçirilərək qanunvericiliyə uyğun sənədləşmələr aparıldığını, təcavüzlə bağlı ədalətli mövqe nümayiş etdirmələri üçün Azərbaycan Respublikası Baş prokuroru tərəfindən bir sıra aparıcı beynəlxalq təşkilatlara müraciətlər ünvanlandığını qeyd etmişdir.



Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsinin rəisi **Elnur Musayev** Real televiziyasına verdiyi müsahibədə beynəlxalq humanitar hüququn əsas sənədi hesab edilən və silahlı münaqişələr zamanı münasibətləri tənzimləyən Cenevrə Konvensiyaları ilə bağlı ətraflı məlumat verərək Azərbaycan tərəfindən sözügedən Konvensiyanın, o cümlədən bütün beynəlxalq hüquq normalarının şərtlərinə tam şəkildə əməl olunduğunu vurğulayaraq, bunun əksinə olaraq Ermənistanın beynəlxalq qanunvericiliyin tələblərinə zidd olaraq dinc əhaliyə qarşı törədilən cinayətlərdən bəhs etmişdir.



Baş Prokurorluğun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin rəisi **Erkin Əlixanov** "İctimai Televiziya"da dəvət olunduğu verilişdəki müsahibəsində Moskva danışıqlarının nəticəsində müvəqqəti humanitar atəşkəs barədə razılıq əldə olunmasına baxmayaraq Ermənistan silahlı qüvvələrinin Cenevrə konvensiyalarının, o cümlədən bütün beynəlxalq humanitar hüquq normalarının tələblərini kobud şəkildə pozmaqla Azərbaycanın Gəncə və Mingəçevir şəhərlərini raket atəşinə tutaraq törətdiyi terror cinayətləri və düşmənin bu cinayətləri törətməsindəki məqsədləri barədə məlumat verərək qeyd edilən faktlarla bağlı cinayət işinin başlandığını bildirmişdir.



Baş Prokurorluğun İstintaq idarəsinin böyük müstəntiqi **Qasım Məmmədov** "CBC" telekanalına verdiyi müsahibədə erməni əsilli İsveçrə vətəndaşı Vartan Sermakisin törətdiyi cinayətlərlə bağlı çıxış edərək bildirmişdir ki, adı çəkilən şəxs Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə, Azərbaycan Respublikasının ərazi bütövlüyünün parçalanmasına yönələn açıq çağırışlar etmə cinayətləri ilə yanaşı, erməni silahlı qüvvələri tərəfindən işğal olunmuş ərazilərdə əlvan metal məmulatlarının çıxarılması və digər qanunsuz sahibkarlıq fəaliyyəti həyata keçirərək ümumilikdə 306 milyon 821 manat qanunsuz gəlir əldə etdiyinə görə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə başlanmış cinayət işi üzrə təqsirləndirilən şəxs qismində cəlb olunaraq barəsində həbs qətimkan tədbiri seçilməklə beynəlxalq axtarışa verilmişdir.



Baş Prokurorluğun İstintaq idarəsinin müstəntiqi **Orxan Babayev** "CBC" telekanalına müsahibəsində Ermənistanın siyasi və hərbi hakimiyyəti tərəfindən muzdluların cəlb edilməsinə, onlardan istifadə olunmasına, onların maliyyələşdirilməsinə və təliminə qarşı mübarizə haqqında Beynəlxalq Konvensiyanın tələblərinə zidd olaraq dünyanın müxtəlif ölkələrində yaşayan Ermənistan Respublikasının vətəndaşı olmayan, eləcə də terror təşkilatlarının üzvlərinin Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə qarşı terror aktlarına iştiraka dəvət edildiyini bildirmiş və həmin faktlarla bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə başlanmış cinayət işləri üzrə aparılan istintaq zamanı Gürcüstan vətəndaşı Vaaqn Çaxalyan, Fransa Respublikasının vətəndaşı Artur Oqanisyan və "ASALA" terror təşkilatının üzvü, dəfələrlə terrorçuluq fəaliyyətinə görə məhkum edilmiş, birinci Qarabağ müharibəsində azərbaycanlılara qarşı etnik təmizləmə cinayətində fəal iştirak etmiş Fransa Respublikasının vətəndaşı Gilbert Minasyanın cinayət məsuliyyətinə cəlb edilərək məhkəmə qarşısına çıxarılmaları üçün zəruri əməliyyat-istintaq tədbirlərinin davam etdirildiyini, bu istiqamətdə hüquqi yardım göstərilməsi məqsədilə xarici dövlətlərin səlahiyyətli orqanları ilə sıx təmas halında işlər görüldüyünü qeyd etmişdir.

Ermənistanın Azərbaycana təcavüzü, dinc azərbaycanlıların doğma yurd-yuvalarından didərgin salınması, soydaşlarımızın tarixin müxtəlif dövrlərində ermənilərin etnik təmizləmə, soyqırımı siyasətinə məruz qalmaları barədə həqiqətlərin dünya ictimayyətinə çatdırılması ilə bağlı prokurorluq orqanları tərəfindən görülən işlər hazırda da davam etdirilir.

# Azərbaycan Respublikasının Baş Prokurorluğu Ermənistanın silahlı qüvvələrinin Azərbaycana təcavüzü ilə bağlı müxtəlif dillərdə maarifləndirici videoçarxlar hazırlanmışdır

*Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Ermənistan Respublikası silahlı qüvvələrinin 2020-ci il 27 sentyabrdan başlayaraq törətdiyi cinayət əməllərini dünya ictimaiyyətinə çatdırılması məqsədilə Azərbaycan Respublikası Baş Prokurorluğunun Mətbuat Xidməti tərəfindən sosial şəbəkələrdə bir sıra işlər görülmüş, tədbirlər həyata keçirilmişdir. Həmin tədbirlər çərçivəsində Ermənistanın silahlı qüvvələrinin Azərbaycana təcavüzü ilə bağlı müxtəlif dillərdə fərqli aşağıdakı maarifləndirici videoçarxlar hazırlanmışdır:*

**1. Ermənistan Respublikası silahlı qüvvələrinin 2020-ci il 27 sentyabrdan başlayaraq törətdiyi cinayət əməlləri barədə fransız, ispan, alman, rus, ingilis və ərəb dillərində müxtəlif maarifləndirici videoçarxlar**

**2. Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə həsr olunmuş videoçarx Qüdrətli Azərbaycan Ordusu irəli! Qarabağ-Azərbaycandır!**




*https://www.youtube.com/watch?v=XXxpJve6hWE*

**3. Erməni təcavüzü nəticəsində həlak olmuş mülki şəxslər barədə hazırlanmış videoçarx**




*https://www.youtube.com/watch?v=EvLoQLRquic*

**4. Terrorla bağlı hazırlanmış videoçarx**




*https://www.youtube.com/watch?v=GW06zJUsbcc&has_verified=1*

**5. Gəncə şəhərinin 11.10.2020-ci il tarixdə raket atəşinə tutulması barədə hazırlanmış videoçarx**




*https://www.youtube.com/watch?v=f10FMeWfARO*

**6. Terrorçuluq və terrorçuluğu maliyyələşdirməyə görə cinayət məsuliyyəti barədə hazırlanmış maarifləndirici videoçarx**




https://www.youtube.com/watch?v=HVwQpTwQzO8

**7. Qanunsuz sərhədi keçməyə görə cinayət məsuliyyəti barədə hazırlanmış maarifləndirici videoçarx**




https://www.youtube.com/watch?v=jptLT-Rb8kO

**8. Azərbaycan Respublikasının ərazisində qanunsuz silahlı birləşmələrin yaradılmasına görə cinayət məsuliyyəti barədə hazırlanmış maarifləndirici videoçarx**



https://www.youtube.com/watch?v=R2ACCG_T1t4

**9. Azərbaycan Respublikasının ərazisində qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olmağa görə cinayət məsuliyyəti barədə maarifləndieici videoçarx**




https://www.youtube.com/watch?v=TNlHU4O84lc

**10. Gəncə şəhərinin 17.10.2020-ci il tarixdə raket atəşinə tutulması barədə hazırlanmış videoçarx**




https://www.youtube.com/watch?v=cjBe5XarcHI

**11. Qədim Gəncə barədə hazırlanmış videoçarx**



https://www.youtube.com/watch?v=QGzyqjafeew

**12. Bərdə şəhərinin 28.10.2020-ci il tarixdə raket atəşinə tutulması barədə hazırlanmış videoçarx**



https://www.youtube.com/watch?v=AU3P8M5uZeY

**13. "Gəncə-optimist şəhərdir" adlı videoçarx**



https://www.youtube.com/watch?v=oHEn6gOxtfg

**14. "ASALA terror təşkilatı barədə nə bilirsiniz?" adlı maarifləndirici videoçarx**



https://www.youtube.com/watch?v=T2-3U91LkUI

## Azərbaycan Respublikası Baş Prokurorluğunun Mətbuat xidmətinin

# MƏLUMATI

18-19 noyabr 2020-ci il tarixlərində Avropa Prokurorlarının Məşvərət Şurasının videorejim formatında 15-ci plenar iclası keçirilmişdir.

İclasda ekspert qrupu tərəfindən "Prokurorların fövqəladə hallarda, xüsusilə pandemiya dövründə rolu" adlı 15 saylı Rəy müzakirə edilərək qəbul edilmişdir.

Rəydə fövqəladə vəziyyətlərdə insan hüquq və azadlıqlarının qorunması, pandemiya dövründə prokurorluğun normal fəaliyyətinin təşkili və rast gəlinən çətinliklərin aradan qaldırılması, bu sahədə beynəlxalq əməkdaşlıq və sair tövsiyələr nəzərdə tutulmuşdur.

İclasda ölkəmizi təmsil edən Baş Prokurorluğun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin rəisi Erkin Əlixanov çıxış edərək Ermənistanın Azərbaycana qarşı təcavüzü, otuz ilə yaxın dövr ərzində Ermənistan tərəfindən işğal altında saxlanılan Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında azad edildiyi, ölkəmizin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində, o cümlədən BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq ərazi bütövlüyünü bərpa etdiyi barədə tədbir iştirakçılarını məlumatlandırmışdır.

Tədbir iştirakçılarının diqqətinə çatdırılmışdır ki, ölkə rəhbəri cənab İlham Əliyevin siyasətinə uyğun olaraq Azərbaycan Respublikasının prokurorluq orqanlarında da genişmiqyaslı islahatlar aparılmış, işin çevikliyinin və səmərəliliyinin artırılması, müasir dövrün tələblərinə cavab verən peşəkarların formalaşdırılması məqsədilə Baş Prokurorluğun strukturu mahiyyətcə tamamilə yenidən qurulmuş, yeni idarələr yaradılmaqla ümumilikdə idarə və şöbələrin sayı 18-ə çatdırılmışdır.

Həmçinin koronavirus pandemiyası dövründə ölkəmizdə görülmüş sosial, hüquqi və preventiv tədbirlər haqqında, bu müddət ərzində prokurorluğun fəaliyyəti barədə iştirakçılara ətraflı məlumat verilmişdir.

Plenar iclasın sonunda İspaniyanın təmsilçisi Antonio Verşer Noquera Şuranın növbəti il üçün prezidenti, Niderlandın nümayəndəsi Han Moraal isə vitse-prezident vəzifəsinə seçilmişlər.




Məlumat üçün qeyd edilməlidir ki, Avropa Prokurorlarının Məşvərət Şurası (CCPE) dövlətin cinayət ədliyyəsi sistemində və qanunun aliliyinin qorunmasında prokurorların müstəsna rolu və Avropa Şurasına üzv dövlətlərin prokurorları arasında əməkdaşlığın vacibliyi nəzərə alınaraq 2005-ci ilin iyul ayında Avropa Şurası Nazirlər Komitəsinin qərarı ilə təsis edilmişdir.

## 07.12.2020-ci ilə olan məlumat-mülki əhalimizə qarşı törədilən cinayətlərin statistikası



# 2020-ci ilin 27 sentyabr - 10 noyabr müddətində Ermənistan tərəfindən döyüşlərdə ağ fosfor tərkibli mərmilərdən istifadə edilməsi faktına görə cinayət işi başlanmışdır

Ermənistan Respublikasının işğalçı mahiyyətinin beynəlxalq müstəvidə bir daha ifşa edilməsi üçün Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən zəruri tədbirlər görülməkdədir.

Belə ki, 2020-ci ilin 27 sentyabr-10 noyabr tarixlərində davam edən döyüşlərin son mərhələsində Azərbaycan Ordusunun rəşadəti nəticəsində Ermənistan silahlı qüvvələri geri çəkilərək yeni metodlardan istifadə edib növbəti cinayət əməllərini törətmişlər.

Araşdırmalarla müəyyən edilmişdir ki, 8 oktyabr, 3, 4 və 8 noyabr 2020-ci il tarixlərdə Ermənistan silahlı qüvvələri Azərbaycan Respublikasının işğal edilmiş ərazilərində, habelə Ermənistan Respublikasının ərazisində yerləşən hərbi birləşmələrinə rəhbərlik edən şəxslər və onların yaratdığı cinayətkar birliklər «Silahlı münaqişələr zamanı mülki şəxslərin müdafiəsinə dair» 1949-cu il tarixli Cenevrə Konvensiyasının tələblərini kobud şəkildə pozaraq geniş miqyaslı dağıntılara səbəb ola bilən müharibə üsullarından istifadə etməklə mülki əhalinin və ya döyüşlərdə iştirak etməyən ayrı-ayrı mülki şəxslərin sıx yaşadıqları Füzuli, Tərtər rayonları ərazilərində yerləşən yaşayış məntəqələrinə, habelə BMT-nin "Bioloji müxtəliflik haqqında" Konvensiyasının əsas təməl prinsiplərini pozaraq ətraf mühitə qəsd edən geniş, uzun sürən və ciddi ziyan vurmaq, insanları qəsdən öldürmək məqsədilə Füzuli rayonunun Arayatlı, Alxanlı, Tərtər rayonunun Səhləbad kəndinə və Şuşa şəhərinin ərazisində yerləşən Azərbaycan Respublikasının təbii sərvəti hesab edilən qiymətli və çoxillik ağacları olan meşələrə hər birinin içərisində 3,6 kiloqram P-4 kimyəvi tərkibli (ağ fosfor) olan D-4 tipli 122 millimetrlik ən azı 6 top mərmiləri ilə atəş açaraq həmin ərazilərdə yerləşən təbii sərvətləri qəsdən yandırmaqla xüsusilə külli miqdarda ziyan vurmuş, Azərbaycan Respublikasına qarşı təcavüzkar müharibə planlaşdırılmış və aparılmış, habelə terrorçuluq cinayəti törədilmişdir.

Bununla bağlı Baş Prokurorluqda ətraflı araşdırmalar aparılmaqla, 20.11.2020-ci il tarixdə faktla bağlı Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 100.2 (təcavüzkar müharibəni aparma), 214.2 (terrorçuluq) və digər maddələri ilə cinayət işi başlanaraq istintaqın aparılması Baş Prokurorluğun İstintaq İdarəsinə həvalə edilmişdir.

Hazırda cinayət işi üzrə zəruri və intensiv istintaq tədbirləri aparılmaqla müvafiq sənədləşmə işləri aparılır və sübutlar toplanılır.

Bildiririk ki, Baş Prokurorluq tərəfindən təqsirli şəxslərin müəyyən edilərək beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb edilməsindən ötrü mümkün olan bütün tədbirlərin görülməsi təmin ediləcəkdir.

# "WarGonzo" layihəsinin müəllifi Semyon Peqovun "SolovyovLive" verilişində təxribat xarakterli ifadələr işlətməsinə görə araşdırmalara başlanılmışdır

Bəzi kütləvi informasiya vasitələrində və sosial media səhifələrində "WarGonzo" layihəsinin müəllifi Rusiya Federasiyasının vətəndaşı Semyon Vladimiroviç Peqovun "SolovyovLive" verilişində Yaxın Şərq və Orta Asiya Araşdırmaları Mərkəzinin direktoru Rusiya Federasiyasının vətəndaşı Semyon Arkadeviç Baqdasarovla "Dağlıq Qarabağ və ətraf rayonların işğaldan azad edilməsi" mövzusunda birgə apardıqları videoformatlı müzakirə zamanı ermənilərin məğlubiyyətlə barışmayaraq Qarabağdakı Azərbaycan əsgərlərinə hücumlar edilməsi, müxtəlif döyüş əməliyyatlarının hazırlanması, partizan müharibəsinin başlayacağı barədə proqnozlar verməsi, bununla bağlı müəyyən məlumatlarının olması və müxtəlif üsullarla təxribat xarakterli ifadələrə yol verməsi müəyyən edilmişdir.

Semyon Peqov və Semyon Baqdasarovun əməllərində Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 214-2 (terrorçuluğa açıq çağırışlar), 281.2 (bir qrup şəxs tərəfindən Azərbaycan Respublikasının ərazi bü-

tövlüyünün parçalanmasına yönələn açıq çağırışlar), 283.2.1-ci (zor tətbiq etmə hədəsi ilə mill düşmənçiliyin salınmasına yönələn açıq çağırışlar kütləvi informasiya vasitələrindən istifadə edilməklə törədildikdə) maddələrinin əlamətləri mövcud olduğundan, toplanmış materiallar Baş Prokurorluğunun İstintaq İdarəsində Semyon Peqovun Azərbaycan Respublikasının dövlət sərhədini sənədlər olmadan qanunsuz keçməsi, ölkəmizin ərazi bütövlüyünün parçalanmasına yönələn açıq çağırışlar etməsi faktına dair Cinayət Məcəlləsinin müvafiq maddələri ilə istintaqı aparılan cinayət işinə əlavə edilməklə istintaq yolu ilə araşdırılması davam etdirilir.

Göstərilən xüsusatlarla əlaqədar cinayət işinin istintaqı çərçivəsində Rusiya Federasiyasının Baş Prokurorluğuna və digər ölkələrin hüquq-mühafizə orqanlarına hüquqi yardımın göstərilməsi haqqında rəsmi vəsatətlər göndərilməklə, Semyon Peqov və digərləri ilə bağlı zəruri istintaq hərəkətlərinin keçirilməsi xahiş edilmişdir.

Vəsatətlərin icra edilməsi ilə bağlı Baş Prokurorluq tərəfindən həmkarlarla daimi əlaqə saxlanılmaqla, istintaqın gedişatı və nəticəsi barədə ictimaiyyətə ətraflı məlumatın verilməsi təmin ediləcəkdir.

## Baş Prokurorluq tərəfindən vətəndaşlarımıza Xəbərdarlıq

2020-ci ilin 27 sentyabr - 10 noyabr tarixlərində davam edən silahlı münaqişə zamanı Ermənistan silahlı qüvvələri tərəfindən müharibə qanunlarının və adətlərinin pozulması faktlarına dair Azərbaycan Respublikası Baş Prokurorluğu tərəfindən Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanaraq hazırda ibtidai istintaq davam etdirilir, cinayət törətmiş şəxslərin müəyyən edilərək məsuliyyətə cəlb edilməsi istiqamətində zəruri tədbirlər görülür.

Bununla yanaşı, bəzi kütləvi informasiya vasitələri və sosial media səhifələrində Azərbaycanın hərbi qulluqçularının torpaqlarımızın işğaldan azad edilməsi istiqamətində aparılan döyüş əməliyyatları zamanı həlak olmuş erməni hərbçilərinin meyitləri üzərində təhqiredici hərəkətlər etmələrini, habelə əsir götürülmüş erməni hərbçiləri ilə qeyri-insani rəftarı əks etdirən videogörüntülər yayılmışdır.

Həmin videogörüntülər Azərbaycan Respublikasının Baş Prokurorluğu və Hərbi Prokurorluq tərəfindən təhlil edilərək öyrənilmiş, bir çox videoçarxların saxta olması müəyyən edilsə də, bəzilərinin doğru olmasına və reallığı əks etdirməsinə ciddi şübhələr yaranmışdır.

Qeyd edilən məlumatlarla bağlı toplanmış materiallar əsasında Hərbi Prokurorluq tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 115.2 (işgəncə vermə, qəddar və ya qeyri-insani rəftar etmə) və 245-ci (qəbir və ya meyit üzərində təhqiredici hərəkət) maddələri ilə cinayət işi başlanmış, hazırda həmin videogörüntülərlə bağlı zəruri istintaq-əməliyyat tədbirləri həyata keçirilməklə təqsirli şəxslərin müəyyən edilərək məsuliyyətə cəlb edilməsi istiqamətində tədbirlər davam etdirilir.

Bu kimi qanunsuz əməllərə yol vermiş şəxslər müəyyən edilib məsuliyyətə cəlb edilməklə, istintaqın gedişatı və nəticəsi barədə ictimaiyyətə ətraflı məlumatın verilməsi təmin ediləcəkdir.

Baş Prokurorluq Azərbaycan Respublikasının vətəndaşlarını və hərbi qulluqçularını yuxarıda qeyd olunan qanun pozuntularının yolverilməzliyi barədə bir daha xəbərdar edir.

Həmçinin bildirilir ki, 1992-ci ildən başlayaraq Ermənistan tərəfindən işğal olunmuş ərazilərimizdə arxeoloji qazıntıların aparılması, tarixi maddi və mədəni irs abidələrinin talanması, ekoloji cinayətlərlə bağlı Baş Prokurorluğun İstintaq İdarəsində başlanmış cinayət işləri üzrə istintaq aparılır, artıq işğaldan azad edilmiş ərazilərimizdə hadisə yerinə baxış da daxil olmaqla, zəruri istintaq-əməliyyat tədbirləri həyata keçirilir və həmin istintaq hərəkətləri zamanı tarixi abidələrin ermənilər tərəfindən məhv edilməsinə dair əsaslı sübutlar əldə olunur .

Lakin Ermənistandan fərqli olaraq, Azərbaycan Respublikası müxtəlif mədəniyyətlərin qovuşduğu məkan olaraq, milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və müxtəlif konfessiyaların sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı ölkə kimi dünyada tanınmışdır.

Vətəndaşlarımız tolerant və multikulturalizm dəyərlərini əsas tutmaqla mədəniyyətimizə və mentalitetimizə uyğun olmayan hərəkətlərdən çəkinməlidir.

Bir daha qeyd edilməlidir ki, işğaldan azad edilmiş ərazilərimizdə hazırda mövcüd olan tarixi, dini və mədəni abidələrin məhv edilməsi və ya onlara hər hansı formada zərər yetirilməsi yolverilməzdir.

Baş Prokurorluq bəyan edir ki, oxşar xarakterli qanun pozuntularına yol vermiş hərbi və mülki şəxslər barəsində qanunla nəzərdə tutulmuş tədbirlərin görülməsi təmin ediləcəkdir.

# Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraiyyə Komitəsinin videoformat rejimində keçirilən 50-ci iclası və 25-ci illik umumi yığıncağında tədbir iştirakçıları Qarabağ həqiqətləri barədə ətraflı məlumatlandırılmışlar



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstəriş və tövsiyələrinə uyğun olaraq Azərbaycan Respublikasının prokurorluq orqanları xarici ölkələrin prokurorluq orqanları və nüfuzlu beynəlxalq təşkilatlar, o cümlədən dünya prokurorlarının ilk və yeganə qlobal təşkilatı olan və 170-dən çox dövlətin üzvü olduğu Beynəlxalq Prokurorlar Assosiasiyası (BPA) ilə səmərəli qarşılıqlı əməkdaşlığını davam etdirir.

23-24 noyabr 2020-ci il tarixlərində Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) İcraiyyə Komitəsinin videoformat rejimində 50-ci iclası və 25-ci illik ümumi yığıncağı keçirilib.

Tədbirdə Baş prokurorlar daxil olmaqla, prokurorluq orqanlarının rəhbər şəxsləri, nüfuzlu beynəlxalq təşkilatların yüksək vəzifəli nümayəndələri iştirak edib.

Hər iki iclasda ölkəmizi Azərbaycan Respublikasının Baş prokuroru, Assosiasiyanın İcraiyyə Komitəsinin üzvü və vitse-prezidenti Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil etmişdir.

İcraiyyə Komitəsinin iclasında Assosiasiyanın müvafiq komitələrinə yeni üzvlərin qəbulu həyata keçirilmiş, dünya prokurorlarının fəaliyyətini təkmilləşdirmək məqsədi daşıyan bir sıra təşkilati məsələlər, həmçinin qurumun fəaliyyətinin təşkili üçün zəruri olan hesabat və sənədlər müzakirə olunmuşdur.

Tədbirdə çıxış edən Baş prokuror Kamran Əliyev bildirmişdir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasətinə uyğun olaraq prokurorluq orqanlarında genişmiqyaslı islahatlar aparılmış, işin çevikliyinin və səmərəliliyinin artırılması, müasir dövrün tələblərinə cavab verən peşəkarların






formalaşdırılması məqsədilə Baş Prokurorluğun strukturu mahiyyətcə tamamilə yenidən qurulmuş, yeni idarələr yaradılmaqla ümumilikdə idarə və şöbələrin sayı 18-ə çatdırılmışdır.

Baş prokuror otuz ilə yaxın dövr ərzində Ermənistan tərəfindən işğal altında saxlanılan Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında azad edildiyi, ölkəmizin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində, o cümlədən BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq ərazi bütövlüyünü bərpa etdiyi barədə tədbir iştirakçılarını məlumatlandırmışdır.

# Baş prokuror Kamran Əliyev Frans Press Agentliyinə müsahibə vermişdir



25 noyabr 2020-ci il tarixində Baş prokuror Kamran Əliyev Frans Press Agentliyinə Ermənistan dövlətinin silahlı qüvvələrinin Azərbaycana qarşı törətdiyi təxribat sonrası başlayan və 44 gün müddətində davam edən müharibə və bu zaman baş verən törədilən müharibə cinayətləri barədə geniş müsahibə vermişdir.

Müsahibəsində Kamran Əliyev Ermənistan dövlətinin silahlı qüvvələrinin Azərbaycanın dinc əhalisinə qarşı törətdiyi əməllər, o cümlədən Ermənistan tərəfindən Gəncə, Bərdə və digər şəhərlərinin mülki əhalisinə qarşı törədilmiş cinayətlər, habelə həmin cinayətlərlə bağlı aparılan araşdırmalarla bağlı geniş məlumat verərək erməni təcavüzü nəticəsində 94 mülki əhalinin həlak olması faktına görə 73 cinayət işinin, o cümlədən erməni separatçı Arayik Harutyunyan barəsində cinayət işinin açılaraq hazırda istintaq edildiyini bildirmişdir. Müharibə zamanı Erməni tərəfindən döyüşən muzdlular barədə məlumatlarla bağlı Kamran Əliyev xüsusi olaraq vurğulamışdır ki, bu barədə hazırda da davam edən istintaq zamanı kifayət qədər sübutlar əldə edilmiş, bu zaman həmin muzdluların əsasən digər ölkələrdə yaşayan ermənilərin olduğu müəyyən edilmişdir.

# Baş Prokurorluqda Ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilmişdir



Dekabrın 12-də Baş Prokurorluqda Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilmişdir.

Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin Baş prokurorluğun inzibati binasındakı büstü önünə əklil və gül dəstələri qoymuş, unudulmaz xatirəsini ehtiramla yad etmişlər.

Mərasimdə çıxış edən Baş prokuror Kamran Əliyev diqqətə çatdırmışdır ki, görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin qurulmasında, onun müstəqilliyinin, ölkəmizin beynəlxalq birliyin tam və bərabərhüquqlu üzvünə çevrilməsində, dövlətçilik tarixində müstəsna xidmətləri əvəzedilməz və danılmazdır.







Bildirilmişdir ki, Azərbaycan dövlətinin banisi Heydər Əliyev bütün ömrü boyu Azərbaycanın məsuliyyətini öz çiyinlərində daşımış, onu bir dövlət və xalqımızı bir millət kimi tarixin ağır və sərt sınaqlarından çıxarmış, müasir Azərbaycan adlandırdığımız müstəqil məmləkəti, onun bugünkü həqiqətlərini, işıqlı sabahının etibarlı bünövrəsini yaratmışdır.

Qeyd edilmişdir ki, Ümummilli lider Heydər Əliyev 15 iyun 1993-cü ildə hakimiyyətə qayıdışından sonra bütün fəaliyyəti boyu qondarma Dağlıq Qarabağ məsələsinin sülh yolu ilə beynəlxalq hüquq normalarına uyğun ədalətli həlli məqsədilə mötəbər hüquqi bazanın yaradılmasında, eləcə də BMT-nin və digər nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən ölkəmizin ərazi bütövlüyünün tanınmasına dair müvafiq qətnamələrin qəbul edilməsində mühüm rol oynamışdır.

Qürurla bildirilmişdir ki, həyatını Azərbaycana həsr edən, “Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan





yoxdur" – deyən dahi şəxsiyyət Heydər Əliyevin layiqli davamçısı, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin ərazi bütövlüyü hərbi-siyasi yolla bərpa olunmuşdur.

Çıxışının yekununda böyük minnətdarlıq hissi ilə Baş prokuror qeyd etmişdir ki, Ulu öndərin siyasi, iqtisadi, ordu quruculuğu sahəsində həyata keçirdiyi islahatlar, beynəlxalq sahədə gördüyü tədbirlər tarixə qızıl hərflərlə həkk olunmuş bugünkü zəfərin əldə edilməsinə yönəlmişdir.

Anım mərasiminin iştirakçıları və Azərbaycan Respublikası Prokurorluğunun kollektivi adından Dövlət başçısı cənab İlham Əliyev əmin edilmişdir ki, ulu öndər Heydər Əliyevin ideyalarına və onun müəyyən etdiyi siyasi kursa və strateji inkişaf konsepsiyasına daim sadiq olan prokurorluğun kollektivi bütün səylərini dövlət müstəqilliyinin və milli maraqların, ölkəmizdə ictimai-siyasi sabitliyin hər cür cinayətkar qəsdlərdən qorunmasına səfərbər edəcəkdir.

# Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda ümummilli lider Heydər Əliyevin vəfatının 17-ci ildönümü ilə bağlı anım mərasimi keçirilmişdir



Dekabrın 12-də Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatının 17-ci ildönümü ilə bağlı anım mərasimi keçirilmişdir (xüsusi karantin rejiminin tələblərinə riayət olunmaqla).

Əvvəlcə Hərbi Prokurorluğun inzibati binasında yaradılmış "Heydər Əliyev guşəsi"ndə ulu öndər Heydər Əliyevin büstü önünə gül dəstələri qoyularaq, dünya şöhrətli siyasətçinin-dahi şəxsiyyətin əziz və unudulmaz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Mərasimdə çıxış edən Azərbaycan Respublikası Baş prokurorunun müavini-Azərbaycan Respublikasının Hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev ömrü boyu qəlbi vətən sevgisi ilə döyünən, bütün varlığı ilə xalqına bağlı olan, istiqlal yolumuzu və istiqbalımızı nurlandıran, millətini zamanın sərt sınaqlarından yüksək məharətlə çıxararaq, hər bir çətin vəziyyətdən ən düzgün çıxış yolu tapan müdrik lider Heydər Əliyevin Azərbaycan tarixindəki və dünyanın siyasi arenasındakı rolundan, o cümlədən demokratik, hüquqi dövlət quruculuğunda, ölkəmizin qüdrətlənməsində və xalqın rifahının yüksəldilməsində misilsiz xidmətlərindən ətraflı danışdı.

Ardınca Hərbi prokuror Xanlar Vəliyev, ulu öndər Heydər Əliyevin Azərbaycanın nurlu gələcəyinə hesablanmış mükəmməl siyasətini yeni müstəvidə zamanın tələblərinə uyğun şəkildə yüksək məharətlə davam etdirən dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə görülən müstəsna əhəmiyyətli nəhəng işlərdən, həyata keçirilən hərtərəfli köklü islahatlardan, bütün sahələrdə əldə olunan nailiyyətlərdən, koronavirus (COVID-19) pandemiyasına qarşı uğurlu mübarizədən, Ali Baş Komandanın rəhbərliyi ilə Vətən müharibəsində əldə edilən möhtəşəm tarixi qələbədən, zəfərimizi şərtləndirən lider, xalq və ordu vəhdətindən və sair uğurlardan, eləcə də bu uğurların əldə olunmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətinin də mühüm əhəmiyyət kəsb etməsindən geniş bəhs etdi.



Ədliyyə general-leytenantı Xanlar Vəliyev bildirdi ki, Hərbi Prokurorluğun kollektivi millətimizin və dövlətimizin maraqlarına xidmət edən ulu öndər ideyalarını, eləcə də möhtərəm Prezidentin tapşırıq və tövsiyələrini bundan sonra da fəaliyyətində rəhbər tutacaqdır.

Çıxışının sonunda Hərbi prokuror Xanlar Vəliyev, dəyərli ömrünü Azərbaycana həsr edərək milləti qarşısında misilsiz xidmətlər göstərməklə Azərbaycan xalqının ümummilli lideri adını qazanmış dünya siyasətinin parlaq siması ulu öndər Heydər Əliyevin əziz və unudulmaz xatirəsinin qədirbilən azərbaycanlıların qəlbində əbədi olaraq yaşayacağına və daim böyük ehtiramla yad ediləcəyinə əminliyini ifadə etdi.

# Azərbaycan Respublikasının Hərbi prokuroru Xanlar Vəliyev Beynəlxalq Qızıl Xaç Komitəsinin nümayəndələri ilə görüşmüşdür



17 dekabr 2020-ci il tarixdə Azərbaycan Respublikası Baş prokurorunun müavini - Azərbaycan Respublikasının Hərbi prokuroru Xanlar Vəliyev tərəfindən Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycan Respublikasındakı nümayəndəliyinin rəhbəri xanım Ariane Bauer qəbul edilmişdir.

Qonaqları salamlayan Xanlar Vəliyev Azərbaycanla Beynəlxalq Qızıl Xaç Komitəsi arasında ikitərəfli münasibətlərə toxunaraq, bu əlaqələrin yüksək səviyyədə və müvəffəqiyyətlə inkişaf etdiyini vurğulamış, Dağlıq Qarabağ münaqişəsi zamanı əsir düşmüş şəxslərin və meyitlərin dəyişdirilməsi prosesində Komitə tərəfindən zəruri köməkliyin göstərilməsinə görə təşəkkürünü bildirmişdir.

Eyni zamanda, Xanlar Vəliyev Azərbaycanın hərbi qulluqçularının döyüş zamanı həlak olmuş erməni hərbçilərinin meyitləri, habelə qəbirləri üzərində təhqiredici hərəkətlər edilməsi faktları ilə bağlı Hərbi Prokurorluqda cinayət işlərinin başlanılaraq hazırda istintaqın aparılması barədə məlumat vermişdir.

Həmçinin Hərbi Prokuror döyüş əməliyyatlarında həlak olmuş Azərbaycan hərbi qulluqçularının meyitləri üzərində təhqiredici hərəkətlər, əsir düşmüş azərbaycanlı hərbçiləri ilə qeyri-insanı rəftar faktları ilə bağlı Ermənistan hüquq mühafizə orqanları tərəfindən hüquqi təsir tədbirlərinin görülməsinin vacibliyini, açıq və ədalətli araşdırmanın aparılmaqla ictimaiyyətin məlumatlandırmasının xüsusi əhəmiyyətini bildirməklə materialların Ermənistan Respublikasının səlahiyyətli orqanlarına təqdim olunması üçün istənilən beynəlxalq təşkilata təqdim olunmasına hazır olduqlarını vurğulamışdır.

Səmimi görüşə görə təşəkkürünü bildirən xanım Ariane Bauer hərbi münaqişə zamanı zərər yetirilmiş mülki əhaliyə Komitə tərəfindən müvafiq yardımların edilməsini və bu istiqamətdə işlərin davam etdiriləcəyini, eləcə də həlak olmuş şəxslərin, onların meyitlərinin və qalıqlarının identifikasiya edilməsində köməklik göstərə biləcəklərini bildirmişdir.

Görüşdə bir sıra digər məsələlər müzakirə edilmiş, səmərəli fikir mübadiləsi aparılmışdır.

# Azərbaycan Respublikasının Baş Prokurorluğunun Elm-Tədris Mərkəzində Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycan Respublikasındakı nümayəndəliyinin əməkdaşı ilə görüş keçirilmişdir





18 dekabr 2020-ci il tarixdə Azərbaycan Respublikası Baş Prokurorluğun Elm-Tədris Mərkəzində Mərkəzin əməkdaşları Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycan Respublikasındakı nümayəndəliyinin hüquq məsləhətçisi Jalə Əzizova ilə görüşmüşlər.

Görüş zamanı Elm-Tədris Mərkəzinin rəisi Mübariz Əhmədov Azərbaycanla Beynəlxalq Qızıl Xaç Komitəsi arasında uğurlu ikitərəfli münasibətlər çərçivəsində Dağlıq Qarabağ münaqişəsi zamanı əsir düşmüş şəxslərin və meyitlərin dəyişdirilməsi prosesində Komitə tərəfindən zəruri köməkliyin göstərilməsinə görə təşəkkürünü bildirmiş, daha sonra isə Mərkəzin fəaliyyəti, o cümlədən görülmüş və görüləcək işlər barədə qonağa geniş məlumat vermişdir.

Öz növbəsində Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycan Respublikasındakı nümayəndəliyinin hüquq məsləhətçisi Jalə Əzizova görüşə görə təşəkkürünü bildirərək ilk öncə Beynəlxalq Qızıl Xaç Komitəsinin tarixi, fəaliyyəti istiqamətləri və fəaliyyət prinsipləri barədə ətraflı məlumat vermişdir. Eyni zamanda görüş zamanı Jalə Əzizova silahlı münaqişələr zamanı, o cümlədən Dağlıq Qarabağ münaqişəsi zamanı Komitənin zərərçəkmiş şəxslər, ailələrlə bağlı gördüyü humanitar fəaliyyət və mandatına aid olan digər fəaliyyətlər barədə geniş məlumat verməklə yanaşı, gələcəkdə Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycan Respublikasındakı nümayəndəliyinin Azərbaycan Respublikası Baş Prokurorluğu ilə əməkdaşlığı məsələlərinə toxunmuşdur. Qonaq Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycan Respublikasındakı nümayəndəliyinin hərbi münaqişə zamanı zərər yetirilmiş mülki əhaliyə Komitə tərəfindən müvafiq yardımların edilməsi və bu istiqamətdə işlərin davam etdiriləcəyi, eləcə də həlak olmuş şəxslərin, onların meyitlərinin və qalıqlarının identifikasiya edilməsində köməklik göstərə biləcəkləri ilə yanaşı, Komitənin prokurorluq əməkdaşlarının münaqişə zamanı və sonrası tətbiq olunan beynəlxalq humanitar hüquq sahəsində nəzəri və praktiki biliklərinin artırılmasına yönəlmiş təlim-tədris işlərində yaxından iştirak edə biləcəyini vurğulamışdır.

Daha sonra görüşdə Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycan Respublikasındakı nümayəndəliyi və Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm-Tədris Mərkəzi ilə tədris sahəsində əməkdaşlıq perspektivi daha ətraflı müzakirə edilmiş və yaxın gələcəkdə birgə tədbirlərin keçirilməsi məsələləri barədə fikir mübadiləsi aparılmışdır.

# Baş Prokurorluğun Elm-Tədris Mərkəzində stajorlar üçün hazırlıq kursu təşkil edilib

Azərbaycan Respublikası Baş prokurorunun 27.08.2020-ci il tarixli 09/87 №-li Sərəncamına əsasən, Azərbaycan Respublikası Prokurorluğu orqanlarına 2019-cu ildə qulluğa qəbul olunmuş və stajorluq keçən 29 nəfər işçi üçün Baş Prokurorluğun Elm-Tədris Mərkəzi tərəfindən 2020-ci ilin sentyabr ayının 28-dən oktyabr ayının 28-dək Zoom proqramı vasitəsilə canlı distant formada hazırlıq kursu təşkil edilmişdir.




Hazırlıq kursun tədris proqramı cinayət, cinayət-prosessual, inzibati və Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququ, kriminologiya və kriminalistika, Baş Prokurorluğun İşin Təşkili Qaydaları, prokurorluq orqanlarında tətbiq olunan informasiya kommunikasiya texnologiyaları üzrə praktiki və metodoloji bilikləri özündə əks etdirən mövzular üzrə 69 məşğələdən ibarət olmuşdur.





Tədbirə təlimçi qismində Elm-Tədris Mərkəzinin əməkdaşları ilə yanaşı Baş Prokurorluğun, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin, Hərbi Prokurorluğun və tabe prokurorluqların işçiləri, habelə Ədliyyə və Səhiyyə nazirliklərin mütəxəssisləri cəlb edilmişlər. Ümumilikdə bu tədbirin keçirilməsinə müxtəlif formalarda prokurorluq və digər orqanların 80 nəfərdən artıq işçisi cəlb olunmuşdur.

Təlimlər müasir informasiya-kommunikasiya texnologiyalardan geniş istifadə etməklə həyata keçirilmiş, dinləyicilərin və təlimçilərin bir qismi iş yerindən, təlimçilərin digər hissəsi isə Elm-Tədris Mərkəzində zəruri avadanlıqla təchiz edilmiş xüsusi otaqdan tədbirə qoşulmuşlar, tədris edilmiş əksər məşğələlərin elektron mətni və tezisləri dinləyicilərə təqdim edilmişdir.




Təlimlər uğurla başa çatdıqdan sonra 29.10.2020-ci il tarixdə kursda iştirak etmiş dinləyicilərinin hazırlıq kurs zamanı əldə etdikləri bilik və bacarıqlarının müsahibə yolu ilə qiymətləndirilməsi təşkil edilmişdir. Müsahibə – dinləyicilərin özlərinin seçdikləri biletdə olan üç sualın (kurs çərçivəsində tədris edilmiş mövzular üzrə) şifahı cavablandırılması, dinləyicilərin biliklərinin məqbul və qeyri-məqbul üsulla qiymətləndirilməsi qaydasında təşkil olunmuşdur.

“Prokurorluq orqanlarında qulluq keçmə haqqında” Qanunun 13.2-ci maddəsinə və Baş Prokurorluğun “İşin Təşkili Qaydaları”nın 247.4-cü bəndinə müvafiq olaraq müsahibənin göstəriciləri stajorların şəxsi işlərinə əlavə edilməsi üçün Baş Prokurorluğun Kadrlar idarəsinə göndərilmişdir.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

# Baş Prokurorluqda İnsan Hüquqları üzrə Sənədlərin Axtarış Portalı (İHSAP) yaradılıb

Prokurorluq işçilərinin "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyası, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququ, insan hüquq və əsas azadlıqlarının müdafiəsinə dair Azərbaycan Respublikasının tərəfdar çıxdığı digər beynəlxalq müqavilələr və onlarla əlaqəli olan beynəlxalq hüquqi sənədlər, elmi-metodiki, informativ ədəbiyyatlar, hüquqtətbiqetmə prosesində tövsiyələr və digər beynəlxalq təcrübə, nəzəri məsələlər üzrə faydalı məlumatların asanlıqla əldə edilməsi, öyrənilməsi, təcrübədə tətbiqi məqsədi ilə Baş Prokurorluqda İnsan Hüquqları üzrə Sənədlərin Axtarış Portalı (İHSAP) yaradılmışdır.

Prokurorluq orqanlarında insan hüquq və əsas azadlıqlarının müdafiəsi üzrə beynəlxalq standartların təşviqi çərçivəsində qabaqcıl beynəlxalq təcrübənin dərindən öyrənilməsi, hüquqtətbiqetmə prosesində İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin təcrübəsindən hüquqi prinsiplərə, göstərişlərə və mövqelərə (standartlara) istinad olunması praktikasının genişləndirilməsi və keyfiyyətinin artırılması, bu sahədə prokurorluq işçilərinin nəzəri biliklərinin yüksək səviyyəyə çatdırılması üçün beynəlxalq və milli hüquqi, elmi, metodik, informativ sənədlərin vahid məcmusunu təşkil edən elektron bazanın təminatı vacib amillərdəndir.

Baş Prokurorluğun Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəis müavini Günay Əyyubovanın müəllifliyi ilə texniki tapşırıq əsasında Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə Baş İdarəsi, Təşkilati və informasiya təminatı idarəsinin İnformasiya texnologiyalarının tətbiqi sektorunun müdiri Rövşən İbadov və Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin İnformasiya texnologiyaları və tədrisin texniki vasitələri sektorunun mühəndis proqramçısı Teymur İbadov tərəfindən qurulan İHSAP Axtarış Portalında növlərə görə təsnifləşdirmə aparılmış və sənədlər müvafiq tematik kateqoriyalar üzrə bölünmüşdür.

Axtarış Portalında "Qərarlar", "Konvensiyalar", "Ədəbiyyatlar", "Jurnallar", "Metodiki Sənədlər", "Prokurorluq və insan hüquqları", "Faydalı Məlumatlar", "Faydalı Saytlar" tematikaları üzrə bölmələr müəyyən edilmişdir.

"Qərarlar" bölməsində İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin və Ali Məhkəməsinin qərarları yerləşdirilmişdir. Avropa Məhkəməsinin prokurorluğun fəaliyyət istiqamətlərinə aid Azərbaycana, eləcə də digər ölkələrə qarşı qəbul etdiyi qərarlar bazaya daxil edilmişdir. Yeni qərarların isə dərc olunduqdan dərhal sonra tərcümə olunub sistemə əlavə edilməsi təmin olunur.

"Konvensiyalar" bölməsində Azərbaycan Respublikasının ratifikasiya etdiyi Konvensiyalar, bu Konvensiyalar ilə bağlı qəbul edilən normativ hüquqi aktlar və Azərbaycan Respublikasının tərəfdar çıxdığı digər beynəlxalq müqavilələr, sənədlər əks olunmuşdur.

"Ədəbiyyatlar" bölməsində insan hüquqlarının müdafiəsi sahəsində beynəlxalq ekspertlər, milli mütəxəssislərin son illərdə dərc olunan yeni Kitabları, Dərslikləri, Metodiki vəsaitləri qoyulmuşdur.

"Jurnallar" bölməsinə insan hüquqlarının müdafiəsinə aid məqalələr dərc olunan Baş Prokurorluğun mətbu nəşrlərindən olan "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalı, "İstintaq təcrübəsi" bülleteni, "Dövlət ittihamının müdafiəsi təcrübəsi" bülleteni dövri nəşrlərinin buraxılışları əlavə edilmişdir.

"Metodiki Sənədlər" bölməsində Avropa Şurası, BMT, ATƏT, UNİCEF, OECD, GRECO, CEPEJ-SATURN, GİZ, CCPE, FATF və digər beynəlxalq təşkilatların, eləcə də prokurorluq işçilərinin ayrı-ayrı mövzular üzrə apardıqları Təhlilləri, Təlimatları və Tövsiyələri yerləşdirilmişdir.

"Prokurorluq və insan hüquqları" bölməsində insan hüquq və əsas azadlıqlarının ümumi, həmçinin ayrı-ayrı sahələri üzrə Baş Prokurorluğun Tədbirlər Planları, Hesabatları və Görülən işlər üzrə məlumatlar daxil edilmişdir.

"Faydalı Məlumatlar" və "Faydalı Saytlar" bölmələrində adlarına uyğun olaraq prokurorluğun fəaliyyət istiqamətlərinə aid səmərəli olan məlumatlar və müvafiq xarici təşkilat, yerli qurumların internet ünvanları verilmişdir.

Müəyyən olunan təsnifləşdirmə ilə yanaşı sistemdə sözə görə ümumu axtarış funksiyası mövcuddur. Həmçinin ayrıca olaraq "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyasının maddələri, Avropa Şurasına üzv olan ölkələrin adları, eləcə də xüsusi dairəsi müəyyən edilmiş açar sözlər üzrə axtarış aparılması imkanları da yaradılmışdır. Bu funksiyalar istifadəçiyə müxtəlif bölmələrdə yerləşən materiallardakı informasiyaların tez və eyni zamanda müəyyən edilməsinə imkan verir.

Bazaya mütəmadi olaraq yeni materialların əlavə edilməsi həyata keçirilir. Bütün materialların elektron formatları ilə tanış olmaqla yanaşı onları köçürmək və ya yükləmək imkanı vardır.

İHSAP Axtarış Portalı prokurorluq işçilərinin istifadəsi üçün nəzərdə tutulmuşdur. Axtarış Portalından əlverişli və səmərəli istifadəni təmin etmək məqsədilə "ihsap.prosecutor.az" alt domenində qeydiyyatdan keçirilmişdir. Bu, işçilərə istənilən yerdə internet üzərindən müvafiq parol ilə domenə daxil olmaqla lazımı sənəd və ya informasiyanı əldə edə bilmə imkanını verir.

Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərin icrası sahəsində prokurorluq orqanlarının üzərinə düşən vəzifələrin daha səmərəli yerinə yetirilməsi, bu sahədə işin daha da təkmilləşdirilməsi üçün tədbirlərin görülməsi davam etdiriləcək.

**Baş Prokurorluğun Hüquqi təminat və insan hüquqları məsələləri idarəsi**

# Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin müvafiq əmri ilə bir qrup prokurorluq əməkdaşı həvəsləndirilmişlər

1 oktyabr-Azərbaycan Respublikası Prokurorluğu işçilərini peşə bayramı günü, Vətən müharibəsində əldə olunmuş şanlı qələbə, Dünya azərbaycanlılarının həmrəyliyi günü və Yeni il münasibətilə bir qrup prokurorluq işçisinin həvəsləndirilməsi haqqında Azərbaycan Respublikasının Baş prokuroru cənab Kamran Əliyevin 30 dekabr 2020-ci il tarixli 10/1100-k nömrəli əmri ilə xidməti vəzifələrini nümunəvi icra etdiyinə görə 187 nəfər prokurorluq işçisi barəsində həvəsləndirmə tədbirləri tətbiq olunmuşdur.

Həmkarlarımızdan 1 nəfər "Azərbaycan Prokurorluğunun 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı, 6 nəfər "Prokurorluluğun fəxri işçisi" döş nişanı, 27 nəfər isə "Azərbaycan Respublikası Prokurorluğunun Fəxri Fərmanı" ilə həvəsləndirilmişlər.

Bununla yanaşı, 23 nəfər əməkdaş "qiymətli hədiyyə" ilə təltif olunmuş, 10 nəfərə mükafatlandırma qaydasında vaxtından əvvəl xüsusi rütbələr verilmiş, 120 nəfərə isə təşəkkür elan edilmişdir. Həvəsləndirmə tədbirləri prokurorluq orqanlarının bütün qurumlarını əhatə etmiş, Vətən müharibəsi zamanı cəbhə bölgəsində bilavasitə xidməti vəzifələrini icra etmiş, bununla bağlı fərqlənmiş əməkdaşlara daha çox önəm verilmişdir.

Bir qrup prokurorluq əməkdaşının həvəsləndirilməsi, habelə prokurorluq orqanları qarşısında duran vəzifələrlə bağlı Baş prokuror cənab Kamran Əliyevin rəhbərliyi ilə 30 dekabr 2020-ci il tarixdə Baş Prokurorluqda geniş tərkibdə iclas keçirilmişdir.



# Baş prokuror Kamran Əliyev Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas ilə görüşmüşdür



2020-ci il oktyabrın 19-da Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas ilə görüşmüşdür.

Qonaqları səmimi salamlayan Baş prokuror Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlığın əhəmiyyətini vurğulayaraq, milli qanunvericilik sahəsində Avropa İttifaqına daxil olan ölkələrin qabaqcıl təcrübəsinin öyrənilməsinin önəmli olduğunu bildirmişdir.

Kamran Əliyev prokurorluqda aparılan genişmiqyaslı islahatlardan söhbət açaraq, prokurorluq orqanlarında struktur dəyişikliyi ilə əlaqədar yeni yaradılmış idarələrin, o cümlədən Xüsusi müsadirə məsələlərinin əlaqələndirmə idarəsinin fəaliyyət istiqamətləri barədə məlumat verərək, bu sahədə Avropa İttifaqının uğurlu təcrübəsindən geniş istifadə olunduğunu diqqətə çatdırmışdır.

Baş prokuror, Ermənistan tərəfindən Dağlıq Qarabağ münaqişənin törədilməsini, o cümlədən mülki əhalinin sıx yaşadığı Gəncə şəhərinin raket atəşinə tutulmasını pisləyən Avropa İttifaqının bəyanatlarını yüksək qiymətləndirmiş, həmçinin münaqişənin mahiyyəti barədə məlumat verməklə 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistanın silahlı qüvvələri tərəfindən Azərbaycanın yaşayış məntəqələrinin ağır artilleriya və raket qurğularından atəşə tutulması nəticəsində dinc mülki əhalimizə qarşı sülh və insanlıq əleyhinə olan cinayətlərin törədilməsini, o cümlədən 4, 11 və 17 oktyabr 2020-ci il tarixlərində Azərbaycanın ikinci böyük şəhəri olan Gəncənin raket zərbələrinə məruz qalması nəticəsində xeyli sayda mülki insanın həlak olması və yaralanmasını xüsusilə vurğulamışdır.

Səmimi qəbula görə təşəkkürünü bildirən Kestutis Yankauskas ikitərəfli münasibətlərə toxunaraq Avropa İttifaqının Azərbaycanla əlaqələrə böyük önəm verdiyini və münasibətlərin yüksək səviyyədə və müvəffəqiyyətlə inkişaf etdiyini bildirmişdir.

Avropa İttifaqının nümayəndəsi ölkəmizlə Ermənistan arasındakı mövcud münaqişə barədə fikir mübadiləsi aparılarkən Azərbaycan Respublikasının ərazi bütövlüyünü tanıyaraq Dağlıq Qarabağ ərazisinin ölkəmizin tərkib hissəsi olmasını təsdiq-







ləmiş, münaqişənin BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələrində nəzərdə tutulmuş qaydada ATƏT-in Minsk qrupunun iştirakı ilə baza prinsipləri əsasında Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində həllinin vacibliyini qeyd etmişdir.

Həmçinin, Kestutis Yankauskas Avropa İttifaqının Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin tanınmasının təmsil etdiyi qurumun rəsmi sənədlərində də dəfələrlə təsdiq edildiyini xüsusilə vurğulamışdır.

Ermənistan silahlı qüvvələri tərəfindən Gəncə şəhərinin yaşayış məntəqələrinin raket atəşinə tutulmasının Avropa İttifaqı tərəfindən bəyanatla pislənildiyini bildirməklə, bu hadisələrin dünya ictimaiyyətinə tanıdılması məqsədilə Baş Prokurorluq tərəfindən keçirilmiş brifinqlər, verilən məlumatlar və görülmüş digər tədbirlərin xüsusi əhəmiyyət kəsb etdiyini vurğulamaqla bu kimi mətbuat konfranslarının tez-tez keçirilməsinin vacibliyini diqqətə çatdırmışdır.

Kestutis Yankauskas missiya rəhbəri kimi Gəncə şəhərində dinc əhaliyə qarşı törədilmiş cinayətləri pislədiyini bir daha xüsusilə qeyd etmişdir.

Yekunda maraq kəsb edən suallara və mövzulara dair ətraflı məlumatın verilməsi təmin edilməklə, bir sıra digər məsələlər, o cümlədən Avropa İttifaqının “TAİEX” və “TWINNING” layihələrinin əhəmiyyəti müzakirə edilmiş, həmçinin faydalı fikir mübadiləsi aparılmışdır.

# Şanxay Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Baş prokurorlarının videokonfrans formatında keçirilən 18-ci iclasında Ermənistan hərbi-siyasi rəhbərliyinin göstərişi ilə törədilən sülh və insanlıq əleyhinə cinayətlər barədə ətraflı məlumat verilmişdir





2020-ci il oktyabrın 20-də Şanxay Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Baş prokurorlarının korrupsiyaya qarşı mübarizə məsələlərinə həsr olunmuş videokonfrans formatında 18-ci iclası baş tutmuşdur.

15 dövlətin Baş prokurorlarının və beynəlxalq təşkilatların yüksək səviyyəli nümayəndələrinin iştirakı ilə keçirilmiş tədbirdə ölkəmizi Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil etmişdir.

İclasda çıxış edən Baş prokuror Kamran Əliyev tədbir iştirakçılarına Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin rəhbərliyi və siyasi iradəsinə uyğun olaraq ölkəmizdə korrupsiyaya qarşı kəsərli mübarizə tədbirləri, o cümlədən iqtisadiyyatın liberallaşdırılması, bürokratik maneələrin aradan qaldırılması, vəzifəli şəxslərlə vətəndaşlar arasında sağlam əlaqələrin qurulması, habelə şəffaflıq və hesabatlılığın təmin edilməsi məqsədilə qanunvericilik sahəsində həyata keçirilmiş genişmiqyaslı islahatlar, habelə korrupsiya ilə mübarizədə institusional baza təşkil edən ixtisaslı qurumlar – Azərbaycan Respublikasının Korrupsiyaya qarşı Mübarizə Komissiyası və Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin fəaliyyəti haqqında ətraflı məlumat vermişdir.

Bu sahədə beynəlxalq əməkdaşlığın xüsusi əhəmiyyəti vurğulanaraq, Azərbaycan Respublikasının BMT-nin "Korrupsiyaya qarşı mübarizə haqqında", həmçinin mövcud olan müvafiq Avropa konvensiyalarına qoşulduğu, eləcə də Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən GRECO, Moneyval, OECD, Beynəlxalq Prokurorlar Assosiasiyasının Prokurorların Korrupsiyaya qarşı Mübarizə Şəbəkəsi çərçivəsində, həmçinin xarici ölkələrin hüquq mühafizə orqanları ilə səmərəli əməkdaşlığın uğurla davam etdirildiyi bildirilmişdir.

Baş prokuror iştirakçılara 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan silahlı qüvvələri tərəfindən beynəlxalq hüququn norma və prinsipləri, Cenevrə Konvensiyalarının tələbləri kobud şəkildə pozularaq münaqişə zonasında, eləcə də hərbi əməliyyatların aparıldığı yerdən xeyli uzaqda




yerləşən mülki əhalinin sıx yaşadığı məntəqələrin hədəfə alınması, o cümlədən 4, 11 və 17 oktyabr 2020-ci il tarixlərində Azərbaycanın 2-ci böyük şəhəri olan qədim və tarixi Gəncənin dinc əhalisinin sıx yaşadığı mərkəzi hissəsinin, strateji əhəmiyyət kəsb edən Mingəçevir şəhərinin, Bakı-Tbilisi-Ceyhan, Bakı-Novorossiysk neft kəmərlərinin, Mingəçevir Su Elektrik Stansiyasının raket atəşinə məruz qalması, beynəlxalq səviyyədə qadağan olunmuş "Smerç" kasset bombalarından və "Skad" raket qurğularından istifadə edilməsi, xarici ölkələrdən gətirilmiş muzdluların düşmən qüvvələrinin sıralarında iştirakının müəyyən edilməsi haqqında ətraflı məlumat vermişdir.

Bildirilmişdir ki, Ermənistanın silahlı qüvvələri tərəfindən mülki dinc əhalimizə qarşı törədilən cinayət faktları üzrə Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən 37 cinayət işi başlanmış, ərazidə həyati təhlükənin olmasına baxmayaraq prokuror və müstəntiqlər tərəfindən əməliyyat-istintaq tədbirləri həyata keçirilməkdədir.

2020-ci il 27 sentyabr tarixindən etibarən bugünədək Ermənistanın mülki əhaliyə qarşı törətdiyi cinayətlər nəticəsində 7-si uşaq, 19-u qadın olmaqla 61 mülki şəxs həlak olmuş, 300-dən çox mülki vətəndaş ağır yaralanmış, ümumilikdə 2500-dən çox yaşayış evi və mülki obyektə ciddi ziyan vurulmuşdur.

Eyni zamanda Baş prokuror qeyd etmişdir ki, Ordumuz Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarında əks-hücum əməliyyatına başlamış və bu sahədə mühüm uğurlara imza atmaqla müxtəlif kənd, qəsəbə, rayon və şəhərlər işğaldan azad olunmuşdur.

Rusiya Federasiyasının Baş prokuroru İqor Krasnov, İran İslam Respublikasının Baş prokuroru Məhəmməd Cəfər Montazeri və Özbəkistan Respublikasının Baş prokuroru Niqmatilla Yuldaşev mülki əhaliyə qarşı hücumları qəti surətdə pisləmiş, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları çərçivəsində sülh yolu ilə həll olunmasının vacibliyini vurğulamışlar.

Tədbirin sonunda Şanxay Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Baş prokurorları tərəfindən əməkdaşlıq haqqında sənədlər imzalanmış, 2021-ci ildə növbəti iclasın Hindistan Respublikasında keçirilməsi qərara alınmışdır.

# Baş prokuror Kamran Əliyev Türkiyə Respublikasının Baş Ombudsmanı Şərəf Malkoç ilə görüşmüşdür



2020-ci il oktyabrın 21-də Baş prokuror Kamran Əliyev Ombudsman Səbinə Əliyevanın dəvəti əsasında ölkəmizdə səfərdə olan İslam Əməkdaşlıq Təşkilatı Ombudsmanlar Assosiasiyasının prezidenti və Türkiyə Respublikasının Baş Ombudsmanı Şərəf Malkoç ilə görüşmüşdür.

Qonağı səmimi salamlayan Baş prokuror Kamran Əliyev tarixən xalqlarımızın milli köklərə söykənən münasibətlərinin siyasi, iqtisadi, mədəni və digər sahələrdə də dinamik inkişaf etdirildiyini bildirərək, bu əlaqələrin Türk xalqının dahi şəxsiyyəti Mustafa Kamal Atatürkün "Azərbaycanın kədəri – kədərimiz, sevinci – sevincimiz" və Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin "bir millət, iki dövlət" kəlamları ilə ifadə edildiyini, hər iki dövlətin prezidentləri İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın ciddi səyləri, apardıqları uzaqgörən xarici siyasət nəticəsində Azərbaycan-Türkiyə əlaqələrinin etibarlı strateji əməkdaşlıq səviyyəsinə qalxmaqla dostluq və qardaşlıq prinsiplərinə əsaslandığını xüsusi vurğulamışdır.

Baş prokuror 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan silahlı qüvvələrinin Azərbaycanın dinc əhalisinə qarşı törətdikləri cinayət əməlləri barədə məlumat verərək bildirmişdir ki, Türkiyə Respublikasının rəhbərliyi və xalqı hadisələrin ilk anından başlayaraq ölkəmizə öz mənəvi dəstəklərini nümayiş etdirməklə bir millət, iki dövlət olduğumuzu bir daha bütün dünyaya göstərmişdir.

Qeyd edilmişdir ki, Ermənistan Respublikasının rəhbərliyinin göstərişi ilə 4, 11 və 17 oktyabr 2020-ci il tarixlərində mülki əhalinin sıx yaşadığı Azərbaycanın ikinci böyük şəhəri olan Gəncə şəhəri beynəlxalq səviyyədə qadağan edilmiş "Skad" raket qurğusundan atəşə tutulmuş və nəticədə ümumilikdə 63 nəfər həlak olmuş, onlardan 18-i qadın, 8-i uşaq olmuş, 292 nəfər yaralanmış, onlardan 69-u qadın, 32-si uşaq olmuş, 1981 yaşayış evinə, 90 çoxmərtəbəli binaya və 386 mülki infrastruktur obyektlərinə külli miqdarda ziyan dəymişdir.

Diqqətə çatdırılmışdır ki, Ermənistan tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərində aparılan döyüş əməliyyatlarına xarici ölkələrin muzdlu döyüşçülərinin cəlb edilməsi, həmçinin dünya terror tarixində həmişə ön sırada olan "Asala" terror təşkilatının üzvlərinin də iştirak etmələri müəyyən edilmişdir.






Eyni zamanda, işğal olunmuş ərazilərimizdə bir neçə xarici şirkətlərin qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olması müəyyən edilməklə, bu və digər qeyd edilən cinayət faktları ilə bağlı Baş Prokurorluq tərəfindən cinayət işləri başlanmış və müvafiq sənədləşdirmə aparılmaqla təqsirkar şəxslərin beynəlxalq müstəvidə ifşa edilərək cəzalandırılmalarını təmin etmək məqsədilə bütün mümkün olan tədbirlər görülməkdədir.

Səmimi qəbula görə təşəkkürünü bildirən Şərəf Malkoç Ermənistanın təxribat xarakterli əməllər törədərək dinc əhalinin sıx yaşadığı məntəqələrin qəsdən və hədəfli şəkildə atəşə tutulması ilə bağlı törədilən cinayət əməllərinin dünya ictimaiyyətinə çatdırılması ilə əlaqədar bəyanatla Birləşmiş Millərlər Təşkilatı və insan hüquqlarının müdafiəsi üzrə beynəlxalq təşkilatlar qarşısında çıxış edəcəyini xüsusi vurğulamışdır.

Şərəf Malkoç bir millət, iki dövlət olaraq Türkiyənin daim qardaş Azərbaycan xalqının yanında olduğunu bildirmiş və onun haqq işini hər zaman olduğu kimi dəstəklədiyini qeyd etmişdir.

Görüşdə maraq kəsb edən mövzular ətraflı müzakirə edilməklə faydalı fikir mübadiləsi aparılmışdır.

Görüşdə Ombudsman Səbinə Əliyeva da iştirak etmişdir.

# Baş prokuror Kamran Əliyev Tacikistan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Rustam Soli ilə görüşmüşdür



2020-ci il oktyabrın 22-də Baş prokuror Kamran Əliyev Tacikistan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Rustam Soli ilə görüşmüşdür.

Qonağı səmimi salamlayan Baş prokuror Azərbaycanla Tacikistan arasında ənənəvi dostluq və tərəfdaşlıq əlaqələrinə, bütün sahələrdə işgüzar münasibətlərin mövcudluğuna toxunaraq, əlaqələrin uğurla inkişaf etdiyini, hər iki ölkə arasında əməkdaşlığın genişlənməsində dövlət başçılarının qarşılıqlı səfərlərinin, keçirilən görüşlərin mühüm əhəmiyyətini qeyd etmişdir.

Baş Prokuror, 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistanın silahlı qüvvələri tərəfindən Azərbaycanın yaşayış məntəqələrinin ağır artilleriya və raket qurğularından atəşə tutulması nəticəsində dinc mülki əhalimizə qarşı sülh və insanlıq əleyhinə cinayətlərin törədilməsini, o cümlədən 4, 11 və 17 oktyabr 2020-ci il tarixlərində Azərbaycanın ikinci böyük şəhəri olan Gəncənin raket zərbələrinə məruz qalmasını qeyd etməklə xüsusilə vurğulamışdır ki, ümumilikdə mülki əhalidən 63 nəfər həlak olmuş, onlardan 18-i qadın, 8-i uşaq olmuş, 293 nəfər yaralanmış, onlardan 69-u qadın, 32-i uşaq olmuş, 2072 yaşayış evinə, 90 çoxmərtəbəli binaya və 388 mülki infrastruktur obyektlərinə külli miqdarda ziyan dəymişdir.

Səmimi qəbula görə təşəkkürünü bildirən səfir ikitərəfli münasibətlərə toxunaraq Tacikistanın Azərbaycanla əlaqələrə böyük önəm verdiyini və münasibətlərin yüksək səviyyədə və müvəffəqiyyətlə inkişaf etdiyini bildirmişdir.

Rüstəm Soli ölkəmizlə Ermənistan arasındakı






mövcud münaqişə barədə fikir mübadiləsi aparılarkən ölkəsinin rəsmi mövqeyini bildirirək, Azərbaycan Respublikasının ərazi bütövlüyünün Tacikistan dövləti tərəfindən tanındığını və Dağlıq Qarabağ ərazisinin ölkəmizin tərkib hissəsi olmasını təsdiqlədiklərini qeyd etməklə, münaqişənin BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələrində nəzərdə tutulmuş qaydada baza prinsipləri əsasında Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində həllinin vacibliyini diqqətə çatdırmışdır.

Ermənistan silahlı qüvvələri tərəfindən Gəncə şəhərinin yaşayış məntəqələrinin raket atəşinə tutulmasının ölkəsi tərəfindən qətiyyətlə pislənildiyini bildirməklə, bu hadisələrin rəsmi bəyanatlarında əks olunduğunu xüsusilə vurğulamışdır.

Daha sonra hər iki dövlətin prokurorluq orqanları arasında əməkdaşlıq, cinayət işləri üzrə hüquqi yardım, ekstradisiya və sair məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

# Baş prokuror Kamran Əliyev Özbəkistan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Bəhrom Əşrəfxanov ilə görüşmüşdür



2020-ci il oktyabrın 27-də Baş prokuror Kamran Əliyev Özbəkistan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Bəhrom Əşrəfxanov ilə görüşmüşdür.

Qonağı səmimi salamlayan Baş prokuror Azərbaycanla Özbəkistan arasında ənənəvi dostluq və tərəfdaşlıq əlaqələrinə, bütün sahələrdə işgüzar münasibətlərin mövcudluğuna toxunaraq, əlaqələrin uğurla inkişaf etdiyini, hər iki ölkə arasında əməkdaşlığın genişlənməsində dövlət başçılarının qarşılıqlı səfərlərinin, keçirilən görüşlərin mühüm əhəmiyyətini qeyd etmişdir.

Səfir Bəhrom Əşrəfxanovu ölkəmizdə diplomatik fəaliyyətə başlaması münasibəti ilə təbrik edərək ona uğurlar arzulayan Baş prokuror, 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistanın silahlı qüvvələri tərəfindən Azərbaycanın yaşayış məntəqələrinin ağır artilleriya və raket qurğularından atəşə tutulması nəticəsində dinc mülki əhalimizə qarşı sülh və insanlıq əleyhinə cinayətlərin törədilməsini, o cümlədən 4, 11 və 17 oktyabr 2020-ci il tarixlərində Azərbaycanın ikinci böyük şəhəri olan Gəncənin raket zərbələrinə məruz qalmasını qeyd etməklə xüsusilə vurğulamışdır ki, ümumilikdə mülki əhalidən 65 nəfər həlak olmuş, onlardan 18-i qadın, 10-u uşaq olmuş, 308 nəfər yaralanmış, onlardan 71-i qadın, 33-ü uşaq olmuş, 2312 yaşayış evinə, 90 çoxmərtəbəli binaya və 405 mülki infrastruktur obyektlərinə külli miqdarda ziyan dəymişdir.

Həmçinin, Kamran Əliyev Ermənistanın Azərbaycana qarşı növbəti təcavüzü ilə əlaqədar İslam Əməkdaşlıq Təşkilatı və Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası çərçivəsində müvafiq bəyanatların qəbul edilməsinə üzv dövlət olaraq Özbəkistanın verdiyi dəstəyə görə təşəkkürünü bildirmişdir.

Səmimi qəbula görə təşəkkürünü bildirən səfir




ikitərəfli münasibətlərə toxunaraq Özbəkistan Azərbaycanla əlaqələrə böyük önəm verdiyini və münasibətlərin yüksək səviyyədə və müvəffəqiyyətlə inkişaf etdiyini bildirmişdir.

Bəhrom Əşrəfxanov ölkəmizlə Ermənistan arasındakı mövcud münaqişə barədə fikir mübadiləsi aparılarkən ölkəsinin 27 il ərzində rəsmi mövqeyininin dəyişməz qaldığını bildirirək, Azərbaycan Respublikasının ərazi bütövlüyünün Özbəkistan dövləti tərəfindən tanındığını və Dağlıq Qarabağ ərazisinin ölkəmizin tərkib hissəsi olmasını təsdiqlədiklərini qeyd etməklə, birmənalı olaraq münaqişənin BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələrində nəzərdə tutulmuş qaydada baza prinsipləri əsasında Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində həllinin vacibliyini diqqətə çatdırmışdır.



Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın mülki yaşayış məntəqələrinin raket atəşinə tutulmasının ölkəsi tərəfindən pislənildiyini, Gəncə şəhərində törədilmiş cinayətlərin nəticələri ilə yerində tanış olduğunu bildirmiş, bu hadisələrin dünya ictimaiyyətinə tanıdılması məqsədilə Baş Prokurorluq tərəfindən keçirilmiş brifinqlər, verilən məlumatlar və görülmüş digər tədbirlərin xüsusi əhəmiyyət kəsb etdiyini vurğulamaqla bu kimi görüşlərin keçirilməsinin əhəmiyyətini qeyd etmişdir.

Səfir, ölkəsinin Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Şurasının üzvlüyünə seçilməsində Azərbaycan dövlətinin verdiyi dəstəyə görə öz təşəkkürünü bildirmişdir.

Daha sonra hər iki dövlətin prokurorluq orqanları arasında əməkdaşlıq, cinayət işləri üzrə hüquqi yardım, ekstradisiya və sair məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

# Baş prokuror Kamran Əliyev Böyük Britaniyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Ceyms Şarp ilə görüşüb



2020-ci il noyabrın 2-də Baş prokuror Kamran Əliyev Böyük Britaniyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Ceyms Şarp ilə görüşmüşdür.

Qonağı səmimi salamlayan Baş prokuror ölkələrimiz arasında ənənəvi dostluq və tərəfdaşlıq əlaqələrinə, bütün sahələrdə işgüzar münasibətlərin mövcudluğuna toxunaraq, bu əlaqələrin günü-gündən daha da inkişaf etdiyini qeyd etmişdir.

Baş prokuror, 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistanın silahlı qüvvələri tərəfindən Azərbaycanın yaşayış məntəqələrinin ağır artilleriya və raket qurğularından atəşə tutulması nəticəsində dinc mülki əhalimizə qarşı sülh və insanlıq əleyhinə cinayətlərin törədilməsini bildirmiş və xüsusilə vurğulamışdır ki, ümumilikdə mülki əhalidən 91 nəfər həlak olmuş, onlardan 27-i qadın, 11-i uşaq olmuş, 404 nəfər yaralanmış, onlardan 102-i qadın, 50-i uşaq olmuş, 2488 yaşayış evinə, 97 çoxmərtəbəli binaya və 461 mülki infrastruktur obyektlərinə külli miqdarda ziyan dəymişdir.

Kamran Əliyev Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində Ermənistan silahlı qüvvələrinin tərkibində digər ölkələrdən cəlb edilmiş muzdlu şəxslərin döyüş əməliyyatlarında iştirak etmələri, həmçinin xarici ölkələrin konkret şirkətlərinin ekologiya və yerin təkinin istismarı qaydalarının kobud şəkildə pozulması ilə nəticələnən qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olmaları faktları ilə bağlı Azərbaycan Respublikası Baş Prokurorluğunun İstintaq İdarəsində başlanmış cinayət işləri barədə qonağa məlumat vermişdir.

Baş prokuror, səfir Ceyms Şarpa Baş Prokurorluq tərəfindən təşkil edilmiş mətbuat konfransları və brifinqlərdə iştirak etməsinə, habelə Birləşmiş Krallıq tərəfindən Beynəlxalq Qırmızı Xaç Komitəsi vasitəsilə zərər çəkmiş mülki şəxslərimizə göstərdikləri maliyyə dəstəyinə görə də öz təşəkkürünü bildirmişdir.

Səmimi qəbula görə təşəkkürünü bildirən səfir ikitərəfli münasibətlərə toxunaraq Böyük Britaniyanın Azərbaycanla əlaqələrə böyük önəm verdiyini və münasibətlərin yüksək səviyyədə və müvəffəqiyyətlə inkişaf etdiyini bildirmişdir.

Səfir ölkəmizlə Ermənistan arasındakı mövcud münaqişə barədə fikir mübadiləsi aparılarkən Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə beynəlxalq hüquq normalarına əsasən həllinin vacibliyini diqqətə çatdırmışdır.

Konflikt zamanı mülki şəxslərin, xüsusən də münaqişə zonasından kənarda yaşayan dinc







əhalinin həlak olmasına görə məyus olduğunu bildirərək, ölkəsi tərəfindən bu kimi halların daim qətiyyətlə pislənildiyini diqqətə çatdırmışdır.

Daha sonra hər iki ölkənin prokurorluq orqanları arasında konkret cinayət işləri üzrə əməkdaşlıq, hüquqi yardım, ekstradisiya və sair məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.






2020-ci il 3 noyabr tarixində isə Böyük Britaniyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Ceyms Şarp öz twitter səhifəsində Baş prokuror Kamran Əliyevlə görüşü barədə yazmış, görüşdə hazırki vəziyyət və qarşılıqlı əməkdaşlığın müzakirə edildiyini qeyd etmişdir.

# Baş prokuror Kamran Əliyev Türkiyə Böyük Millət Məclisinin İnsan Hüquqları komitəsinin sədri Hakan Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür



2020-ci il noyabrın 14-də Baş prokuror Kamran Əliyev Türkiyə Böyük Millət Məclisinin İnsan Hüquqları komitəsinin sədri Hakan Çavuşoğlu, Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Erkan Özoral və Türkiyənin müxtəlif siyasi partiyalarını və bölgələrini təmsil edən millət vəkillərinin də iştirak etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimi salamlayan Baş prokuror Kamran Əliyev tarixən xalqlarımızın milli köklərə söykənən münasibətlərinin siyasi, iqtisadi, mədəni və digər sahələrdə də dinamik inkişaf etdirildiyini bildirərək, bu əlaqələrin Türk xalqının dahi şəxsiyyəti Mustafa Kamal Atatürkün "Azərbaycanın kədəri kədərimiz, sevinci sevincimiz" və Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin "bir millət, iki dövlət" kəlamları ilə ifadə edildiyini, hər iki dövlətin prezidentləri İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın ciddi səyləri, apardıqları uzaqgörən xarici siyasət nəticəsində Azərbaycan-Türkiyə əlaqələrinin etibarlı strateji əməkdaşlıq səviyyəsinə qalxmaqla dostluq və qardaşlıq prinsiplərinə əsaslandığını xüsusi vurğulamışdır.

Baş prokuror, Türkiyə və Azərbaycanın birgə fəaliyyətinin bölgədə sabitləşdirici amilə çevrilməsi nəticəsində bölgə üçün və dünya üçün böyük əhəmiyyət daşıyan enerji, nəqliyyat layihələrinin həyata keçdiyini qeyd edərək bu uğurların təməlində iki ölkə arasında əsrlər boyu olan dostluq-qardaşlıq münasibətlərinin dayanmasını diqqətə çatdırmışdır.

Baş prokuror 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan silahlı qüvvələrinin Azərbaycanın



dinc əhalisinə qarşı törətdikləri cinayət əməlləri barədə məlumat verərək bildirmişdir ki, Türkiyə Respublikasının rəhbərliyi və xalqı hadisələrin ilk anından başlayaraq ölkəmizə öz siyasi və mənəvi dəstəklərini nümayiş etdirməklə bir millət, iki dövlət olduğumuzu bir daha bütün dünyaya göstərmişdir.

Ermənistan Respublikasının rəhbərliyinin göstərişi ilə "Skad" və "Smerç" tipli raketlərdən Azərbaycanın Gəncə, Mingəçevir, Bərdə və əhalinin sıx yaşadığı digər iri şəhərlərinin, Bakı-Tbilisi-Ceyhan və Bakı-Novorossiysk neft kəmərləri, Mingəçevir SES, Oğuz-Qəbələ-Bakı su kanalının atəşə məruz qalması barədə məlumat verilərək bunun Ermənistanın terrorçu təfəkkürünün təzahürü olduğu vurğulanmışdır.

Kamran Əliyev bildirmişdir ki, Ermənistan silahlı qüvvələrinin beynəlxalq səviyyədə qadağan edilmiş raket qurğusundan Azərbaycanın mülki dinc əhalisinin atəşə tutulması nəticəsində ümumilikdə 93 nəfər həlak olmuş, 410 nəfər yaralanmış, 3410 yaşayış evinə, 120 çoxmərtəbəli binaya və 512 mülki infrastruktur obyektlərinə külli miqdarda ziyan dəymişdir.

Diqqətə çatdırılmışdır ki, Ermənistan tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərində aparılan döyüş əməliyyatlarına xarici ölkələrin muzdlu döyüşçülərinin cəlb edilməsi, həmçinin dünya terror tarixində həmişə ön sırada olan "Asala" və "PKK-PYD-YPG" terror təşkilatlarına aid bir qrup şəxslərin iştirak etmələri müəyyən edilmiş, həmin şəxslərlə bağlı Baş Prokurorluq tərəfindən cinayət işləri başlanılmışdır.

Baş prokuror, Türkiyənin Dağlıq Qarabağda ortaq sülhməramlı missiyada iştirakının Azərbaycan xalqı tərəfindən sevinclə qarşılandığını bildirərək, Türkiyənin bölgədə sülhün bərqərar olmasında xüsusi rolunun əhəmiyyətini vurğulamışdır.

Səmimi qəbula görə öz təşəkkürünü bildirən Hakan Çavuşoğlu ölkəmizi və xalqımızı qazanılmış qələbə münasibətilə təbrik etmişdir.



Hakan Çavuşoğlu ölkələrimiz arasında tarixən mövcud olan dostluq-qardaşlıq münasibətlərinin iki ölkə rəhbərinin apardıqları uğurlu siyasət nəticəsində bugün ən yüksək pilləyə qalxdığını və bundan sonra da bu münasibətlərin daim yüksələn xətlə inkşaf edəcəyinə əminliyini ifadə etmişdir.

Türkiyə Böyük Millət Məclisinin İnsan Hüquqları komitəsinin sədri bir millət, iki dövlət olaraq Türkiyənin daim qardaş Azərbaycan xalqının yanında olduğunu bildirmiş və Azərbaycanı hər zaman olduğu kimi dəstəklədiyini qeyd etmişdir.

Hakan Çavuşoğlu Ermənistan tərəfindən törədilmiş terror aktları nəticəsində həlak olan şəxslərə görə Türkiyə xalqının baş sağlığını çatdıraraq, yaralanmış şəxslərə şəfa diləmişdir.

Qonaq Türkiyənin Dağlıq Qarabağda sülhməramlı missiyadan qürur duyduğunu və bu missiyanın davamlı sülhün bərqərar olmasına öz töfhəsini verəcəyini bildirmişdir.

Türkiyə Böyük Millət Məclisinin İnsan Hüquqları komitəsinin sədri Hakan Çavuşoğlu səfərin məqsədlərindən söz açaraq bildirmişdir ki, rəhbəri olduğu nümayəndə heyəti 27 sentyabr 2020-ci il tarixdən etibarən Ermənistan tərəfindən törədilmiş cinayət əməlləri nəticəsində münaqişə zonasından kənarda yerləşən bölgələrimizdə həlak olmuş və yaralanmış şəxslər, ziyan dəymiş evlər və mülki infrasktruktur obyektləri ilə bağlı, həmçinin birinci Qarabağ müharibəsi zamanı qaçqın düşmüş şəxslərin hüquqlarının pozulması və onlara dəymiş ziyanlarla bağlı hesabatlar hazırlayacaqlar.

Tədbirdə nümayəndə heyətinin digər üzvləri də çıxış edərək, Türkiyə xalqının daim Azərbaycanı dəstəklədiyini qeyd etməklə, missiyaları çərçivəsində Ermənistan tərəfindən Azərbaycana qarşı törədilmiş cinayət hadisələri üzrə obyektiv həqiqəti dünya ictimaiyyətinə və beynəlxalq təşkilatlara çatdıracaqlarını vurğulamışlar.

Görüşdə həmçinin iki ölkə arasında ikitərəfli hüquqi əməkdaşlıq, ekstradisiya, hüquqi yardım və digər maraq kəsb edən mövzular ətraflı müzakirə edilməklə faydalı fikir mübadiləsi aparılmışdır.

# Baş prokuror ABŞ-ın ölkəmizdəki səfiri ilə görüşmüşdür



Dekabrın 15-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki Fövqəladə və səlahiyyətli səfiri Örl Litzenbergerlə görüşüb.

Qonaqları səmimi salamlayan Baş prokuror Azərbaycanla ABŞ arasında ənənəvi dostluq və tərəfdaşlıq əlaqələrinə, bütün sahələrdə işgüzar münasibətlərin mövcudluğuna toxunaraq, dövlətlərimizin hüquq mühafizə orqanları arasında əməkdaşlığı haqqında danışıb.

Baş prokuror otuz ilə yaxın dövrdə Azərbaycanın Ermənistan tərəfindən işğal altında saxlanılan beynəlxalq səviyyədə tanınmış ərazilərinin Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında azad edildiyini, ölkəmizin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində, o cümlədən BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq ərazi bütövlüyünü bərpa etdiyini vurğulayıb.

Kamran Əliyev Ermənistanın silahlı qüvvələri tərəfindən ölkəmizin mülki əhalisinə qarşı törədilmiş cinayətlərlə bağlı Baş Prokurorluğun təşkil etdiyi brifinqlərdə ABŞ Səfirliyinin iştirakına görə təşəkkürünü bildirib.

Səmimi qəbula görə təşəkkürünü bildirən səfir Örl Litzenberger ikitərəfli münasibətlərə toxunaraq ABŞ-ın Azərbaycanla əlaqələrə böyük önəm verdiyini və iki ölkə arasında münasibətlərin yüksək səviyyədə və müvəffəqiyyətlə inkişaf etdiyini vurğulayıb. Xüsusilə qeyd olunub ki, ABŞ Azərbaycan Respublikasının ərazi bütövlüyünü tanıyır, dəstəkləyir və ümid edir ki, regionda bundan sonrakı dövrdə sülh və əmin-amanlıq bərqərar olacaqdır.

Səfir mülki əhaliyə və hərbçilərə qarşı törədilmiş qəddarlıqları qətiyyətlə qınadığını qeyd edərək, tərəfləri bu məsələləri araşdırıb təqsirkar şəxslərin cəzalandırılmasına çağırmışdır. O, həlak olmuş şəxslərə başsağlığını ifadə edərək yaralılara şəfa diləmişdir.

Həmçinin vurğulanıb ki, ABŞ hökuməti beynəlxalq humanitar təşkilatlara dəstək verməklə işğaldan azad olunmuş ərazilərin yenidən qurulmasında, maddi-mədəni irsin bərpasında iştirak etmək üçün hazırdır.







Görüş zamanı Azərbaycan Respublikası Prezidentinin tövsiyə və tapşırıqlarına uyğun olaraq prokurorluqda aparılan genişmiqyaslı islahatlar, beynəlxalq təhlükəsizlik və terrorizmə qarşı mübarizədə dövlətimizin göstərdiyi səylər, həmçinin korrupsiyaya qarşı mübarizə sahəsində ölkəmizdə həyata keçirilən institusional və cinayət təqibi tədbirləri qeyd edilərək, insan alveri və narkotik vasitələrin qanunsuz dövriyyəsi, mütəşəkkil cinayətkarlığın digər ağır formaları ilə mübarizə sahəsində beynəlxalq qurumlarla, o cümlədən digər ölkələrin müvafiq qurumları ilə səmərəli əməkdaşlığın əhəmiyyəti vurğulanıb.

# Prokurorluq əməkdaşı Rusiya Federasiyası İstintaq Komitəsinin Sankt-Peterburq Akademiyası tərəfindən təşkil olunmuş ixtisasartırma kursunda iştirak etmişdir



2020-ci ilin 09-27 noyabr tarixlərində Rusiya Federasiyası Baş prokurorluğu ilə beynəlxalq əməkdaşlıq çərçivəsində Rusiya Federasiyası İstintaq Komitəsinin Sankt-Peterburq Akademiyası tərəfindən təşkil olunmuş “İbtidai istintaqın kriminalistik təminatı” mövzusunda keçirilən ixtisasartırma kursunda distant qaydada Baş prokurorluğun Kriminalistika və informasiya texnologiyaları idarəsinin prokuroru Günay Vəliyeva iştirak etmişdir.

İxtisasartırma kursu zamanı “Zoom” online platforması qaydasında Rusiya Federasiyası İstintaq Akademiyasının professor müəllim heyəti tərəfindən proqramın mövzusunu əhatə edən mühazirələr, seminarlar keçirilmiş, kursda iştirak edən dövlətlərin prokurorluq əməkdaşları ilə qarşılıqlı fikir mübadiləsi aparılmışdır. Kursun sonunda Günay Vəliyeva “kriminalistika”, “cinayət hüququ” və “cinayət prosesi” sahələri üzrə test imtahanı və digər yazılı tapşırıqlardan uğurla keçmişdir.

Bununla əlaqədar ona Rusiya Federasiyası İstintaq Komitəsinin Sankt-Peterburq Akademiyası tərəfindən ixtisasartırma kursunu müvəffəqiyyətlə bitirməyini təsdiq edən sertifikat təqdim edilmişdir.



Федеральное государственное казенное образовательное учреждение высшего образования «Санкт-Петербургская академия Следственного комитета Российской Федерации»

УДОСТОВЕРЕНИЕ
о повышении квалификации

Документ о квалификации

Регистрационный номер
26420

Дата выдачи
27.11.2020

г. Санкт-Петербург

Настоящее удостоверение свидетельствует о том, что

ВАЛИЕВА
Гюнай Баба гызы

с 09.11.2020 по 27.11.2020

освоил(а) дополнительную профессиональную программу - программу повышения квалификации

«Криминалистическое обеспечение предварительного следствия»

в объеме 146 часов

в Нижегородском филиале федерального государственного казенного образовательного учреждения высшего образования «Санкт-Петербургская академия Следственного комитета Российской Федерации»

и успешно прошел(а) итоговую аттестацию.

Ректор А.И. Ефремов

# Ermənistanın 27 ildən artıq müddətdə torpaqlarımızı işğal altında saxlaması həmin ərazilərdə urbisid aktlarının törədilməsi ilə nəticələnmişdir

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı, dövlət başçısı cənab İlham Əliyevin dahi Sərkərdə qabiliyyətinin, mübariz Xalqımızın vəhdətinin, şanlı Azərbaycan Ordusunun rəşadətinin təzahürü olan 44 günlük Vətən Müharibəsi nəticəsində 27 ildir işğal altında olan torpaqlarımız erməni cinayətkar hərbi birləşmələrindən təmizlənmişdir.

Torpaqlarımızın işğaldan azad edilməsi, həmin ərazilərdə dövlət hakimiyyətinin bərpa olunması Ermənistan hərbi-siyasi rəhbərliyinin göstərişi ilə törədilmiş sülh və insanlıq, habelə müharibə cinayətlərinin təsirinə məruz qalmış yaşayış məntəqələri, mədəni, dini, iqtisadi və infrastruktur obyektləri ilə əyani şəkildə tanış olmağa şərait yaratmışdır.

İşğaldan azad edilən ərazilərdə olan dağıntıların miqyasının təhlili belə qənaətə gəlməyə imkan verir ki, Ermənistanın işğalçı dairələrinin məqsədi Azərbaycanın ayrılmaz hissəsi olan 22 noyabr 1991-ci il tarixdə ləğv edilmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ətrafında yerləşən ərazilərimizdə soydaşlarımızın yaşaması üçün həyatı əhəmiyyətli bütün şəraiti məhv etmək, bununla da doğma dədə-baba torpaqlarından didərgin düşmüş köçkünlərimizin həmin torpaqlara qayıtmasını mümkünsüz etmək və ya orada yerləşən yaşayış məntəqələrinin bərpasına yönəldilməli olan vəsaitlərin həcminin müstəsna dərəcədə böyüklüyü ilə əlaqədar orada demoqrafik, sosial və iqtisadi vəziyyəti əlverişsiz etmək olmuşdur.

Ermənistan hərbi-siyasi rəhbərliyinin göstərişi ilə törədilən cinayətlər Ağdam, Füzuli, Cəbrayıl və işğaldan edilmiş digər şəhərlərimizdə hökm sürən vəziyyətə istinadən urbisid termininin tədqiqini aktual etmişdir.

"Ağdam urbisidin parlaq təsviri və etirafıdır. Şəhərlərin soyqırımı. Ermənistan 28 il işğal müddətində Ağdamda həqiqi urbisid həyata keçirib". Bu barədə 28 noyabr 2020-ci il tarixdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev özünün tvitterdəki səhifəsində yazmışdır.

Latın dilindəki “urbs” – şəhər və “caedo” – “öldürürəm” sözlərinin birləşməsindən yaranmış urbisid termini şəhərin qəsdən dağılmasını, məhv edilməsini, “öldürülməsini” ifadə edir. Şiddət əksər hallarda insanlara qarşı yönəlmiş olsa da, ətrafımızdakı şəhər mühitinə qarşı yönəldildiyi zaman, eyni dərəcədə dağıdıcı ola bilər. Təsəvvür edin: eviniz dağıdılıb, bir vaxtlar ərzaq aldığınız mağazalar yerlə-yeksən olub, həyatınızı nələrin ətrafında qurmuşdunuzsa hamısı məhv edilib. Həyatımızın əksər hissəsinin bağlı olduğu tikililərə qarşı şiddət – insanların həyat şəraitinə qarşı şiddət aktıdır.

Müharibə, soyqırımı və qlobal siyasət məsələləri üzrə araşdırmaları ilə tanınmış ingilis sosioloqu və akademiki Martin Şou[1] “Şəhərin yeni müharibələri: urbisid və soyqırımı” kitabında qeyd edir: “Urbisid müasir müharibələrdə şəhər mühitinin canlılığını, əhalisinin davamlılığını və şəhərsalma sahəsinin məhv edilməsini nəzərdə tutan cinayətdir.”

“Urbisid” termini sürətli qloballaşma və şəhərləşmə (urbanizasiya) dövründə meydana gəlmişdir. Bu sürətli qloballaşma tendensiyası ətraf ərazilərdən daha çox şəhərlərə qarşı şiddət və dağıntıların artmasına səbəb oldu.

İlk dəfə 1963-cü ildə ingilis yazıçı-fantast Maykl Murkok tərəfindən "Dead God's Homecoming" (“Ölmüş Tanrının Qayıdışı”) romanında işlədilən bu termin daha sonra ABŞ-da 1960-cı illərdəki şəhər yenidənqurma tənqidçiləri tərəfindən istifadə edilməyə başlamışdır. 1972-ci ildə Ada Luiza Haksteybl (amerikalı memarıq üzrə tənqitçisi və yazıçı) və 1996-cı ildə Marşal Berman (amerikalı filosof-marksist, politoloq, ədəbiyyatşünas və şəhərşünas) Bronks kimi ərazilərdə şəhərin yenidənqurulması (və dağıdılması) barədə yazdılar və aqressiv yenidənqurmanın şəhərin sosial təcrübəsinə təsirini vurğuladılar.

“Urbisid” termini elmi dairələrdə yalnız son yarım əsr ərzində geniş yayılmağa başlasa da, tarix dəfələrlə belə hadisələrin şahidi olmuşdur. Romalılar tərəfindən Karfagenin yerlə-yeksən edilməsi, İkinci Dünya Müharibəsi zamanı Polşanın Varşava şəhərinin, Almaniyanın Drezden şəhərinin, Yaponiyanın Xirosima və Naqasaki şəhərlərinin bombalanması – ətrafdakı hər şeyin bilərəkdən məhv edilməsi məqsədini daşıyırdı.

Lakin məhz Yuqaslaviyanın dağılması prosesini müşayiət edən şəhərlərə qarşı şiddət halları (Dubrovnik,

1 Martin Şou - D'Barcelona Estudis Internacionals İnstitutunun Beynəlxalq Münasibətlər üzrə araşdırma professoru, Sussex Universitetinin Beynəlxalq Münasibətlər və Siyasətlər üzrə professoru və Roehampton Universitetinin Beynəlxalq Münasibətlər və İnsan Hüquqları üzrə professoru. O, Avropa Nüvə Silahsızlaşdırması (END) - Polşadan Portuqaliyaya qədər nüvəsiz Avropa üçün ümumavropa hərəkatında fəal iştirak etmiş, bu hərəkatın milli komitəsinin, eləcə də Nüvə Silahsızlaşdırma Kampaniyası təşkilatının üzvü olmuşdur. 1992–1995-ci illərdə Bosniyadakı və 1998–1999-cu illərdə Kosovodakı soyqırım müharibələri qarşısında siyasi qüvvələrin passivliyini tənqid etmişdir.

Vukovar və Mostar kimi şəhərlər dağıdılaraq insanların yaşaması üçün yararsız vəziyyətə salınmışdır ) "urbisid" terminin geniş yayılmasına səbəb oldu.

Bosniya və Herseqovinanın Sarayevo şəhərinin dağıdılmasından sonra bu termin daha çox istifadə olunmağa başladı. Bunun nümunələrini Marşal Bermanın və Boqdan Boqdanoviçin (Serb və Yuqoslaviya memarı və siyasətçisi) əsərlərdə görmək olar. Bundan başqa Bosniya və Herseqovinanın Mostar şəhərindən olan bir qrup Bosniyalı memar da 1992-ci ildə nəşr etdikləri "Mostar 92-də" əsərində Mostar şəhərinin iki hissəsini birləşdirən XVI əsrə aid Qədim Körpünün dağıdılması və şəhərə qarşı tətbiq olunmuş digər şiddət hallarını ifadə etmək məqsədi ilə "urbisid" termimindən istifadə etmişlər. Bosniya və Herseqovinanın Yuqoslaviyadan müstəqilliyini elan etməsindən sonra 1992-1993-cü illərdə əhalisinin sayına görə ölkənin 5-ci şəhəri olan Mostar 18 ay ərzində Yuqoslaviya Xalq Ordusu tərəfindən mühasirədə saxlanılmışdır. 3 Aprel 1992-ci il tarixindən başlayaraq Yuqoslaviya Xalq Ordusu tərəfindən Mostar şəhərinin bombalanması nəticəsində dağıdılmış abidələr sırasında Fransiskan monastırını, Katolik kafedral kilsəsini, yepiskop sarayını (50.000 kitabdan ibarət kitabxanası ilə birlikdə), Karacaş bəy məscidini və digər 13 məscidi göstərmək olar. Mostar şəhərinə qarşı tətbiq olunmuş şiddət aktı nəticəsində şəhər binalarının 90%-dan çoxu dağıdılmışdı.

Zaman keçdikçə "urbisid" termini memarlar, şəhərsalma üzrə mütəxəssislər, elm adamları və tarixçilər tərəfindən müharibə zamanı şəhərlərin artıq təhlükəsiz sığınacaq sayılmadığı, əksinə döyüş meydanının bir hissəsinə çevrildiyini vurğulanmaqla, müasir və keçmişdə baş vermiş müharibələrin təsviri üçün daha tez-tez istifadə olunur. Bəzi müəlliflər isə urbisidin soyqırımın bir hissəsi kimi başa düşülməsinin tərəfdarıdırlar, çünki onlar hesab edirlər ki, insanların evlərini dağıtmaq onlara qarşı şiddət tədbiq etmək deməkdir. Martin Kauard "Urbisid" adlı kitabında məhz bundan bəhs edir.

"Urbisid" termininin dəqiq tərifi bu gün də müzakirə olunmaqda davam edir, konsepsiyanın məhdudluğu hadisələri "urbisid" kimi təsnif etməyi son dərəcə çətinləşdirir. Hadisənin "urbisid" kimi qiymətləndirilməsi üçün niyyətin nədən ibarət olması böyük əhəmiyyət kəsb edir. Terminin beynəlxalq siyasət, antropologiya və sosiologiya kimi bir çox sahələrlə kəsişməsi, bu sahələrin hər birini qane edə biləcək "urbisid"in yekun tərifinin müəyyən edilməsini xüsusilə çətinləşdirir.

"Urbisid" termini tərifi "şəhər" və "şiddət" anlayışları ilə əlaqəlidir. Bir çox hallarda bu elementlərdən biri və ya hər ikisi cinayətkar tərəfindən vəziyyətin kontekstindən çıxarılır. Ya şiddətə məruz qalmış şəhər "şəhər" statusundan endirilir, ya da şiddət aktı zorakı hesab edilmir. Buna görə də "şəhər" və "şiddət" sözlərinin mənası bir əməlin "urbisid" olaraq təsnif edilməsi üçün olduqca vacibdir.

Şəhər – əhali sayına görə böyük, mərkəzləşdirilmiş və ərazicə məhdud yaşayış məntəqəsidir. Effektli özünüidarə, təchizat və nəqliyyat strukturuna malikdir. Şəhərlərin sakinləri etnik, dil, sosial, mədəni, dini və s. baxımdan müxtəlif ola bilər.

"Şəhər" anlayışını müxtəlif formalarda ifadə etmək olar. Misal üçün, şəhər bütün sosial münasibətlərin bazar iqtisadiyyatından qaynaqlandığı iqtisadi sistem kimi təsvir edilə bilər, şəhər bazar tərəfindən formalaşdırılır. Şəhər, eyni zamanda, şəhərdə yaşayan bütün insanların eyni şüuru paylaşdıqları xüsusi ruhi bir mühit kimi də təsəvvür edilə bilər. Eynilə, şəhərlər fərqli sosial və mədəni formaların toplusu kimi qəbul edilə bilər. Nəhayət, şəhər memarlıq baxımından kütlə və məkan toplusu kimi nəzərdən keçirilə bilər.

"Şiddət" bir qayda olaraq, "incitməyə, zərər verməyə və ya öldürməyə yönəlmiş fiziki gücün tətbiqi ilə əlaqəli olan davranış" kimi müəyyən edilir. Lakin "şiddət" anlayışının müəyyən edilməsi zamanı sosioloqlar, tarixçilər, filosoflar və digər alimlər nəzərə alınmalı olan şiddətin digər, birbaşa olmayan formalarını da müəyyən ediblər. Nensi Şeper-Hyuz və Filip Burqua "Müharibədə və Sülhdə Zorakılıq" adlı əsərlərində yazırlar ki, "şiddət yalnız fiziki mahiyyəti - güc, hücum və ya ağrı - baxımından başa düşülməməlidir. Şiddət insanın ləyaqətinə, özünə hörmətinə və ya qurbanın dəyərlərinə edilən hücumları da əhatə edir. Şiddətin sosial və mədəni aspektləri şiddətin mahiyyətini və gücünü müəyyən edən amillərdir."

Şiddətin digər kateqoriyalarından bəziləri - struktur şiddət, simvolik şiddət və qanunlar və ya hərəkətlər yolu ilə hökumət tərəfindən tətbiq olunan şiddətdir. Struktur şiddət cəmiyyətin quruluşu şiddətə səbəb olduğu zaman meydana gəlir. Buna misal olaraq ictimai xidmətlərdən yararlanmaq üçün qeyri bərabər imkanlar yaradan və ya cəmiyyətdəki statuslarından asılı olaraq müxtəlif vətəndaşlara təsir edən qanunları göstərmək olar. Simvolik şiddət, zamanla kök salmış, fərqli təbəqələrin, cinslərin və etnik qrupların rollarına dair cəmiyyətdə qəbul edilmiş normalara aiddir. Nəhayət, siyasi şiddət, hökumətin hərəkət və ya hərəkətsizliyi nəticəsində vurulmuş ziyandır. Bütün bu şiddət növləri urbisid zamanı da öz təzahürünü tapa bilər.

Urbisid birbaşa və dolayı olmaqla iki yolla həyata keçirilə bilər:

– Birbaşa urbisid şəhər ərazilərinin birbaşa, qəsdən və bilərəkdən fiziki cəhətdən məhv edilməsidir. Bu şəhərlərin məhv edilməsinin ən çox yayılmış növüdür. Urbisidin ən kəskin növü şəhərin özünəməxsusluğunun tamamilə məhv edilməsi cəhdi ilə müşaiyyət olunan şəhər ərazilərinin tamamilə dağıdılmasıdır. Şəhər ərazilərinin məhv edilməsi yalnız binalara yönəlmir,

həm də şəhərə özünəməxsusluq verən hər bir şeyi əhatə edir. Birbaşa urbisidin digər forması müəyyən növ binaların və ya şəhər üçün simvolik əhəmiyyətə malik olan (dini, milli və mədəni) binaların məhv edilməsidir. Bu tarixi binalarda təcəssüm olunan kollektiv yaddaşın silinməsi cəhdidir. Bilavasitə urbisidin üçüncü halı bütün növ binalar da daxil olmaqla şəhər mühitinin mənasız şəkildə məhv edilməsidir.

– Dolayı yolla urbisid şəhər ərazilərinə zərər verməyə yönəlmiş tədbir və hərəkətləri əhatə edir. Bu tədbir və hərəkətlər fiziki cəhətdən daha az nəzərə çarpsa da, şəhərin dolayı yolla məhvinə səbəb olan qanunlardan, layihələrdən və digər tədbirlərdən ibarətdir.

Urbisid halları:

**Karfagenin məhv edilməsi.** "Bu tarix – böyük bir cinayətin, qədim dünya mərkəzlərinin birinin məhv edilməsi tarixidir" – alman tarixçisi Oskar Yeqer Üçüncü Pun Müharibəsini belə təsvir edirdi. Pun müharibələri – antik dövrün ən vacib ticarət mərkəzlərindən və ən zəngin şəhərlərindən biri olan Karfagenlə Qədim Roma arasında əvvəlcə Siciliyada, sonra Aralıq dənizinin bütün qərb sahilində hökmranlıq uğrunda e.ə. 264-146 illərdə gedən müharibələrdir. "Karfagen məhv edilməlidir" – məhz bu sözlərlə görkəmli Roma senatoru Mark Porsiy Katon Senatda səsləndirdiyi hər bir çıxışını yekunlaşdırırdı. Üçüncü Pun müharibəsi (e.ə 149-146 illər) zamanı romalılar bu məqsədlərinə nail oldular. E.ə 146-ci ilin yazında Karfagen məhlub oldu. 700 minlik şəhər əhalisindən yalnız 50 mini sağ qaldı, onlar da romalılar tərəfindən qul kimi satıldılar. Roma Senatının əmri ilə şəhər tamamilə dağıdılaraq yerlə-yeksən edildi, ərazisi qazıldı və lənətləndi, orada məskunlaşmaq qadağası qoyuldu.

Təəsüf ki, şəhərlərin dağıdılması, məhv edilməsi müasir dövrdə də baş verir:

**Vukovarın mühasirəsi** – Xorvatiyanın İstiqlal Müharibəsi dövründə 1991-ci ilin avqust-noyabr ayları arasında Şərqi Xorvatiya şəhəri Vukovara qarşı müxtəlif Serb hərbçiləri tərəfindən dəstəklənən Yuqoslaviya Xalq Ordusunun rəhbərliyi ilə həyata keçirilmiş 87 günlük hərbi kampaniya idi. Vukovara bir milyona yaxın mərminin atılması şəhər məhəllələrinin dörddə üçünün məhv edilməsinə səbəb oldu. Bunların arasında məktəblər, xəstəxanalar, kilsələr, dövlət müəssisələri, fabriklər, orta əsrlərə aid Eltz qalası və Nobel mükafatı laureatı Lavoslav Ruziçkinin evi var idi. Şəhərin sistematik şəkildə dağıdılması müxtəlif mənbələrdə, o cümlədən Serbiyadakı İnsan Haqları üzrə Gənclərin Təşəbbüsü kimi hüquq müdafiə təşkilatları tərəfindən "urbisid" kimi qiymətləndirilmişdir. Bu təşkilat keçmiş Yuqoslaviya üzrə Beynəlxalq Cinayət Tribunalını Vukovarın dağıdılması ilə əlaqədar verdikt çıxarılmaması səbəbindən dəfələrlə tənqid etmişdir.[2]

**Sarayevonun mühasirəsi** – Bosniya və Herseqovinanın paytaxtı olan Sarayevonun demək olar ki, dörd il ərzində Yuqoslaviya Xalq Ordusu və sonradan Serb Respublikası Ordusu tərəfindən mühasirədə saxlanılmasıdır. Mühasirə 5 aprel 1992-ci ildə başladılmış və 29 fevral 1996-cı ildə başa çatdırılmışdır. Mühasirə zamanı paytaxt Sarayevo qurudan və havadan blokadaya alınmışdı. Serb ordusu paytaxt ətrafındakı bütün yüksək təpələrdə postlar quraraq giriş və çıxışlara nəzarət edirdilər. Onlar gördükləri hər kəsə, o cümlədən qadınlara, uşaqlara və yaşlılara atəş açırdılar. Bu etnik müharibə nəticəsində əksəriyyəti müsəlmanlar olmaqla 100 minə yaxın dinc sakin qətlə yetirilmiş, bir o qədər də insan qaçqın düşmüşdür. Sarayevo şəhərində baş vermiş zorakılıq aktı etnik təmizləmə adlandırılmışdır. Sarayevoya mütəmadi olaraq ağır artileriya zərbələrinin endirilirilməsi şəhər tikililərinin demək olar ki, tamamilə məhv olmasına gətirib çıxarmışdır. Urbisid nəticəsində şəhərin infrastrukturu məhv edilmiş və minlərlə mülki şəxs qida, su, dərman və s. məhrum olmuşdur. Mühasirə nəticəsində Sarayevo şəhərinə vurulmuş struktur və maddi ziyan dünyanın ən zəngin şərq əlyazmaları kolleksiyasına malik olan Şərq İnstitutunun əlyazmalar fondunu da əhatə edirdi. 1992-ci ilin avqustun 25-dən 26-na keçən gecə yandırıcı mərmilərin atılması nəticəsində isə Balkanların ən böyük mədəni mərkəzlərindən olan Bosniya və Herseqovinanın Milli və Universitet Kitabxanası tamamılə məhv edilmişdir. Bundan başqa hər hansı bir hərbi zərurət olmadan mülki obyektlər də dağıntılara məruz qalmışdı. Bosniya Hökümətinin hesablamalarına görə mərmi atəşi nəticəsində 10.000-dən çox mənzil tamamilə dağıdılmış, 100.000-dən çox mənzilə isə ziyan dəymişdir. Şəhərdəki digər binaların 23%-i ciddi, 64%-i qismən və 10%-i isə yüngül dərəcədə zədələnmişdir. Avropa Şurasının Mədəniyyət və Təhsil Komitəsi öz hesabatında şəhərdəki struktur zədələnmələrini belə şərh etdi: "Sarayevo şəhərinin təcavüzkarlardan çox zərər çəkdiyi aydın şəkildə görünür. Açıq-aşkar insan tələfatlarından başqa, şəhərin infrastrukturuna da ciddi ziyan dəymişdir. Kanalizasiya, elektrik enerjisi, telefon və sair xətlər zədələnib. Binaların əksəriyyətinə bu və ya digər dərəcədə ziyan dəyib. Bəzi binalar tamamilə dağıdılıb. Dağıdılmış tikililər sırasında qədim abidələr və müasir polad karkaslı binalar (məsələn, Unis binası) da var."

**Varşavanın dağıdılması.** Polşanın nasistlər tərəfindən işğalı zamanı, 1944-cü il Varşava

2 Slobodan Miloseviçə, digər ittihamlarla yanaşı, "şəhərin mənasız olaraq dağıdılması" ittihamı irəli sürülsə də, o, hökm çıxarılanadək 11 Mart 2006-cı il tarixində Haaqa həbsxanasında vəfat etmişdir.

üsyanından sonra Nasist Almaniyası tərəfindən məqsədli olaraq Varşava şəhərinin böyük hissəsi dağıdılmışdır. Qiyam alman rəhbərliyini hiddətləndirmişdi və onlar üsyançıları cəzalandırmaq, həmçinin də Lebensraum və Generalplan Ost siyasətinin həyata keçirilməsi məqsədini güdürdülər. Belə ki, Alman Lebensraum konsepsiyası (Alman dilindən tərcümədə "yaşayış sahəsi") 1890-cı illərdən 1940-cı illərədək Almaniyada tətbiq edilən məskünlaşma müstəmləkəçiliyi siyasətini və təcrübəsini əhatə edirdi. Adolf Hitlerin hakimiyyətə gəlməsindən sonra Lebensraum nasismin ideoloji prinsipinə çevrilmişdi. Nasistlərin Generalplan Ost siyasəti («Şərgin Baş Planı») də bu prinsiplərə əsaslanırdı. Onlar hesab edirdi ki, almanlar üçün yaşayış sahəsi lazımdır və bunu təmin etmək məqsədi ilə polyaklar, ukraynalılar, ruslar, çexlər və digər slovyan xalqları daxil olmaqla Orta və Şərqi Avropanın yerli əhalisinin əksər hissəsi (Sibirə kütləvi deportasiya, məhv və ya köləlik yolu ilə) həmişəlik həmin ərazilərdən çıxarılmalı və həmin ərazilərdə almanlar məskunlaşmalıdırlar. Varşava şəhərinə qarşı tətbiq edilən urbisit nəticəsində almanlar şəhər binalarının 80-90%-nı dağıtdılar, mədəni irsin (muzeylərin, sənət qalereyalarının, teatrların, kilsələrin, qalaların və sarayların) böyük bir hissəsini qəsdən yandırdılar və taladılar, Varşavanın "Köhnə şəhər"ini tamamilə məhv etdilər.

**"Murambatsvina" əməliyyatı.** "Urbisid" ifadəsi 1990-cı illərin əvvəllərində Bosniya müharibələri zamanı şəhərlərin dağıdılması və hücumlara məruz qalması ilə əlaqəli olsa da, onun mənası bu gün də inkişaf etməkdədir. Zimbabvedəki hadisələr, urbisidin seçici zorakılıq və şəhərlərin dağıdılması kimi anlayışına uyğun gələrək, eyni zamanda urbisidi soyqırım müharibələri çərçivəsi ilə məhdudlaşdırmır, əksinə onun anlayışını genişləndirir. Rəsmi olaraq "Qaydanın Bərpa edilməsi" Əməliyyatı kimi tanınan "Murambatsvina" Əməliyyatı Zimbabvenin ölkə daxilindəki gecəqondu ərazilərini zorla təmizləmək məqsədi ilə həyata keçirilmiş geniş miqyaslı hökumət kampaniyası idi. Robert Muqabe və digər dövlət rəsmiləri əməliyyatı qanunsuz yaşayış və sahibkarlıq fəaliyyətinin qarşısını almaq və bu ərazilərdə yolxucu xəstəliklərin yayılma riskini azaltmaq cəhdi kimi xarakterizə edirdilər. Əslində isə "Murambatsvina" Əməliyyatı şəhərlərə, qəsəbələrə, periferik şəhər ərazilərinə və köçürülmüş təsərrüfatlara qarşı yönəldilmiş, mənzil, ticarət bazarları və digər "kollektiv" strukturların məhv edilməsi ilə nəticələnən ümummilli şiddət proqramı idi. Kampaniya 2005-ci ildə başlamışdır. Birləşmiş Millətlər Təşkilatının hesablamalarına görə "Murambatsvina" Əməliyyatı nəticəsində Zimbabvenin Harare və Bulavayo şəhərlərinin ən azı 700.000 gecəqondu sakini evlərindən və dolanışıqlarından məhrum oldular. Kampaniya Zimbabvenin müxalifət partiyaları, kilsə qrupları, qeyri-hökumət təşkilatları və ümumiyyətlə beynəlxalq ictimaiyyət tərəfindən sərt şəkildə pislənilmişdir.

– Hələb Döyüşü - Suriyada vətəndaş müharibəsi dövründə 2012-2016-cı illərdə Hələb şəhəri və onun ətrafındakı bölgələrə nəzarəti əldə etmək üçün silahlı qarşıdurmadır. Döyüş əməliyyatları, təxribat və terror hücumları nəticəsində şəhər ciddi dağıntılara məruz qalmışdır. YUNESKO-nun Ümumdünya irsi obyektlərinin siyahısına daxil olan şəhərin tarixi mərkəzinə ciddi ziyan dəymişdir. Birləşmiş Millətlər Təşkilatının Təlim və Elmi-Tədqiqat İnstitutunun hesablamalarına görə 210 Ümumdünya irsi obyektlərinin 22-si tamamilə məhv edilmiş, 48-nə isə ciddi ziyan dəymişdir. Peyk şəkillərinə əsasən 33.500-dən çox yaşayış binasına ziyan dəydiyi müəyyən edilmişdir. Dağıntıların təqribən 70-80%-i uzun müddət üsyançılar tərəfindən saxlanılan şəhərin şərq hissəsində baş vermişdir. Hələb Döyüşündə Hələbin qəsdən dağıdılması bəzi alimlər (Robert Templer və Əl-Hakam Şaar) tərəfindən urbisid kimi qiymətləndirilmişdir.

**Qafqazın Xirosiması.** 1980-ci illərin sonlarında 40 min əhalisi olan Ağdam bu gün "ruhlar şəhəri"dir. 1993-cü il iyulun 4-də erməni silahlı qüvvələri tərəfindən Ağdamın artilleriya atəşinə tutulması nəticəsində şəhərin əksər hissəsi dağıdılmışdır. BMT Təhlükəsizlik Şurası tərəfindən 1993-cü ildə Ağdamın işğalını qəti şəkildə pisləyən və Ermənistan qoşunlarının çıxarılmasını tələb edən 853 saylı qətnamənin qəbul edilməsinə baxmayaraq, işğalçı Ermənistan buna məhəl qoymamış, 1994-cü il may ayının 12-dək davam edən hərbi təcavüz nəticəsində ermənilər Ağdam rayonu ərazisinin 846,7 kvadrat kilometrini, yəni ümumi ərazisinin 77,4 % işğal etməyə nail olmuşlar. Ağdamın müdafiəsi uğrunda gedən qanlı döyüşlərdə 5897 nəfər şəhid olmuş, minlərlə insan əlillik qazanmış, 126 min nəfərdən artıq ağdamlı öz doğma ev-eşiyindən didərgin düşmüşdü. Erməni işğalçıları Azərbaycanın böyük və strateji əhəmiyyət kəsb edən rayonlarından biri olan Ağdamda görünməmiş vandalizm həyata keçiriblər. İşğal nəticəsində Ağdam şəhərində və rayonun kəndlərində bütün yaşayış evləri, ictimai binalar, məktəblər, uşaq bağçaları, xəstəxanalar, istehsalat müəssisələri talan edilmiş, dağıdılmış və yandırılmışdır. Hər şeyi məhv edən erməni vandalları tarixi abidələri, qəbiristanlıqları da məhv ediblər. Işğal zamanı Ağdam şəhərində yerləşən Üzərliktəpə abidəsi, Xaçındərbənd kəndindəki Qutlu Sarı Musaoğlu günbəzi (1314-cü il), Kəngərlidəki (XIV əsrin yadigarı) türbə və daş abidələr, Papravənddəki XVII əsrdən qalan Xanoğlu türbəsi, Xan qızı Natəvanın və oğlunun şərəfinə tikilmiş türbə, Şahbulaq qalası kimi tarixi-memarlıq abidələri dağıdılmışdır. Digər tarixi abidələrimizlə

yanaşı XIX əsrin yadigarı olan Ağdam məscidi də erməni vandalları tərəfindən talan edilmiş, yandırılmış, dağıntılara məruz qalmışdır. Vaxtilə Azərbaycanın ən varlı rayonu olan Ağdamın yerində indi yalnız talan edilərək dağıdılmış "Qafqazın Xirosiması"na çevrilmiş xarabalıqlar qalıb[3].

Ermənistanın otuz ilə yaxın davam edən işğalçılıq siyasəti nəticəsində Azərbaycan Respublikasının 26 noyabr 1991-ci il tarixdə ləğv edilmiş Dağlıq Qarabağ Muxtar Vilayəti və ətraf 7 rayon, habelə Qazax rayonunun 7, Naxçıvan MR-nın Sədərək rayonunun 1 kəndi daxil olmaqla, 12 min kvadrat kilometrlik ərazisində ümumilikdə 900 yaşayış məntəqəsi, 150 min yaşayış evi və mənzil, 7093 ictimai bina, 1107 təhsil müəssisəsi, 855 uşaq bağçası, 521 tibb müəssisəsi, 4 sanatoriya-müalicə kompleksi, 2 000 km qaz xətti, 7568 km su xətti, 34 paylayıcı qurğu, 76 940 elektrik xətti, 5198 km avtomobil yolları, 348 ədəd körpü, 28 980 km kabel-kanalzizasiya qurğuları, Azərbaycan Dəmir Yollarının Yevlax-Ağdam-Xənkəndi, İmişli-Mincivan-Ağbənd və digər sahələrinin ümumilikdə 325,8 km hissəsi, bu sahələrdə olan stansiya binaları, dispetçer məntəqələri, digər əmlak məhv edilmiş və ya zədələnmiş, habelə talan olunmuşdur.

Məlum olduğu kimi, işğal altında olan rayonlarımız Azərbaycanın Yuxarı Qarabağ (Ağdam, Tərtər, Xocavənd, Xocalı, Şuşa, Cəbrayıl, Füzuli, Əsgəran rayonları və Xankəndi şəhəri) və Kəlbəcər-Laçın iqtisadi rayonlarına (Kəlbəcər, Laçın, Zəngilan və Qubadlı rayonları) aiddir.

xanası, Araz çayı boyu olan rayonlarda qum-çınqıl karxanaları), maşınqayırma (Ağdam – dəzgahqayırma, Xankəndi – elektrotexnika), dağ-mədən (Kəlbəcər, Zəngilan) sənaye sahələrini əhatə etmişdir. İşğal nəticəsində bu iki iqtisadi rayonda 2389 sənaye obyekti dağıdılmış, yararsız hala salınmış və qarət edilmişdir.

Ermənistanın Azərbaycan Respublikasına qarşı təcavüzkar siyasəti nəticəsində işğal edilmiş ərazilərdə yerləşən yaşayış evləri, təhsil, sənaye və kənd təsərrüfatı obyektləri ilə yanaşı yüzlərlə mədəniyyət müəssisəsi, o cümlədən 4,6 milyon kitab fondu olan 927 kitabxana, 12 dövlət arxivi, 401 000 arxiv fondu sənədləri, 808 mədəniyyət sarayı, klub və mədəniyyət evi, 85 musiqi və rəssamlıq məktəbi, 100 mindən artıq eksponatın toplandığı 22 muzey və muzey filialı, 4 rəsm qalereyası, 4 teatr müəssisəsi, 2 konsert müəssisəsi, 8 mədəniyyət və istirahət parkı, 700-dən artıq tarix və mədəniyyət abidəsi, o cümlədən







**Ağdamda Pənah Əli xanın imarəti erməni vandalizminə məruz qalıb.**

Kənd təsərrüfatı ilə yanaşı, bu iqtisadi rayonların iqtisadiyyatının əsasını 1993-cü ildək olan dövrdə yeyinti, o cümlədən qida (çörək, qənnadı, süd məhsulları istehsalı) konserv, şərabçılıq (Cəbrayıl, Ağdam, Xankəndi, Füzuli, Xankəndi və s.), süfrə suları (Kəlbəcər), yüngül sənaye (Ağdam, Xankəndi), tikinti materiallarının istehsalı (Ağdam rayonunda yerləşən mişar daşı kar-

Cəbrayıl rayonunda 11 və 15 aşırımlı Xudafərin körpüləri, Kəlbəcər rayonunda Gəncəsar və Xudavənd məbədləri, Füzuli rayonu ərazisində dünyanın ən qədim sakinlərinin yaşayış məskənlərindən biri – Azıx mağarası, Xocavənd rayonunda Tağlar mağaras, Şuşa Dövlət Tarix-Memarlıq Qoruğu erməni vandalizminin qurbanına çevrilmişdir. Hərbi zərurət olmadan hərbi

3 2008-ci ildə "Lonely Planet" jurnalı Ağdamı "Qafqaz Hiroşiması" adlandırmış, 2010-cu ildə isə Əl-Cəzirənin internet nəşri Ağdamı "ruhlar şəhəri" siyahısına salmışdır.



**Ağdamda Xan qızı Natavanın dağıdılmış məzarı**

əməliyyatların dəstəklənməsi üçün istifadə olunmuş gücləndirilmiş mühafizə altındakı Xocalı, Ağdam rayonunda Üzərliktəpə, Füzuli rayonunda Qaraköpək kurqanları və digər tarixi mədəniyyət abidələri, eləcə də arxeoloji qazıntılar zamanı aşkar edilmiş ümumdünya əhəmiyyətinə malik 100 mindən artıq qiymətli və nadir eksponatlar məhv edilmiş və talanmış, habelə işğalı əbədiləşdirmək və ermənilərin guya işğal olunmuş ərazilərdə tarixən yaşamasını beynəlxalq ictimaiyyətə inandırmaq üçün aparılmış qanunsuz arxeoloji qazıntı işləri zamanı aşkar olunmuş Azərbaycan xalqına məxsus tarixi mədəniyyət nümunələri talan edilərək Ermənistan Respublikasına qanunsuz olaraq aparılmışdır.

Təəssüf ki, hazırda beynəlxalq və humanitar hüquqda urbisidə dair birbaşa müddəalar mövcud deyildir. Bu termin yalnız bu yaxınlarda, 1990-cı illərdə Yuqoslaviya müharibələri dövründə yarandığı və təfsir edildiyi üçün, beynəlxalq hüquqda öz əksini tapa biləcək dərəcədə ictimai fikirin formalaşmasına və müzakirələrə səbəb olmamışdır. Lakin bəzi nəzəriyyəçilərin düşündüyü kimi "soyqırımı" və "urbisid" sinonim terminlər hesab edilərsə, urbisidin 9 dekabr 1948-ci il tarixində Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul edilən "Soyqırımı cinayətlərinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyaya və digər beynəlxalq qanunlara görə artıq qadağan olunduğu iddia edilə bilər[4]. Eyni zamanda etiraf edilməlidir ki, beynəlxalq hüquq baxımından soyqırımı anlayışının birmənalı tətbiq edilə bilinmədiyi hallarda urbisid konsepsiyası şəhər əhalisinə və şəhər mühitinə qarşı tətbiq edimiş şiddətə daha düzgün hüquqi qiymət verilməsini təmin edə bilərdi.

Hazırda silahlı münaqişələr zamanı mülki obyektlərin qorunması ilə bağlı məsələlər 18 oktyabr 1907-ci il tarixli «Quruda müharibə qanunları və adətləri haqqında» Haaqa Konvensiyası, 12 avqust 1949-cu il tarixli "Müharibə zamanı mülki əhalinin müdafiəsi haqqında" Cenevrə Konvensiyası (IV Konvensiya), Cenevrə Konvensiyalarına 8 iyun 1977-ci il tarixli Əlavə Protokollar, 14 may 1954-cü il tarixli "Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında" Haaqa Konvensiyası, Haaqa Konvensiyasına 14 may 1954-cü il və 26 mart 1999-cu il tarixlərində əlavə edilmiş iki Protokol və bir sıra digər beynəlxalq sənədlərlə tənzimlənir.

Qeyd edilməlidir ki, ayrı-ayrı mülki obyektlərə hücumların qadağan olunmasını konvension qaydada təsbit edən ilk beynəlxalq müqavilə «Quruda müharibə qanunları və adətləri haqqında» 18 oktyabr 1907-ci

4 Bu anlayış genosidin Konvensiyada qeyd olunmuş tərifi ilə eynilik təşkil etməsə də, insanların məhvi ilə müşayiət olunduğundan bəzi hallarda urbisidi genosidin bir növü hesab etmək olar.




**Dünyada ikinci, MDB-də isə birinci və yeganə hesab edilən Ağdam Çörək Muzeyi ermənilər tərəfindən dağıdılmış, Muzeydəki 1500-dək eksponat isə məhv edilmişdir.**

il tarixli Dördüncü Haaqa Konvensiyası olmuşdur. Konvensiyasının 23-cü maddəsinin "j" bəndinə əsasən, "düşmən əmlakını məhv etmək və ya ələ keçirmək, əgər bu cür məhv və ya ələ keçirmə hərbi zərurətdən irəli gəlmirsə" qadağan olunur.

12 avqust 1949-cu il tarixli "Müharibə zamanı mülki əhalinin müdafiəsi haqqında" Cenevrə Konvensiyasının 53-cü maddəsində bu qaydaya dair tələblər daha geniş şəkildə təsvir edilmişdir. Konvensiyaya əsasən, "İşğalçı Dövlət tərəfindən ayrı-ayrı şəxslərin və ya dövlətin, icmaların yaxud ictimai və ya kooperativ təşkilatların fərdi və ya kollektiv mülkiyyətdə olan hər hansı bir daşınar və ya daşınmaz əmlakın hərbi əməliyyatlar üçün zərurət olmadan məhv edilməsi qadağan edilir"[5]. Konvensiyanın 147-ci maddələsi hərbi zərurət olmadan qanunsuz, əsassız və geniş miqyasda dağıntıların aparılmasını və mülki şəxslərin əmlakının mənimsənilməsini Konvensiyanın ciddi pozuntusu kimi qiymətləndirir.

1977-ci ildə qəbul edilmiş Cenevrə Konvensiyalarına I saylı Əlavə Protokol müharibə zamanı mülki obyektlərin qorunmasını tənzimləyən bir sıra normaları təsbit etməklə bu sahədə beynəlxalq humanitar hüquqda olan bəzi boşluqları aradan qaldırmış oldu. İlk dəfə olaraq mülki obyekt və hərbi obyekt anlayışlarına aydınlıq gətirildi, mülki obyektlərin qorunması şərtlərini müəyyən edən normalar konkretləşdirildi, döyüş əməliyyatlarının aparılması zamanı mülki obyektlərin qorunmasının təmin edilməsinə dair münaqişə tərəflərinin əsas vəzifələri təsbit olundu, silahlı münaqişələr zamanı mülki obyektlərin qorunmasına dair qaydaların pozulmasına görə məsuliyyət məsələləri öz əksini tapdı.

I saylı Əlavə Protokolun "Mülki obyektlərin ümumi müdafiəsi" adlı 52-ci maddəsinə əsasən, hücum yalnız hərbi obyektlərlə məhdudlaşmalı, mülki obyektlər "hücum və repressaliy" hədəfinə çevrilməməlidir. Həmin maddənin 2-ci bəndində "hərbi obyekt" termininin müasir anlayışı verilir. Protokola əsasən, hərbi obyektlər dedikdə öz xarakteri, mövqeyi, təyinatı və



**Şuşadakı Aşağı Gövhər ağa məscidinin qəsdən dağıdılması, Ermənistamnın vandalizm siyasətinin tərkib hissəsidir.**



**Bülbülün Şuşadakı ev-muzeyinin önündəki büstü dağıdılıb, evi uçurulub, eksponatlar isə qarət olunub.**

5 Azərbaycan Respublikası "Müharibə zamanı mülki əhalinin müdafiəsi haqqında" 12 avqust 1949-cu il tarixli Cenevrə Konvensiyasına 1993-cü ildə qoşulmuşdur.




**Nizami Gəncəvinin əsərindəki Fərhad obrazının heykəli işğildan əvvəl və sonra. Heykəl bir vaxtlar Ağdamın nişanələrindən biri kimi tanınırdı.**

istifadəsi baxımından hərbi əməliyyatlar üçün ciddi əhəmiyyət daşıyan, tam və qismən dağıdılması, ələ keçirilməsi və neytrallaşdırılması həmin məqamda mövcud olan şəraitdə aşkar hərbi üstünlük qazandıran bütün obyektlər başa düşülür. "Hərbi obyekt" kimi müəyyən edilmiş obyektlərə aid olmayan bütün obyektlər isə "mülki obyektlər" hesab olunur. Protokolun müddəalarına görə, adətən mülki məqsədlər üçün nəzərdə tutulan hər hansı obyektdən, məsələn ibadətgahdan, evdən və ya digər yaşayış binasından və ya məktəbdən hərbi əməliyyatlara səmərəli yardım göstərmək məqsədilə istifadə edildiyinə dair şübhə olduqda, bu obyektdən mülki məqsədlər üçün istifadə edildiyi ehtimal olunur.

Qeyd olunan ümumi normalardan başqa I Əlavə Protokolda konkret obyektlərin mühafizəsi haqqında da bəzi müddəalar öz əksini tapmışdır. Belə ki, I saylı Əlavə Protokolun 53-cu maddəsinə əsasən "Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında" 14 may 1954-cü il tarixli Haaqa Konvensiyasının və başqa müvafiq beynəlxalq sənədlərin müddəalarına xələl gətirmədən aşağıdakılar qadağandır: a) xalqların mədəni və ya dini irsini təşkil edən tarixi abidələrə, incəsənət əsərlərinə və ya ibadətgahlara qarşı hər hansı düşmənçilik hərəkətləri; b) belə obyektlərdən hərbi səyləri dəstəkləmək ınəqsədilə istifadə olunması; c) belə obyektlərin "repressaliy" obyektinə çevrilməsi.

"Mədəni sərvət" anlayışı "Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında" Haaqa Konvensiyasının[6] 1-ci maddəsində verilmişdir. Konvensiyaya əsasən, mənşəyindən və sahibindən asılı olmayaraq hər bir xalqın mədəni irsi üçün böyük əhəmiyyət kəsb edən daşınar və ya daşınmaz sərvətlər (memarlıq, incəsənət və ya tarixi, dini və ya dünyəvi abidələr; arxeoloji qazıntı yerləri; tarixi və ya bədii əhəmiyyət kəsb edən memarlıq ansamblları; incəsənət əsərləri; bədii, tarixi və ya arxeoloji əhəmiyyəti olan əlyazmalar, kitablar və digər əşyalar; həmçinin elmi kolleksiyalar və ya kitab və arxiv materiallarının, yaxud yuxarıda göstərilən sərvətlərin reproduksiyalarının mühüm kolleksiyaları) mədəni sərvət hesab olunur. Mədəni sərvət anlayışına həmçinin, əsas və həqiqi məqsədi




**Ağdamın məşhur simvollarından hesab edilən və 1986-cı ildə istifadəyə verilən "Çay evi" işğalçı ermənilər tərəfindən darmadağın edilib.**

6 Azərbaycan Respublikası "Silahlı münaqişə zamanı mədəni dəyərlərin qorunması haqqında" 14 may 1954-cü il Haaqa Konvensiyasına və ona dair Birinci Protokola 1993-cü, İkinci Protokola isə 2000-ci ildə qoşulmuşdur.

daşınar mədəni sərvətlərin saxlanması və ya sərgilənməsi olan binalar (muzeylər, iri kitabxanalar, arxivlər, habelə həmin bənddə göstərilmiş daşınar mədəni sərvətləri silahlı münaqişə zamanı saxlamaq üçün istifadə olunan sığınacaqlar), habelə mədəni sərvətlərin çox olduğu "mədəni sərvətlərin cəmləşdiyi mərkəz" adlandırılan mərkəzlər də daxildir.



Mədəni sərvətin eyni məzmunlu anlayışı Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 116-cı maddəsinin Qeyd hissəsində verilmişdir. Həmin maddəyə əsasən mədəni sərvətlərə qarşı edilmiş





**Dağıdılmış Ağdam şəhərindən görüntülər**

bir çox əməllər, o cümlədən "hərbi zərurət olmadan qəsdən mədəni sərvəti, o cümlədən gücləndirilmiş mühafizə altında olan mədəni sərvəti hücum obyektinə çevirmə, yaxud gücləndirilmiş mühafizə altında olan mədəni sərvətdən və ya ona bilavasitə bitişik ərazilərdən hərbi əməliyyatların dəstəklənməsi üçün istifadə etmə" (AR CM m. 116.0.8-1); "mədəni sərvəti qəsdən böyük həcmdə dağıtma və ya mənimsəmə, yaxud mədəni sərvətə münasibətdə oğurluq, soyğunçuluq, qanunsuz mənimsəmə və ya vandalizm aktları törətmə; mədəni sərvəti işğal edilmiş ərazidən qanunsuz çıxarma, yaxud həmin ərazidə olan mədəni sərvətə mülkiyyət hüququnu başqasına vermə və ya ona xitam vermə" (AR CM m. 116.0.8-2) və "mədəni sərvətin bilavasitə qorunması, uçotu və ya saxlanılması tələb edildiyi hallar istisna olmaqla, işğal edilmiş ərazidə hər hansı arxeoloji qazıntı aparma; mədəni sərvətin mədəni, tarixi və ya elmi xarakterini gizlətmək və ya məhv etmək məqsədi ilə onu modifikasiya etmə və ya ondan istifadə növünü dəyişdirmə" (AR CM m. 116.0.8-3) silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarının pozulması kimi qiymətləndirilir və cinayət məsuliyyətinə səbəb olur.

Mədəni sərvətlərdən başqa I Əlavə Protokolla qorunan mülki obyektlərə həmçinin mülki əhalinin sağ qalması üçün zəruri olan obyektlər (maddə 54), ətraf mühit (maddə 55), dağıdılması mülki əhali arasında böyük itkilərə səbəb ola bilən və ya mülki obyektlərə əhəmiyyətli zərər vura bilən qurğular (maddə 56), müdafiə olunmayan ərazilər (maddə 59), silahsızlaşdırılmış zonalar (maddə 60) və s. daxildir. I Əlavə Protokolun 85-ci maddəsinin 3-cü bəndinə əsasən, bilərəkdən mülki əhali arasında çoxsaylı itkilərə səbəb ola biləcək və ya mülki obyektlərə əhəmiyyətli zərər vura biləcək qeyri-seçim xarakterli hücumların edilməsi, təhlükəli gücə malik qurğu və tikintilərə (bəndlər, dambalar, atom elektrik stansiyaları və s.) hücumların edilməsi, müdafiə olunmayan ərazilərin və silahsızlaşdırılmış zonaların hücum obyektinə çevrilməsi Protokolun ciddi pozuntusu hesab edilir. Həmin maddənin 5-ci bəndinə uyğun olaraq Konvensiyaların və Protokolun tətbiqinə xələl gətirmədən bu sənədlərin ciddi pozuntuları müharibə cinayətləri sayılır.

Müasir beynəlxalq hüquq beynəlxalq humanitar hüququn pozulmasına görə həm silahlı münaqişə tərəfləri olan dövlətlərin, həm də yüksək hərbi komandanlığa daxil olan ayrı-ayrı şəxslərin məsuliyyət daşıdıqlarını bəyan edir. Beynəlxalq humanitar hüquq normalarının pozulmasına yol vermiş dövlətin cəzalandırılması ilk növbədə "kvazi-mülki" sanksiyaların tətbiq olunmasını nəzərdə tutur. Bu sanksiyalar dövlətlərin üzərinə vurduqları ziyana görə təzminat ödəmək öhdəliyi qoyur. Ilkin olaraq 1907-ci ildə Haaqa hüququ ilə nəzərdə tutulmuş bu məsuliyyət forması Cenevrə hüququnda da (1977-ci il I Əlavə Protokolunda) eynilə təkrar olunur. I Əlavə Protokolun 91-ci maddəsi Konvensiyanın və ya Protokolun müddəalarını pozan münaqişə tərəfinin üzərinə vurulmuş ziyanı ödəmək öhdəliyini qoyur və onun silahlı qüvvələrinə daxil olan şəxslərin bütün əməllərinə görə məsuliyyət daşıdığını vurğulayır.

Eyni zamanda beynəlxalq humanitar hüquq normalarına görə, müharibə cinayəti törətmiş və ya törədilməsi barədə əmr vermiş ayrı-ayrı şəxslər öz

hərəkətlərinə görə fərdi cinayət məsuliyyəti daşıyırlar. Nəzərə alınmalıdır ki, müharibə cinayəti törətmiş hər bir şəxs vətəndaşlığından və cinayətin harada və kimlərə qarşı törədilməsindən asılı olmayaraq istənilən dövlət tərəfindən cəzalandırıla bilər. Bu, beynəlxalq hüquqda universal yurisdiksiya prinsipi - quasi delicta juris gentium - adlanır. Universal yurisdiksiyanın tətbiqi hallarına misal olaraq Ruanda soyqırımı zamanı müharibə cinayətləri törətmiş iki ruandalı dayənin, Mariya Kisito və Gertrude bacılarının 2001-ci ildə Belçika məhkəməsi tərəfindən məhkum edilməsini, hərbiləşmiş serb qruplaşması lideri Nikola Yorgiç və serb əsgəri Novislav Dyayiçin Bosniya və Hertseqovinada törətdikləri soyqırım cinayətlərinə görə 1997-ci ildə Almaniya məhkəmələri tərəfindən məhkəmə qaydasında təqibi və barələrində hökm çıxarılmasını, Çadın eks-prezidenti Hissene Habrenin prezidentliyi dövründə törədilmiş insanlıq əleyhinə cinayətlərə, işgəncəyə, müharibə cinayətlərinə və insan haqları sahəsində digər pozuntulara dair 2005-ci ildə Belçika məhkəməsi tərəfindən onun barəsində istintaq aparılması və ittiham hökmü çıxarılmasını göstərmək olar.

Universal yurisdiksiya prinsipinə dair müddəalar 12 avqust 1949-cu il tarixli "Müharibə zamanı mülki əhalinin müdafiəsi haqqında" Cenevrə Konvensiyasının 49, 50, 129 və 146-cı maddələrində öz əksini tapmışdır. Konvensiyanın göstərilən maddələri Razılığa gələn yüksək Tərəflərin üzərinə ciddi pozuntu hesab edilən əməlləri törətmiş və ya bu əməllərin törədilməsinə dair əmr vermiş şəxslərin cinayət məsuliyyətinə cəlb edilərək cəzalandırılmalarını təmin edəcək qanunvericiliyin qəbul edilməsi, vətəndaşlığından asılı olmayaraq bu əməlləri törətmiş şəxslərin müəyyən edilərək onlara qarşı ittiham irəli sürülməsi və mühakimə edilməsi öhdəliyini qoyur. Eyni zamanda Razılığa gələn yüksək Tərəflərdən hər biri lazım bildikdə, öz qanunvericiliyinin müddəalarına uyğun olaraq həmin şəxslərin mühakimə edilməsi üçün digər maraqlı Razılığa gələn yüksək Tərəfə verə bilər, bu şərtlə ki, həmin Razılığa gələn yüksək Tərəfdə göstərilən şəxslərə qarşı ittiham irəli sürülməsi üçün əsas verən sübutlar olsun. Beləliklə, dövlət vətəndaşlığından və cinayətin törədilmə yerindən asılı olmayaraq Konvensiyanın ciddi pozuntusu hesab edilən əməlləri törətmiş və ya bu əməllərin törədilməsinə dair əmr vermiş şəxsi ya özü mühakimə etməli, ya da maraqlı dövlətin müvafiq sorğusu əsasında mühakimə olunması üçün həmin dövlətə təhvil verməlidir.



Universal yurisdiksiya prinsipilə bağlı mühüm müddəalar 1 sentyabr 2000-ci il tarixində qüvvəyə minmiş Azərbaycan Respublikası Cinayət Məcəlləsində də öz əksini tapmışdır. Cinayət Məcəlləsinin 12-ci maddəsinin 3-cü bəndi müharibə cinayətləri törətmiş Azərbaycan Respublikası vətəndaşlarının, əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin, cinayətlərin törədilməsi yerindən asılı olmayaraq, həmin Məcəllə əsasında cinayət məsuliyyətinə cəlb edilmələrini və cəzalandırılmalarını təsbit edir.

IV Cenevrə Konvensiyasının 146-cı maddəsinin Razılığa gələn yüksək Tərəflərin qanunvericiliyinə dair tələblərinə uyğun olaraq Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarının pozulması, yəni "mühüm dağıntılara səbəb ola bilən müharibə üsullarından istifadə etmə" (CM m. 116.0.1.); "ətraf





**Füzulidə dağıdılmış Alxanlı məscidindən görüntülər**

mühitə qəsdən geniş, uzun sürən və ciddi ziyan vurma" (CM m. 116.0.2.); "hərbi zərurətdən irəli gəlməyən geniş miqyaslı dağıntılar törətmə" (CM m. 116.0.6.); "müdafiə olunmayan ərazilərə, yaşayış məntəqələrinə və silahsızlaşdırılmış zonalara hücum etmə" (CM m. 116.0.6.); "hərbi hədəf olmayan, aydın görünən və fərqləndirilən dini, təhsil, elm, xeyriyyə, tibb obyektlərinə, xəstə və yaralıların yerləşdirildiyi yerlərə hərbi zərurət olmadan hücum etmə" (CM m. 116.0.8.); "dağıdılması mülki əhali arasında böyük itkilərə səbəb ola bilən və ya mülki obyektlərə əhəmiyyətli zərər vura bilən qurğulara hücum etmə" (CM m. 116.0.12.) və s. əməllərə görə cinayət məsuliyyətini nəzərdə tutan 116-cı maddə daxil edilmişdir.

Bu maddə ilə nəzərdə tutulmuş cinayətin ictimai təhlükəliliyi silahlı münaqişələr zamanı beynəlxalq humanitar hüquq normalarının pozulması ilə müşaiyyət olunan və şəxsiyyətə, mülkiyyətə, xüsusi mühafizə altında olan tarixi, mədəni, dini, elmi və sair abidələrə kütləvi zərər vurulmasında ifadə olunan hərəkətlərin törədilməsi ilə xarakterizə olunur. Cinayətin obyektini silahlı münaqişələr zamanı beynəlxalq humanitar hüquq normaları ilə müəyyən edilmiş müharibə aparılmasının yol verilən metod və vasitələrinin sistemi ilə bağlı beynəlxalq münasibətlər təşkil edir. Əlavə obyekt qismində insanların sağlamlığı, təhlükəsizliyi, həyatı, mülkiyyətə olan hüquqları, ətraf mühitin qorunması, insanların ekoloji təhlükəsizliyinin təmin edilməsi və sair çıxış edir. Bu cinayət obyektiv cəhətdən silahlı münaqişələr zamanı beynəlxalq humanitar hüquq normalarının pozulmasında ifadə olunan əməllərlə xarakterizə olunur. Cinayət Məcəlləsinin 116.0.1-116.0.18-ci maddələrində nəzərdə tutulmuş əməllərin törədildiyi andan cinayət başa çatmış hesab olunur. Subyektiv cəhətdən cinayət birbaşa qəsdlə törədilir. Təqsirkar bu maddənin dispozisiyasında sadalanan əməlləri törətdiyini dərk edir və bunları arzu edir. Cinayətin subyekti silahlı münaqişənin iştirakçısı olan və cinayət törədilənədək 16 yaşı tamam olmuş anlaqlı fiziki şəxslərdir (əmrlər vermək səlahiyyətinə malik vəzifəli şəxslər və ya vəzifəsi olamayan şəxslər). Qeyd edilməlidir ki, müharibə cinayətləri törətmiş şəxslər 14 dekabr 1967-ci il tarixli "Ərazi sığınacağı haqqında" Bəyannamənin 1-ci maddəsinin 2-ci bəndinə və 28 iyul 1951-ci il tarixli "Qaçqınların statusu haqqında" Konvensiyasının 1 (e) maddəsinə əsasən siyasi sığınacaq və ya qaçqın statusu almaq hüququna malik deyillər.

Beynəlxalq humanitar hüququn mühüm xüsusiyyətlərindən biri də müharibə cinayətlərinə münasibətdə cinayət məsuliyyətinə cəlb etmə müddətinin tətbiq olunmamasıdır. Bunun hüquqi əsası "Hərbi cinayətlərə və bəşəriyyətə qarşı cinayətlərə cinayət məsuliyyətinə cəlbetmə müddətinin tətbiq edilməməsi haqqında" Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən 26 noyabr 1968-ci il tarixdə qəbul olunmuş Konvensiyada[7] və Avropa Şurası tərəfindən 25 yanvar 1974-cü ildə qəbul edilmiş və 2003-cü il 27 iyunda qüvvəyə minmiş "Müharibə cinayətlərinə və insanlıq əleyhinə cinayətlərə müddətin tətbiq edilməməsi haqqında" Konvensiyada təsbit edilmişdir. Bu prinsip Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 75.5-ci maddəsində də öz əksini tapmışdır. Həmin maddədə sülh və insanlıq əleyhinə, terrorçuluq, ter-







**Qubadlı rayonunda XVIII əsrə aid məscid tamamilə dağıdılmış, təhqir əlaməti olaraq donuzxanaya çevrilmiş, ağaclar kəsilərək məhv edilmişdir.**



**Kəlbəcər rayonunda ermənilər tərəfindən yaşayış evləri və infrastrukturun məhv edilmişdir**

rorçuluğu maliyyələşdirmə və müharibə cinayətləri törətmiş şəxslərə müddətin keçməsi ilə bağlı cinayət məsuliyyətindən azad etməyə dair Cinayət Məcəlləsinin müddəalarının tətbiq olunmadığı təsbit edilir. Beləliklə, nə beynəlxalq hüquqda, nə də milli qanunvericilikdə müharibə cinayətlərini törətmiş şəxslərin məsuliyyətə cəlb edilmələri üçün vaxt məhdudiyyəti nəzərdə tutulmamışdır və bu cinayətləri törətmiş şəxslər cinayətin törədildiyi vaxtdan asılı olmayaraq mühakimə oluna bilərlər.

Xüsusi olaraq qeyd edilməlidir ki, Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində dəymiş ziyanın qiymətləndirilməsini və aradan qaldırılmasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 06 noyabr 2020-ci il tarixli "2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması ilə bağlı tədbirlər haqqında" Sərəncamı əsasında Dövlət Komissiyası yaradılmışdır.

Həmin Sərəncamdan irəli gələn vəzifələrin icrası məqsədilə digər dövlət orqanları ilə əlaqəli zəruri işlərin həyata keçirilməsinə başlanılmışdır.

Göstərilənlərlə yanaşı, Ermənistanın hərbi və siyasi rəhbərliyinin sülh və insanlıq cinayətlərinə hüquqi qiymət verilməsi, təqsirkar şəxslərin məsuliyyətə cəlb edilməsi, xalqımıza qarşı törədilən bu vəhşiliklərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində bir çox digər tədbirlər həyata keçirilmiş və hazırda da bu qəbildən olan işlər intensiv şəkildə davam etdirilir.

Beləliklə, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində erməni hərbi-siyasi rəhbərliyinin göstərişi ilə müharibənin aparılmasına dair beynəlxalq humanitar hüququn norma və prinsipləri dəfələrlə kobud şəkildə pozularaq çoxsaylı sülh və insanlıq, habelə müharibə cinayətləri törədilmişdir. Həmin cinayət əməllərinin mühüm hissəsi işğal altında olmuş torpaqlarda soydaşlarımızın yaşaması üçün həyatı əhəmiyyətli bütün şəraiti məhv etmək, şəhərlərin genosidini – urbisid törətmək, bununla da məcburi köçkünlərimizin həmin torpaqlara qayıtmasını mümkünsüz, həmin ərazilərdə demoqrafik, sosial və iqtisadi vəziyyəti Azərbaycan dövləti üçün əlverişsiz etmək olmuşdur. Lakin Ermənistan hərbi-siyasi rəhbərliyinin bu cinayətkar planları Vətən müharibəsinin nəticələrinə uyğun olaraq darmadağın edilməklə, Ölkə Başçısı cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq işğaldan azad edilən torpaqlarımız yaxın illərdə ölkəmizin ən inkişaf etmiş bölgəsinə çevriləcəkdir.

Eyni zamanda bu cinayətləri törətmiş şəxslərin ölkədaxili və beynəlxalq-hüquqi müstəvidə cinayət, mülki hüquqi məsuliyyətə cəlb edilməsi üçün ardıcıl və kəsərli tədbirlər həyata keçirilməkdidir.

Beynəlxalq ictimaiyyət bu hüquqazidd əməllərin cəzasız qalmasına imkan verməməli və bütün mümkün mexanizmlər vasitəsilə cinayətkarların cəzalandırılması üçün Azərbaycana dəstək nümayiş etdirməlidir.

**Mübariz Əhmədov,**
**Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəisi baş ədliyyə müşaviri.**
**Yelena Qasımova,**
**Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin Prokurorluq işçilərinin fəaliyyətinin qiymətləndirilməsi və peşə hazırlığının təşkili şöbəsinin böyük prokuroru kiçik ədliyyə müşaviri.**

7 Azərbaycan Respublikası "Hərbi cinayətlərə və bəşəriyyətə qarşı cinayətlərə cinayət məsuliyyətinə cəlbetmə müddətinin tətbiq edilməməsi haqqında" Konvensiyaya 31 may 1996-cı il tarixində qoşulmuşdur.

# Mülki məhkəmə icraatında həqiqət məsələləri

Həqiqət fəlsəfənin müstəqil bir sahəsi olan idrak nəzəriyyəsinin qədim və mərkəzi problemlərindən biridir. Fəlsəfi fikir tarixində həqiqətlə bağlı bir çox məsələlər daim müzakirə predmeti olmuşdur. Həmin müzakirələr bu gün də davam etməkdədir. Fəlsəfi mənada həqiqət problemi biliyin həqiqiliyi məsələsindən daha genişdir. Nisbətən dar mənada həqiqilik dedikdə reallığın bilikdə dəqiq və düzgün inikası başa düşülür. Həqiqətin klassik konsepsiyasını formulə etmiş Aristotel həqiqəti məhz belə şərh edirdi. Biliklərin obyektiv gerçəkliyə uyğunluğu problemi də fəlsəfədə həqiqət problemi kimi məlumdur. Bu konsepsiyaya görə, həqiqət təsəvvürlərin və ya fikirlərin real vəziyyətə uyğunluğu deməkdir. Burada əsas ideya uyğunluq ideyası (korrespondensiya) olduğundan bu konsepsiyanı "həqiqətin korespondent nəzəriyyəsi" adlandırırlar (Aristotel, Spinoza, Didro, Helvetsi, Holbax, Feyerbax, Marks).

Həqiqətin fərdlərdən, siniflərdən, bəşəriyyətdən asılı olmaması, obyektivliyi onun konkretliyini şərtləndirir. Həqiqətin konkretliyi biliyin bu və ya digər hadisələrə xas olan əlaqə və qarşılıqlı təsirlərdən, onların mövcud olduqları və inkişaf etdikləri şəraitdən və yerdən asılı olmasını göstərir. Ədəbiyyatda tez-tez rast gəldiyimiz "Su 100 dərəcədə C. qaynayır" tezisi atmosfer təzyiqi normal (760 mm civə sütunu) olduqda düzgündürsə, belə şərait olmadıqda yanlışdır.

Həqiqət anlayışı onun inkişafından, biliklərin sonrakı inkişafı üçün zəruri olan yaradıcılıq anlayışından ayrılmazdır. Həqiqətin səciyyəvi cəhətini onda obyektiv və subyektiv məqamların olması təşkil edir. Həqiqətin subyektivliyi o deməkdir ki, o, insan və bəşəriyyətdən kənarda mövcud deyildir – həqiqət bir anlayış kimi insanda mövcuddur. Lakin digər tərəfdən həqiqətin məzmunu əsas etibarı ilə insandan və bəşəriyyətdən asılı olmadan mövcuddur. Bu həqiqətin oybektivliyini ifadə edir. Həqiqətə məhz subyektiv məqam xas olduğuna görə o, öz məzmununun dolğunluğu baxımından zaman keçdikcə dəyişikliyə uğrayır. Bu səbəbdən F.Bekon hesab edirdi ki, «həqiqət zamanın qızıdır».

İdrak nəzəriyyəsində həqiqətin nisbi və mütləq formaları fərqləndirilir.

Obyektiv reallığın özü kimi, həqiqi bilik də inkişaf etməkdədir. Orta əsrlərdə insanlar günəş və planetlərin Yer ətrafında fırlandığını düşünürdülər. İnsanlar planetləri yeganə "müşahidə" məntəqəsi olan Yerdən müşahidə etdikləri üçün Günəş və planetlərin onun ətrafında fırlandığını zənn edirdilər. Bu bizim biliklərimizin idrakın subyektindən asılı olduğunu göstərir. Lakin yuxarıda gətirdiyimiz misalda insandan, bəşəriyyətdən asılı olmayan məzmun da var ki, bu da Günəş sistemi cisimlərinin hərəkətdə olması haqqında biliklərimizdir. Kopernikin təliminə əsasən bizim planetlər sisteminin mərkəzi Günəşdir. Yer kürəsi və planetlər onun ətrafında çevrə üzrə fırlanır. Əvvəlki təsəvvürlərə nisbətən burada obyektiv məzmun daha çoxdur. Öz müəllimi Tixo Braqenin müşahidələrinə arxalanan Kepler göstərdi ki, planetlər Günəş ətrafında çevrə yox, ellips üzrə fırlanır. Bu, daha düzgün bilik idi. Müasir astronomiya planetlərin trayektoriyasını və fırlanma qanunlarını daha düzgün müəyyən etdi. Gətirilən misallardan aydın olur ki, həqiqət tarixən dəyişkəndir. Yeni kəşflər əldə olunduqca onun dolğunluğu artır.

İdrakın bu səviyyəsində əldə olunan həqiqətin konkret tarixi şəraitdən asılı olan, onun dəqiqlik, dolğunluq və səlislik dərəcəsini xarakterizə edən formasını nisbi həqiqət adlandırırlar. Beləliklə, insan idrakının, o cümlədən elmin inkişafı bir nisbi həqiqətin digər, daha dolğun və dəqiq həqiqətlə daima əvəz edilməsindən ibarətdir.

Hər hansı bir hadisə haqqında tam dolğun, dəqiq, hərtəfərli, bitmiş bilik mütləq həqiqətdir. Sual oluna bilər: mütləq həqiqətə nail olmaq olarmı? Aqnostiklər bu suala yox cavabı verirlər. Sübut üçün bu fikri əsas götürürlər ki, idrak prosesində biz yalnız nisbi həqiqətlərlə əməliyyat aparırıq. Günəş sistemi haqqında misaldan göründüyü kimi, onlardan hər biri zaman ötdükcə öz dəqiqliyini, tamlığını itirir. Deməli, tam dolğun biliyə nail olmaq mümkün deyil. Hadisə nə qədər mürəkkəb olsa, mütləq həqiqətə də nail olmaq bir o qədər çətin olur. Bununla belə mütləq həqiqət mövcuddur. O, insan idrakının can atdığı hədd, məqsəd kimi anlaşılmalıdır. Hər bir nisbi həqiqət bizi bu məqsədə yaxınlaşdıran pillədir. Bu mənada həqiqət prosesdir. Obyektiv həqiqətin proses olması özünü aşağıdakı iki istiqamətdə göstərir: birincisi, obyektin daha dolğun dərki istiqamətində dəyişikliklər prosesi kimi; ikincisi, konsepsiyalar, nəzəriyyələr strukturunda yanılmaların aradan qaldırılması prosesi kimi.

Həqiqət problemi hüquqda, xüsusən prosessual hüquqda əhəmiyyətli problemlərdən biridir. Belə ki, həqiqətin müəyyən edilməsi məsələsi müasir dövrdə anqlo-sakson və roman-german hüquq sistemlərini bir-birindən fərqləndirən əsas cəhətlərdən biri kimi çıxış edir. Hüquq sistemlərinin bu cəhəti isə həqiqətin cinayət prosesinin formasını müəyyən etməsi ilə bağlıdır. Fəlsəfədə həqiqətlə bağlı gedən müzakirələr, heç şübhəsiz ki, hüquqda həqiqətin mahiyyətinin izahına təsirsiz ötüşməmişdir. Lakin həqiqətlə bağlı fəlsəfi nəzəriyyələrin əksəriyyəti hüququn məqsədləri və təyinatına uyğun gəlmədiyi və ya az yararlı olduğu üçün onunla bağlı hüquq ədəbiyyatında müxtəlif konsepsiyalar işlənib hazırlanmışdır. Prosessual hüquq çərçivəsində həqiqətin mülahizələrin mütləq mənada faktlara uyğunluğu kimi izahı onun mövcud bir çox anlayışlarına uyğun gəlmir və onların izahını mümkünsüz edir. Bu halda prosessual hüquqda fiksiyalar, prezumpsiyalar kimi anlayışları izah etmək mümkün olmur. Hüquqda fiksiyalara misal olaraq, şəxsin xəbərsiz

itkin düşmüş və ya ölmüş elan edilməsini, hüquqi şəxslərin hüquq subyektliyinin tanınmasını, məhkumluğun götürülməsini və s. göstərmək olar. Bu hüququn tətbiq etdiyi elə üsullardır ki, faktiki vəziyyəti müəyyən etmək mümkün olmadıqda və ya işin halları tələb etdikdə həmin faktiki halların ziddinə olaraq münasibətləri tənzim etmək naminə uydurma hallar həqiqət kimi qəbul olunur.

Nəzəri baxımdan mövcud çətinliklərə baxmayaraq roman-german hüquq sistemində inkvizision-axtarış xarakterli cinayət prosesi tipində həqiqətin müəyyən olunması cinayət-prosessual fəaliyyətin əsas məqsədlərindən biri kimi çıxış edir və onun xarakterini müəyyən edir. Belə ki, cinayət prosesinin məqsədlərindən biri həqiqəti müəyyən etmək olduğu üçün onun müəyyən edilməsi məhkəmənin üzərinə vəzifə kimi qoyulur və buna uyğun olaraq hakimin həqiqəti müəyyən etmək üçün prosessual vasitələrdən istifadə etmək aktivliyini təmin edən hüquq normaları qanunda nəzərdə tutulur. 30 mart 2009-cu il tarixdə AR Konstitusiyasının 125-ci maddəsinə "məhkəmə icraatı həqiqətin müəyyən edilməsini təmin etməlidir" məzmununda VII hissənin əlavə olunması ilə məhkəmə icraatının, yəni cinayət, mülki və inzibati işlər üzrə məhkəmə icraatı nəticəsində qəbul olunan məhkəmə qərarının həqiqəti əks etdirməsi müddəası konstitusion norma-prinsipə çevrilmişdir. Bununla belə, maddənin məzmununda birbaşa şəkildə göstərilməmişdir ki, məhkəmə icraatında həqiqətin müəyyən edilməsi məhz hansı vasitələrlə təmin olunmalıdır və məhkəmə baxışının nəticəsi olaraq müəyyən edilən həqiqət hansı növ (yəni formal, obyektiv, konvensional və s.) həqiqətdir. Buna baxmayaraq, həqiqətin müəyyənləşdirilməsi cinayət mühakimə, mülki mühakimə və inzibati prosessual icraatın təyinatını müəyyənləşdirən bir meyar kimi çıxış edir. Qeyd edək ki, qanuni qüvvəyə minmiş məhkəmə qərarının həqiqiliyi prezumpsiyasının mahiyyəti də məhz həqiqətin müəyyənləşdirilməsi prinsipindən irəli gəlir. Belə ki, hər bir halda qanuni qüvvəyə minmiş məhkəmə qərarının həqiqiliyi ona görə prezumpsiya (ehtimal) olunur ki, bu qərar qarşısında həqiqətin müəyyənləşdirilməsi məqsədi olan və bu məqsədə nail olmaq üçün kifayət qədər prosessual vasitələrin təmin olunduğu icraatın nəticəsində qəbul olunur. Prezumpsiya sözünün hərfi mənasının latın dilindən tərcümədə-praesumptio- ehtimal, fərziyyə olduğunu nəzərə alsaq, onda hüquq elmində formalaşmış fikrə istinad etməliyik ki, qanuni qüvvəyə minmiş məhkəmə qərarının həqiqiliyi hər bir halda ehtimal olunur. Göründüyü kimi, Azərbaycan mühakimə icraatında həqiqətin müəyyən edilməsini təmin etmək – konstitusion normadır.

Burada vacib məsələlərdən biri də mühakimə icraatlarının bütün növləri çərçivəsində həqiqətin müəyyən edilməsinin məqsəd və ya prinsip olması məsələsi, eyni zamanda həmin icraatlar çərçivəsində bunun üçün kifayət qədər prosessual vasitələrin olub-olmadığını aydınlaşdırmaqdan ibarətdir. Belə ki, Konstitusiyanın 125-ci maddəsinin V hissəsinə əsasən məhkəmə icraatı qaydası qanunla müəyyən olunur. Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (AR MPM) bir çox müddəalarının sistemli təhlilindən, xüsusilə, AR MPM-in 14-cü maddəsinin məzmunundan belə bir nəticəyə gəlmək olar ki, məhkəmənin üzərinə həqiqəti müəyyənləşdirmək vəzifəsi birbaşa qoyulmamışdır, bu isə mülki-prosessual hüququn mahiyyətindən və əsas təyinatından (tərəflər arasındakı mübahisənin həlli) irəli gəlir. Mülki məhkəmə icraatının vəzifələri MPM-in 2-ci maddəsində müəyyən olunmuşdur. Həmin maddəyə əsasən, mülki işlər və kommersiya mübahisələri üzrə məhkəmə icraatının vəzifələri hər bir fiziki və yaxud hüquqi şəxsin Azərbaycan Respublikasının Konstitusiyasından, qanunlarından və digər normativ hüquqi aktlarından irəli gələn hüquq və mənafelərinin məhkəmədə təsdiq olunmasıdır.

Mülki məhkəmə icraatı qanunçuluğun və ictimai qaydanın bərqərar edilməsinə, vətəndaşların qanunlara dönmədən hörmət ruhunda tərbiyə edilməsinə rəvac verir.

Hər hansı fiziki və yaxud hüquqi şəxs hüququnun və ya qanunla qorunan mənafeyinin müdafiəsi və yaxud təsdiqi üçün məhkəməyə müraciət etdiyi hallarda məhkəmədə iş başlanılır. MPM-nin sübut etmə vəzifəsini təsbit edən 77-ci maddəsinə əsasən, hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir. İşdə olan sübutlar əsasında işə baxmaq mümkün olmadıqda, məhkəmə zəruri əlavə sübutlar təqdim etməyi tərəflərə yalnız təklif edə bilər.

Məhkəmə qətnaməsinin qanuniliyi və əsaslılığını təsbit edən, MPM-nin 217-ci maddəsinə əsasən, qətnamə qanuni və əsaslı olmalıdır. Qətnamə mübahisəli hüquq münasibətinin yarandığı zaman qüvvədə olan maddi hüquq normalarına və işin baxılması zamanı qüvvədə olan prosessual hüquq normalarına uyğun çıxarılmalıdır. Qətnamə iş üzrə müəyyən edilmiş həqiqi hallara və tərəflərin qarşılıqlı münasibətinə uyğun əsaslandırılmalıdır. Məhkəmə (hakim) öz qətnaməsini yalnız məhkəmə iclasında tədqiq olunmuş sübutlarla əsaslandırır.

Beləliklə, mülki prosesdə məhkəmə həqiqətə nail olmaq üçün yalnız işin hərtərəfli, tam və obyektiv tədqiqinə lazımi şərait yaradır. Bunun üçün məhkəmə: işdə iştirak edən şəxslərə onların prosessual hüquq və vəzifələrini izah edir, görüləcək, yaxud görülməyəcək hərəkətlərin nəticələri barədə onları xəbərdar edir, onların prosessual hüquqlarının həyata keçməsinə kömək göstərir. (14.1-ci maddə) Göstərilənlərdən başqa, məhkəmənin həqiqətə nail olmaq üçün digər səlahiyyətləri müəyyən edilməmişdir. Belə ki, mülki-prosessual hüquqda cinayət mühakimə icraatında olduğu kimi, məhkəmənin həqiqəti müəyyənləşdirmək üçün öz təşəbbüsü ilə sübut toplamaq səlahiyyəti (məhkəmənin öz təşəbbüsü ilə ekspertiza təyin etmək səlahiyyəti istisna olmaqla) nəzərdə tutulmamışdır. AR MPM-nin 14.2-ci maddəsinə görə məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir. Eyni zamanda məhkəmə tərəflərə məhkəmə baxışını barışıq sazişi ilə tamamlamağı təklif etməyə borcludur və tərəflər qanunda nəzərdə tutulan hallar istisna edilməklə, iddianı etiraf edə və yaxud ondan imtina edə bilərlər. Hər iki

halda məhkəmə məsələ barədə tərəflərin gəldiyi nəticəni əsas götürüb qərar qəbul etməlidir. Yəni bu halda məhkəmə iş üzrə qərar qəbul olunması üçün özünün iş üzrə hansı nəticəyə gəlməsi vacib deyildir, əsas iş üzrə tərəflərin gəldiyi nəticədir.

Təsadüfi deyildir ki, MPM-nin 9-cu maddəsinə əsasən, ədalət mühakiməsi çəkişmə, tərəflərin bərabərliyi və faktlar əsasında həyata keçirilir. Öz növbəsində konstitusion prinsip olan çəkişmə prinsipinə əsasən Mülki Prosessual Məcəllə ilə başqa hal nəzərdə tutulmayıbsa, məhkəmədə mübahisəyə işdə iştirak edən şəxslər çağırılıb dindirilmədikdə baxıla bilməz. İşdə iştirak edən şəxslər öz tələblərini əsaslandırdıqları dəlillər, sübutlar və hüquqi nəticələr barədə bir-birlərinə məlumat verməyə borcludur ki, digər tərəf bunlara qarşı özünün müdafiəsini təşkil edə bilsin. Hakim bütün hallarda prosesin çəkişmə prinsipini təmin etməlidir. O, öz qərarını yalnız tərəflərin çəkişmə prinsipinə əsasən müzakirə etdiyi dəlillərlə, onların verdiyi izahatlarla, sənədlərlə əsaslandırmalıdır. Məhkəmə, qərarını tərəfləri dəvət etmədən özünün qulluq mövqeyinə görə irəli sürdüyü hüquqi dəlillərlə əsaslandıra bilməz. Məhz buna görə də cinayət mühakimə icraatında mülki işlər üzrə qəbul olunmuş məhkəmə qərarlarının preyudisiallığı hissəvi, yəni hadisənin olub-olmaması məsələsində tanınır. (AR CPM 142.2 m.) Həmçinin, MPM-in 82-ci maddəsinə əsasən bir mülki iş üzrə qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsi ilə müəyyən edilmiş faktlar həmin işdə iştirak edən şəxslər tərəfindən başqa məhkəmə prosesində mübahisələndirilmir və yenidən sübut edilmir. Yəni mülki prosesdə preyudisiya yalnız həmin işdə iştirak edən şəxslər tərəfindən həmin halların başqa məhkəmə prosesində mübahisələndirilməməsində ifadə olunur. Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının 26 may 2009-cu il tarixli 819-IIIQD nömrəli Qanunu ilə MPM-nin məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi ilə müəyyən edilən və işdə iştirak edən şəxslərə aid olan halların başqa işə baxan məhkəmə üçün məcburi olmasını təsbit edən 82.2-ci maddəsi ləğv edilmişdir.

Bundan əlavə, məhkəmə aktlarının məcburiliyini müəyyən edən MPM-nin 15-ci maddəsinə əsasən qeyd edilməlidir ki, məhkəmə aktları maraqlı şəxslərin mənafelərinə toxunduqda bu aktların məcburiliyi işdə iştirak etməyən maraqlı şəxslərin öz hüquqlarının və qanunla qorunan mənafelərinin müdafiəsi üçün məhkəməyə müraciət etmələri imkanını istisna etmir.

Hüquq elminə nəzər saldıqda, qeyd etmək lazımdır ki, **Roma hüququndan irəli gələn aksiomaya görə hakim tərəflərin tələb etdiyindən artığını təmin etməməli, tərəflərin tələblərini aşmamalıdır.**

Həmçinin, O.Byulov, Q.Noks, Vax, M. Bobrov və digərləri hesab edirlər ki, mülki prosesdə məhkəmənin əsas vəzifəsi işdə iştirak edən şəxslər arasında mübahisəyə tezliklə son qoymaqla, tərəflər arasında “hüquqi sülhə” nail olmaqdır. Müəlliflərin fikrincə, mülki prosesdə məhkəmə icraatının vəzifəsi mifik obyektiv həqiqətin müəyyən edilməsi yox, mübahisənin məhz məhkəməyə təqdim olunduğu formada həll edilməsidir. N.V.Fedorov çəkişmə prinsipindən çıxış edərək qeyd edir ki, mülki proses hər şeydən əvvəl dövlətin tərəflərə göstərdiyi xidmətdir. M.A.Qurviç, O.V.İvanov, S.V. Kurilev və M.K.Treuşnikova görə, mülki mühakimə icraatının əsas vəzifəsi şəxslərin qanunla qorunan mənafe, hüquq və azadlıqlarının müdafiəsidir, obyektiv həqiqətin müəyyən edilməsi isə məqsəd deyil, bu yolda vasitədir.

Beləliklə, hüquq elmində bərqərar olmuş fikrə əsasən mülki hüququn dispozitiv xarakterindən irəli gələrək, mülki prosessual hüququnda maddi həqiqətin müəyyən olunması prinsipinin təminat mexanizmi kifayət dərəcədə olmadığından müvafiq icraat çərçivəsində qəbul edilmiş məhkəmə qərarlarının həqiqilik prezumpsiyasına malik olduğunu tam mənada iddia etmək mübahisə predmeti ola bilər. Bu baxımdan T.Hermann qeyd edir ki, Azərbaycan mülki-prosessual hüququnda əldə olunan həqiqət formal həqiqətdir. Hakim faktlarla və hallarla bağlı tərəflərin dəlillərinin həqiqiliyini yalnız o zaman müəyyən edə bilər ki, onları qarşı tərəf mübahisələndirsin. (T.Hermann “Mülki prosesdə tətbiq ediləcək hüququn tapılması (Azərbaycan Qanunvericiliyi: kazusların köməyi ilə mülki işlər üzrə hakimlərin yeni iş texnikasına giriş) Bakı, “Hüquq ədəbiyyatı” nəşriyyatı, 2012)

Həmçinin qeyd edilməlidir ki, **Azərbaycan Respublikası Konstitusiyasının 125-ci maddəsi məhkəmə icraatının üzərinə həqiqəti müəyyən etmək deyil, həqiqətin müəyyən edilməsini təmin etmək vəzifəsini qoyur.**

Bu mənada, “Azərbaycan Respublikası Konstitusiyasının 125-ci maddəsinin VII hissəsinin Azərbaycan Respublikasının mülki prosessual qanunvericiliyi baxımından şərh edilməsinə dair” Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 18 mart 2019-cu il tarixli Qərarına əsasən, mülki məhkəmə icraatında Azərbaycan Respublikası Konstitusiyasının 125-ci maddəsinin VII hissəsinin “Məhkəmə icraatı həqiqətin müəyyən edilməsini təmin etməlidir” müddəası Konstitusiyanın 127-ci maddəsinin II, IV və VII hissələrində, 129-cu maddəsinin III hissəsində təsbit olunmuş ədalət mühakiməsinin çəkişmə, tərəflərin bərabərliyi, faktlar əsasında və qanuna müvafiq keçirilməsi, məhkəmə qərarının qanuna və sübutlara əsaslanmasına dair ədalət mühakiməsinin həyata keçirilməsinin əsas prinsipləri və şərtləri ilə əlaqəli şəkildə tətbiq olunmalıdır. Mülki işlər üzrə məhkəmə icraatı zamanı məhkəmələr ədalət mühakiməsini çəkişmə və tərəflərin bərabərliyi prinsipinə riayət etməklə, tərəflərin təqdim etdiyi sübutlar və faktlar əsasında həyata keçirməli, öz qərarlarını yalnız tərəflərin çəkişmə prinsipinə əsasən müzakirə etdiyi dəlillərlə, onların verdiyi izahatlarla, təqdim etdikləri və Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin tələblərinə müvafiq olaraq əldə edilmiş sübutlarla əsaslandırmalı, həmin sübutların araşdırılmasından irəli gələn həqiqəti müəyyən etməlidir.

**Aynur Osmanova,**
**Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəisi**
**baş ədliyyə müşaviri.**

# Prokurorluğun maddi-texniki bazasının gücləndirilməsi, bu sahədə innovativ metodların tətbiqi və maliyyə şəffaflığının təmin olunması müasir Azərbaycan Prokurorluğunda həyata keçirilən islahatların prioritet istiqamətlərindən biridir

Müasir Azərbaycan Prokurorluğu daim Ulu Öndər Heydər Əliyevin və onun layiqli davamçısı, ölkə başçısı cənab İlham Əliyevin hərtərəfli qayğısı və diqqəti ilə əhatə olunmuşdur.



Bu istiqamətdə ən əlamətdar və əhəmiyyətli tədbirlər sırasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 27 sentyabr 2008-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi xüsusi qeyd edilməlidir.

Həmin sərəncamın icrası milli prokurorluq orqanlarının müasirləşməsi, onun maddi-texniki bazasının daha da möhkəmləndirilməsi baxımından müstəsna əhəmiyyət kəsb etmişdir.

Ölkə Başçısı cənab İlham Əliyevin Baş prokuror vəzifəsinə namizəd kimi cənab Kamran Əliyevi 1 may 2020-ci il tarixdə video-format rejimində qəbul edərkən verdiyi prokurorluq orqanlarında islahatların dərinləşdirilməsinə və fəaliyyətin təkmilləşdirilməsinə yönəlmiş bir sıra mühüm tapşırıqlara uyğun olaraq, idarəetmədə nəzarət mexanizminin optimallaşdırılması məqsədilə Baş Prokurorluğun strukturu yenidən formalaşdırılaraq yeni idarələr yaradılmış, idarə və şöbələrin sayı artırılmışdır.

Şübhəsiz ki, həyata keçirilən struktur islahatlar daha çevik, mobil və dinamik maddi-texniki təminat fəaliyyətini tələb edir və bu sahədə ciddi irəliləyişlərə nail olunmuşdur.

Belə ki, aparılmış struktur dəyişiklikləri ilə əlaqədar yeni yaradılmış idarələrin işçilərinin yerləşdirilməsi, onların müvafiq inventar, avadanlıq, mebel rabitə vasitələri ilə təminat məsələləri qısa müddət ərzində öz həllini tapmışdır və bu istiqamətdə işlər davam etdirilir.

Qeyd edilməlidir ki, Baş Prokurorluğun Maddi-texniki təminat şöbəsi Baş Prokurorluğun, rayon (şəhər) prokurorluqlarının dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilməsi, prokurorluqda mühasibatlıq işini, əməkdaşların maddi-texniki, sosial və digər təminatlarını təşkil edir. Əməkdaşlara normal iş şəraitinin yaradılması ilə əlaqədar olaraq inzibati binaların təmiri, tikintisini həyata keçirir, həmin binaları müvafiq inventar və avadanlıqla təmin edir, prokurorluq orqanlarının nəqliyyat vasitələri ilə təchiz edilməsi işini təşkil edir.

Qısa müddət ərzində Qusar rayon və Zaqatala hərbi prokrorluğunun inzibati binalarının, habelə Şuşa, Zəngilan, Xocəvənd rayon prokurorluqları binalarının Baş Prokurorluğun balansına qəbul olunması istiqamətində sənədləşmə işləri yekunlaşdırılmışdır. Belə ki, inzibatı binaların müvafiq balansda olduqları qurumlardan və İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Komitəsindən razılıqlar alınaraq, Azərbaycan Respublikası Baş Nazirinin müvafiq Sərəncamlarına əsasən inzibatı binalar Baş Prokurorluğun balansına qəbul olunmuşdur.

Yardımlı və Xocavənd rayon prokurorluqlarının inzibati binalarında cari təmir işləri aparılmışdır.

Ermənistan silahlı qüvvələri tərəfindən Tərtər şəhərinin artilleriya atəşinə tutulması zamanı atılmış mərmilərdə bir neçəsinin Tərtər rayon prokurorluğunun qarşısına düşməsi nəticəsində prokurorluğun inzibati binasına vurulmuş maddi zərərlə bağlı Tərtər rayon fövqəladə hallar komissiyası tərəfindən Akt tərtib olunmuş, akta əsasən Tərtər rayon prokurorluğunun inzibati binasında cari təmir işləri aparılmışdır.

Səbail rayonu, İstiqlaliyyət küçəsi 31 ünvanda yerləşən, Səbail rayon prokurorluğunun keçmiş inzibati binasında əsaslı təmir işləri aparılmışdır. Qeyd olunan inzibati bina yeni mebel və avadanlıqlarla təhciz olunaraq, Dövlət ittihamının müdafiəsi üzrə idarənin Bakı şəhərinin rayon məhkəmələrində dövlət ittihamının müdafiəsi şöbəsinin istifadəsinə verilmişdir.

Cəbhəyanı ərazilərdə yerləşən şəhər və rayon prokurorluqları, bundan əlavə digər ərazilərdə olan rayon (şəhər) prokurorluqları, habelə yuxarı prokurorluqların idarə və şöbələri kompüter, mebel və digər zəruri avadanlıqlarla təchiz edilmişlər.

Satınalmalar zamanı dövlət vəsaitindən səmərəli və qənaətlə istifadə edilməsi, müsabiqə və aşkarlıq əsasında bütün malgöndərənlərə (podratçılara) bərabər rəqabət mühiti yaradılmasının prinsip və qaydalarına ciddi riayət olunmaqla, malların və xidmətlərin satınalınmasında tam maliyyə şəffaflığı təmin olunmuşdur. 2020-ci il ərzində xidmətlərin göstərilməsi barədə müqavilələr bağlanıb, iş və xidmətlər göstərilmişdir.

Dərnəgül yaşayış sahəsi, 21-ci Dağlıq kücəsi, 3105-ci məhəllə ünvanında müasir tələblərə cavab verən 4 korpusdan ibarət, ümumi sahəsi 16.600 kv.m olan Baş Prokurorluğun inzibati binalar kompleksinin tikintisi tam yekunlaşmışdır. Kompleksin təhvil alınması istiqamətində sifarişçi təşkilat tərəfindən zəruri olan işlər aparılmaqdadır.

Prokurorluq orqanlarının saxlanılması xərclərinin vəsaitləri ciddi qənaət rejimində xərclənmişdir. Əlavə zəruri iş və xidmətlərin həyata keçirilməsi, avadanlıq və inventarların alınması qənaət olunmuş vəsaitin digər xərc maddələrinə yönəldilməsi hesabına mümkün olmuşdur.

Belə ki, yeni inzibati binalar kompleksinin müvafiq inventar, avadanlıq, mebel, kriminalistika texnikaları və nəqliyyat vasitələri ilə təmin olunması üçün vəsaitin ayrılması ilə əlaqədar Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə müraciət olunmuş, bununla əlaqədar xərc maddələrində dürüstləşmə aparılaraq, zəruri olan avadanlıq, kompüter texnikası, kriminalistika avadanlığı alınmış, korpuslar hazır vəziyyətə gətirilmişdir.

Bundan başqa, prokurorluq orqanlarının saxlanması xərcləri çərçivəsində qənaət olunmuş vəsaitdən köçmə xərclərinə, 6 qat müavinət üçün dəyişiklik edilməsi barədə müraciət müsbət həll olunmuş və müvafiq ödənişlər aparılmışdır.

Prokurorluq işçilərinin əmək haqlarının artırılması ilə əlaqədar müvafiq yazışmalar və hesablamalar aparılmışdır. Maliyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi və Ədliyyə nazirlikləri ilə birgə məktub hazırlanaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinə müraciət olunmuş, 2020-ci ilin avqustun 1-dən prokurorluq işçilərinə bir aylıq vəzifə maaşı həcmində əlavə olmaqla əmək haqqı hesablanması barədə qərar qəbul olunmuş. Bununla əlaqədar müvafiq olaraq əlavə vəsait ayrılmışdır.

Pandemiya ilə əlaqədar Baş Prokurorluq, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi, İstintaq idarəsi, Bakı şəhər prokurorluqlarının inzibati binalarında, həyətyanı sahələrdə xəstəliyə qarşı müxtəlif preparatlarla dezinfeksiya işləri aparılmışdır.

Qeyd edilməlidir ki, 2021-ci ildə prokurorluq orqanlarının saxlanılması xərclərinin layihəsinin hazırlanması işləri aparılmışdır. Bununla əlaqədar 2021-ci il üçün zəruri xərclər öz əksini tapmış, əmək haqqı artımı nəzərə alınmışdır. Bundan başqa, nəqliyyat parkının yenilənməsi, bu məqsədlə xidməti və xüsusi (kriminalistik) nəqliyyat vasitələrinin alınması üçün layihə təqdim olunmuşdur.

Xüsusi olaraq vurğulanmalıdır ki, Baş Prokurorluğun, habelə digər yuxarı prokurorluqların inzibati binalarında elektrik enerjisi, su və digər resurslardan qənaətlə istifadə olunması, müvafiq avadanlıqların istismar qaydalarına riayət edilməsi, habelə tabe prokurorluqlar tərəfindən onlara ayrılmış kommunal limitlərin aşılmaması üçün müvafiq tədbirlərin görülməsi davam etdirilməkdədir.

Azərbaycan Respublikası Baş Prokurorunun əmr və göstərişləri əsasında Baş Prokurorluğun Maddi-texniki təminat şöbəsi 2021-ci ildə öz işlərini daha səmərəli və keyfiyyətlə aparmaq üçün səylərini artırmağı, görüləcək işləri vaxtında, düzgün, iş planına uyğun olaraq aparmağı öhdəsinə götürür. Prokurorluq orqanları əməkdaşlarının normal iş fəaliyyətinin təşkil edilməsi üçün zəruri olan inventar və avadanlıqların alınması, kommunal, rabitə, poçt xidmətlərinin, təmir bərpa işlərinin vaxtında təmin edilməsi üçün zəruri tədbirlərin görülməsi və təşkili işləri daha da təkmilləşdiriləcəkdir.

**Rahim Səfəralıyev,**
**Maddi-texniki təminat şöbəsinin rəisi**
**baş ədliyyə müşaviri.**

# Hərbi münaqişələr zamanı mülki əhalinin qorunması və insan hüquqlarının müdafiəsi

Ermənistanın ölkəmizə qarşı törətdiyi hərbi təcavüzə cavab olaraq Azərbaycan xalqının Vətən müharibəsinə qalxması, dövlətimizin prezidenti cənab İlham Əliyevin başçılığı ilə Müzəffər Azərbaycan Ordusu 44 gün ərzində ölkəmizin ərazi bütövlüyünü bərpa etməsi – milli dövlətçilik tariximizə və xalqımızın yaddaşına əbədi həkk olundu. Azərbaycan bir daha dünya ictimaiyyətinə sivil, tolerant, hərbi qüdrətli, hətta müharibə dövründə belə beynəlxalq sazişlərə sədaqət göstərən ölkə olduğunu nümayiş etdirdi.




Ermənistan isə bu müharibə zamanı öz vandalizm hərəkətləri, təcavüzkar siyasəti, mülki insanlara qarşı terror aktları, müharibə zonasında olmayan Gəncə, Mingəçevir, Tərtər, Bərdə və başqa şəhərləri bombalamaqla beynəlxalq ictimaiyyətin diqqət mərkəzində oldu. Bu münaqişədə çoxsaylı insan itkilərinin, mülkü insanların xəsarət almasının, onların əmlaklarının dağıdılmasının təəssüflə şahidi olduq. Ermənistanın uzun müddətli işğalı və vəhşiliyi nəticəsində doğma Qarabağımızın nəinki yaşayış sahələrinə, hətta onun təbiətinə bərpaolunmaz zərər vurulmuşdur. Bu cinayətlərə görə Ermənistanın beynəlxalq səviyyədə məsuliyyətə cəlb olunması üçün Azərbaycan hüquqşünaslarının diqqəti hərbi münaqişələr zamanı mülki əhalinin qorunması və insan hüquqlarının müdafiəsinə xidmət edən beynəlxalq sazişlərə yönəlməli, qanunvericiliyimiz təkmilləşdirilməlidir.

Müharibə cinayətlərinə aid beynəlxalq müqavilələr təhlil edilərkən silahlı münaqişələr zamanı tərəflər arasında münasibətləri tənzimləyən beynəlxalq hüquqda əsas yeri Haaqa və Cenevrə konvensiyalarının tutduğu məlum olur. 1899-cu və 1907-ci illərdə Niderlandın Haaqa şəhərində keçirilmiş sülh konfranslarında humanitar hüququn tərkib hissəsi kimi müharibənin qanun və adətlərini özündə əks etdirən beynəlxalq konvensiyalar qəbul edilmişdir.


**1899-cu il Haaqa konfransı**

Rusiyanın imperatoru II Nikolayın təşəbbüsü ilə çağırılmış ilk sülh konfransında 26 dövlətin nümayəndəsinin iştirakı ilə **3 konvensiya** qəbul edilmişdir: Beynəlxalq toqquşmaların sülh yolu ilə həlli haqqında; Quruda müharibənin qanun və adətləri haqqında; Dəniz müharibəsinə 10.08.1864-cü il tarixli Cenevrə konvensiyasının əsaslarının tətbiqi haqqında. Eyni zamanda bu konfransda **3 bəyannamə** də qəbul edilmişdir: Hava kürələrindən *(воздушные шары)* və ya başqa buna oxşar yeni üsulların köməyi ilə mərmilərin və partlayıcı maddələrin atılmasının beşillik müddətinə qadağa edilməsi haqqında; Tək təyinatı boğan və ya zərərverici qazları yayan mərmilərdən istifadə edilməməsi haqqında; İnsan bədənində asan dönən və ya yastılaşan güllələrdən istifadə edilməməsi haqqında.

1907-ci ildə keçirilmiş ikinci sülh konfransında 44 dövlətin nümayəndəsi iştirak etmiş və aşağıdakı **13 konvensiya** qəbul edilmişdir:

**1.** Beynəlxalq toqquşmaların sülh yolu ilə həlli haqqında;
**2.** Müqavilə üzrə borc öhdəliklərin alınması zamanı güc tətbiqinə məhdudiyyət qoyulması haqqında;
**3.** Hərbi hərəkətlərin başlanması haqqında;
**4.** Quruda müharibənin qanun və adətləri haqqında;
**5.** Quruda müharibə baş verdiyi halda neytral dövlətlərin hüquq və vəzifələri haqqında;
**6.** Hərbi hərəkətlərin başlanması zamanı düşmən ticarət gəmilərinin vəziyyəti haqqında;
**7.** Ticarət gəmilərinin hərbi gəmilərə çevrilməsi haqqında;
**8.** Sualtı təmasdan avtomatik partlayan minaların qoyulması qaydaları haqqında;

**9.** Müharibə zamanı dəniz qüvvələrinin bombalanma qaydaları haqqında;

**10.** Dəniz müharibəsinə Cenevrə konvensiyasının əsaslarının tətbiqi haqqında (sonradan 1949-cu il tarixli Cenevrə konvensiyası ilə əvəz edilmişdir);

**11.** Dəniz müharibəsi zamanı tutma hüququnun istifadəsinə bəzi məhdudiyyətlər haqqında;

**12.** Beynəlxalq mükafat palatasının əsasının qoyulması haqqında konvensiya (qüvvəyə minməmişdir);

**13.** Dəniz müharibəsi baş verdiyi halda neytral dövlətlərin hüquq və vəzifələri haqqında.



**1907-ci il Haaqa konfransı**

Bundan başqa, həmin konfransda **1 bəyannamə** də qəbul edilmişdir: Hava kürələrindən *(воздушные шары)* mərmilərin və partlayıcı maddələrin atılmasının qadağan olunması haqqında.

1949-cu ildə İsveçrənin Cenevrə şəhərində keçirilən konfransda isə yenilənmiş **4 konvensiya** qəbul edilir.



**1949-cu il Cenevrə konfransı**

Cenevrə konvensiyaları və onlara əlavə edilmiş protokollar silahlı münaqişələr zamanı yaralı, xəstə və gəmi qəzasına uğramış hərbçilərin vəziyyətini yaxşılaşdırmaq, hərbi əsirlərə baş çəkmək, mülki əhaliyə köməklik göstərmək və ümumilikdə, humanitar hüquq ilə mühafizə edilən şəxslərə qarşı müvafiq rəftarı təmin etmək hüququnu müəyyən edir.

1) Döyüşən ordularda yaralıların və xəstələrin vəziyyətinin yaxşılaşdırılması haqqında;

2) Dəniz silahlı qüvvələrinin tərkibində olan yaralıların, xəstələrin və gəmi qəzasına uğramış şəxslərin vəziyyətinin yaxşılaşdırılması haqqında;

3) Hərbi əsirlərlə rəftar haqqında;

4) Müharibə zamanı mülki əhalinin müdafiəsi haqqında.

Tərəflərin razılığına görə 1977 və 2005-ci illərdə bu konvensiyalara 3 protokol əlavə edilir: Beynəlxalq silahlı münaqişələrin qurbanlarının müdafiəsinə dair; Qeyri-beynəlxalq silahlı münaqişələrin qurbanlarının müdafiəsinə dair; Əlavə fərqləndirici emblemin qəbuluna dair.

**Ümummilli lider Heydər Əliyev** dövlətimizə rəhbərlik etdiyi dövrdə hüquqi islahatlara xüsusi yer ayrılmış, insan hüquq və azadlıqlarının qorunması dövlətin əsas məqsədinə çevrilmişdir. Göstərilən istiqamətdə Azərbaycan bu sahəni tənzimləyən bir çox beynəlxalq müqavilələrə qoşulmaqla, onların şərtlərini qəbul etmişdir. Azərbaycan Respublikasının Milli Məclisi 1993-cü ildə Azərbaycanın ***"Müharibə qurbanlarının müdafiəsi haqqında"*** 12.08.1949-cu il tarixli Cenevrə konvensiyasına qoşulması haqqında qərar qəbul etmiş, 31.05.1996-cı il tarixli 98-IQ nömrəli Qanunla isə Azərbaycan BMT-nın ***"Hərbi cinayətlərə və bəşəriyyətə qarşı cinayətlərə cinayət məsuliyyətinə cəlbetmə müddətinin tətbiq edilməməsi haqqında"*** Konvensiyaya qoşulmuşdur.




Beynəlxalq sazişlərin tələbləri nəzərə alınaraq Azərbaycan Respublikasının Cinayət Məcəlləsində bu növ cinayətlərə xüsusi yer ayrılmaqla, VII bölmə ***"Sülh və insanlıq əleyhinə cinayətlər"*** adlandırılmışdır. Bu bölmə iki fəsildən ibarət olmaqla (Sülh və insanlıq əleyhinə cinayətlər və Müharibə cinayətləri), yuxarıda göstərilən beynəlxalq konvensiyalarla qadağan olunmuş bir sıra əməllər ictimai təhlükəli olduğu üçün Azərbaycanda da cinayət hesab olunaraq göstərilən fəsillərə daxil edilmişdir.




Bu sahədəki digər dövlətlərin ***(Rusiya, Ukrayna, Gürcüstan, Estoniya, Latviya və Fransa)*** təcrübəsi təhlili göstərir ki, sülh və insanlıq əleyhinə olan, o cümlədən müharibə cinayətləri Azərbaycan Respublikasının Cinayət Məcəlləsində daha dolğun və daha konkret nəzərə alınmışdır. Bununla belə eyni əmələ müxtəlif dövlətlərdə fərqli yanaşmalar mövcuddur. Məsələn, Azərbaycanın CM-də ətraf mühitə qəsdən geniş, uzun sürən və ciddi ziyan vurma – Silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma cinayətinin bir

hissəsi kimi müəyyən edilmişdirsə (maddə 116), digər dövlətlərin məcəllələrində bu əməl müstəqil cinayət tərkibi kimi yer almışdır. Belə ki, Rusiya Federasiyasının CM-in 358-ci maddəsi, Ukraynanın CM-in 441-ci maddəsi, Gürcüstanın CM-in 409-cu maddəsi ***"Ekosid"*** adlanaraq, bu növ əməl daha geniş interpretasiya olunur. Ermənistanın Azərbaycanın təbiətinə vurduğu zərəri, eləcə də qlobal iqlim dəyişiklikləri dövründə ətraf mühitin, flora və faunanın qorunmasının vacibliyi nəzərə alınaraq, milli qanunvericilikdə müvafiq dəyişikliyin edilməsi məqsədə müvafiqdir.

Digər dövlətlərin cinayət qanunvericiliyində Azərbaycan Respublikası CM-də nəzərdə tutulmayan cinayətlərə də rast olunur. Məsələn, Rusiya Federasiyasının CM-in 354.1-ci maddəsi "Nasizmin bərpası", Ukrayna Respublikasının CM-in 436-1-ci maddəsi ***"Kommunist, nasist simvolikasının istehsalı və yayılması, habelə kommunist və milli-sosialist (nasist) totalitar rejimlərin təbliği"*** adlanır. Nasizmin, Erməni şovinizmin ictimai təhlükəliliyini və tarixən faciəli nəticələrini nəzərə alaraq, milli qanunvericilikdə bu kimi ideologiyaların qarşısının alınması cəmiyyətin müasir inkişaf tələblərinə cavab vermiş olardı.

Gürcüstanın CM-in XXXVIII fəsli ***(İşğal edilmiş ərazilərin hüquq rejiminin pozulması)*** diqqəti cəlb edir. Bu fəsil iki maddədən ibarətdir: *İşğal edilmiş ərazilərə giriş (çıxış) qaydalarının pozulması və İşğal edilmiş ərazilərdə qadağan edilmiş iqtisadi fəaliyyətin həyata keçirilməsi.* Lakin hazırkı şəraitdə erməni qoşunlarının Dağlıq Qarabağ ərazisində qanunsuz yerləşməsinin davam etdirməsini nəzərə alaraq, bu kimi vacib olan və işğal ərazilərlə bağlı digər zəruri normaların Azərbaycan Respublikasının CM-nə daxil edilməsi üçün ilk növbədə ***"Azərbaycan Respublikasının işğal edilmiş əraziləri haqqında"*** Qanun qəbul edilməlidir.



***"Döyüşən ordularda yaralıların və xəstələrin vəziyyətinin yaxşılaşdırılması haqqında"*** Cenevrə Konvensiyasının II fəslin ***(Yaralılar və xəstələr)*** 12-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının CM-in 115.2-ci maddəsinin ***(Müharibə qanunlarını və adətlərini pozma)*** dispozisiyasına "yaralı və xəstə əsirləri qəsdən tibbi yardımsız və ya qulluqsuz qoymaq, onların yoluxması üçün qəsdən şərait yaratmaq" cümləsinin əlavə edilməsi bu Konvensiyanın tələblərinə uyğun olardı.



***"Döyüşən ordularda yaralıların və xəstələrin vəziyyətinin yaxşılaşdırılması haqqında"*** Cenevrə konvensiyasının III fəslin ***(Sanitar birləşmələr və müəssisələr)*** 19-cu maddəsinə görə Azərbaycan Respublikasının CM-in 116-cı maddəsinin ***(Silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma)*** dispozisiyasına *"təyinatını bilərəkdən tibbi xidmətin daimi müalicə müəssisələrinə və mobil sanitar birləşmələrinə qəsdən hücum etmə"* əməlinin əlavə edilməsi bu Konvensiyanın tələblərinə cavab vermiş olardı.

***"Hərbi əsirlərlə rəftar haqqında"*** Cenevrə konvensiyasının I bəndin ***(Ümumi qaydalar)*** 3-cü maddəsinin B və D hissələrinə əsasən Azərbaycan Respublikası CM-in 116.0.13-cı maddəsində ***(Silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma)*** nəzərdə tutulan şəxslərin *(hərbi əməliyyatlarda birbaşa iştirakını təqsirkar üçün aşkar surətdə dayandırmış, həmçinin silahı olmayan və ya silahını yerə qoymaqla təslim olan, yaxud yaralanma və ya başqa səbəbdən müqavimət göstərə bilməyən şəxs)* girov götürülməsi, habelə qanuni qaydada yaradılmış məhkəmənin qərarı olmadan onların təqsirli hesab edilməsi və barələrində cəza tətbiq edilməsi cinayət hesab oluna bilər.




Azərbaycan Respublikası Cinayət Məcəlləsinin təkmilləşdirilməsi, onun beynəlxalq müqavilələrə uyğunlaşdırılması – ölkəmizin sivil dövlət olduğunun, götürdüyü öhdəlik və verdiyi sözlərə, beynəlxalq sazişlərə sədaqətli olduğunun nümunəsidir.

Şəhidlərimizin ölməz ruhu qarşısında baş əyərək onlara bir daha Allahdan rəhmət diləyirəm, yaralı hərbçilərimizin və mülkü vətəndaşlarımızın tezliklə şəfa tapmasını arzulayıram.

**Talıb Cəfərov,**
**Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin Prokurorluq işçilərinin fəaliyyətinin qiymətləndirilməsi və peşə hazırlığının təşkili şöbəsinin rəisi baş ədliyyə müşaviri.**

# 2020-ci ilin uğurları Prokurorluğu da əhatə etmişdir

Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyevin rəhbərliyi ilə ötən illərdə hərtərəfli nailiyyətlər qazanmaqla durmadan inkişaf edərək, bu gün dünyanın ən qüdrətli dövlətləri sırasında özünəməxsus yer tutmuş ölkəmiz 2020-ci ili də möhtəşəm uğurlarla, ən əsası intizarında olduğumuz tarixi qələbə ilə başa vurmuşdur. Planetimizdə gedən neqativ proseslərə, qlobal problemlərə, o cümlədən bütün dünyaya yayılan koronavirus (COVID-19) pandemiyasına rəğmən, ulu öndər Heydər Əliyevin zamanı qabaqlayan mükəmməl siyasətini müasir tələblərlə uzlaşdırmaqla layiqincə davam etdirən möhtərəm Prezident cənab İlham Əliyevin polad iradəsi, müdrik düşüncəsi, yorulmaz fəaliyyəti və xalqımızın əzmkarlığı sayəsində ölkəmizdə ictimai-siyasi sabitlik hökm sürmüş, dövlətimiz bütün sahələr üzrə inkişaf edərək daha da qüdrətlənmiş, eləcə də regionların tarazlı tərəqqisi təmin olunmuş, əhalinin rifahı yüksəldilimiş, bir sözlə hərtərəfli uğurlar əldə olunmuşdur. Dövlətimizin qüdrətlənməsi prosesinin ötən il də davam etdirilməsi ilin ümumi göstəriciləri ilə də öz təsdiqini tapmışdır. Belə ki, 2020-ci ildə ölkəmizdə qeyri-neft sənayesi 11 faizdən çox, kənd təsərrüfatı 2 faiz artmış, orta əməkhaqqı və orta pensiya təqribən 13-14 faiz artmışdır. Eyni zamanda valyuta ehtiyatlarımızın qorunub saxlanılması və manatın məzənnəsinin sabitliyi təmin edilmişdir. Qeyd olunanlarla bərabər şəhid ailələrinin müavinəti 300 manatdan 500 manata qaldırılmışdır. Sadalananlarla yanaşı reallaşdırılması nəzərdə tutulan tədbirlərdən və işlərdən heç birinin, o cümlədən hər hansı bir sosial layihənin icrası təxirə salınmamışdır. Qeyd edilməlidir ki, ölkəmizin sürətli inkişafı beynəlxalq təşkilatlar tərəfindən də hər zaman yüksək qiymətləndirilir. Belə ki, ən nüfuzlu aparıcı beynəlxalq qurumlarından biri olan Dünya Bankının "Doing Business" proqramında 190 ölkə arasında Azərbaycan 28-ci yeri tutmuşdur. Vurğulanmalıdır ki, dünyanın bir nömrəli forumu olan Davos Ümumdünya İqtisadi Forumunun hesabatına əsasən inkişaf etməkdə olan 74 ölkə arasında dövlətimiz əhalinin elektrik təchizatı səviyyəsinə görə 2-ci yerdə, inklüziv inkişaf indeksi üzrə 3-cü yerdə, hökumətin dəyişməyə cavabdehliyi, yəni, islahatçı obrazı əmsalına görə 5-ci yerdə, hökumətin uzunmüddətli strategiyasına görə 10-cu yerdə, hökumətin siyasi sabitliyi təmin etməsinə görə 11-ci yerdə, infrastruktur layihələri ilə bağlı dəmir yolu xidmətlərinin səmərəliliyinə görə 11-ci yerdə, hava yolları xidmətlərinin səmərəliliyinə görə 12-ci yerdə, avtomobil yollarının keyfiyyətinə görə isə 24-27-ci yerdə qərarlaşmaqla dünyanın bir çox ölkələrini geridə qoymuşdur.

Vurğulanmalıdır ki, dövlətimizin hərtərəfli inkişaf edərək qüdrətlənməsində, həmçinin ölkəmizin beynəlxalq əlaqələrinin inkişaf etdirilməsində, milli-mənəvi dəyərlərimizin və mədəniyyətimizin dünyada tanınmasında zəngin biliklərə, iti düşüncəyə və yüksək idarəçilik qabiliyyətinə malik nəcib insanın-Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Yeni Azərbaycan Partiyasının sədr müavini, Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyət Fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətinin mühüm rolu olmuşdur.

Mehriban xanım Əliyevanın genişmiqyaslı fəaliyyəti ölkənin ictimai-sosial, mədəni həyatını əhatə etməklə bitmir. Onun vətənimizdən kənarda gördüyü böyük işlər, o cümlədən xeyriyyəçilik təşəbbüsləri digər dövlətlər və xarici vətəndaşlar tərəfindən də təqdir olunur. Onun "Qızıl ürək" beynəlxalq mükafatı, Pakistan Respublikasının "Şəhid Bənazir Bhutto Qadın Mükəmməlliyi" mükafatı, Polşa Respublikasının "Xidmətlərə görə" Böyük Komandor Xaçı, Fransa Respublikasının "Şərəf Legionu", İtaliya Respublikasının "Xidmətlərə görə" Böyük Xaç Kavaleri, Rusiya Federasiyasının "dostluq" ordenləri və digər dövlətlərin müxtəlif ali mükafatları ilə təltif olunması beynəlxalq səviyyədə gördüyü əhəmiyyətli işlərə verilən böyük dəyərin təcəssümü olmuşdur. Təsadüfi deyil ki, bu gün Mehriban xanım Əliyevanın gördüyü işlər barədə məlumatlar dünyanın ən nüfuzlu mətbu orqanlarının səhifələrində yer alır.

2020-ci ilin uğurlarından bəhs edərkən sonsuz sevinc və iftixar hisləri ilə xüsusi vurğulanmalıdır ki, ötən ildə xalqımız nəinki həmin ilin, müasir Azərbaycan tarixinin ən böyük uğurunu əldə etmişdir. Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə şanlı tarix yazan hərbçilərimiz düşmən üzərində parlaq qələbəmizi təmin etmiş, nəticədə hərbi və siyasi yolla 30 ilə yaxın işğal altında olan dədə-baba torpaqlarımız azad edilərək, ərazi bütövlüyümüz bərpa olunmuşdur. Fürsətdən istifadə edib, uca Allahdan Vətən müharibəsində qəhrəmancasına həlak olan bütün şəhidlərimizə rəhmət, yaralılarımıza isə şəfa diləyirəm. Vətən var olsun!

Hər kəsə məlumdur ki, Ermənistan uzun zaman ərzində Azərbaycanın 20 faiz ərazisini, beynəlxalq səviyyədə tanınmış tarixi torpaqlarını - Dağlıq Qarabağı və ölkəmizin digər 7 rayonunu işğal altında saxlayırdı. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə Azərbaycanın işğal olunmuş ərazilərinin dərhal, qeyd-şərtsiz və tamamilə qaytarılmasını nəzərdə tutan müddəaları özündə əks etdirən 822, 853, 874 və 884 saylı dörd qətnaməsinin qəbul olmasına baxmayaraq, həmin qətnamələr icra olunmamış, bununla əlaqədar aidiyyəti beynəlxalq təşkilatlar isə heç bir tədbir görməmişdir. Ermənistan da bu illər

ərzində mövcud vəziyyətdən istifadə edərək qeyd olunan qətnamələri yerinə yetirmir, hər vəchlə münaqişəni mümkün qədər çox və daha uzun müddətə dondurmağa çalışır və status-kvonun qəbuledilməz və dəyişdirilməli olması barədə beynəlxalq ictimaiyyətin, o cümlədən ATƏT-in Minsk qrupunun həmsədrləri olan ölkələrin bütün çağırışlarına məhəl qoymayaraq onları cavabsız qoyurdu.

Qazanılan diplomatik uğurlara baxmayaraq, gedən proseslər, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı beynəlxalq təşkilatlar tərəfindən qəbul olunmuş qərar və qətnamələrin icra edilməməsi bu qənaətə gəlməyə əsas verirdi ki, beynəlxalq hüquq sözügedən məsələyə dair hissədə işləmir. Buna görə də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev hər dəfə mötəbər kürsülərdən deyirdi: "...Əgər bu məsələ sülh yolu ilə həll olunmasa, bunu hərbi yolla həll edəcəyik...". Cənab Prezidentin sözügedən ifadəsinə əsasən hər bir azərbaycanlı, o cümlədən Silahlı Qüvvələrimizin əsgəri, çavuşu, giziri, zabiti və generalı tarixi torpaqlarımızı düşmənlərdən azad etmək üçün Ali Baş Komandanın əmrini gözləyir və buna hər an hazır idi. Bütün bunları nəzərə alan müdrik rəhbərimiz cənab İlham Əliyev münaqişənin həlli ilə bağlı hər iki istiqamətdə işini etibarlı tutaraq, beynəlxalq dəstək və hüquqi baza yaratmaqla bərabər, həm də rəşadətli Silahlı Qüvvələr formalaşdırmışdır. Ulu öndər Heydər Əliyevin ordu quruculuğu strategiyasını zamanın tələblərinə uyğun reallaşdıran möhtərəm Prezident cənab İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə bu sahədə həyata keçirilən köklü islahatların və kompleks tədbirlərin nəticəsi olaraq Silahlı Qüvvələrimizin maddi-texniki bazası möhkəmləndirilmiş, arsenalı ən müasir silah-sursat və hərbi texnika ilə zənginləşdirilmiş, hərbi qulluqçuların nəzəri və peşə bilikləri, mənəvi-psixoloji hazırlığı artırılmış, bir sözlə müasir tələblərə tam cavab verən, istənilən döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirməyə qadir və işğal altındakı torpaqlarımızı azad etmək iqtidarında olan Azərbaycan Silahlı Qüvvələri formalaşmışdır. Təsadüfi deyildir ki, "Global Firepower" hərbi-analitika təşkilatının dünya ölkələri ordularının gücü ilə bağlı hazırladığı 2020-ci il hesabatında 138 ölkənin orduları sırasında Gürcüstan ordusu 89-cu, Ermənistan ordusu 111-ci yerdə olduğu halda, ordumuz 64-cü yerdə qərarlaşmış, bununla da ötən illərdə olduğu kimi Azərbaycan Ordusu Cənubi Qafqaz regionunun ən güclü ordusu reytinqini qoruyub saxlamışdır. Qeyd olunanlar hərbi uğurlarımızı şərtləndirmiş və nəticədə 2016-cı ilin aprel, 2018-ci ilin may və bu ilin iyul ayında, eləcə də 27 sentyabrdan başlayaraq düşmənin törətdikləri növbəti təxribatlarının qarşısının alınması zamanı gedən döyüşlərdə Azərbaycan Silahlı Qüvvələri öz gücünü, qüdrətini və yüksək döyüş hazırlığını, hərbçilərimiz isə peşəkarlığını və qəhrəmanlığını əyani şəkildə sübut edərək xalqımıza ardıcıl zəfərlər və nəhayət möhtəşəm qələbə ərməğan etmişdir.

27 sentyabr 2020-ci il tarixdə səhər saatlarında Ermənistan Silahlı Qüvvələrinin genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutması ordumuzu mənfur düşmənin layiqli cavabını verməyə sövq etdiyindən Azərbaycan Silahlı Qüvvələri əks-hücum əməliyyatları həyata keçirdi və bununla da ikinci Qarabağ müharibəsi başladı. Böyükdən kiçiyə hər kəs Vətən müharibəsinin qələbə ilə başa çatmasını qarşıya məqsəd qoydu. Dövlət başçısı cənab İlham Əliyevin "Biz birlikdə güclüyük!" şüarı dillərdə əzbər olmaqla xalqı öz liderinin ətrafında daha da sıx birləşdirərək mülki vətəndaşlarda mübarizə əzmi, hərbçilərimizdə isə böyük ruh yüksəkliyi yaratdı. Ermənistanın növbəti təxribatlarının qarşısını almaq və düşməni sülhə sövq etmək məqsədi ilə gedən 44 günlük müharibədə müdrik və qətiyyətli Ali Baş Komandanın rəhbərliyi ilə qüdrətli Azərbaycan Silahlı Qüvvələrinin hərbçilərinin şücaəti hərb tariximizin qəhrəmanlıq salnaməsini yaratmağa müvəffəq oldu. Elə ilk günlərdən düşmənə sarsıdıcı zərbələr vuran qəhrəman övladların qısa zamanda ardıcıl zəfərlər qazanmaqla kəndlərimizi, qəsəbələrimizi, yaşayış məntəqələrimizi, eləcə də şəhərlərimizi, o cümlədən 4 oktyabrda Cəbrayıl, 17 oktyabrda Füzuli, 20 oktyabrda Zəngilan, 25 oktyabrda Qubadlı və nəhayət 8 noyabrda Şuşa şəhərini işğaldan azad etməsi Ermənistanı sülhə sövq etdi və bu biçarə düşmənin kapitulyasiya aktını imzalaması ilə nəticələndi. Bununla da, haqq mübarizəsi hərbi-siyasi qələbəmizlə başa çatdı və ədalət bərpa olundu. Ardınca 20 noyabrda Ağdam, 25 noyabrda Kəlbəcər və 1 dekabrda Laçın işğaldan azad olundu. Təbii ki, bütün bunlar müzəffər Ali Baş Komandanın mükəmməl siyasətinin və sarsılmaz iradəsinin, dövlətimizin qüdrətinin, Silahlı Qüvvələrimizin gücünün, hərbi qulluqçularımızın qəhrəmanlığının və xalqımızın mübarizliyinin sıx vəhdətinin nəticəsində mümkün olmuşdur. Möhtərəm Prezident cənab İlham Əliyev demişdir: "...heç bir xarici qüvvə Azərbaycan xalqının və dövlətinin iradəsini sındıra və onun qazandığı Qələbəyə kölgə sala bilməz...".

Vurğulanmalıdır ki, vətən savaşı dövründə Ali Baş Komandan eyni zamanda informasiya müharibəsinə də rəhbərlik edirdi. Möhtərəm Prezident xarici kütləvi informasiya vasitələrinə davamlı olaraq verdiyi müsahibələrində əcnəbi jurnalistlər tərəfindən bəzi hallarda məqsədli şəkildə ona ünvanlanan qərəzli, heç bir məntiqə sığmayan və həqiqəti təhrif etməyə yönəlmiş təxribat xarakterli sualları təmkinlə və yüksək peşəkarlıqla, beynəlxalq hüquqa və tarixi faktlara əsaslanan zəngin məntiqli fikirləri ilə cavablandırmaqla, əsl həqiqətin nədən ibarət olmasına-torpaqlarımızın işğal edildiyinə və bu münaqişədə Azərbaycanın haqlı tərəf olduğuna dünya ictimaiyyətini inandırmağa uğurla müvəffəq oldu. Ermənistana və

ədalətsizliyi dəstəkləyən ermənipərəst dövlətlərə ünvanlanmış tutarlı ismarıcları ilə qətiyyətli mövqe nümayiş etdirən ölkə rəhbəri bu mübarizədə də qələbəmizi təmin etdi.

Vətən müharibəsindən bəhs edərkən qeyd etmək lazımdır ki, II Qarabağ savaşı ərzində prokurorluq, o cümlədən hərbi prokurorluq orqanlarının əməkdaşları da, istər xidmət yerində, istərsə də ezam olunduqları müvafiq ərazilərdə xidməti vəzifələrinin icrası ilə bağlı üzərlərinə düşənləri layiqincə yerinə yetirdilər. Eyni zamanda, döyüş bölgələrində müşahidələr apararaq hər hansı nöqsan, çatışmazlıq və problem aşkar edildiyi təqdirdə onların aradan qaldırılması məqsədilə səlahiyyətləri çərçivəsində müvafiq tədbirlər görmüş, eləcə də zəruri hallarda aidiyyəti üzrə müraciətlər edərək cavabdeh qurum və şəxslərin qarşısında məsələ qaldırılmasını təmin etmişlər. Yerigəlmişkən, qeyd olunmalıdır ki, xidməti vəzifələrini nümunəvi icra edən əməkdaşlar cənab Baş prokuror və cənab Hərbi prokuror tərəfindən müvafiq qaydada həvəsləndirilmişlər. Xüsusi vurğulanmalıdır ki, prokurorluq orqanlarının fəaliyyəti dövlət səviyyəsində də yüksək qiymətləndirilmiş və xidməti vəzifələrini yerinə yetirərkən fərqlənmiş 38 əməkdaş, o cümlədən Hərbi Prokurorluğun 9 işçisi Möhtərəm Prezidentin 30 dekabr 2020-ci il tarixli Sərəncamı ilə müvafiq olaraq orden və medallarla təltif edilmişlər.

Qazanılan uğurlardan danışılarkən, bəşəriyyəti əhatə etməklə insanların həyat və sağlamlığını ciddi təhdid altına alan, dünyanın demək olar ki, hər yerində yüzlərlə insanı cənginə keçirən və ya qurbanına çevirən Koronavirus (COVİD-19) pandemiyasına qarşı ölkəmizdə aparılan uğurlu mübarizəni də vurğulamaq lazımdır. Dünyanın Çin, ABŞ, İtaliya, İspaniya və digər qüdrətli dövlətləri aciz olduğu, xeyli itkilər verdiyi və ciddi zərərə məruz qaldığı halda, ölkəmizin bu sınaqdan da az zərər və minimal itki ilə çıxması cənab Prezidentin mükəmməl siyasətinin, müdrik tövsiyələrinin, onun rəhbərliyi ilə aidiyyatı dövlət orqanları tərəfindən görülən əhəmiyyətli tədbirlərin, həyata keçirilən səmərəli fəaliyyətin və xalqın iradəsinin nəticəsidir.

2020-ci il prokurorluq orqanları üçün də əlamətdar olmaqla prokurorluğun tərəqqi dövrü kimi tarixin yaddaşına həkk olunmuşdur. Möhtərəm cənab Prezident İlham Əliyevin mayın 1-də Azərbaycan Respublikasına yeni Baş prokuror təyin etməsi və mühüm dövlət postuna gətirilən II dərəcəli dövlət ədliyyə müşaviri cənab Kamran Əliyevin elə həmin gün videoformatda qəbulu zamanı dövlət başçısının verdiyi dəyərli tapşırıq və tövsiyələrin prokurorluq, o cümlədən hərbi prokurorluq orqanlarında həyata keçirilməsi ilə prokurorluğun inkişafının yeni, islahatlar və səmərəli dəyişikliklər mərhələsi başlamışdır.

Belə ki, dövlət orqanlarında idarəetmənin təkmilləşdirilməsi, işin səmərəliliyinin artırılması istiqamətində ölkəmizdə aparılan islahatların davamı olaraq, ölkə Prezidentinin göstəriş və tövsiyələrinin icrası ilə bağlı prokurorluq orqanlarında əsaslı struktur və kadr islahatlarının həyata keçirilməsinə başlanılmış, ədalətli meyarlara və şəffaf prosedurlara əsaslanan mütərəqqi dəyişikliklərin reallaşdırılması istiqamətində mühüm işlər görülmüşdür.

Prokurorluq orqanlarının cəmiyyətdə formalaşan yeni çağırışlara adekvat uyğunlaşması və fəaliyyətində şəffaflığın təmin edilməsi, işin çevikliyinin və səmərəliliyinin artırılması, müasir dövrün tələblərinə cavab verən peşəkar kadr korpusunun formalaşdırılması məqsədilə cənab Prezident İlham Əliyevin 10 iyun 2020-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Baş Prokurorluğunun yeni strukturu təsdiq edilmiş, bununla da, Baş Prokurorluğun strukturu mahiyyətcə tamamilə yenidən formalaşdırılaraq daha çevik, mobil və dinamik idarəetməyə malik idarələr yaradılmış, idarə və şöbələrin sayı 15-dən 18-ə çatdırılmış, idarəetmədə nəzarət mexanizminin optimallaşdırıması məqsədilə Baş prokurorun əlavə müavini vəzifəsi təsis edilmiş, Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsi ilə Bakı şəhər prokurorluğunun İstintaq idarəsi birləşdirilərək Baş Prokurorluğun İstintaq idarəsi yaradılmışdır. Bundan başqa, Baş Prokurorluğun bəzi idarələri ləğv edilərək onların bazasında Təşkilat və icraya nəzarət, Xidməti araşdırmalar, Beynəlxalq hüquqi əməkdaşlıq, Hüquqi təminat və insan hüquqları, Kriminalistika və informasiya texnologiyaları, Sənədlərlə və müraciətlərlə işin təşkili idarələri təsis olunmuş, həmçinin mərkəzi aparatın yeni, Cinayət təqibindən kənar icraatlar və Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarələri yaradılmışdır.

Bundan başqa, ölkə başçısının sözügedən Sərəncamına əsasən, Azərbaycan Respublikası Baş prokurorunun müvafiq əmri ilə Azərbaycan Respublikası Hərbi Prokurorluğunun yeni strukturu təsdiq edilmiş, Respublika Hərbi prokurorunun əlavə müavini vəzifəsi təsis olunmuş, Kriminalistika və informasiya texnologiyaları idarəsi, Hərbi təsisatlarda təhqiqata nəzarət və cinayət təqibindən kənar icraatlar idarəsi, həmçinin Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsi yaradılmış, bəzi idarə və şöbələrlə əlaqədar müvafiq dəyişikliklər edilmişdir.

Qeyd etmək lazımdır ki, dövlət başçısının rəhbər göstərişlərindən və müdrik tövsiyələrindən irəli gələn vəzifələrin yerinə yetirilməsi, müasir məzmunlu islahat tədbirlərinin eyni intensivliklə davam etdirilməsi, fəaliyyət istiqamətləri üzrə işin keyfiyyətinin yüksəldilməsi, müasir iş metodlarını tətbiq etməyə qadir olan kadr korpusunun formalaşdırılması, o cümlədən prokurorluq orqanlarında funksional idarəetmənin səmərəliliyinin artırılması məqsədilə prokurorluğun sağlam mənəviyyata və yüksək peşəkarlığa malik müasir dünyagörüşlü işçilərlə komplektləşdirilməsi istiqamətində işlər Baş prokuror cənab Kamran Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir.

Ötən il Hərbi prokurorluq orqanları üçün də uğurlu olmuşdur. Əvvəlcə qeyd olunmalıdır ki, Möhtərəm cənab Prezident İlham Əliyev ədliyyə general-leytenantı cənab Xanlar Vəliyevi yenidən Azərbaycan Respublikasının Hərbi prokuroru vəzifəsinə təyin etmişdir. Sözügedən təyinat, Hərbi Prokurorluğa və kollektivinin fəaliyyətinə verilən yüksək qiymətin və onun rəhbərinə göstərilən növbəti etimadın təzahürü idi. Ali qiymətləndirməni dəyərləndirmək və böyük etimadı yenidən doğrultmaq məqsədilə hərbi prokurorluq əməkdaşları əzmlə çalışmağı və xidməti vəzifələrini daha məsuliyyətlə yerinə yetirməyi qarşıya məqsəd qoyduqları üçün bu istiqamətdə fəaliyyətlərini uğurla davam etdirirlər.

Azərbaycan Respublikası Hərbi prokurorluq orqanlarının fəaliyyəti ötən dövrlərdə olduğu kimi 2020-ci ildə də səmərəli olmaqla, Silahlı Qüvvələrdə hərbi intizamın möhkəmləndirilməsinə, cinayətkarlığın və qanun pozuntularının qarşısının alınmasına, insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasına, həmçinin Silahlı Qüvvələrimizin qüdrətinə xələl gətirə biləcək hüquqazidd əməllərin və digər nöqsanların aradan qaldırılmasına yönəldilmişdir.

Vurğulanmalıdır ki, cinayət işlərinin başlanmasının qanuniliyinə və əsaslılığına xüsusi diqqət yetirilməsi, icraatda olan işlər üzrə bütün halların hərtərəfli, tam və obyektiv araşdırılması istiqamətində həyata keçirilmiş fəaliyyət, düzgün qurulmuş istintaq metodikası və taktikası, səriştəli aparılan istintaq hərəkətləri, tələb edilən səviyyədə prosessual rəhbərlik, eləcə də işçilərin peşəkarlığı və əzmi sayəsində qeydə alınmış cinayətlərin 99,5 faizi açılmışdır.

2020-ci ildə prokurorluqda vətəndaşların müraciətlərinə baxılması işinin səmərəliliyinin artırılması üzrə ardıcıl və sistemli tədbirlərin görülməsi də təmin edilmiş, vətəndaşların müraciət etmək imkanlarının genişləndirilməsi və asanlaşdırılması, daxil olmuş müraciətlərə daha diqqətlə yanaşılaraq qaldırılan məsələlərin həlli istiqamətində təxirəsalınmaz tədbirlər görülmüşdür. Cənab Prezidentin örnək davranışlarından daim ibrət götürməklə, dövlət başçısının məmurla vətəndaş arasındakı münasibətlərlə bağlı dəyərli tövsiyələrini fəaliyyətlərində hər zaman rəhbər tutan bütün prokurorluq əməkdaşları kimi hərbi prokurorluq əməkdaşları da qeyd olunan dövrdə vətəndaşların müraciətlərinə xüsusi həssaslıqla, özlərinə isə yüksək nəzakətlə yanaşmış, işçilər, o cümlədən rəhbər vəzifəli şəxslər tərəfindən mütəmadi olaraq onların qəbulu həyata keçirilmiş, istər müraciətlərinə cavab verilərkən, istərsə də qəbullar zamanı qanunvericiliklə müəyyən olunmuş qaydada və həddə onları maraqlandıran suallara müfəssəl cavablar verilmiş, hüquqları izah edilmiş və həyata keçirilməsi üçün hər cür şərait yaradılaraq bütün zəruri tədbirlər görülmüşdür.

Ötən dövrlərdəki kimi, 2020-ci ildə də ölkəmizdə korrupsiyaya və rüşvətxorluğa qarşı kəsərli mübarizə uğurla davam etdirilmiş, dövlət başçısının bu sahədə qarşıya qoyduğu vəzifələrin icrası ilə əlaqədar Hərbi prokurorluq orqanları mütəşəkkil cinayətkarlığın ən təhlükəli təzahürlərindən biri olan korrupsiyaya qarşı mübarizə sahəsində fəaliyyətini daha da gücləndirmiş, bu qəbildən olan cinayətlərin də qarşısının alınması istiqamətində zəruri tədbirlər görülmüşdür.

Vurğulanmalıdır ki, Silahlı Qüvvələrdə baş vermiş ölüm faktı üzrə başlanılmış hər bir cinayət işinin istintaqı Respublika Hərbi Prokurorluğunun rəhbərliyi tərəfindən nəzarətə götürülməklə, iş üzrə hərtərəfli, tam, obyektiv və vaxtında ibtidai araşdırmanın aparılması, təqsirkar şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi, eləcə də hər bir fakta və əmələ hüquqi qiymət verilməsi təmin olunmuşdur.

Qeyd olunmalıdır ki, hərbi prokurorluqlarda hər bir cinayət işi üzrə ibtidai araşdırmanın aparılması zamanı, cinayətin törədilməsinə imkan yaradan səbəb və şərait müəyyən edilməklə, müvafiq təşkilatın və ya vəzifəli şəxsin ünvanına belə halların aradan qaldırılması üçün tədbirlər görülməsi barədə təqdimat göndərilərək həmin halların qarşısının alınması, eləcə də iş üzrə əməlində cinayət tərkibi olmayan, lakin başqa hüquq pozuntusuna yol vermiş bütün şəxslərin digər müvafiq hüquqi məsuliyyətə cəlb edilməsi təmin edilmişdir.

Onu da qeyd etmək lazımdır ki, Silahlı Qüvvələrdə ayrı-ayrı cinayətlərin qarşısının alınması məqsədilə, hər zaman olduğu kimi, hesabat dövründə də məhkəmə və istintaq təcrübəsi ümumiləşdirilərək müxtəlif vaxtlarda Respublika Hərbi Prokurorluğunun kollegiya iclaslarında silahlı birləşmələrin rəhbər vəzifəli şəxslərinin iştirakı ilə müzakirə edilmiş, kollegiyaların qərarlarına əsasən Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin və digər dövlət orqanlarının rəhbərlərinə cinayətin törədilməsinə imkan yaradan halların aradan qaldırılması üçün zəruri qabaqlayıcı tədbirlərin görülməsinə dair məlumat məktubları, silahlı birləşmələrin komandanlıqlarına təqdimatlar, ərazi hərbi prokurorlarına icmal-məktublar göndərilmişdir.

Vurğulanmalıdır ki, nizam-intizamın, qanunçuluq və hüquq qaydasının daha da möhkəmləndirilməsi istiqamətində əldə olunan müsbət nəticələrdə Hərbi prokurorluq orqanları ilə Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Daxili Qoşunlar və digər dövlət orqanları, həmçinin qeyri-hökumət təşkilatları arasında yaranmış qarşılıqlı sağlam və işgüzar əlaqələrin də böyük əhəmiyyəti olmuşdur. Belə ki, fəaliyyət istiqamətləri üzrə görülən işlərlə bərabər, insan hüquq və azadlıqlarının daha etibarlı müdafiəsinin və bununla əlaqədar həyata keçirilən tədbirlərin səmərəliliyini artırmaq məqsədilə aidiyyatı dövlət qurumları ilə birgə bir sıra digər işlər də görülmüşdür.

Yeri gəlmişkən, Vətən müharibəsindən bir neçə gün əvvəl ön xətdə yerləşən hərbi hissə və bölmələrdə xidmət aparan hərbi qulluqçularla görüşmək məqsədilə Baş prokuror cənab Kamran Əliyevlə Hərbi prokuror cənab Xanlar Vəliyevin cəbhə bölgəsinə

birlikdə uğurlu səfərləri baş tutmuşdur. Qeyd olunmalıdır ki, Azərbaycan Respublikası Baş prokurorunun müavini–Azərbaycan Respublikasının Hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev əvvəlki illərdə olduğu kimi ötən il də həmçinin Dövlət Sərhəd Xidmətinin rəisi cənab Elçin Quliyevlə birlikdə Sərhəd Qoşunlarının "Qazax" əlahiddə sərhəd diviziyasının düşmənlə üz-üzə dayanan hərbi hissə və bölmələrinə, Müdafiə nazirinin müavini cənab Kərim Vəliyevlə birlikdə isə Müdafiə Nazirliyinin tabeliyində olan cəbhə xəttində yerləşən müvafiq hərbi hissələrə getməklə, orada şəxsi heyətlə, o cümlədən döyüş şəraitində xidmət aparan hərbi qulluqçularla görüşlər keçirmişdir. Hər il olduğu kimi, 2020-ci ildə də, o cümlədən döyüş əməliyyatları gedən zaman da Hərbi Prokurorluğun işçiləri, Respublika Hərbi prokurorunun müavinləri, böyük köməkçiləri, idarə, şöbə rəisləri, ərazi hərbi prokurorları və digər əməkdaşlar aidiyyəti dövlət qurumlarının müvafiq yüksək vəzifəli şəxsləri ilə birlikdə ön xətdə xidmət aparan hərbçilərlə görüşmək məqsədilə cəbhəyanı zonada yerləşən hərbi hissələrə səfər etmişlər. Bütün görüşlər zamanı hərbi qulluqçuların milli və döyüş ruhunun daha da yüksəldilməsi, onlarda vətənpərvərlik hislərinin dərindən aşılanması, hüquqi biliklərin artırılması istiqamətində söhbətlər aparılmış, verilən suallar ətraflı cavablandırılmış, şəxsi heyətin hərtərəfli maarifləndirilməsi ilə əlaqədar zəruri tədbirlərin görülməsi təmin edilmiş, eyni zamanda xidməti vəzifələrini nümunəvi icra edənlər müxtəlif hədiyyələrlə mükafatlandırılmışdır. Səfərlər əsnasında, həmçinin hərbi qulluqçuların qayğı və problemləri, eləcə də yaşayış, məişət və xidmət şəraiti ilə maraqlanılmışdır.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Mərkəzi Aparatının inzibati binasında yerləşməklə onun nəzdində fəaliyyət göstərən Memorial Soyqırım Muzeyi ilə bağlı da 2020-ci ildə xeyli işlər görülərək, obyektiv həqiqətlər-Azərbaycan xalqına qarşı törədilmiş sülh və insanlıq əleyhinə və digər cinayətlər, o cümlədən xalqımızın tarixi torpaqlarından zorla çıxarılması üçün həyata keçirilmiş deportasiya siyasəti, azərbaycanlılara qarşı xüsusi amansızlıqla və qəddarlıqla törədilən kütləvi qırğınlar barədə məlumatların dünya ictimaiyyətinə çatdırılması, bu barədə gələcək nəsillərin ixtiyarına tutarlı dəlillərin və ətraflı məlumatların verilməsi, gənclərin və hərbi qulluqçuların hərbi vətənpərvərlik ruhunda tərbiyə edilməsi, vətəndaşlarımızda milli ruhun daha da yüksəldilməsi məqsədilə müxtəlif dövlət orqanlarına və ictimai təşkilatlara muzeyi ziyarətlə əlaqədar müvafiq məktublar göndərilmiş və ziyarətə gələn 5000 nəfərdən çox şəxsin ekskursiyası təmin olunmuşdur (Koronavirus (COVİD-19) pandemiyası ilə əlaqədar xüsusi karantin rejimi elan edilənədək).

Bundan başqa, ötən il Hərbi Prokurorluq orqanlarının kütləvi informasiya vasitələri və qeyri-hökumət təşkilatları ilə əməkdaşlığı müasir tələblərə cavab verən səviyyədə qurulmaqla, bu sahədə işin səmərəliliyi daha da artırılmış, o cümlədən prokurorluğun fəaliyyəti, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi istiqamətində görülən işlər, cinayətkarlığın vəziyyəti, ictimai maraq doğuran cinayət işlərinin istintaqı barədə dövri mətbu nəşrlər, televiziya və teleradio vasitələri, informasiya agentlikləri və saytlar vasitəsi ilə ictimaiyyətə müntəzəm olaraq məlumatların verilməsi təmin edilmiş, həmçinin kütləvi informasiya vasitələrinin sorğuları qanunvericiliyin tələbləri çərçivəsində mütəmadi olaraq cavablandırılmış, habelə Azərbaycan Respublikası Hərbi Prokurorluğunun işçiləri tərəfindən 2020-ci ildə yerli və ölkə əhatəli, həmçinin qardaş dövlət Türkiyə Respublikasının kütləvi informasiya vasitələrində müvafiq olaraq "20 yanvar" və "Xocalı" hadisələri, Azərbaycan Xalqının Ümummilli Lideri, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 97 illiyi, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 102 illiyi, Azərbaycan Xalqının Milli Qurtuluş günü, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaranmasının 102 illiyi, Vətən müharibəsi zamanı Ermənistan tərəfindən Azərbaycanın mülki əhalisinə qarşı, həmçinin hərbçilərinə qarşı törədilmiş cinayətlər, eləcə də, yeni qanunvericiliyin, hərbi qulluqçuların hüquq və vəzifələrinin izahı ilə bağlı və digər mövzularda müxtəlif kütləvi informasiya vasitələrində çıxışlar edilmiş, o cümlədən "Xalq Qəzeti", "Respublika", "Azərbaycan ordusu", "Hərbi and" və digər qəzetlərdə məqalələr dərc edilmiş, müxtəlif televiziya kanallarında və saytlarda çıxışlar edilmiş, məlumatlar və müsahibələr verilmişdir.

Təbii ki, yuxarıda sadalananlar Azərbaycan Respublikası Hərbi Prokurorluğunun 2020-ci ildəki fəaliyyətini tam ehtiva etmir və qeyd olunan dövr ərzində, Hərbi prokurorluq orqanları tərəfindən qanunun aliliyi prinsipi rəhbər tutulmaqla başqa işlər də görülmüş, eləcə də insan hüquqlarının daha etibarlı müdafiə olunması, cinayətkarlığa və digər qanun pozuntularına qarşı ciddi mübarizə aparılması üçün əlavə tədbirlər də həyata keçirilmişdir.

Əminəm ki, Azərbaycan Respublikası Hərbi Prokurorluğun kollektivi qanunçuluğun və hüquq qaydasının, o cümlədən Silahlı Qüvvələrdə nizam-intizamın daha da möhkəmləndirilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi və cinayətkarlığa qarşı mübarizə istiqamətindəki səmərəli fəaliyyətinin effektivliyini 2021-ci ildə daha da artıracaqdır.

**Firad Əliyev,**
**Azərbaycan Respublikası Hərbi prokurorunun böyük köməkçisi-Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Mətbuat xidmətinin rəhbəri ədliyyə müşaviri.**

# İnsan hüquqlarının müdafiəsində ictimai nəzarət mexanizmlərinin rolu

Dövlət başçısı cənab İlham Əliyev öz çıxışlarında ictimai nəzarət mexanizmlərinin işə salınmasının vacibliyini, hətta sərəncamların icrasına belə, ictimai nəzarətin olmasının önəmliyini, o cümlədən ictimai nəzarətin gücləndirilməsinin bütövlükdə effektli idarəetməyə səmərəli töhfələr verəcəyini vurğulayıb.

İctimai nəzarət demokratik inkişafın təkanverici qüvvəsidir. İctimai şuraların fəaliyyəti də dövlətin idarəçilikdə vətəndaşlar üçün nə dərəcədə açıq olmasının bariz nümunəsidir. Ölkədə yaranması nəzərdə tutulan ictimai şuranın məqsədi vətəndaşları dövlətin idarə olunmasında iştiraka cəlb etməkdir. Eyni zamanda İctimai şuralar dövlət orqanlarının fəaliyyətinə ictimai nəzarət edə bilərlər. Dünyada çox mühüm nəzarət vasitəsinin bəyan edilməsinin nümunəsi olan tənqid isə ən böyük ictimai nəzarətdir. Demokratik cəmiyyətlərdə bu amildən geniş istifadə edirlər.

Demokratik ölkələrdə olduğu kimi Azərbaycanda da icra hakimiyyəti, eləcə də yerli özünüidarəetmə orqanlarına ictimai nəzarətin təmin edilməsi dövlətin diqqətdə saxladığı əsas məsələlərdəndir. Demokratik dövlətin əsas prioriteti vətəndaş cəmiyyətinin qurulmasıdır. Bu, eyni zamanda, demokratik idarəçilikdə vətəndaşların birləşməsi deməkdir. Demokratiyanın özülünü təşkil edən birgə fəaliyyət vətəndaş cəmiyyətinin inkişafına xidmət edir. İctimai nəzarət olaraq həyata keçirilən bu işin məsuliyyəti və özəlliyi ondan ibarətdir ki, vətəndaş cəmiyyətin işinə, yaxşı mənada, müdaxilə edir. İctimai nəzarətin olması xalqın, ümumiyyətlə, vətəndaş cəmiyyətinin dövlətin işinə dəstəyidir.

Dünya təcrübəsində ictimai nəzarət (public control) cəmiyyət üzvlərinin davranışı ilə bağlı bir anlayış olaraq qəbul olunub. Qərb dəyərlərinə görə, ictimai nəzarət ümumi qəbul olunmuş norma və dəyərlərə əməl olunmasına cəmiyyətin nəzarəti deməkdir.

Dünyanın hər yerində insan təbiət və mahiyyətcə maddi nemətlər, o cümlədən təkbaşına hakimiyyətə, hətta cinayətə meyillidir. Bu baxımından, insana xas mənfi ünsürlərlə mübarizədə cəmiyyəti və dövləti qanunlarla, daha dəqiq bu çərçivədə yaradılmış mexanizmlərlə idarə etmək lazımdır. İdarə mexanizmində insan hüquqları ilə əlaqədar ictimai nəzarət funksiyasını yerinə yetirən təşkilatların da mühüm rolu olmalıdır.

Bəzi ölkələrdə əhali üçün hər hansı mühüm qərar qəbul olunduğu zaman, bir çox hallarda bunu ictimaiyyətin müzakirəsinə verirlər. Bu, müxtəlif vasitələrlə, məsələn, sorğu yolu ilə keçirilə bilər. Əgər əvvəllər bu məqsədlə vətəndaşların fikirləri məktub vasitəsi ilə öyrənildirsə, müasir cəmiyyətdə bu cür sorğular internet vasitəsilə həyata keçirilir.

Bütün rayonlarda İctimai şuralar yaradılması ictimai nəzarətin təşkili üçün çox vacibdir. İctimai şuralar yarandıqdan sonra İctimai şuraların regional forumlarının və ümumilikdə, Respublika forumunun keçirilməsi labüddür. İctimai nəzarət mexanizmi bu şəkildə ölkə miqyasında səmərəli fəaliyyət göstərə bilər.

**Dövlət-vətəndaş münasibətləri**

Hazırda Azərbaycanda mərkəzi və yerli icra hakimiyyəti, eləcə də yerli özünüidarəetmə orqanlarına ictimai nəzarətin olması dövlətin diqqətdə saxladığı əsas məsələlərdən biridir.

2014-cü ildə “İctimai iştirakçılıq haqqında” qanunun qüvvəyə minməsi bu fəaliyyəti daha da aktuallaşdırıb. Mərkəzi, yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının yanında yaradılmalı olan İctimai şuranın məqsədi vətəndaşları dövlətin idarə olunmasında iştiraka cəlb etməkdir.

**Qeyri Hökumət Təşkilatları (QHT)**

QHT-dövlət münasibətlərinin yeni mərhələsi kimi, hökumət qurumları ilə vətəndaş cəmiyyəti institutları arasında dialoq mühiti yaradan bu şuralar mərkəzi icra hakimiyyəti orqanlarının fəaliyyətinə ictimai nəzarətin, habelə dövlət idarəçiliyində vətəndaş iştirakçılığının təmini baxımından mühüm rola malikdir.

Bu məsələnin dövlət üçün nə dərəcədə əhəmiyyətli olduğunu Prezident cənab İlham Əliyev çıxışlarında dəfələrlə qeyd edib: “İctimai nəzarətin gücləndirilməsi çox önəmli məsələdir. Mən öz çıxışlarımda dəfələrlə demişəm ki, mütləq ictimai nəzarət olmalıdır. Çünki ictimai nəzarət olan yerdə işlər daha yaxşı gedir”.

Hər şeyi dövlətdən gözləmək də çox halda uğurlu olmayır. Halbuki, ictimai nəzarətin bir mühüm forması olan ictimai qınaq da idarəçilik prosesində mühüm rol oynayır.

### İctimai nəzarətin formaları

İctimai nəzarət müxtəlif formalarda aparıla bilər. Bunlara ictimai şura, ictimai müzakirə, ictimai dinləmə, ictimai rəyin öyrənilməsi, hüquqi aktların layihələrinin ictimai müzakirəsi, yazılı məsləhətləşmə və digərlərini aid etmək olar. Hətta müasir İKT vasitələrindən istifadə edərək elektron və ya mobil formada da ictimai nəzarətin aparılması mümkündür. Bu gün ən əsas ictimai nəzarət mexanizmi olaraq İctimai şuraların fəaliyyəti önəmlidir. İctimai nəzarətin effektiv təşkili və milli maraqların qorunmasında İctimai şuraların aktivləşməsi böyük əhəmiyyət kəsb edir.

Cəmiyyətdə yaşamaq istəyiriksə ətrafımızda baş verən proseslərə həssas yanaşmalıyıq. Bəzən bir yaşayış məntəqəsində xaos baş qaldırır. Bu xaos isə şəhərin nüfuzlu, xalq tərəfindən qəbul olunan və hörmət edilən ziyalısı insanların qarşısına çıxıb izahat verdiyi təqdirdə aradan qalxır. Təəssüf olsun ki, insanlar çox halda ziyalı müdaxiləsi gözlədiyi halda polis müdaxiləsi ilə qarşılaşırlar. Belə bir nümunə dünyanın hər yerində cəmiyyətdə olan gərginləşməni daha da gücləndirir.

Müəssisələrdən, binalardan fərqli olaraq ölkəyə turniket qoymaq olmaz. Ölkədə inzibati orqanlarla birlikdə ictimai nəzarəti yerinə yetirən təşkilatlar əlbir işləsələr həqiqi mənada idarəçilikdə birliyə nail olmaq olar.

### Dünya ölkələrində ictimai nəzarət

Hökumətin fəaliyyətinə ictimai nəzarətin təşkili dünyanın müxtəlif ölkələrində mövcuddur. Hüquq ensiklopedik lüğətində göstərilir ki, ictimai nəzarət sosial nəzarətin kütləvi növüdür. İctimai nəzarət demokratiyanın həyata keçirilməsinin bir forması, genis kütlələrin, cəmiyyətin və dövlətin idarə olunmasına cəlb edilməsi üsulu, aşkara çıxarılan nöqsan və çatışmazlıqların aradan qaldırılmasının zəruri şərtidir.

İctimai nəzarət dövlət, dövlət-ictimai (xalq) nəzarətindən ibarət olan nəzarət sisteminin mühüm tərkib hissəsidir. İctimai nəzarətə ictimai və sosial-hüquqi kontekstdən yanaşmaq olar. Belə ki, mədəni cəmiyyətlərdə insanlar birlikdə özlərinin hüquqlarını müdafiə etmək üçün ictimai təşkilatlar qurub, onları idarə edən qurumlar yaradıblar.

İctimai nəzarətin təşkilində bütün vətəndaşlar, ictimai və siyasi təsisatlar, eyni zamanda, QHT sektoru və media da əhəmiyyətli rol oynamalıdır.

Dünyanın müasir və inkişaf etmiş dövlətləri uzun müddət klassik anlamda siyasi partiyalar vasitəsilə, demokratik yolla idarə olunub. Bəli, Uinston Çörçil deyib ki, demokratiyanın özünün də kifayət qədər problemləri var, ancaq bəşəriyyət hələ ki demokratiyadan üstün idarəetmə ortaya qoymayıb.

Hazırda dünyanın bir sıra ölkələrində ictimai nəzarətin həyata keçirmənin çox müxtəlif yolları var. Misal olaraq göstərmək olar ki, bəzi ictimai nəzarət qruplar, bələdiyyələr, polis və digər bu kimi qurumlar ərazisində yaşayan insanlara istənilən məsələ ilə bağlı fikirlərini internet üzərindən müxtəlif proqramlar vasitəsilə aidiyyəti təşkilatlara bildirmələrinə şərait yaradırlar.

Amma son illər inkişaf etmiş demokratik ölkələrdə baş verənlər demokratiyanın da böhran yaşadığını göstərir. Bütün bunları yazmaqda məqsədimiz odur ki, əgər cəmiyyətdə ictimai nəzarət yoxdursa, partiya, demokratik koalision hökumətlər və s. cəmiyyəti inkişaf etdirə, tərəqqiyə nail ola bilməz. Biz siyasi partiyaların, parlamentin, hökumətin rolunu danacaq dərəcədə siyasi sadəlövh olmasaq belə, ən mükəmməl dövlət aparatının da fiziki imkanları çox məhduddur.

Bəzən şəhərin müxtəlif yerlərində hadisə, hətta cinayətə cəhdlər baş verir. Polisdən öncə insan hüquqlarının müdafiəsində çox mühüm rol verilən ictimai nəzarət orqanları, konkret halda fərd hadisənin qarşısını almağa çalışırmı? Bu, cəmiyyətin tərbiyə prosesindən və metodundan asılıdır. Biz xarici ölkələrdə ciddi növbə sisteminə riayət və nəzarət edirik. Mikro dünyamızda isə "məni hamı tanıyır" prinsipi ilə bütün bağlı qapıları açmaqda özümüzü sanki səlahiyyətli hesab edirik. Xaricdə ictimai nəzarət çox qüvvətli olduğu üçün növbə prinsipini gözləməyə məcbur oluruq. Bu zaman məcburən xaricdəki çərçivələrdə davranmalı oluruq.

Bütün ölkələrdə səmərəli çıxış yolu olaraq ictimai nəzarətin qurulmasını görürlər. Hansı cəmiyyətdə yüksək ictimai nəzarət varsa, o cəmiyyətdə yüksək inkişafa nail olunur. Yəni, sözün yaxşı mənasında cəmiyyətin hər bir üzvü cəmiyyətdə, ətrafında baş verən proseslərə nəzarətçi olmalıdır.

Yekun olaraq gəldiyimiz nəticə odur ki, ölkədə demokratiyanın çiçəklənməsi eyni zamanda insan hüquqları ilə əlaqədar ictimai nəzarət sistemi də qərarlaşmalıdır. Buna ağır zəhmətlər hesabına nail olmalıyıq. Hər şeyə cəmiyyət üzvlərinin BİRLİYİ, HƏMRƏYLİYİ ilə nail olmalıyıq. Heç təsadüfi deyil ki, xarici politoloqlar

əgər ictimai nəzarət yoxdursa, o ölkənin gələcəyi yoxdur deyirlər.

**"İctimai iştirakçılıq haqqında" qanun**

"İctimai iştirakçılıq haqqında" qanunun qüvvəyə minməsindən 5 il keçib. Bu günə kimi ölkədə fəaliyyət göstərən 40-a yaxın mərkəzi icra hakimiyyəti orqanlarından 11-də İctimai şuralar, o cümlədən İctimai nəzarət üçün QHT-lərdən ibarət İşçi Qrupu da yaradılıb. Xatırladaq ki, "İctimai iştirakçılıq haqqında" qanunun hazırlanmasında "Konstitusiya" Araşdırmaları Fondu iştirak edib. Fondun təqdimatına görə ictimai nəzarətin effektivliyi üçün İctimai şuraların yaradılması prosesi sürətləndirilməlidir: "Bütün bunlar ölkədə səmərəli və effektli idarəetmə prosesində, qərarların hazırlanması və qəbulunda vətəndaş cəmiyyətinin daha geniş şəkildə cəlb edilməsi, eyni zamanda icra hakimiyyəti strukturlarında ictimai nəzarətin səmərəli tətbiqi, həmçinin onların fəaliyyətində şəffaflığın artırılması üçün vacibdir.

İctimai nəzarətin gücləndirilməsinin ən vacib elementlərindən biri odur ki, vətəndaş cəmiyyəti institutları qərar qəbuletmə prosesində iştirak etsinlər. Bu, həm şəffaflıq və hesabatlılığın artırılmasına gətirib çıxaracaq, həm də bütövlükdə effektli idarəetməyə səmərəli töhfələr verəcək. Ümumiyyətlə, dövlət orqanlarına inam və etimadı artıracaq".

İctimai nəzarət özündə ictimai norma və qaydalar, sosial göstərişlər və hüquqi cəzalar kimi anlamları da birləşdirir. Sosioloq P.Bergerin fikrincə, "sosial nəzarət" konsepsiyasına uyğun olaraq, insan öz ətrafında bas verənlərin və sosial nəzarətin müxtəlif növlərindən, tiplərindən və formalarından ibarət olanların mərkəzində dayanır. İnsanı əhatə edən hər bir dairə yeni nəzarət sistemidir. Dövlət aparatından ibarət olan siyasi-hüquqi sistem ən böyük dairədir".

İctimai və ya sosial nəzarətdən bəhs edərkən, hər bir fərdin məhz özünənəzarət – yəni daxilən nəzarət məsələsi əsas önəm daşıyır. Hər bir kəs (fərd, şəxs, vətəndaş) öz davranışını bütövlükdə cəmiyyətdə qəbul olunmuş normalarla uyğunlaşdıraraq tənzimləməlidir.

İkincisi, xarici nəzarətdir. Bu isə ümumilikdə qəbul edilən qanunlar, davranış tərzi – normalarına əməl edilməsinə məsul olan institut və mexanizmlərin məcmusudur.

Hüquqi dövlətdə həmçinin mövcud demokratik institutların möhkəmləndirilməsində sosial nəzarət mexanizmi vacib rola malikdir. Bu baxımdan sosial nəzarət demokratik institutların əsas atributlarından olub, əsasən sosial davranış qaydalarını tənzimləməklə, cəmiyyətdə davranış normalar sistemini təsbit edir. Sosial nəzarət dedikdə, normativ tənzimetmənin praktiki-mənəvi vasitələrinin köməyilə sivilizasiyalı sistemi nizamlı, dinamik-müvazinətli vəziyyətdə saxlamaq üsulu başa düşülür. Deməli, ictimai qaydanın və onun xüsusi mexanizmlərinin qorunması üçün hakimiyyət səlahiyyətlərindən istifadə olunur. Bu zaman sosial normalar, sanksiyalar tətbiq edilir və hakimiyyət anlayışı ön plana çəkilir. Başqa sözlə, cəmiyyət üzvlərinin fəaliyyətinə dövlət və cəmiyyətin özü tərəfindən nəzarət həyata keçirilir.

İctimai nəzarətin əsas məqsədi qəbul edilən qərarların və onun icrasının qanun-vericiliyə uyğun olmasını diqqətdə saxlamaq, vətəndaşların mənafe və hüquqlarının qorunmasına yardımçı olmaqdır. Yəni istənilən icra orqanının işinə ictimai əsaslarla fəaliyyət göstərən vətəndaş cəmiyyəti institutlarının ictimai nəzarəti həyata keçirməsi neqativ halların yerindəcə aşkarlanaraq aradan qaldırılması üçün əlverişli imkan yaradır. İctimai nəzarəti həyata keçirmək üçün vətəndaş cəmiyyətinin müxtəlif strukturları QHT-lər, KİV-lər, həmkarlar ittifaqları, vətəndaşların təşəbbüs qrupları yaxından əməkdaşlıq edirlər.

İctimai nəzarətin həyata keçirilməsində hakimiyyət strukturlarının üzərinə müəyyən vəzifələr düşür:

1. Bu sahədə qanunvericilik dövrün və zamanın tələbinə uyğun olaraq təkmilləşdirilməli, bəzi məqamlar yumşaldılmalı, bəzi sahələrdə mövcud olan qanunlar ehtiyac olarsa şərtləşdirilməlidir.

2. İctimai institutların fəaliyyəti və təsir mexanizmləri artırılmalıdır. Bu yöndə xüsusən də QHT sektoru və sosial media daha da aktiv olmalıdır.

3. İnstitusional va peşəkar resursların fəaliyyəti yüksəldilməlidir.

Vətəndaş cəmiyyəti strukturlarının dövlət orqanlarının işində yaxından iştirak etməsi, verilən qərarlarda təsiretmə gücünə sahib olması ən effektiv üsullardan hesab olunur. Belə olan halda vətəndaş-dövlət münasibətlərinin tənzimlənməsində şəffaflıq prinsipi təmin olunur. "İctimai iştirakçılıq haqqında" Qanunun 1.0.1. bəndində deyilir ki, "ictimai iştirakçılıq – dövlət və cəmiyyət həyatının müxtəlif sahələrində dövlət siyasətinin hazırlanmasında və həyata keçirilməsində, ictimai nəzarətin təşkilində vətəndaş-ların və vətəndaş cəmiyyəti institutlarının bu qanunla müəyyən edilmiş formalarda iştirakı, dövlət və yerli özünüidarəetmə orqanlarının ictimaiyyətlə məsləhətləşməsi və ictimai

rəyin nəzərə alınması üçün və vətəndaş cəmiyyəti institutları – QHT, KİV, həmkarlar ittifaqları, vətəndaşların təşəbbüs qrupları və bələdiyyələrin məhəllə komitələri" və "ictimai iştirakçılığın həyata keçirilməsi ilə bağlı bu qanunda nəzərdə tutulmamış digər hüquqlarını məhdudlaşdırmır". Bu baxımından adı çəkilən qanunda ictimai iştirakçılığın formaları da göstərilir. Bu isə ictimai şura, ictimai müzakirə, icti-mai dinləmə, ictimai rəyin öyrənilməsi, hüquqi aktların layihələrinin ictimai müzakirəsi, yazılı məsləhətləşmə və s. kimi fəaliyyətdir.

İctimai nəzarətin əsas prinsipləri aşağıdakılardır:

1. qanunçuluq;
2. obyektivlik;
3. qərəzsizlik;
4. könüllülük;
5. şəffaflıq;
6. aşkarlıq;
7. hesabatlılıq;
8. bərabərlik;
9. ayrı-seçkiliyə yol verilməməsi.

İctimai nəzarətin əsas mexanizmlərinə monitorinq, müşahidə, ekspertiza və müraciətlərin araşdırılması daxildir. Monitorinq dedikdə mərkəzi və yerli icra hakimiyyəti orqanları və onların vəzifəli şəxslərinin fəaliyyətinin ictimai nəzarət subyekti tərəfindən müşahidəsi basa düşülür.

Hazırda Azərbaycanda mərkəzi və yerli icra hakimiyyəti, eləcə də yerli özünüidarəetmə orqanlarına ictimai nəzarətin olması dövlətin diqqətdə saxladığı əsas məsələlərdən biridir. İctimai nəzarət mərkəzi və yerli icra hakimiyyəti orqanları yanında fəaliyyət göstərən ictimai şuralar vasitəsilə həyata keçirilir. İctimai şuralarda QHT-lər, KİV-lər, həmkarlar ittifaqları, məhəllə komitələri və vətəndaş qruplarının nümayəndələri təmsil oluna bilərlər.

Bununla əlaqədar Azərbaycanda ictimai nəzarət haqqında yeni qanun layihəsi hazırlanıb və bu qanun layihəsi Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsində müzakirəyə çıxarılıb.

Qanun layihəsinin məqsədi mərkəzi və yerli icra hakimiyyəti orqanlarının və onların vəzifəli şəxslərinin vəzifə və funksiyalarının, həmçinin, qanunvericilik aktlarının səmərəli şəkildə icra edilməsi, vətəndaşların və hüquqi şəxslərin qanuni maraqlarının qorunması, şəffaflığın və hesabatlılığın təmin olunmasında ictimai nəzarətin həyata keçirilməsi sahəsində münasibətləri tənzimləməkdir.

İctimai nəzarət ilə insanlar bilərəkdən, yaxud da bilməyərəkdən bir-birilərinə diqqət verir, qayğı göstərir, hərəkətləri qarşılıqlı tənzimləyirlər. Rəsmi nəzarəti isə rəsmi idarələr və orada çalışanlar həyata keçirirlər. Buna polisləri, bələdiyyə işçilərini və başqalarını misal göstərmək olar ki, bir çox halda onların özünə belə, ictimai nəzarət mövcuddur.

Eyni zamanda ölkədə mövcud olan ictimai nəzarətlə əlaqədar İctimai şuralar dövlət orqanları ilə ictimaiyyət arasında səmərəli qarşılıqlı fəaliyyəti təşkil etməlidirlər.

Bütün bunlar həyata keçirilməklə Azərbaycan demokratikləşmə prosesində, eləcə də dövlət-vətəndaş münasibətlərində növbəti mərhələyə qədəm qoyub. Lakin bir cəhəti də qeyd etməliyik ki, ölkədə ictimai nəzarəti həyata keçirmək üçün vacib olan İctimai şuralar tam struktur olaraq hələ formalaşmayıb. Bu səbəbdən ictimai nəzarət institutları daha da təkmilləşməli və daha güclü fəaliyyətdə olmalıdır. Çünki İctimai şuralar vasitəsilə edilən ictimai nəzarət demokratikləşmə prosesini daha da sürətləndirir. İctimai nəzarət hər bir vətəndaş üçün könüllü milli vəzifədir. Yəni bu, bir sosial məsuliyyətdir.

Qanun layihəsinə əsasən mərkəzi və yerli icra hakimiyyəti orqanları yanında fəaliyyət göstərən ictimai şuraların fəaliyyati müvafiq orqan tərəfindən əlaqələndiriləcək. Müvafiq orqanın səlahiyyətlərinə Azərbaycanda ictimai nəzarətin həyata keçirilməsində ictimai nəzarət subyektinə metodoloji, təskilati və texniki dəstək, eyni zamanda ictimai şuralar tərəfindən aparılan ictimai nəzarətin icrasının monitorinqi daxildir.

Ancaq nəsə ötən müddətdə ictimai nəzarətin əhəmiyyəti və rolu çox az adamın diqqətini cəlb edib. Son vaxtlar bu məsələni "İctimai Nəzarət Koalisiyası" Azərbaycanda gündəmə gətirib. Təkcə gündəmə gətirməyib, həm də praktiki olaraq bu istiqamətdə ciddi fəaliyyət ortya qoyub.

İctimai nəzarətdə iştirak etməli insanların əhatəsi çox genişdir. Alimlər, qeyri-hökumət təşkilatları, mütəxəssislər, media nümayəndələri – onlar da bu işlərdə yaxından sahiblik və məsuliyyət hissi ilə iştirak etməlidirlər. Onlar öz təkliflərini bütün situasiyalarda verməlidirlər. Cəmiyyətdə demokratik dəyərlərin qərarlaşmasında geniş ictimaiyyət gərək bu işlərə cəlb olunsun.

**Əli Babayev,**
**Gədəbəy rayon prokuroru**
**kiçik ədliyyə müşaviri.**

# Xaçmaz rayonu ərazisində maarifləndirici və profilaktik tədbirlər görülmüşdür

Cari qış mövsümündə Xaçmaz rayonu ərazisində 37 dəm qazından zəhərlənmə faktı qeydə alınmışdır, onlardan 7-si ölümlə nəticələnmişdir. Əvvəlki illərlə müqayisədə bu həddindən çox böyük rəqəmlərdir, yəni dəm qazından zəhərlənmə hadisələri kəskin sayda artmışdır. Gələcəkdə dəm qazından zəhərlənmə hadisələrinin qarşısının alınması məqsədi ilə Baş Prokurorluq və Xaçmaz rayon prokurorluğunun təşəbbüsü ilə Azərbaycan Respublikası CPM-nin 221-ci maddəsinə uyğun olaraq Cinayətin törədilməsinə şərait yaradan halların aradan qaldırılması üçün rayon ərazisində bir sıra maarifləndirici və profilaktik tədbirlərin görülməsi nəzərdə tutulmuşdur. Bununla əlaqədar Xaçmaz rayon prokuroru tərəfindən dərhal aidiyyəti qurumların rəhbərlərinin iştirakı ilə iclas keçirilmiş, dəm qazından zəhərlənmə hadisələrinin baş verməsinin səbəbləri öyrənilmiş, aidiyyəti orqanlar tərəfindən qaz abonentlərinin ünvanlarına baxış keçirilərək aşkar edilmiş nöqsanlar barədə vətəndaşlar xəbərdar edilmiş, Xaçmaz rayon prokurorluğu tərəfindən müvafiq maarifləndirici bildiriş hazırlanaraq rayon ərazisində yaşayan vətəndaşların ünvanlarına çatdırılması təmin edilmişdir. Dəm qazı hadisələrinin təhlili zamanı müəyyən edilmişdir ki dəm qazının yaranmasına yol açan əsas səbəblər aşağıdakılardır:

– Vətəndaşlar arasında dəm qazı barədə kifayət qədər biliyə malik olmamaları və bunun nəticəsində qazdan istifadə qaydalarına laqeyd yanaşmalarıdır. Çox hallarda vətəndaşlar dəm qazının anlayışı, yaranma səbəbləri barədə məlumatsız olurlar, hətta təəssüflər olsun ki, bəzi vətəndaşlar ümumiyyətlə dəm qazının mövcudluğuna inanmırlar. Vətəndaşlar bilməlidirlər ki, dəm qazı təbii qazın, neft məhsullarının və odun yanacağının natamam yanması nəticəsində əmələ gəlir. Havada kifayət qədər oksigen qazı olmadıqda yanma tam getmir və nəticədə natamam yanmış qaz karbon-monooksid adlanan zəhərli qaza çevrilir. Dəm qazı təmiz halda gözə görünməyən, rəngsiz, iysiz, dadsız, havadan yüngül, suda pis həll olunan qazdır, lakin güclü zəhərləyici və öldürücü xassəyə malikdir.

– El arasında "pyatiminutka" adı ilə tanınan qazla işləyən elektrik su qızdırıcısının ev sahibi tərəfindən özbaşına yaşayış evində qapalı məkanda quraşdırılması dəm qazının yaranmasına səbəb olan əsas amillərdəndir. Ümumiyyətlə, bu kimi cihazların qapalı məkanda quraşdırılması yolverilməzdir, həmin cihazlar mümkün qədər açıq hava məkanında quraşdırılmalıdır ki, su qızdırıcısından xaric edilmiş zəhərli qaz insanlara zərər verə bilməsin.

– Yaşayış evlərində olan qazla və ya yaxud odunla işləyən qızdırıcılara qoşulmuş havatəmizləyici bacalar və boruların müxtəlif səbəblərdən tutulması nəticəsində alovun təsirindən xaric edilmiş dəm qazının çölə sovrula bilməyərək, əksinə otağın içərisinə dolması.







– Qazla və ya yaxud odunla işləyən qızdırıcıların yerləşdiyi hamam otaqlarında mütəmadi olaraq oksigen axınının dövriyyəsini təmin etmək üçün qapının alt hissəsində dəlik və ya yarıqların olmaması, həmçinin xüsusən qış aylarında həmin otaqda istiliyin yaradılması məqsədi ilə otağa daxil ola biləcək hava axınının giriş-çıxış mənbələrini (qapı, pəncərə, nəfəslik, havalandırıcı və s.) süni şəkildə qapadılması.

– Azəriqaz İstehsalat Birliyinin əməkdaşlarına xəbər vermədən özbaşına ev sahibi tərəfindən yaşayış evlərində qazla işləyən cihazların quraşdılması və qazdan istifadə qaydalarının kobud surətdə pozulması.

Vətəndaşlara yuxarıda göstərilən qaydalara tam riayət olunması tövsiyə olunur, əks halda həmin qaydaların pozulması nəticəsində baş vermiş dəm qazından zəhərlənmə və ya ölüm hadisələrinə səbəb olmuş şəxs Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq olaraq 131 və ya 124-cü maddələrinə əsasən cinayət məsuliyyətinə cəlb oluna bilər.

# Vətən müharibəsində erməni qəsbkarlarının bəşəriyyət əleyhinə törətdikləri cinayətlərin izlərini rəsmiləşdirəkən xəsarət alan həmkarımız Ozal Həsənov və Silahlı Qüvvələrimizin peşəkar zabiti kimi bilavasitə döyüş əməliyyatlarında iştirak etmiş həmkarımız Əhməd Babayevin "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalına müsahibələri

*Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı, dövlət başçısı cənab İlham Əliyevin rəhbər və müdrik göstərişlərindən irəli gələrək, prokurorluq orqanları tərəfindən xalqımızın Vətən müharibəsi üçün səfərbər olunduğu həssas və çətin dönəmdə üzərlərinə düşən vəzifələrin layiqincə yerinə yetirilməsi, ordumuza və dinc əhaliyə qarşı cinayətlər törətmiş təxribatçı erməni birləşmələrinin hərbi qulluqçularının beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb edilmələri üçün bütün imkanlardan istifadə olunmaqla lazımi tədbirlərin görülməsi üçün zəruri işlər görülməkdədir.*

*Vətən müharibəsinin davam etdiyi 44 gündə, eləcə də sonrakı dövrdə də prokurorluq orqanları tərəfindən aidiyyəti dövlət orqanları ilə əlaqəli şəkildə erməni quldur dəstələrinin mülki əhaliyə və hərbi qulluqçularımıza qarşı törətdikləri cinayətlərin vaxtında aşkar edilməsi, təxirəsalınmaz istintaq hərəkətlərinin operativ qaydada və keyfiyyətlə icra edilməsi, ən təhlükəli şəraitdə zəruri sübutların toplanılması, təqsirkar şəxslərin barəsində bütün, o cümlədən beynəlxalq cinayət-hüquqi tədbirlərin görülməsi, ən əsas da beynəlxalq insan hüquqları təşkilatları, diplomatik korpus nümayəndələrinin və nüfuzlu xarici kütləvi informasiya vasitələrinin xalqımıza qarşı törədilən sülh və insanlıq əleyhinə cinayətlər barədə məlumatlandırılması istiqamətində mühüm addımlar atılmışdır.*

*Prokurorluq əməkdaşları erməni qəsbkarlarının bəşəriyyət əleyhinə törətdikləri cinayətlərin izlərini rəsmiləşdirərkən yağı düşmənin atdığı raket və mərmilərin altında həyat və sağlamlıqlarının təhlükədə olmasına baxmayaraq, vəzifə borclarını mərdanə və nümunəvi yerinə yetirmişlər.*

*Həmkarlarımızdan həmin dövrdə Tərtər rayon prokurorluğuna ezam olunmuş Sumqayıt şəhər prokurorluğunun müstəntiqi Ozal Həsənov vəzifə borcunu yerinə yetirərkən həyat üçün təhlükəli olan sağlamlığa ağır zərər vurmaya aid xəsarət almışdır.*

*Digər həmkarlarımızdan bilavasitə Vətən müharibəsi dövründə hərbi əməliyyatlarda sıravi hərbi qulluqçu kimi iştirak etmiş, ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmiş Gəncə şəhər prokurorluğunun əməkdaşı Yüksəl Əlizadə Vətən qarşısında borcunu yerinə yetirərkən qəhrəmancasına şəhid olmuş və onun adı qəhrəmanlar salnaməsinə əbədi həkk olunmuşdur.*

*Digər həmkarımız – Maddi-texniki təminat şöbəsinin rəis müavini Əhməd Babayev bilavasitə döyüş əməliyyatlarında taqım komandiri olan zabit kimi iştirak edərək Vətən qarşısında borcunu ləyaqətlə yerinə yetirmişdir.*



*Hər üç həmkarımızın həyatlarında bəlkə də ən çətin, lakin ən şərəfli mərdlik, vətənpərvərlik dərsindən əla qiymət aldığını, hər birimiz üçün örnək olduğunu nəzərə alaraq, redaksiya heyətimiz **Ozal Həsənov** və **Əhməd Babayevdən** müsahibə almaq qərarına gəldi.*

**Həsənov Ozal Mübariz oğlu 07.08.1989-cu ildə Rusiya Federasiyası, Moskva şəhərində anadan olmuşdur. 2011-ci ildə Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir. 2012-ci ildən 2014-cü ilədək Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat Institutunda hüquq məsləhətçisi vəzifəsində işləmişdir. 29 sentyabr 2014-cü il tarixdə Azərbaycan Respublikası Prokurorluq orqanlarına işə qəbul olunaraq 29 sentyabr 2015-ci il tarixdən Tovuz rayon prokurorluğunun müstəntiqi vəzifəsi üzrə stajor, 08 oktyabr 2015-ci il tarixədək həmin vəzifədə sınaq müddətinə, 10 iyul 2016-cı il tarixdə daimi qulluğa qəbul edilərək Tovuz rayon prokurorluğunun müstəntiqi vəzifəsinə təyin edilmişdir. Ozal Həsənov 18 may 2017-ci il tarixdən 05 yanvar**



**2021-ci il tarixədək Sumqayıt şəhər prokurorluğunun müstəntiqi və böyük müstəntiqi vəzifələrində vəzifələrində işləmişdir. Hazırda Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Preventiv tədbirlər və təhqiqat idarəsinin prokuroru vəzifəsini icra edir. II dərəcəli hüquqşünas xüsusi rütbəsindədir. Subaydır.**

**Ozal Həsənov Sumqayıt şəhər prokurorluğunun böyük müstəntiqi vəzifəsində işləyərkən 30 sentyabr 2020-ci il tarixdə xidməti zərurətlə əlaqədar Tərtər rayon prokurorluğuna ezam edilmiş, xidməti vəzifələrini icra edərkən Ermənistan silahlı qüvvələrinin müxtəlif növ artilleriyadan istifadə etməklə Tərtər rayonunu növbəti dəfə atəşə tutması nəticəsində 02 oktyabr 2020-ci il tarixdə çoxsaylı ağır bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilmişdir. Azərbaycan Respublikası Prezidentinin 30 dekabr 2020-ci il tarixli Sərəncamı ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.**

**Sual:** "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalına müsahibə verməyə razılıq verdiyiniz üçün Sizə redaksiya heyəti adından təşəkkürümü bildirirəm. Siz, hüquqşünas olaraq peşəkar fəaliyyətinizi məhz Azərbaycan Respublikası prokurorluq orqanlarında başlamısınız. İxtisas seçiminiz hansı amillərlə bağlıdır və layiqli hüquqşünas kimi formalaşmağınızda ən çox kimin əməyini qeyd etmək istərdiniz?

**Cavab:** Atam həmişə istəyirdi ki, mən hüquq mühafizə orqanlarında işləyim.  Bu istək məndə də hüquqşünaslıq ixtisasına maraq yaratmışdır. Mərhum atamın arzusunu yerinə yetirmək, həm də öz daxilimdə hüquq mühafizə orqanlarına yaranmış istəyimi reallaşdırmaq üçün hüquqşünaslıq ixtisasını seçdim və Bakı Dövlət Universitetinin hüquqşünaslıq fakültəsinə qəbul olundum. Universitetdə tədris zamanı məni daha çox cinayət hüququ üzrə dərslər maraqlandırırdı, seminar və mühazirələrdə daha böyük həvəslə iştirak edirdim. Cinayət hüququ kafedrasının bütün müəllimlərinin cinayət hüququ fənnini mənimsəməyimdə böyük rolu olmuşdur. Universitetin 3 və 4-cü kurslarında özümə söz verdim ki, prokurorluq orqanlarında işləyəcəyəm. Ümumiyyətlə universitet zamanı prokurorluq orqanlarında işləmək çoxunun arzusu idi, lakin bunu əlçatmaz arzu kimi görürdülər.

Müddətli həqiqi hərbi xidmətdən qayıtdıqdan sonra bu arzumu gerçəkləşdirmək qərarına gəldim. Prokurorluq orqanlarına qəbul olunmaq üçün hazırlaşmağa başladım və müvəffəqiyyətlə prokurorluq orqanlarına işə qəbulla bağlı keçirilmiş imtahanlardan keçməklə əmək fəaliyyətinə başladım. Lakin bununla mənim hüquqşünas kimi formalaşmağım başa çatmadı, işə qəbul olunandan sonra da bu proses davam etdi. Ona görə xidməti tabeçiliyində işlədiyim rayon (şəhər) prokurorlarımı da qeyd etmək istərdim. Eyni zamanda mən, ümumilikdə prokurorluq orqanlarına təşəkkür etmək istəyirəm ki, mənim təkcə hüquqşünas kimi yox, həmçinin şəxsiyyət kimi formalaşmağımda böyük



rolu olmuşdur. Ümumilikdə üzərimdə əməyi olan və mənə mənəvi dəstək olan hər kəsə minnətdaram. Çox heyfsilənirəm ki, atam prokurorluq orqanlarına qəbul olunmağımı və işləməyimi görmədi, amma əminəm ki, ruhu şad olub.

**Sual:** Müzəffər Ordumuz tərəfindən 27 sentyabr 2020-ci il tarixdən zəfər yürüşünə başlandığı vaxtdan Azərbaycan Respublikası Prokurorluğu orqanları digər dövlət orqanları ilə əlaqəli şəkildə ümumi şanlı qələbəmiz naminə səlahiyyətləri çərçivəsində zəruri olan bütün işlərin həyata keçirilməsində yaxından iştirak etmişdir. İlk gündən başlayaraq, cəbhə bölgəsində fəaliyyət göstərən prokurorluq orqanlarında döyüş şəraitində bütün istintaq əməliyyat tədbirlərinin həyata keçirilməsində və digər təxirəsalınmaz istintaq və prosessual hərəkətlərin icra edilməsi məqsədilə Azərbaycan Respublikası Baş prokurorunun müvafiq əmrləri ilə bir sıra rayon prokurorluqlarının əməkdaşları cəbhəyanı zonalarda yerləşən rayon prokurorluqlarına ezam olunmuşlar. Siz də könüllü olaraq cəbhə bölgəsinə ezam olunmaq üçün müraciət edən ilk əməkdaşlarımızdan olmusunuz. Könüllü olaraq belə bir müraciətinizi hansı hisslərinizlə izah edə bilərsiniz?

**Cavab:** Torpaqlarımızın işğaldan azad olunması hər bir Azərbaycan vətəndaşının ən böyük arzusu olduğu kimi mənim də arzum olmuşdur. Müharibə başlayan kimi necə olursa-olsun cəbhə bölgəsinə getmək və ordumuzun gələcək zəfərində balaca bir paya sahib olmaq istəmişəm. Əlbəttə ki, bu, vətənə olan sevgimdən irəli gəlirdi. Qeyd edim ki, xidməti ezamiyyətlə Tərtər rayonuna yollanmağım könüllü olsa belə, Vətənim üçün verə biləcəyim kiçik bir töhfə olmuşdur. Düşmən tapdağı altında olan torpaqlarımızı işğaldan azad edən zaman şəhid və qazi olmuş soydaşlarımın qarşısında baş əyirəm, şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə isə can sağlığı diləyirəm.

**Sual:** Azərbaycan Respublikası Baş prokurorunun əmri ilə könüllü olaraq Tərtər rayon prokurorluğuna ezam olunmuş və orada müstəntiq olaraq xidmət göstərmisiniz. 44 gün ərzində davam edən Vətən müharibəsində əldə etdiyimiz şanlı Zəfərə sizin də dəyərli tövhəniz olmuşdur. İstərdik ki, bizə cəbhə bölgəsində keçən xidmətiniz barədə danışasınız.

**Cavab:** Bildirim ki, mən cənab Baş Prokurorun əmri ilə 30 sentyabr 2020-ci il tarixdə Tərtər rayonuna yollandım, 02 oktyabr 2020-ci il tarixdə erməni silahlı birləşmələri tərəfindən atılmış mərmi nəticəsində ağır xəsarətlər aldım. Bu 2 gün ərzində Tərtər rayon prokurorluğunun əməkdaşları ilə birlikdə hadisə yerinə erməni silahlı birləşmələri tərəfindən atılmış mərmi və raketlərin düşdüyü əraziləri müayinə edirdik, həlak olmuş şəxslərin yaxın qohumlarını zərərçəkmiş şəxs qismində tanımaqla onları dindirirdik, eləcə də erməni silahlı birləşmələri tərəfindən Azərbaycan Respublikasının dinc əhalisinə qarşı törədilmiş sülh və insanlıq əleyhinə olan cinayətləri sübut və təsdiq edən faktları rəsmiləşdirirdik. Tərtər rayonunda olduğum müddət ərzində vəziyyət çox gərgin idi. Belə ki, hər gün er-




məni silahlı birləşmələri partlayış, yanğın və ya digər hərəkətlər törətməklə mühüm dağıntılara səbəb olan müharibə üsullarından istifadə edib Tərtər rayonunun müdafiə olunmayan ərazilərini, yaşayış məntəqələrini və silahsızlaşdırılmış zonaları, habelə hərbi hədəf olmayan, aydın görünən və fərqləndirilən təhsil və tibb obyektlərini hədəfə almaqla mülki əhalini və döyüşlərdə iştirak etməyən ayrı-ayrı şəxslərə bədən xəsarətləri yetirmiş, qəsdən öldürmüş, eləcə də əmlaklarına maddi ziyan vurmuşlar.

Mən, daha çox Tərtər rayon prokuroru olmuş, mərhum Şixəli Məmmədov, Allah ona rəhmət etsin, prokurorun böyük köməkçisi Şahin Məmmədov və digər əməkdaşların fəaliyyətini qeyd etmək istərdim. Onlar müharibə başlayan andan bir dəqiqə olsun belə öz fəaliyyətlərini dayandırmamış, ağır şəraitdə, evə getmədən, Tərtər rayon prokurorluğunun inzibati binasında qalmış, öz xidməti vəzifələrini layiqincə yerinə yetirmişlər. Onlar ora gedən ilk gündən qayğı ilə mənə yanaşmış, həmin şəraitə uyğunlaşmağıma kömək etmişlər. Həmçinin xəsarət alan zaman Tərtər rayon prokurorluğunun əməkdaşları, o cümlədən İstintaq idarəsindən Tərtər rayon prokurorluğuna ezam edilmiş əməkdaşlara, eləcə də Tərtər rayon Mühafizə Polis idarəsinin əməkdaşlarına mənə ilk tibbi yardım göstərdikləri və Bərdə rayon mərkəzi xəstəxanasına təxliyə etdikləri üçün təşəkkür edirəm. Eyni zamanda, müalicə aldığım vaxtda mənə hər cür dəstək olan başda Baş Prokuror cənab Kamran Əliyev olmaqla prokurorluğun bütün kollektivinə təşəkkür edirəm.

**Sual:** Siz xidməti vəzifələrinizi yerinə yetirərkən fərqləndiyinizə görə Azərbaycan Respublikası Prezidentinin 30 dekabr 2020-ci il tarixli 2404 nömrəli Sərəncamına əsasən 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunmusunuz. İlk olaraq bu münasibətlə Sizi Azərbaycan Prokurorluğu elmi-praktiki jurnalın redaksiya heyəti adından təbrik edirik. Vətən uğrunda böyük xidmətləri olan bir əməkdaş kimi gənc həmkarlarımıza nə məsləhət verərdiniz?

**Cavab:** İlk öncə qeyd edim ki, Azərbaycan Respublikası Prokurorluğunun bir qrup əməkdaşının təltif edilməsi dövlət başçısı cənab İlham Əliyevin prokurorluq orqanlarına göstərdiyi ən yüksək qayğının göstəricisidir. Buna görə mən cənab Prezidentə özümün və ailəmin adından dərin təşəkkürümü bildirirəm. Eyni zamanda, xəsarət aldığım müddətdə və sonrakı dövrdə də daim diqqət və qayğı ilə əhatə olunmağım, habelə xidmətdə irəli çəkilməyim üçün Baş Prokuror cənab Kamran Əliyevə təşəkkürümü ifadə etmək istəyirəm. Söz verirəm ki, bundan sonra da o yüksək etimadı doğrultmağa çalışacağam. Sizin sualınıza gəlincə isə gənc əməkdaşlara, özüm hələ gənc olsam belə, məsləhət verə bilərəm ki, prokurorluq orqanlarına qəbul olunduqdan sonra da daim öz üzərilərində işləsinlər, hüquq ədəbiyyatı ilə yanaşı digər ədəbiyyatları da oxusunlar, qəbul edəcəkləri qərarların əsaslandırılmasına daha çox fikir versinlər, istintaqın aparılma metodikasını daima təkmilləşdirsinlər, həmişə Vətənimizi sevməklə Ulu Öndər Heydər Əliyev ideyalarına sadiq olsunlar. Əminəm ki, bu belə də olacaq.



**Babayev Əhməd Əli oğlu – 12.03.1982-ci ildə Bakı şəhərində anadan olmuşdur. 2002-ci ildə Milli Aviasiya Akademiyasını mühəndis-təyyarəçi ixtisası üzrə, 2020-ci ildə Naxçıvan Dövlət Universitetinin Sosial idarəetmə və hüquq fakültəsini hüquqşünas ixtisası üzrə bitirmişdir. 2003-cü ildən əmək fəaliyyətinə başlamış, 2016-cı ilədək müxtəlif şirkətlərdə işləmiş, 01 iyul 2016-cı il tarixində dövlət qulluğuna qəbul edilərək Baş Prokurorluğun Maddi-texniki təminat şöbəsinin baş məsləhətçisi vəzifəsinə, aparılmış struktur dəyişikliyi ilə əlaqədar 19 iyun 2020-ci il tarixdə Baş Prokurorluğun Maddi-texniki təminat şöbəsinin rəis müavini vəzifəsinə təyin edilmişdir. Ailəlidir, 3 övladı var.**

**Əhməd Babayev 30 sentyabr 2020-ci il tarixdə Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Bakı şəhəri, Səbail rayon idarəsi tərəfindən hərbi səfərbərliyə çağırılaraq müxtəlif hərbi hissələrə təhkim edilərək işğal altında olan Füzuli, Qubadlı rayonlarının və Ağoqlan (Hadrut) qəsəbəsinin işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 03.12.2020-ci il tarixdə hərbi xidmətdən tərxis edilmişdir. “Vətən müharibəsi” iştirakçısıdır.**

**Sual:** “Azərbaycan Prokurorluğu” elmi-praktiki jurnalına müsahibə verməyə razılıq verdiyiniz üçün Sizə redaksiya heyəti adından təşəkkürümü bildirirəm. Silahlı Qüvvələrimizin peşəkar zabiti kimi bilavasitə döyüş əməliyyatlarında iştirak etmiş həmkarımız olaraq xidmətiniz barədə nə deyə bilərsiniz?

**Cavab:** İlk öncə onu qeyd edim ki, orta təhsili bitirdikdən sonra imtahan yolu ilə yüksək göstərici ilə Milli Aviasiya Akademiyasinin mühəndis-pilot fakültəsinə daxil olub oranı bitirmişəm. 2008-2009-





olaraq təhkim olundum. 3 dekabr 2020-ci il tarixində isə müharibə iştirakçısı kimi ordudan tərxis olundum.

**Sual:** Bizə məlumdur ki, Siz hərbçilərə aid ən nadir ixtisaslardan birinə sahibsiniz. Bu ixtisasa harada və necə yiyələnmisiniz?

**Cavab:** Pilot nadir ixtisaslardandır ki, bu sahəyə yalnız böyük sevgi və digər bacarıqlar olduqda yiyələnmək olur. Bu sahəyə maraq isə mənə babamdan gəlmişdir. Adını daşıdığım babam Əhmədağa Babayev İkinci Dünya Müharibəsi zaman hərbi pilot olaraq çoxsaylı döyüşlərdə iştirak etmiş və ömrünün sonunadək bu barədə xatirələrini daim bizlərlə bölüşmüşdür. Pilot olmaq qərarına da məhz onun hekayələri nəticəsində gəlmişəm. Odur ki, orta məktəbi bitirdikdən sonra düşünmədən yuxarıda qeyd etdiyim kimi sənədlərimi Milli Aviasiya Akademiyasının pilot-mühəndis fakültəsinə verib oraya qəbul olundum.

Ali məktəbi bitirdikdən və daha sonra hərbi xidmət keçdikdən sonra 2010-cu ildə "Silkway Helikopters Services" şirkətində mühəndis-pilot kimi işləməyə başlamış, habelə müxtəlif ölkələrdə bu sahədə çox saylı təlimlər keçmişəm. 2013-cü ildə isə səhhətimdə olan problemlərlə bağlı pilot olaraq fəaliyyətimi dayandırmaq məcburiyyətində qalmışam.

cü illərdə hərbi xidmətdə olarkən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim Tərbiyə Mərkəzində müvafiq ixtisas kursu keçdikdən sonra zabit kimi leytenant rütbəsində 1 il 6 ay müddətində Naxçıvan Muxtar Respublikasının Şahbuz şəhərində hərbi xidmət keçmiş, daha sonra isə ehtiyata buraxılmışam.

Ali Baş Komandanımız cənab İlham Əliyevin rəhbərliyi mübariz xalqımız və rəşadətli ordumuz İkinci Qarabağ müharibəsində haqq savaşına başladıqdan bir neçə gün sonra, yəni 30 sentyabr 2020-ci il tarixində Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Səbail rayon şöbəsi tərəfindən ehtiyatda olan zabit olaraq hərbi xidmətə çağırılmışam.

Qəlbində Vətən eşqi olan hər bir soydaşımız kimi bu mənim üçün çox sevindirici və qürur verici bir xəbər oldu. İlk öncə Ağcabədi şəhərində yerləşən hərbi hissəyə göndərildim, daha sonra isə 6 oktyabr 2020-ci il tarixdən Fizuli-Cəbrayıl-Qubadlı istiqamətində gedən döyüşlərə idarəetmə taqımının komandiri

**Sual:** Bir çox hərbi ekspertlər Vətən Müharibəsinin əvvəlki müharibələrə bənzəmədiyini, XXI əsr üçün yeni hərb strategiyasının təzahürü olduğunu bildirirlər. Hətta bəzi ekspertlər şanlı "Şuşa əməliyyatı"nın strategiyasını gələcəkdə hərbi taktika dərsliklərinə daxil ediləcəyini, bir sıra qabaqcıl ölkələr tərəfindən isə Azərbaycan Ordusunun hərbi hava qüvvələri və pilotsuz uçuş aparatları vasitə ilə əldə etdiyi hərbi uğurlara görə silahlanma məsələləri və hərbi konsepsiyaya yenidən baxılacağını bildirirlər. Döyüş təcrübəsi olan peşəkar zabit kimi bu barədə nə deyə bilərsiniz? Ordumuzun silahlanması, hazırlığı və əhval-ruhiyyəsində əvvəlki illərlə müqayisədə hansı fərqlər vardır?

**Cavab:** Müharibə zamanı şahidi olduğum əsas məqam Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin yüksək psixoloji

və fiziki hazırlığı idi. Yalnız şəxsi heyətimiz yox, silah, texniki təchizatımız da lazımi səviyyədədir. Müharibə zamanı müasir silahlardan istifadə etsək belə, həmin silahlardan əsasən peşəkar təlim keçmiş, zəngin təcrübəsi olan hərbçilərimiz istifadə edirdi.

Məlum olduğu ki, təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və onun layiqli davamçısı Ölkə Başçısı cənab İlham Əliyev tərəfindən davam etdirilən müasir ordu quruculuğu prosesi nəticəsində Silahlı Qüvvələrimiz 1990-cı illərin əvvəllərində qeyri-peşəkar, aşağı səviyyəli maddi-texniki təchizata və psixoloji hazırlığa malik pərakəndə ordu birləşmələrindən Qafqazın ən güclü, Şərqi Avropa, habelə Yaxın və Orta Şərqin ən güclü ordularından birinə çevrilmişdir.

Artıq müasir Azərbaycan Ordusu yüksək texnoloji göstəricilərə, elmi-texniki tərəqqinin ən son nailiyyətlərini özündə ehtiva edən orta mənzilli reaktiv-yaylım atəş sistemlərinə, modernizə edilmiş zirehli texnikaya, dəqiqlik və çevikliklə seçilən mobil artilleriya sistemlərinə, müasir aviasiya, pilotsuz uçuş aparatlarına, ən müasir hava hücumundan müdafiə sistemlərinə və digər silahlara sahibdir.

Yeni dövrün Azərbaycan hərbçisi silahlarla peşəkar davranan, onların taktiki-texniki xüsusiyyətlərini gözəl bilən, yüksək nizam-intizamlı, vətənpərvər, peşəkar hazırlıq keçmiş, ölümün gözünə dik baxan, mərd və rəşadətli Vətən övladıdır. Belə hərbçilərin sırasında Vətən müharibəsinə öz töhfəsini vermək mənim üçün böyük şərəfdir.

Şanlı Zəfərimizdə ənənəvi silah növləri olan tanklar, başqa zirehli texnika və artilleriyadan çox, hava hücumundakı yeniliklər və təlim görmüş peşəkar ordunun üstünlükləri daha əhəmiyyətli olmuşdur.

Nəinki Şuşa şəhərinin, həmçinin Cəbrayıl, Füzuli, Ağoğlan (Hadrut), Qubadlı, Zəngilan və digər yaşayış məntəqələrinin azad olunması uğrunda gedən döyüşlər buna əyani sübutdur.

**Sual:** 44 gün ərzində davam edən Vətən müharibəsi müddətində xalqımız kədər və sevinc hissini eyni anda yaşadı. İstərdik ki, xüsusi müşahidələrinizdən, daha çox diqqətinizi çəkən, Sizə təsir edən hadisələrdən danışasınız.

**Cavab:** İstər müharibə, istərsə də müharibədən sonra qarşılaşdığım yaddaşıma əbədi həkk olunan həm ağır, həm də xoş məqamlar çoxdur. Döyüş yoldaşlarımın tapşırığı yerinə yetirərkən göz önümüzdə şəhid olmaları mənim ən ağır xatirələrimdəndir. Müharibə zamanı həm də ən çətini və dözülməzi dostları itirməkdir.

Mən dostum Səid Rəşidzadənin rəşadətini və cəsarətini vurğulamaq istəyirəm. Belə ki, 5 oktyabr 2020-ci il tarixdə onunla birgə xidmətdə idik, ertəsi gün isə o, döyüş tapşırığını aldıqdan sonra başqa əraziyə yollandı və daha bir gün sonra Ağoğlan (Hadrut) qəsəbəsi istiqamətində işğaldan azad edilmiş yüksəkliyə Azərbaycan bayrağını sancarkən şəhid olması xəbərini aldıq. Bu xəbər hər birimizi sarsıtsa da, onun bu şücaəti, cəsarəti hər birimiz üçün örnək oldu. Bu hadisə həm də bütün müharibə dövründə və daha sonrakı müddətdə hər bir hərbçimizin ruh əzminin hədsiz yüksək olmasının, ağır döyüşlərə belə böyük həvəslə getmələrinin göstəricisidir. Məhz bu ruh yüksəkliyinin şanlı Zəfərimizdə danılmaz rolu vardır.

Ayrıca olaraq mən xalqımızın hərbçilərə olan davranışını qeyd etmək istəyirəm. Müharibə bölgəsinə yaxın ərazilərdə yaşayan vətəndaşlarımız bəzən son yeməklərini bizimlə bölüşür və ya digər yollarla bizə xırda işlərdə belə yardımçı olmağa çalışırdılar. Bu da biz hərbçilərə xüsusi ruh yüksəkliyi verirdi.

**Sual:** Vətən uğrunda böyük xidmətləri olan bir əməkdaş kimi gənc həmkarlarımıza nə məsləhət verərdiniz?

**Cavab:** 44 günlük Vətən müharibəsi xatirələri hər birimizin yaddaşında əbədi yaşayacaq. Şəhid olan 2850-dən çox və qazi olan yüzlərlə hərbçilərimizin mütləq əksəriyyəti gənclər idi. Vətən Müharibəsində şəhidlik zirvəsinə yüksələn hərbçilərimizdən biri də dəyərli həmkarımız Yüksəl Əlizadə idi.

Bundan əlavə, prokurorluq işçiləri, o cümlədən gənc əməkdaşlarımız Ermənistan hərbi-siyasi rəhbərliyinin göstərişi ilə işğalçı ordu tərəfindən törədilən sülh və insanlıq əleyhinə cinayətlərin izlərin rəsmiləşdirilməsi və istintaq hərəkətlərinin aparılması üçün cəbhə bölgəsinə ezam olunmaqla, öz vəzifə borcunu ləyaqətlə yerinə yetirmiş, hətta əməkdaşımız Ozal Həsənov xidməti vəzifəsini icra edərkən ağır xəsarət almışdır.

Hesab edirəm Vətən müharibəsi bizim gəncliyimiz üçün həyat imtahanı oldu və gənclərimiz bu mərdlik, vətənpərvərlik, rəşadət, deyərdim ki kişilik imtahanında əla qiymət aldılar.

Mən gənclərimizi müharibə xatirələri ilə hər zaman tanış olmalarını, bizim böyük qurbanlar qarşılığında əldə etdiyimiz uğurları qorumağı, daha da inkişaf etdirməyi, hər zaman olduğu kimi daim Vətənimizə, dövlətçilik ideyalarına sadiq qalmalarını arzulayıram.

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

### Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında

Ermənistan Respublikası silahlı qüvvələrinin 2020-ci il sentyabrın 27-də törətdiyi növbəti hərbi təxribata cavab olaraq, Azərbaycan Respublikasının Silahlı Qüvvələri əks-hücum əməliyyatlarına başlamış və Azərbaycan Respublikasının bir neçə rayonunu, eləcə də strateji əhəmiyyətli digər ərazilərini işğaldan azad etmişlər. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin işğal olunmuş ərazilərin azad edilməsi istiqamətində uğurlu əməliyyatları davam etməkdədir.

İşğaldan azad olunmuş ərazilərdə müvəqqəti xüsusi idarəetmənin təşkili məqsədilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində, Azərbaycan Respublikasının inzibati ərazi bölgüsünə müvafiq olaraq, hər rayon üzrə xüsusi idarəetməni həyata keçirən müvəqqəti komendantlıqlar yaradılsın.

**2.** Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi müvafiq ərazilərin müvəqqəti komendantlarını təyin etsin və müvəqqəti komendantlıqların fəaliyyətini təşkil etsin.

**3.** Müvəqqəti komendantlıqlar öz fəaliyyətini Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti ilə əlaqələndirsinlər.

**4.** Müvəqqəti komendantlıqların nəzdində aşağıdakı dövlət orqanlarının (qurumlarının) nümayəndələrinin daxil olduğu əməliyyat qərargahları yaradılsın:

**4.1.** Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti;

**4.2.** Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi;

**4.3.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi;

**4.4.** Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi;

**4.5.** Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi;

**4.6.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi;

**4.7.** Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi;

**4.8.** Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi;

**4.9.** Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik;

**4.10.** müvafiq yerli icra hakimiyyəti orqanları.

**5.** Zərurət olduqda, əməliyyat qərargahlarının fəaliyyətinə bu Fərmanın 4-cü hissəsində nəzərdə tutulanlardan başqa, digər dövlət orqanlarının (qurumlarının) nümayəndələri cəlb oluna bilər.

**6.** Müvəqqəti komendantlıqlar fəaliyyət göstərdikləri ərazilərdə aşağıdakı vəzifələrin yerinə yetirilməsini təşkil etsinlər:

**6.1.** mühüm əhəmiyyətli obyektlərin, o cümlədən nəqliyyat və telekommunikasiya infrastrukturu obyektlərinin, enerji və su təchizatı sistemlərinin, su anbarlarının, insanlar və ətraf mühit üçün yüksək təhlükə mənbəyi olan xüsusi obyektlərin mühafizəsi;

**6.2.** ictimai qaydanın və ictimai təhlükəsizliyin qorunması;

**6.3.** aşkar edilən hərbi texnikanın, silahın, döyüş sursatının, zəhərləyici və partlayıcı maddələrin toplanması, inventarlaşdırılması və mühafizəsi;

**6.4.** kənd təsərrüfatı texnikası istisna olmaqla, digər mülki təyinatlı texnikanın, nəqliyyat vasitələrinin inventarlaşdırılması, saxlanılması və mühafizəsi;

**6.5.** aşkar edilmiş sənədlərin uçotunun aparılması və sonrakı təhlil üçün mühafizəsi.

**7.** Müvəqqəti komendantlıqlar aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə aşağıdakı vəzifələri yerinə yetirsinlər:

**7.1.** Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik ilə birlikdə minalardan təmizləmə və zərərsizləşdirmə işlərinin aparılması üçün zəruri tədbirlər görülməsi;

**7.2.** Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti ilə birlikdə terrorçuluq, casusluq, təxribat və Azərbaycan Respublikasına qarşı yönəldilmiş digər qanunazidd fəaliyyətin qarşısının alınması;

**7.3.** Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi ilə birlikdə energetika qurğularının, o cümlədən hidrotexniki qurğuların vəziyyətinin ilkin qiymətləndirilməsi, yanğınların, təbii fəlakətlərin və texnogen qəzaların nəticələrinin aradan qaldırılması və zərurət yarandıqda, müvafiq mülki müdafiə tədbirlərinin yerinə yetirilməsi;

**7.4.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə birlikdə infrastruktur obyektlərinin, torpaq sahələrinin və digər daşınmaz əmlak obyektlərinin ilkin inventarlaşdırılması və mühafizəsi;

**7.5.** Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə birlikdə kənd təsərrüfatı üçün yararlı torpaqların müəyyənləşdirilməsi, kənd təsərrüfatı texnikası və istehsal vasitələrinin, kənd təsərrüfatı heyvanlarının uçotunun aparılması, saxlanılması və mühafizəsi, fitosanitar və epizootik vəziyyətin ilkin qiymətləndirilməsi;

**7.6.** Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə birlikdə zəruri rabitə şəbəkəsinin qurulması;

**7.7.** Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birlikdə ətraf mühitin qorunması, topoqrafiya və xəritəçəkmə işlərinin aparılması, təbii sərvətlərdən səmərəli istifadə məqsədilə onların ilkin qiymətləndirilməsi və mühafizəsi;

**7.8.** Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə birlikdə tarix və mədəniyyət obyektlərinin (abidələrinin və müəssisələrinin) ilkin inventarlaşdırılması və mühafizəsi.

**8.** Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi işğaldan azad olunmuş ərazilərdə giriş-çıxışın xüsusi rejiminin tətbiqini təmin etsinlər.

**9.** Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti işğaldan azad edilmiş ərazilərdə dövlət orqanlarının (qu-

rumlarının) əməkdaşlarının rabitə ilə təmin olunmasını təşkil etsinlər.

**10.** Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Azərbaycan Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi işğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərən dövlət orqanlarının (qurumlarının) əməkdaşlarına təxirəsalınmaz tibbi yardım göstərilməsinin və digər səhiyyə xidmətlərinin təşkili məqsədilə zəruri tədbirlər görsünlər.

**11.** "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti, "Azərsu" Açıq Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Azəriqaz" İstehsalat Birliyi işğaldan azad olunmuş ərazilərdə dövlət orqanlarının (qurumlarının) normal fəaliyyəti üçün müvafiq binaların elektrik enerjisi, su və təbii qaz ilə təminatını həyata keçirsinlər.

**12.** "Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti işğaldan azad olunmuş ərazilərin peyk təsvirlərini, digər geoinformasiya məlumatlarını və müxtəlif məzmunlu təhlilləri müvafiq dövlət orqanlarının (qurumlarının) sorğuları əsasında onlara təqdim etsin.

**13.** Azərbaycan Respublikası Prezidentinin Administrasiyası müvəqqəti komendantlıqların fəaliyyətinə ümumi nəzarəti həyata keçirsin.

**14.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanda nəzərdə tutulan tədbirlərin maliyyələşməsinə dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**15.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 29 oktyabr 2020-ci il
№ 1170

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

### "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 6 oktyabr tarixli 182-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" 2000-ci il 25 avqust tarixli 387 nömrəli və "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 3 may tarixli 1361 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 6 oktyabr tarixli 182-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 610; 2001, № 10, maddə 646; 2002, № 5, maddələr 273, 279, № 7, maddə 413, № 8, maddə 478, № 9, maddə 563; 2003, № 8, maddə 434; 2004, № 1, maddə 19, № 5, maddə 345; 2005, № 1, maddə 18, № 4, maddə 299, № 9, maddə 799, № 12, maddə 1101; 2006, № 8, maddə 676, № 11, maddə 935; 2007, № 1, maddə 10, № 3, maddə 223, № 9, maddə 865, № 12, maddə 1247; 2008, № 1, maddələr 7, 10; 2009, № 7, maddələr 531, 534; 2010, № 7, maddə 615; 2011, № 11, maddə 999; 2013, № 5, maddə 509, № 6, maddə 649, № 8, maddə 900; 2014, № 4, maddə 348, № 6, maddə 625; 2015, № 12, maddələr 1450, 1461; 2016, № 4, maddələr 667, 669, № 10, maddə 1644; 2017, № 3, maddə 353, № 5, maddə 814, № 7, maddə 1321; 2018, № 3, maddə 444, № 4, maddə 680, № 6, maddə 1219, № 9, maddələr 1824, 1832, № 10, maddə 2004, № 11, maddə 2271; 2019, № 4, maddə 648, № 7, maddə 1241; 2020, № 7, maddə 883) 4-cü hissəsində "Qanunsuz olaraq lotereyaların və idman mərc oyunlarının təşkili və ya keçirilməsi" sözləri "Lotereyaların və idman mərc oyunlarının təşkili və ya keçirilməsi qaydalarının pozulması" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765, № 9, maddə 1650, № 10, maddə 1789, № 12 (I kitab), maddələr 2314, 2321; 2018, № 1, maddə 54, № 2, maddələr 200, 219, № 3, maddələr 416, 430, 448, № 5, maddələr 916, 919, № 6, maddə 1243, № 9, maddələr 1828, 1840, № 11, maddələr 2274, 2289, № 12 (I kitab), maddələr 2540, 2587, 2601; 2019, № 1, maddə 82, № 2, maddə 216, № 3, maddə 431, № 4, maddə 620, № 5, maddələr

819, 824, 835, 866, № 7, maddə 1221, № 8, maddə 1388, № 10, maddələr 1581, 1587, № 11, maddələr 1700, 1710; 2020, № 3, maddə 252; № 5, maddələr 538, 564, № 6, maddələr 710, 714, № 7, maddələr 865, 880, № 8, maddə 1032) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"na aşağıdakı məzmunda 34-1-ci hissə əlavə edilsin:

**"34-1.** Məcəllənin 401.3-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

**34-1.1.** inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi adından – bu Siyahının 34.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

**34-1.2.** inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi adından – bu Siyahının 1-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.".

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 6 oktyabr tarixli 182-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 12 noyabr 2020-ci il
№ 1176

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

### Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" 2000-ci il 25 avqust tarixli 387 nömrəli, "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi haqqında" 2008-ci il 22 aprel tarixli 744 nömrəli və "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" 2000-ci il 30 avqust tarixli 393 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" və "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 6 oktyabr tarixli 183-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

**1.** "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 610; 2001, № 10, maddə 646; 2002, № 5, maddələr 273, 279, № 7, maddə 413, № 8, maddə 478, № 9, maddə 563; 2003, № 8, maddə 434; 2004, № 1, maddə 19, № 5, maddə 345; 2005, № 1, maddə 18, № 4, maddə 299, № 9, maddə 799, № 12, maddə 1101; 2006, № 8, maddə 676, № 11, maddə 935; 2007, № 1, maddə 10, № 3, maddə 223, № 9, maddə 865, № 12, maddə 1247; 2008, № 1, maddələr 7, 10; 2009, № 7, maddələr 531, 534; 2010, № 7, maddə 615; 2011, № 11, maddə 999; 2013, № 5, maddə 509, № 6, maddə 649, № 8, maddə 900; 2014, № 4, maddə 348, № 6, maddə 625; 2015, № 12, maddələr 1450, 1461; 2016, № 4, maddələr 667, 669, № 10, maddə 1644; 2017, № 3, maddə 353, № 5, maddə 814, № 7, maddə 1321; 2018, № 3, maddə 444, № 4, maddə 680, № 6, maddə 1219, № 9, maddələr 1824, 1832, № 10, maddə 2004, № 11, maddə 2271; 2019, № 4, maddə 648, № 7, maddə 1241) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 3-cü hissənin on beşinci abzasına "vergilərin" sözündən sonra ", işsizlikdən sığorta və ya məcburi dövlət sosial sığorta haqlarının" sözləri əlavə edilsin və həmin abzasda "Vergilər" sözü "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat" sözləri ilə əvəz olunsun;

**1.2.** 4-cü hissədə "(Saxta aksiz markalarını hazırlama, əldə etmə və ya satma)" sözləri "(Saxta aksiz markalarının və məcburi nişanların dövriyyəsi)" sözləri ilə, "(Aksiz markası ilə markalanmalı olan məhsulları (malları) belə marka olmadan satmaq, satış məqsədilə saxlanma, istehsal binasının hüdudlarından kənara çıxarma və idxal etmə, belə məhsulların (malların) nağd qaydada alqı-satqısı)" sözləri "(Aksiz markası ilə markalanmalı olan malları belə marka olmadan və məcburi nişanlama ilə nişanlanmalı olan malları nişanlanmadan satma, satış məqsədilə saxlama, istehsal binasının hüdudlarından kənara çıxarma və ya idxal etmə, habelə belə malların nağd qaydada alqı-satqısı)" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 22 aprel tarixli 744 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 4, maddə 258, № 12, maddə 1058; 2009, № 2, maddə 75, № 7,

maddə 532, № 8, maddə 618, № 10, maddə 776; 2010, № 2, maddə 88, № 7, maddə 610, № 8, maddə 717, № 9, maddə 770; 2011, № 4, maddə 282, № 10, maddə 891; 2012, № 8, maddə 787; 2013, № 9, maddə 1046, № 11, maddələr 1321, 1339; 2014, № 2, maddə 122, № 9, maddələr 1027, 1062; 2015, № 2, maddə 121, № 5, maddələr 521, 543, № 9, maddə 989; 2016, № 2 (II kitab), maddə 228, № 3, maddə 470, № 5, maddələr 869, 879, № 9, maddə 1464, № 10, maddə 1643, № 11, maddə 1816; 2017, № 2, maddələr 173, 185, № 5, maddələr 776, 817, № 8, maddə 1521; 2018, № 2, maddə 189, № 3, maddə 449, № 4, maddələr 662, 682, № 8, maddə 1688, № 9, maddə 1840, № 10, maddə 1985, № 11, maddə 2264, № 12 (I kitab), maddələr 2565, 2585; 2019, № 6, maddə, 1009; 2020, № 6, maddə 705) ilə təsdiq edilmiş "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi haqqında Əsasnamə"nin 8.20.2-ci yarımbəndi aşağıdakı redaksiyada verilsin:

**"8.20.2.** vergi, məcburi dövlət sosial sığorta, icbari tibbi sığorta və işsizlikdən sığorta haqları üzrə öhdəliklər qanunla müəyyən edilmiş hallarda və müddətlərdə yerinə yetirilmədikdə hesablanmış vergilər, məcburi dövlət sosial sığorta, icbari tibbi sığorta və işsizlikdən sığorta haqları üzrə borcların və faizlərin, vergilər və məcburi dövlət sosial sığorta haqları üzrə tətbiq edilmiş maliyyə sanksiyalarının ödənilməsini təmin etmək üçün məhkəmənin qərarı ilə ölkədən getmək hüququ müvəqqəti məhdudlaşdırılan vergi ödəyicisi və ya sığortaedən olan fiziki şəxs və ya hüquqi şəxsin icra orqanının rəhbəri haqqında məlumatların "Sərhədkeçməyə məhdudiyyət siyahısı"na daxil edilməsi və müvafiq əsaslar aradan qalxdıqda, məlumatların aktiv statusunun dəyişdirilməsi.".

**3.** "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 616; 2005, № 12, maddə 1099; 2006, № 5, maddə 400, № 12, maddə 1034; 2007, № 4, maddə 323, № 12, maddə 1225; 2008, № 11, maddə 972; 2009, № 3, maddə 163, № 4, maddə 226, № 10, maddə 780; 2010, № 7, maddə 610; 2011, № 7, maddə 631; 2013, № 7, maddə 805, № 11, maddə 1324; 2014, № 4, maddə 359, № 5, maddə 477, № 9, maddə 1027, № 10, maddə 1198, № 11, maddələr 1390, 1420; 2015, № 1, maddə 12, № 12, maddə 1454; 2016, № 2 (II kitab), maddələr 261, 265, № 3, maddə 450, № 5, maddə 882, № 6, maddələr 1023, 1024, 1042, 1065, № 7, maddə 1257, № 9, maddə 1464, № 11, maddə 1838, № 12, maddə 2089; 2017, № 5, maddələr 760, 811, 845, № 7, maddə 1344, № 8, maddə 1521; 2018, № 9, maddələr 1830, 1843, № 12 (I kitab), maddələr 2571, 2599; 2019, № 8, maddələr 1396, 1407; 2020, № 5, maddə 560) aşağıdakı dəyişikliklər edilsin:

**3.1.** 1.1-ci bəndə "23.1.15-4-cü" və "50.1.9-cu" sözlərindən sonra "(aksiz markası ilə markalanmalı olan mallara münasibətdə)" sözləri əlavə edilsin;

**3.2.** 1.2-ci bəndə "23.1.15-2-ci" sözlərindən sonra ", 23.1.15-4-cü (məcburi nişanlama ilə nişanlanmalı olan mallara münasibətdə)" və "38.6-cı" sözlərindən sonra ", 50.1.9-cu (məcburi nişanlama ilə nişanlanmalı olan mallara münasibətdə)" sözləri əlavə edilsin.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabinet bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 23 noyabr 2020-ci il
№ 1187

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

### "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" və "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 6 oktyabr tarixli 183-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 22 yanvar tarixli 265 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" və "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 6 oktyabr tarixli 183-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

**1.1.** Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin 355-5.1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

**1.2.** həmin Məcəllənin 355-5.1-ci maddəsində "orqan

(qurum)" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur.

**2.** "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 22 yanvar tarixli 265 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 44; 2002, № 8, maddə 478; 2006, № 8, maddə 677, № 12, maddə 1034; 2007, № 3, maddə 226; 2009, № 6, maddə 414; 2011, № 11, maddə 1009; 2016, № 3, maddə 471, № 6, maddə 1045; 2017, № 3, maddə 352, № 4, maddə 551, № 8, maddə 1517, № 11, maddə 2261; 2019, № 6, maddə 1030, № 12, maddə 1931) aşağıdakı dəyişikliklər edilsin:

**2.1.** 2.1-ci bənddə "118.2-ci" sözləri "355-5.1-ci" sözləri ilə, "Nazirlər Kabineti" sözləri "Prezidenti" sözü ilə əvəz edilsin;

**2.2.** 2.1-1-ci bənd 2.1-2-ci bənd hesab edilsin və aşağıdakı məzmunda 2.1-1-ci bənd əlavə olunsun:

**"2.1-1.** həmin Məcəllənin 118.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;";

**2.3.** 2.8-ci bənd aşağıdakı redaksiyada verilsin:

**"2.8.** həmin Məcəllənin 355-5.1-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;".

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" və "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 6 oktyabr tarixli 183-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 23 noyabr 2020-ci il
№ 1189

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

### "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 6 oktyabr tarixli 186-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 6 oktyabr tarixli 186-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12 (I kitab), maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840, № 11, maddələr 2244, 2256, 2273, 2289, № 12 (I kitab), maddələr 2541, 2566, 2573, 2610; 2019, № 1, maddələr 52, 68, № 3, maddə 426, № 4, maddələr 602, 630, № 5, maddələr 825, 846, 852, № 6, maddələr 1035, 1046, № 8, maddələr 1395, 1401, № 11, maddə 1700; 2020, № 3, maddələr 238, 240, 241, № 5, maddələr 540, 564, № 6, maddələr 691, 709, № 7, maddələr 863, 880, 884, № 8, maddələr 1027, 1032; Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 sentyabr tarixli 1165 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 5.4-cü bənddə "192 – 194-cü" sözləri "192.1 – 192.11-ci, 193-cü, 194-cü" sözləri ilə əvəz edilsin;

**1.2.** aşağıdakı məzmunda 5.4-1-ci bənd əlavə edilsin:

**"5.4-1.** həmin Məcəllənin 192.12-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə həmin işlər üzrə inzibati icraata başlamış Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və ya Azərbaycan Respublikasının Təhsil Nazirliyi baxır;".

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 6 oktyabr tarixli 186-VIQD nömrəli Qanundan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 24 noyabr 2020-ci il
№ 1190

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

### "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" Azərbaycan Respublikasının 2020-ci il 20 oktyabr tarixli 189-VIQ nömrəli Qanununun tətbiqi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" Azərbaycan Respublikasının 2020-ci il 20 oktyabr tarixli 189-VIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**1.1.** dörd ay müddətində:

**1.1.1.** Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.1.2.** həmin Qanunun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanun layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.1.3.** həmin Qanunun 5.0.10-cu maddəsinə uyğun olaraq donor orqanların transplantasiyası metodu ilə müalicə zərurətinin təcililik statusuna dair meyarları Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etsin;

**1.1.4.** həmin Qanunun 8-ci maddəsinə uyğun olaraq donor orqanların götürülməsi, hazırlanması, saxlanması, daşınması və transplantasiyası qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

**1.1.5.** həmin Qanunun 13.1-ci maddəsinə uyğun olaraq "Donorlar, resipiyentlər və donor orqanların vahid dövlət informasiya bazası"nın Əsasnaməsini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

**1.1.6.** həmin Qanunun 18.1-ci maddəsinə uyğun olaraq resipiyentin sağlamlığı üçün təhlükə törədən xəstəliklərin siyahısını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

**1.1.7.** həmin Qanunun 33.3-cü maddəsinə uyğun olaraq transplantasiya məqsədilə donor orqanların idxalı və ixracı qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

**1.1.8.** həmin Qanunun 7.1-ci maddəsinə uyğun olaraq donor orqanların götürülməsi, hazırlanması, saxlanması, daşınması, idxalı və ixracını həyata keçirən tibb müəssisələrinin siyahısını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.1.9.** həmin Qanunun 7.2-ci maddəsinə uyğun olaraq donor orqanların transplantasiyasını həyata keçirən ixtisaslaşdırılmış tibb müəssisələrinin siyahısını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.1.10.** həmin Qanunun 14.2-ci maddəsinə uyğun olaraq xəstəliyi olan şəxsin transplantasiyaya ehtiyacının olub-olmamasının müəyyən edilməsi üçün tibb müəssisəsinə göndərişin və tibb müəssisəsinin həkim komissiyasının qərarının formasını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.1.11.** həmin Qanunun 15.3-cü maddəsinə uyğun olaraq resipiyentin gözləmə vərəqəsinin formasını və tərtib olunma qaydasını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.1.12.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.2.** mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.3.** həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Müəyyən edilsin ki:

**2.1.** "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" Azərbaycan Respublikası Qanununun 1.1.10-cu, 7.1-ci, 7.2-ci, 8-ci, 9.1-ci, 10.0.1-ci, 12.1-ci, 13.1-ci, 14.2-ci, 15.3-cü, 16.4-cü maddələrində, 17.1-ci maddəsinin ikinci cümləsində, 18.1-ci, 22.6-cı, 26-cı maddələrində, 27.1-ci maddəsinin birinci cümləsində, 29.1-ci və 33.3-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini, o cümlədən həmin Qanunun 5.0.1-ci (orqan donorluğu və transplantasiya sahəsində dövlət siyasətinin müəyyən edilməsi, habelə orqan donorluğu və transplantasiya sahəsində normativ hüquqi aktların işlənib hazırlanması və qəbul edilməsi üzrə) maddəsində nəzərdə tutulmuş vəzifəni Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

**2.2.** həmin Qanunun 7.1-ci, 7.2-ci, 8-ci, 9.1-ci, 14.2-ci, 15.3-cü, 18.1-ci və 33.3-cü maddələrində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini, o cümlədən həmin Qanunun 5.0.1-ci (orqan donorluğu və transplantasiya sahəsində normativ hüquqi aktların işlənib

hazırlanması və qəbul edilməsi üzrə) və 5.0.10-cu maddələrində nəzərdə tutulmuş vəzifələri Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

**2.3.** həmin Qanunun 10.0.1-ci maddəsində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini, o cümlədən həmin Qanunun 5.0.5-ci və 5.0.7-ci maddələrində nəzərdə tutulmuş vəzifələri Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi həyata keçirirlər;

**2.4.** həmin Qanunun 1.1.10-cu, 12.1-ci, 13.1-ci, 16.4-cü maddələrində, 17.1-ci maddəsinin ikinci cümləsində, 22.6-cı, 26-cı maddələrində, 27.1-ci maddəsinin birinci cümləsində, 29.1-ci maddəsində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini, o cümlədən həmin Qanunun 5.0.1-ci (orqan donorluğu və transplantasiya sahəsində normativ hüquqi aktların işlənib hazırlanması və qəbul edilməsi üzrə), 5.0.2-ci, 5.0.3-cü, 5.0.4-cü, 5.0.6-cı, 5.0.8-ci, 5.0.9-cu maddələrində nəzərdə tutulmuş vəzifələri Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirir.

**3.** Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi:

**3.1.** "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" Azərbaycan Respublikası Qanununun 13.1-ci maddəsinə uyğun olaraq Donorlar, resipiyentlər və donor orqanların vahid dövlət informasiya bazasının yaradılmasını Azərbaycan Respublikasının 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları" nəzərə alınmaqla altı ay müddətində təmin etsin və həmin bazanın Elektron Hökumət İnformasiya Sisteminə inteqrasiyası üçün Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birlikdə zəruri tədbirləri görsün;

**3.2.** aşağıdakı normativ hüquqi aktları beş ay müddətində qəbul edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

**3.2.1.** həmin Qanunun 1.1.10-cu maddəsinə uyğun olaraq məlumatlandırılmış razılıq ərizəsinin formasını;

**3.2.2.** həmin Qanunun 12.1-ci maddəsinə uyğun olaraq həkim-transplantoloqlara dair tələbləri;

**3.2.3.** həmin Qanunun 16.4-cü maddəsinə uyğun olaraq canlı donordan transplantasiya məqsədilə donor orqanın götürülməsinin zəruriliyinə və mümkünlüyünə dair həkim komissiyasının qərarının formasını;

**3.2.4.** həmin Qanunun 22.6-cı maddəsinə uyğun olaraq şəxsin ölümdən sonra orqanlarının transplantasiya məqsədilə götürülməsinə razılığı və ya orqanlarının götürülməsindən imtina barədə ərizənin formasını;

**3.2.5.** həmin Qanunun 26-cı maddəsinə uyğun olaraq meyit donordan donor orqanlar götürülənədək onların anatomik və funksional baxımdan qorunub saxlanmasının təmin edilməsi üçün tibbi tədbirlərin həyata keçirilməsi qaydasını;

**3.2.6.** həmin Qanunun 27.1-ci maddəsinin birinci cümləsinə uyğun olaraq meyit donordan götürülmüş orqanla bağlı aktın formasını.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" Azərbaycan Respublikası Qanununun 9.1-ci maddəsinə uyğun olaraq, əlaqələndirici qurumun səlahiyyətlərini həyata keçirən publik hüquqi şəxs statuslu "Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzi"ni (bundan sonra – Koordinasiya Mərkəzi) altı ay müddətində yaratsın və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

**5.** Koordinasiya Mərkəzinin təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

**5.1.** Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:

**5.1.1.** Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırılmaqla Koordinasiya Mərkəzinin nizamnaməsinin təsdiqi və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;

**5.1.2.** strukturunun təsdiqi və işçilərinin say həddinin müəyyən edilməsi;

**5.1.3.** idarəetmə orqanlarının yaradılması;

**5.1.4.** Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla yenidən təşkili və ləğvi.

**5.2.** Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə:

**5.2.1.** bu Fərmanın 5.1-ci bəndində qeyd edilənlər istisna olmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

**6.** "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı:

**6.1.** qəbul ediləcək Azərbaycan Respublikası Prezidentinin aktları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktları həmin Qanunun qüvvəyə mindiyi tarixdən tez qüvvəyə minməsin;

**6.2.** qanunların və normativ xarakterli aktların layihələri hazırlanarkən həmin Qanunun qüvvəyəminmə tarixi nəzərə alınsın.

**7.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 8 dekabr 2020-ci il
№1208

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU**

**ƏMR**

**№ 15/8**

Bakı şəhəri 11.12.2020-ci il

**"Prokurorun işi haqqında" 1-P №-li (yarımillik, illik) rəsmi statistika hesabatı formasının və onun doldurulmasına dair Göstərişin qüvvəyə minməsi və tətbiq edilməsi haqqında**

Ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatlarının davamı olaraq cinayət, cinayət-prosessual və digər qanunvericilik aktlarına edilən dəyişikliklər nəzərə alınmaqla, "Prokurorun işi haqqında" 1-P №-li (yarımillik, illik) yeni rəsmi statistika hesabatı forması və onun doldurulmasına dair Göstəriş hazırlanaraq Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2020-ci il 29 oktyabr tarixli 26/09 nömrəli qərarı ilə təsdiq edilmişdir.

Azərbaycan Respublikasının prokurorluq orqanlarında uçot və statistik hesabat işinin təkmilləşdirilməsi, statistik hesabat məlumatlarının tamlığı və səhihliyini təmin etmək məqsədilə, "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutaraq,

**ƏMR EDİRƏM:**

**1.** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2020-ci il 29 oktyabr tarixli 26/09 nömrəli qərarı ilə təsdiq edilmiş "Prokurorun işi haqqında" 1-P №-li (yarımillik, illik) rəsmi statistika hesabatı forması və onun doldurulmasına dair Göstəriş 2020-ci il 21 dekabr tarixdən qüvvəyə minsin və hərbi prokurorluq orqanları istisna olmaqla, Azərbaycan Respublikasının bütün prokurorluq orqanlarında tətbiq edilsin.

**2.** Yeni forma üzrə "Prokurorun işi haqqında" 1-P №-li (yarımillik, illik) statistika hesabatı birinci yarımillik və illik işin nəticələrinə dair ildə iki dəfə Göstərişdə müəyyən olunmuş müddətlərdə Baş Prokurorluğun Təşkilat və icraya nəzarət idarəsinə təqdim edilsin.

**3.** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2011-ci il 31 may tarixli 13/5 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Prokurorun işi haqqında" P №-li (yarımillik, illik) rəsmi statistika hesabatı formasının ləğv olunması ilə əlaqədar Baş Prokurorluq üzrə 10/56 №-li əmr və həmin əmrlə təsdiq edilmiş Təlimat qüvvədən düşmüş hesab edilsin.

**4.** Əmr elan və icra olunması üçün bütün prokurorluqlara və struktur qurumlarına göndərilsin, "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalında dərc edilsin və "Prokurorluğun Normativ Xarakterli Hüquqi Sənədlərinin Reyestri"nə daxil edilsin.

**Azərbaycan Respublikasının Baş prokuroru**
**II dərəcəli dövlət ədliyyə müşaviri** **Kamran Əliyev**

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU**
**AZƏRBAYCAN RESPUBLİKASININ ƏDLİYYƏ NAZİRLİYİ**
**AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ**
**AZƏRBAYCAN RESPUBLİKASININ FÖVQƏLADƏ HALLAR NAZİRLİYİ**
**AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ**
**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT GÖMRÜK KOMİTƏSİ**
**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT TƏHLÜKƏSİZLİYİ XİDMƏTİ**
**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT SƏRHƏD XİDMƏTİ**

# ƏMR

**№ 15/9,1002,091**

Bakı şəhəri 16.12.2020-ci il

**Rəsmi statistika hesabatı formalarının və onların doldurulmasına dair göstərişlərin qüvvəyə minməsi və tətbiq edilməsi haqqında**

Azərbaycan Respublikasının Prezidenti cənab Ilham Əliyevin rəhbərliyi ilə ölkəmizin davamlı tərəqqisinin təmin edilməsi məqsədilə məhkəmə-hüquq sistemində uğurla həyata keçirilən islahatların davamı olaraq cinayət, cinayət-prosessual və digər qanunvericilik aktlarına edilən dəyişikliklər nəzərə alınmaqla, yeni "İstintaq işinə dair əsas göstəricilər barədə" 1-EM №-li (aylıq) statistika hesabatı, "İstintaq işi haqqında" 1-E №-li (yarımillik, illik) və "Törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatların baxılmasına dair" 2-E №-li (yarımillik, illik) rəsmi statistika hesabatı formaları və onların doldurulmasına dair göstərişlər hazırlanaraq Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2020-ci il 29 oktyabr tarixli 24/09 və 25/09 nömrəli qərarları ilə təsdiq edilmişdir.

Azərbaycan Respublikasının prokurorluq, ədliyyə, daxili işlər, fövqəladə hallar, vergi, gömrük, dövlət təhlükəsizliyi və dövlət sərhəd xidməti orqanlarında uçot və statistik hesabat işinin təkmilləşdirilməsi, statistik hesabat məlumatlarının tamlığı və səhihliyini təmin etmək məqsədilə,

**ƏMR EDİRİK:**

**1.** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2020-ci il 29 oktyabr tarixli 24/09 və 25/09 nömrəli qərarları ilə təsdiq edilmiş "İstintaq işinə dair əsas göstəricilər barədə" 1-EM №-li (aylıq) statistika hesabatı, "İstintaq işi haqqında" 1-E №-li (yarımillik, illik) və "Törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatların baxılmasına dair" 2-E №-li (yarımillik, illik) rəsmi statistika hesabatı formaları və onların doldurulmasına dair göstərişlər Azərbaycan Respublikasının prokurorluq, ədliyyə, daxili işlər, fövqəladə hallar, vergi, gömrük, dövlət təhlükəsizliyi və dövlət sərhəd xidməti orqanlarında tətbiq edilsin.

**2.** Yeni formalar üzrə "İstintaq işi haqqında" 1-E №-li və "Törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatların baxılmasına dair" 2-E №-li rəsmi statistika hesabatları birinci yarımillik və illik işin nəticələrinə dair ildə iki dəfə, "İstintaq işinə dair əsas göstəricilər barədə" 1-EM №-li statistika hesabatı forması isə hər ay müvafiq göstərişlərdə müəyyən olunmuş müddətlərdə yuxarı orqanlara və Baş Prokurorluğun Təşkilat və icraya nəzarət idarəsinə təqdim edilsin.

**3.** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin ləğv olunmuş 2011-ci il 31 may tarixli 13/5 nömrəli sərəncamı ilə təsdiq edilmiş "İstintaq işi haqqında" 1-E №-li və "Törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatların baxılmasına dair" 2-E №-li rəsmi statistika hesabatı formalarının tətbiqi dayandırılmaqla, bununla əlaqədar 2004-cü il 14 sentyabr tarixli birgə əmrlə təsdiq olunmuş "İstintaq işi haqqında" 1-E formalı statistik hesabat haqqında Təlimat", 2011-ci il 8 iyun tarixli 10/57/368 №-li birgə əmr və həmin əmrlə təsdiq edilmiş "Törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatların baxılmasına dair" 2-E formalı statistik hesabat haqqında Təlimat" ləğv edilsin.

**4.** Əmr elan və icra edilməsi üçün bütün prokurorluq orqanlarına, Ədliyyə, Daxili İşlər, Fövqəladə Hallar nazirliklərinin, Dövlət Gömrük Komitəsinin, Dövlət Təhlükəsizliyi, Dövlət Sərhəd və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi xidmətlərinin əlaqədar tabe qurumlarına göndərilsin.

**Azərbaycan Respublikasının Baş prokuroru**
**II dərəcəli dövlət ədliyyə müşaviri Kamran Əliyev**

**Azərbaycan Respublikasının Ədliyyə Naziri**
**I dərəcəli dövlət ədliyyə müşaviri Fikrət Məmmədov**

**Azərbaycan Respublikasının Daxili İşlər Naziri,**
**general-polkovnik Vilayət Eyvazov**

**Azərbaycan Respublikasının Fövqəladə Hallar Naziri,**
**general-polkovnik Kəmaləddin Heydərov**

**Azərbaycan Respublikasının İqtisadiyyat Naziri**
**Mikayıl Cabbarov**

**Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev**

**Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-polkovnik Əli Nağıyev**

**Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev**

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU

## ƏMR
## № 15/10

Bakı şəhəri 22.12.2020-ci il

**Azərbaycan Respublikasının Baş Prokurorluğu üzrə "Naxçıvan Muxtar Respublikasının prokuroruna əlavə səlahiyyətlərin verilməsi haqqında" 24 may 2002-ci il tarixli 09/6s-08/42 nömrəli, "Azərbaycan Respublikası Baş prokurorunun müavini-Azərbaycan Respublikasının Hərbi prokuroruna əlavə səlahiyyətlərin verilməsi barədə" 30 mart 2009-cu il tarixli 10/15-11/59-k nömrəli və "Naxçıvan Muxtar Respublikasının Hərbi prokuroruna əlavə səlahiyyətlərin verilməsi barədə" 27 dekabr 2018-ci il tarixli 10/93-11/16-s nömrəli əmrlərdə dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Prokurorluğu orqanlarında kadr işinin daha da təkmilləşdirilməsi məqsədilə "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** Azərbaycan Respublikası Baş Prokurorluğu üzrə "Naxçıvan Muxtar Respublikasının prokuroruna əlavə səlahiyyətlərin verilməsi haqqında" 24 may 2002-ci il tarixli 09/6s-08/42 nömrəli əmrdə aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 1-ci bəndin beşinci abzasında "texniki işçilərinin" sözləri "dövlət qulluqçularının və dövlət qulluqçusu olmayan işçilərinin" sözləri ilə, altıncı abzasında "texniki işçilərinə" sözləri "dövlət qulluqçularına və dövlət qulluqçusu olmayan işçilərinə" sözləri ilə əvəz edilsin.

**1.2.** 7-ci bənddə "Təşkilat-analitik" sözləri "Təşkilat və icraya nəzarət" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Baş Prokurorluğu üzrə "Azərbaycan Respublikası Baş prokurorunun müavini - Azərbaycan Respublikasının Hərbi prokuroruna əlavə səlahiyyətlərin verilməsi barədə" 30 mart 2009-cu il tarixli 10/15-11 59-k nömrəli əmrdə aşağıdakı dəyişikliklər edilsin:

**2.1.** 1.3-cü bənd ləğv edilsin.

**2.2.** 3-cü bənddə "Təşkil-analitik (Ə.S.Həsənov) və Kadrlar (B.R.Mahmudov)" sözləri "Təşkilat və icraya nəzarət və Kadrlar" sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Baş Prokurorluğu üzrə "Naxçıvan Muxtar Respublikasının Hərbi prokuroruna əlavə səlahiyyətlərin verilməsi barədə" 27 dekabr 2018-ci il tarixli 10/93-1 l/16-s nömrəli əmrdə aşağıdakı dəyişikliklər edilsin:

**3.1.** 1.2-d bəndə "vəzifədən azad etmə" sözlərindən əvvəl "aşağı vəzifəyə keçirmə," sözləri əlavə edilsin.

**3.2.** 2-ci bənddən "və Hüquqi təminat" sözləri çıxarılsın.

**3.3.** 4-cü bənddə "Təşkilat-analitik" sözləri "Təşkilat və icraya nəzarət" sözləri ilə əvəz edilsin.

**4.** Əmrin icrasına nəzarət Azərbaycan Respublikası Baş Prokurorluğunun Təşkilat və icraya nəzarət və Kadrlar idarələrinə həvalə olunsun.

**5.** Əmr elan olunması üçün Baş Prokurorluğun struktur qurumlarına və bütün tabe prokurorluqlara göndərilsin, "Azərbaycan Prokurorluğu" jurnalında dərc edilsin və "Prokurorluğun Normativ Xarakterli Hüquqi Sənədlərinin Reyestri"nə daxil edilsin.

**Azərbaycan Respublikasının Baş prokuroru**
**II dərəcəli dövlət ədliyyə müşaviri Kamran Əliyev**